AZƏRBAYCAN

1'2021

1923-cü ildən çıxır

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI

Baş redaktor: **İntiqam QASIMZADƏ**

Baş redaktor müavini: **Südabə AĞABALAYEVA**

Məsul katib: **Vüsal NURU**

REDAKSİYA HEYƏTİ: **Ağasəfa, Elçin, Musa Yaqub, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Yaşar, Afaq Məsud, Paşa Əlioğlu, Asim Yadigar, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Əjdər Ol, Vaqif Yusifli, Fəxri Uğurlu**

Redaksiyanın ünvanı:
Bakı - Az1000
Xaqani küçəsi, 25

Telefonlar:
Redaksiya –
498-78-10
493-28-32
493-2834
Mühasibat –
493-29-41

Çapa imzalanıb:
14.01.2021
Sifariş 16
Tiraj 500
Kağız formatı
70x108 1/16 - 6,5
kağız vərəqi
13 çap vərəqi
18,2 şərti çap vərəqi

E-mail:
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru

Qiyməti
1 manat 50 qəpik

Bakı şəhəri,
"Azərbaycan"
nəşriyyatının mətbəəsində
ofset üsulu ilə çap olunur

Dərc olunmuş yazılar qəbul edilmir.
Əlyazmalara rəy verilmir və qaytarılmır.

BU SAYIMIZDA:

NİZAMİ GƏNCƏVİ – 880

Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....3
NÜŞABƏ ARASLI – Səadət günəşi birlikdən doğar.....5

20 YANVAR... 31 İL KEÇDİ

Şəhadətin zəfər yolu.....13
İSLAM SADIQ – 20 Yanvar (poemadan parçalar).....14

NƏSR

NATİQ MƏMMƏDLİ – Ən gözəl günah (roman – əvvəli).....31
HƏCƏR – Cehiz pulu (hekayə).....150

POEZİYA

İLHAM QƏHRƏMAN – Şeirlər.....97
XƏYALƏ SEVİL – Şeirlər.....106
RAMİZ ORSƏR – Şeirlər.....159
XURAMAN HÜSEYNZADƏ – Şeirlər.....164

DRAMATURGİYA

İLQAR FƏHMİ – Bazar günü (dörd pərdəli pyes).....110

TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

PAŞA ƏLİOĞLU – Azərbaycan şairi Bəsiri və onun ədəbi irsi.....170

TƏYYAR SALAMOĞLUNUN 60 YAŞI

TƏYYAR SALAMOĞLU – “Neft və milyonlar səltənətində”.
Sinfilik, yoxsa millilik?!.....187
YAQUB BABAYEV – Elmimizin “namus yükünü” daşıyan
ədəbiyyatşünas.....199

ƏDƏBİ FRAQMENTLƏR

VAQİF YUSİFLİ – Süleyman Abdullanın şeirləri.....203

KİTAB RƏFİ 207

Nizami Gəncəvi – 880

Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq **qərara alıram:**

1. 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 5 yanvar 2021-ci il.

Nüşabə ARASLI

SƏADƏT GÜNƏŞİ BİRLİKDƏN DOĞAR

Nizami Gəncəvinin dünyəvi şöhrət qazanmış ölməz irsi şairi yetirən doğma torpaqla bağlı olub, Azərbaycan xalqının maddi və mənəvi zənginliklərindən ayrılmazdır. Vətənin keşməkeşli tarixini dərindən bilən böyük sənətkar əsərlərində sevimli Gəncədən həmişə böyük qürur hissilə danışmış, doğma xalqının əski kitablarda oxuduğu, xalq sənətkarları və müdrik qocaların söhbətlərindən eşitdiyi tarixi əzəmətini, bilavasitə müşahidə etdiyi nəcib sifətlərini, gözəl adət-ənənələrini məhəbbətlə tərənnüm etmişdir. Nizami sənətinin dərin bəşəri əhəmiyyətini, təkrarsız sənət ecazları, fikri və poetik nailiyyətlərini də sevimli yurdunun təbii və mənəvi gözəlliklərindən ayrı təsəvvür etmək mümkün deyildir. Ustad sənətkar sənət aləmindəki misilsiz qüdrətini ana vətənin bəxş etdiyi müqəddəs nemət bilmiş, özünü söz sənətinin "mahir sehrkarı" adlandırarkən Gəncəni də sehrbazlar yurdu Babillə müqayisə etmiş, öz uğurlarını doğma yurdun mənəvi sərvəti kimi qiymətləndirmişdir.

Ancaq söz qulduru şəfəq sökərkən,
Qələmi yonaraq mişkin söyüddən.
Fikrimi qapırlar, könlüm əmindir,
Buxaraya getsə o, Gəncənindir.[1]

Onu da qeyd edək ki, Nizami Gəncəni doğma Azərbaycan və ümumiyyətlə, türk mühitindən ayrı götürməmiş, onu vətənin qədim və zəngin tarixinin bir parçası kimi tərənnüm etmiş, əsərlərində Dərbənd, Şirvan, Bərdə və başqa Azərbaycan şəhərlərindən də eyni məhəbbətlə söz açmışdır.

Nizami əsərlərində ayrı-ayrı tarixi şəxsiyyətlərin həyatından bəhs olunsa da, dahi şair oxucularına çatdırmaq istədiyi bəşəri düşüncələrini onlarla bağlı təsvir olunan əhvalatlarda təqdim etmişdir. Şairin əsərlərindəki rəngarəng təbiət mənzərələrinin təsvirlərində də barlı-bərəkətli Azərbaycan torpağının özünəməxsus gözəllikləri əksini tapmış, doğma Gəncənin mülayim havası, səfalı çəmənlikləri, sərin çeşmələri, gur meşələri, Kəpəz, Göygöl kimi nadir təbiət incilərinin füsunkar mənzərələrinin əzəməti tərənnüm olunmuşdur.

Nizami ana vətənin şərəfli tarixini, doğma xalqın qurub-yaratmaq istedadını iftixarla qələmə alır. Şairin əsərlərində qarşılaşdığımız qoca əkinçi, kərpickəsən, bağban və başqa zəhmət adamları, müxtəlif sənətkar obrazları da şairin hər gün təsadüf etdiyi, təmasda olduğu həmvətənlərinin bədii prototipləridir.

Əsərlərində qəhrəmanlarını dəfələrlə Azərbaycana gətirən şair "Xosrov və Şirin"də bu ölkənin təbii zənginlikləri ilə yanaşı, onun Əfrasiyab soylu qadın hökmdarı Məhin Banu barədə Şapurun dili ilə deyir:

Dərbənd dənizinin bir sahmanında,
Bir gözəl ölkə var dağlar yanında.
Şahzadə qadındır orda hökmüran,
Qaynaşır qoşunu İsfahanacan.
Arrandan başlamış Ərmənə qədər,
Onun fərmanına boyun əyirlər.
Cürətdə kişidən heç geri durmur,
Böyük olduğundan Məhin Banudur.[2]

Nizami ağıllı, ədalətli bir dövlət xadimi kimi yüksək dəyərləndirdiyi Məhin Banunun qardaşı qızı və vəliəhdi olan Şirinin, onun at minən, ox atan, çövkən oyununda, ov zamanında göstərdikləri məharətlərilə hamını heyrətə gətirən rəfiqələrini də rəğbət hissilə təqdim edərək yazırdı:

Qamətləri sanki sərvdir qıvraq,
Yeriş-duruşları qırqovul sayaq.
Fil dişini, aslan çəngini onlar,
Gücə qalsa birdən dartıb çıxarar.
Behişt huriləri tapsa da şöhrət,
Onlar huridirlər, bu yersə cənnət.[3]

"İskəndərnamə" əsərində də qəhrəmanının Azərbaycana gəlişi ilə bağlı Azərbaycan ölkəsindən danışan Nizami yaz-qış çiçəklərlə bəzənən, quş südü belə tapılan Bərdənin gözəl təbiətini, onun keçmiş iqtisadi-mədəni qüdrətini qürurla xatırlayır. Nizami Bərdənin zəmanəsindəki viranə vəziyyətini ürək ağrısı ilə qələmə alır. Ancaq doğma xalqının vətənpərvərliyinə əmin olan, onun tarixi qəhrəmanlıq ənənələrinə sadiq qalacağına ürəkdən inanan şair ümidsiz də olmayıb, ölkənin əvvəlki abad vəziyyətinin yenidən bərpa olunacağına şübhə etmirdi:

Yenidən gözəlcə bəslənsə diyar,
Get-gedə gözəllik, yaşıllıq artar...
Bu mərdlər, gözəllər yurdunda, inan,
Çox saysız xəzinə gizləmiş zaman.
Belə şux, sevimli guşə harda var?
Harda var xəzinə saçan bu diyar?[4]

Onu da qeyd edək ki, Nizami əsərində Bərdənin tərifinə həsr olunan hissəni Firdovsi "Şahnamə"sindəki Mazandaranın tərifinə yazılmış:

Ke Mazəndəran şəhr-e ma yad bad,
Həmişə bər-o buməş abad bad.
Ke dər bustanəş həmişə qol əst,
Be kuh əndərun lale vo sonbol əst...[5]

(Bizim Mazandaran şəhəri heç unudulmasın, onun ətrafı və özü həmişə abad olsun. Çünki bağçalarında həmişə gül var, dağlarında lalə və sünbül var...) – misraları ilə başlayan şeirlə müqayisə edən iranlı ədəbiyyatşünas Barat Zəncani bu barədə belə yazır: "Mazandaranın Firdovsi tərəfindən belə tərif olunması Nizamini mütəəssir etmiş, onda həsəd hissi doğurmuş, o da Bərdəni Firdovsi kimi tərifləmişdir."[6]

Doğrudur, sözü gedən hər iki poetik parça məzmun və bədii ruhu ilə müəyyən dərəcədə bir-birinə yaxındır. Ancaq "həsəd hissi doğurmaq" bir qədər yerinə düşmür. Ola bilər ki, Firdovsinin Mazandaranı vəsf edən bu

misralarındakı vətənpərvərlik duyğularının səmimi ifadəsi vətənə və doğma xalqına ürəkdən bağlı olan şairin sənətkar təbiətinə daha uyğun olduğundan, onda vətənpərvərlik hisslərini bir daha coşdurmuş və Bərdənin belə məhəbbətlə təsvirində də müəyyən mənada öz təsirini göstərmişdir. Hər halda, hər iki təsviri vətənpərvərlik ruhu, təsvir obyektinə sonsuz məhəbbət birləşdirir.

Bununla belə, "Bərdənin tərifi"ni Firdovsi təsirilə yazılmış, yaxud adı çəkilən tədqiqatçının dediyi kimi, "nəzirə" də adlandırmaq doğru olmazdı. Məzmunla bağlı və tarixə müraciətlə yazılmış bu parça şairin öz sənətkar təbiətinin məhsulu olub, bəlkə də Firdovsiyə cavab, onun sələfilə, bir növ, sənət yarışıdır.

Göründüyü kimi, Nizami Azərbaycana və onun tarixi yerlərinə mükəmməl bələd olan, ona dərin məhəbbət bəsləyən vətənpərvər kimi çıxış edir. Şair hələ zəlzələdən qabaq "İnhiraq" adlandırdığı Kəpəz dağının tarixindən söz açır, Kəpəzin parçalanması və dağdan atılmış daşların vəziyyəti, Göygölün əmələ gəlməsini təsvir edir. İskəndərin Azərbaycana gəlişi ilə bağlı Cənubi Azərbaycanda olan atəşgədələr haqqında danışır:

Aqillər məsləhət gördülər ona,
Oradan tərpənsin Azərbaycana.
Gəlirkən hər yerdə ki, atəş gördü,
Zəndi məhv elədi, odu söndürdü.
O yerdə alovlu od çıxar daşdan,
Məcuslar deyirdi: "Özündən yanan".
Yüzlərlə xidmətçi tapmış zər-zivər,
Pərəstiş etməyə bağlamış kəmər.[7]

Nizami xalq sərvətinin saxlandığı atəşgədələrin İskəndərin əmrilə yerlə yeksan edilməsini Azərbaycan mədəniyyətinə vurulan ağır zərbə kimi dəyərləndirir.

İranda adətdir keçmişdən bəri,
Atəşgədə idi alimlər yeri.
Orda saxlanırdı sərvət, xəzinə,
Düşməsin başqa bir şəxsin əlinə.
Hər sonsuz varlı da "savabdır" deyib,
Malını qoyardı atəşgədəyə.[8]

Şair doğma yurdu Gəncədə baş verən zəlzələnin bu şəhərə vurduğu böyük zərəri də kədərlə yada salır, zəlzələ nəticəsində məhv olmuş maddi-mənəvi dəyərlər barədə ürək ağrısı ilə söz açır.

Nizami sənətində Vətən anlayışı son dərəcə yüksək və şərəfli yer tutur. Şairin müsbət qəhrəmanları vətənlə bağlı olan və həmişə vətənin taleyini düşünən, ona sədaqətlə xidmət edən adamlardır. Dahi şair doğma Vətənə dair kövrək xatirələrini əsərlərində yaratdığı obrazlara mənsub etdiyi vətənpərvərlik duyğularında, vətənin səadəti və ana torpağı qorumaq uğrunda göstərilən mətanət, fədakarlıq kimi sifətlərdə canlandırmışdır. Nizami öz təsvirlərində imkan düşdükcə vətən torpağının müqəddəsliyindən söz açır, heç bir ölkənin, heç bir rahat məkanın Vətəni əvəz edə bilmədiyini bildirir. "İskəndərnamə"də oxuyuruq:

Xoş gəlir dünyanı ölçən ərlərə,
Calasın səfəri başqa səfərə.
Görsün hər ölkədə yeni bir adət,
Olsun hər mənzildə azacıq rahət.
Azacıq düşünsən bir nöqtə vardır,
Hər kəs öz şəhrində bir şəhriyardır.

Öz şəhrində olsan sadə bir insan,
Yaxşıdır qürbətdə sultan olmaqdan.[9]

Şairə görə, ana torpağın bərəkəti həmişə uğur gətirir, doğma ab-hava, el xeyir-duası insanın mənəvi qüdrətini artırır.

Nizaminin Vətənlə bağlı düşüncələrində doğma yurdun müdafiəsi, vətən yolunda, el-oba yolunda fədakarlıq tərbiyələndirən, təcavüzkarlara nifrət oyadan maraqlı mülahizələrlə də tez-tez qarşılaşırıq. Doğrudur, Nizami insanları həmişə dinc, müharibəsiz həyata dəvət etmiş, qəsbkarlıq məqsədilə aparılan qanlı müharibələrdən çəkindirməyə çalışmışdır. Bununla belə, şair ana torpağı müdafiə etmək, ölkədə əmin-amanlığı qorumaq məqsədilə vuruşan, minlərlə insanın həyatı bahasına başa gələn müharibə törədənləri cilovlamağı, azğın qəsbkarları layiqincə cəzalandırmağı zəruri saymışdır:

Düşmənin olsa qaniçən zülmkar,
Nəzakət göstərsən, qorxaqlıq sayar.[10]

Məhsuldar torpaqları, təbii zənginlikləri, əlverişli strateji mövqeyi ilə yadellilərin daima diqqətini cəlb edən Azərbaycan torpağının keşməkeşli tarixini son dərəcə həssaslıqla izləyən Nizami tez-tez xaincəsinə edilən basqınlara, qanlı təcavüzlərə məruz qalan xalqının ağır döyüşlərdə mətinləşən azadlıqsevər təbiətinə, əsarətə, qəsbkarlara olan coşqun qəzəbinə də yaxşı bələd idi. Məhz buna görə də onun əsərlərində şairin vətənə olan məhəbbət duyğularının səmimi ifadəsini igidlik, qəhrəmanlıq, fədakarlıq kimi yüksək sifətlər tamamlayır.

Klassik Şərq poeziyasında romantizmin ilk parlaq nümunəsi olan "Xosrov və Şirin" poemasına nəzər salaq. Bəhram Çubin adlı bir sərkərdə yalan sözlər, böhtanlarla gənc şahzadəni hakimiyyətdən uzaqlaşdıraraq, onun taxt-tacını ələ keçirir. Xosrov isə çıxış yolunu qaçmaqda görərək başını götürüb sevgilisi Şirinin yanına Azərbaycana gəlir. Nizami hər şeyi unudub yalnız öz qəlbinin istəklərini düşünən İran şahzadəsini Şirinin dili ilə məzəmmət edərək, onun vətəni düşmən əlində qoyub başını götürüb qaçmağını bağışlanmaz eyib sayır.

Qədim Azərbaycan torpağının şöhrətli hökmdarı Məhin Banunun layiqli xələfi olan Şirinin canından artıq sevdiyi Xosrova söylədiyi nəsihət səciyyəli sözlər bu gün həmişə olduğundan daha aktual, daha ibrətamizdir:

Bu dövlət əzəldən əlinizdədir,
Çox eyb olsun indi əlindən gedir.
...Cavansan, şir kimi cəsarətin var,
Padşahlıq etməyə ləyaqətin var.
Almışdır o oğru tamam varını,
Güclə qəsb etmişdir iqtidarını.
Qılınc al, meydanda özünü göstər,
Məhv olsun qurduğu bütün hiylələr.
Ölkəni fitnədən xilas edərək,
Hünərini göstər bir dəfə görək...
Kömək eyləyərəm mən də bacarsam,
Bacarmasam dua edərəm mudam.[11]

Nizaminin öz vətənpərvərliyi ilə seçilən qəhrəmanlarından biri də Sasanilər sülaləsindən olan I Yezdəgerdin oğlu Bəhram Gurdur. Yezdəgerdin ölümündən sonra onun zülmündən cana gəlmiş iranlılar Bəhramı taxt-taca yaxın buraxmırlar. Gənc şahzadə atasının xalqla rəftarından xəbərsiz olduğunu bildirir və qanuni varisi olduğu taxt-tacı qaytarmaq üçün ən qorxulu şərtlərdən belə çəkinməyərək vəhşi şirlərlə üzləşir.

Taca varis edib atalar məni,
Öldürər bilirəm ayıb-ar məni,
Qismət olarsa bu mirasım yada.[12]

Ata-babaların müqəddəs yadigarının yadlar tərəfindən mənimsənilməsini qüruruna heç cürə sığışdıra bilməyən Bəhram qərarından dönməyəcəyini bildirərək:

Mən yadlar evində əziyyət çəkim,
Olsun talançılar elimə hakim.
Düşmənin yediyi şəkərim olsun,
Mənimsə qismətin cigərim olsun.[13]

-deyir. Vətəni, xalqını sevən şahzadə şahlıq tacını iki şirin əlindən almaqla həm də bütöv bir elin sərvətini qoruyur. O, ölkəsinə hücum edən Çin xaqanına vətənə olan dərin məhəbbəti, yüksək vətənpərvərliyi, igidliyi sayəsində qalib gəlir.

Əsərlərində Vətən mövzusuna tez-tez müraciət edən şair bu problemlə bağlı müxtəlif məsələləri də işıqlandıraraq, onun hərtərəfli həllinə müvəffəq olur. Şair insanlığa düşmən, abad ölkələri viranəyə çevirib məhv edən, bəşəri dəyərləri qiymətləndirməyi bacarmayan gözüac qarətgər ölkə başçılarının alçaq niyyətlərini nifrətlə lənətləyərək onları oğrular, hiylə ilə dinc əhaliyə xaincəsinə basqın edən quldurlar adlandırır. "İskəndərnamə"də düşməni, qandan gözü doymayan, Misiri viran qoyan Pələngərə, xalqını ağır vergidən qurtarmaq məqsədilə Daraya qarşı qəti mübarizəyə qalxaraq görünməmiş igidliklər göstərərək zəfər qazanır. Daranın sərxoş olduğunu ona xəbər verib qəflətən hücum etməyi təklif edənlərə İskəndər:

Yararmı yüyəni parlaq İskəndər,
Adi quldur kimi qazansın zəfər[14] -

deyərək bunu özünə sığışdırmır.

Şairin vətənlə bağlı görüşlərində ana yurdun müdafiəsi, xalqın əmin-amanlığının qorunması hərtərəfli işıqlandırılır. Vətənin azadlığı, xalqın dincliyi, əmin-amanlığı uğrunda aparılan müharibəni həmişə alqışlayan Nizami özgə mülkünü ələ keçirmək məqsədilə qəfildən basqın edən, arxadan zərbə vuran, qəsbkarlıq niyyətlərini hiylə, yalan yolu ilə həyata keçirən təcavüzkarların şərəfsiz mübarizələrinin məğlubiyyətlə nəticələnəcəyinə ürəkdən inanırdı. Quldurluqla, qətlü-qarətlə məşğul olan, mərdlikdən uzaq düşmən döyüşçülərinin rəzil simasını İskəndərin dili ilə ifşa edən şair vuruş meydanında igidliklə döyüşməyi, cəsarət göstərməyi, vuruş qaydalarına riayət etməyi tövsiyə edirdi.

Dedi: düşmənimiz dava görməmiş,
Aslanla vuruşa etməmiş vərdiş.
Quldurluq, oğurluq, bir də yol vurmaq,
Düşmənin mərdliyi, bax, budur ancaq.[15]

Şair ilk növbədə orduda ciddi intizam yaratmağı, döyüş qaydalarına əməl etməyi, hər şeydən əvvəl isə, qələbəyə ürəkdən inanmağı zəruri sayır. Ordu içərisində möhkəm birlik, anlaşma və mehribançılığı da Nizami qələbənin əsas şərti kim dəyərləndirir:

Birlikdən yaranıb zəfər döyüşdə,
Dostların birliyi gərək bu işdə.
Orduya ki, böyük zəfər, şan gələr,
Ürəyi bir olan dostlardan gələr.
Bir olan iki qəlb dağı parçalar,
Böyük orduları edər tarumar.
Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxarar onların əli.
Nifaq olan yerdə fəlakət də var,
Səadət günəşi birlikdən doğar.[16]

Nizami döyüş zamanı qorxaqlıq göstərməyin, şübhə və tərəddüdə yol verməyin ağır nəticələrindən danışmış, hünərli insanın həmişə zəfər qazanacağını maraqlı səhnələrlə oxucularına təqdim etmiş, inam və qətiyyətlə döyüşə girməyi lazım bilmişdir. "Şərəfnamə"də zənci şahı Pələngər İskəndərin onun yanına göndərdiyi elçinin (Tutiyanuşun) qanını şüşəyə tutaraq hamının gözü qabağında içir. Pələngərin bu hərəkəti İskəndərin ordusu içərisində bir

vahimə, çaxnaşma salır, döyüşçülər zəiflik göstərməyə başlayırlar. İskəndər kömək üçün Ərəstuya müraciət edir. Ağıllı vəzir şaha ilk növbədə ordu içərisindəki vahiməni, qorxu hisslərini yox etməyi, özünün nəhəng, qaniçən düşməndən daha qorxunc olmasına düşmən tərəfi inandırmağı məsləhət görərək deyir:

Meydanda düşməndən qorxarsa ordu,
Su gətir zəfərdən əllərini yu.[17]

Doğrudan da İskəndər buna nail olandan sonra ordunun qələbəyə olan əvvəlki inam hissi yenidən bərpa olunur.

Nizami əsərlərində, xüsusilə "İskəndərnamə"də sarayda təşkil olunan elmi-fəlsəfi məclislərdə şahla dünyagörmüş bilicilər arasında ölkənin müdafiəsi ilə bağlı ordu cəsarəti, təcrübəli sərkərdə, nizam-intizam və başqa məsələlər ətrafında maraqlı mükalimələr aparılır. Bu isə, hər şeydən əvvəl, Vətən və onun müdafiəsi mövzusunu şairin daima diqqət mərkəzində saxladığını və onun hərtərəfli həllinə böyük əhəmiyyət verdiyini bir daha təsdiq edir. Şahın "düşməni necə yenmək olar?" sualına Fəriborz adlı qoca pəhləvan belə cavab verir:

Şahım, ordu çəkmək cəsarət istər,
Heç aciz olarmı igid hünərvər.
Ordunu meydana çəkərkən gərək,
Padişah ummasın ondan bir kömək.
Mətanət sənindir, kömək Tanrıdan,
Bunlardır ordunu mətin saxlayan...
Uğurlu zamanda zəfər gözləyən,
Düşmən qorxusunu silsin könlündən.[18]

Nizami İranın əzəmətli şahı Daranın yerləri-göyləri lərzəyə salan qüdrətli ordusunun məğlubiyyətinin əsas səbəbini də qoca pəhləvanın dili ilə onun qorxaq ürəklə döyüşə girməsində görür. Nizamiyə görə döyüşçü öz ürəyini qırmamalı, qorxu hissini yaxına buraxmamalıdır. Şair tarixə nəzər salır. Rüstəmin Fəramərzə, Bəhmənin İsfəndiyara nəsihətlərini xatırladır:

Zal oğlu söyləmiş mərd Fəramərzə,
Könlünü qırma, sal Elburza lərzə.
Bəhmənə söyləmiş həm İsfəndiyar,
Könlünü qırmayan bir ordu qırar.
Çünki öz qəlbini qırmışdı Dara,
Qanını qorxaqlıq tökdü daşlara.
Qorxulu ürəklə meydana girdi,
Lakin qorxusunu o gizlədirdi.
Qəlbinə bir işıq salmadı diqqət,
Oldu bu döyüşdə torpağa qismət.[19]

Nizami əsərlərində düşmən orduların üzləşməsi, qanlı vuruş səhnələri, qəhrəmanlıq, qalib tərəfin sevinci, məğlubiyyət acısı və başqa təsvirlərlə yanaşı, bunlarla bağlı şairin rəyi də öz əksini tapmış, döyüşçü şücaəti, sərkərdə qayğısı, qətiyyət, igidlik, xəyanət barədə bu gün də əhəmiyyətini itirməmiş diqqətəlayiq fikirlər söylənilir. Dahi şair zəmanə hökmdarlarına vətən və xalqın taleyi üçün daşıdıqları məsuliyyəti xatırladarkən, onlara həm də ayıq olmağı, öz gücünə həddindən artıq çox arxayın olmamağı tapşırır, bəzən kiçik düşmənin böyük bəla olduğunu bildirirdi.

Xord məbin gərçi şəvəd xordkin,
Xord şəvi gər nə şəvi xordbin.[20]

(Düşmən kiçik olsa da, onu sən xırda bilmə,
Əgər xırdalıqları görməsən, əzilərsən.)

Nizami yaradıcılığı bu baxımdan izlənilərsə, vətən mövzusunun "Xəmsə"nin bütün poemalarında bir neçə yerdə hər dəfə də orijinal bədii biçimdə əksini taparaq, Nizami şeirinin daimi problemlərindən birinə çevrildiyinin şahidi oluruq.

Ümidin qırılsa, ürəkdən çalış,
Mərdin qulağını buran olmamış.[21]

* * *

Hünərli dünyada təxtü tac alar,
Alçalmaz, hər zaman başı ucalar.[22]

* * *

Kiçik düşmən ən böyük bir bəladır, bunu bil,
Böyük xətadır xəbər tutmayıb olsan qafil.[23]

* * *

Qurdluqla mümkündür qurtulmaq qurddan,
Cəhlə qarşı verər cəhalət ziyan.[24]

* * *

Ümidsiz qaş çatma, aç bir gözünü,
Zəfər güzgüsündə gör öz üzünü.[25]

Nizami şeirində vətənə sevgi duyğuları əzm, dəyanət tərbiyələndirən hikmətli beytlər istənilən qədərdir. Bütün bunlar ulu şairimizin həm də gələcək nəsillərə müraciəti olub, bu gün də ana torpaq, doğma vətən uğrunda qəti mübarizəyə qalxan igid vətən oğullarına qiymətli öyüdü, müqəddəs xeyir-duası kimi səslənməkdədir. Söz yox ki, bu günlərdə Nizami dühasından ilham alan cəsur döyüşçülərimiz şairin vətənlə bağlı qiymətli tövsiyələrini həmişə yadda saxlayacaq, doğma xalqın qədim qəhrəmanlıq ənənələrinə sadiq qalaraq, Şəhidlərimizin qanları bahasına düşmən tapdağından azad edilən müqəddəs Vətən torpağını mərdliklə qoruyacaqlar.

Ədəbiyyat:

1. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, Yazıçı, 1982, s. 32
2. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, Yazıçı, 1982, s. 63
3. Yenə orada, s. 66
4. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, Yazıçı, 1982, s. 203
5. زنجانی، باراتی. روص رد لاخ مسمخ ظنامی. تهران، 1377، ص 48
6. Yenə orada
7. Nizami Gəncəvi, İskəndərnamə. Bakı, Yazıçı, 1982, s. 174
8. Yenə orada, s. 172
9. Yenə orada, s. 311
10. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, Yazıçı, 1982, s. 143
11. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, Yazıçı, 1982, s. 85
12. Yenə orada, s. 88
13. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, Yazıçı, 1982, s. 106
14. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı, Yazıçı, 1982, s. 132
15. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, Yazıçı, 1982, s. 80

16 - 25. Yenə orada

♦ 20 Yanvar... 31 il keçdi

ŞƏHADƏTİN ZƏFƏR YOLU

Ey şəhid oğlu şəhid, istəmə məndən məqbər,
Sənə ağuşunu açmış duruyor peyğəmbər.

Mehmet Akif Ersoy

20 Yanvar 1990-cı il.

Şəhadətindən doğulan Azərbaycanın (və Azərbaycan Xalqının) təvəllüd tarixi.

Azərbaycan xalqı bu tarixdə öz məqsədini və həqiqi amalını – həqiqət, ləyaqət, şərəf, heysiyyət, azadlıq... kimi dəyərlərin mükəmməl mahiyyətini zamanın, cəmiyyətin mütləq əhəmiyyətli statusu səviyyəsində bərqərar etməklə, Xeyirlə Şərin əbədi qarşıdurma meydanında sabitqədəm mövqeyini və tərəfini bir daha bəyan etdi. Bu xalqı anlamaq istəmədilər, bu niyyəti yanlışa yozdular. Yaranışdan Xeyirə və xeyirxahlığa köklənmiş bu xalq isə, hər şeydən əvvəl, Cəzanı ona abidə qoymaqla "cəzalandırdı": Şəhidlər Xiyabanı qəsbkarlığa, imperiya maraqları naminə öz dinc vətəndaşının qanını tökməkdən çəkinməyən hərbi xunta rejiminə ittihamın daş sükutudur. Şəhidlər Xiyabanı həm də bir Yol abidəsidir. Zamanı yadda saxlayan və onu daşıyan bu Yol müqəddəs Oda, Üfüqə, Səmaya və Əbədiyyətə qarışır. Bakının ən uca nöqtəsindəki məşəl həm də bunu rəmzləndirir.

Şərə müqavimət hissinin təlqini ilə Şərin qarşısına əliyalın çıxanların məğrur duruşlu mərmər sıraları bu birlik qarşısında həqiqi ehtiramla baş əyənlərə həm də onu xatırladır ki, bizim hər birimizin daxilində dərk etdiyimizdən qat-qat artıq güc və imkan var. Yetər ki, bu gücü və imkanı milli

birliyimizin, coğrafi və mənəvi bütövlüyümüzün qəsdinə duran Şərə qarşı birləşdirə bilək.

Fərdlərin gücü, iradəsi, düşüncəsi və birliyi milləti Şəxsiyyət ucalığında saxlayır.

İslam Sadığın "20 Yanvar" poeması Xiyaban sakinlərinin hər birinin adını-enerjisini bədii sözün enerjisinə ötürmək niyyətindən yaranıb. Yüzlərlə yazıçı və şairimizin Vətənin istiqlal və istiqbalı uğrunda canını fəda etmiş 20 Yanvar şəhidlərinin xatirəsinə həsr etdiyi bədii-publisistik mətnlər bundan sonra da yazılacaq... Onların hər birinin adı, ideal və arzuları ədəbi yaddaşımızda dönə-dönə mövzu olacaq. Ən əsası da odur ki, bundan belə - 31 il sonra azad olmuş ruhlar səltənətində - bu Şəhidlər Xiyabanında Azərbaycanın hər bir vətəndaşı açıq alınla, şax yerişlə addımlaya biləcək və işğaldan azad olunmuş Qarabağın zəfər müjdəsini burada uyuyan müqəddəs ruhlara dua kimi pıçıldayacaq, mübarək məzarları çiçək kimi süsləyəcək.

Müəllif kitab kimi düşündüyü bu poemada heç bir 20 Yanvar şəhidinin adını unutmayıb, xatirəsini diqqətsiz qoymayıb. Jurnalın imkanları çərçivəsində, bu poemanın ixtisarla dərcini oxucularımızın diqqətinə təqdim etməklə, Vətənin bütövlüyü, azadlığı uğrunda şəhid olan, vuruşan, döyüşən hər bir Vətən övladına böyük ehtiramımızı bildiririk.

İslam SADIQ

20 YANVAR

Poemadan parçalar



Dədəm Qorqud çatan tonqal
Çatılıbdı burda yenə.
Alovları dil açır ki,
Yağı gəlir yurda yenə.

"Od oğluyam" deyib kimsə,
Ovucunda öpür közü.
Silahımız vətən eşqi,
Gülləmiz də vətən sözü.

Təpə-dırnaq bayatıyla
Silahlanan dili görmür.
Təpə-qırnaq qeyrətiylə
Silahlanan eli görmür.

Kim haqlıdı, kim haqsızdı,
Kar eşidir, kor anlayır.
Zalım oğlu nə qanmazdı,
Can deyirik, çor anlayır.

Xoş gəlibdi duysa məni,
Xoş gəlibdi saysa məni.
Nə yerinə qoysa məni,
Onda gələn xoş gəlməyib.

Tanklar çıxır kazarmadan,
Sıralanıb üçü gəlir.
Nifrət yağır üz-gözündən,
Kinlə dolub içi, gəlir.

Güllə qabağına sözlə gəlirəm,
Bir qalamlıq odla, közlə gəlirəm.
Gözlə, yağı düşmən, gözlə, gəlirəm,
Öz evimdə mənə meydan oxuma!

Gəl ocaq başına, qızın bir azca,
Bu qandan, qadadan yazın bir azca.
Qulaq as səsinə sazın bir azca,
Nə pis oxuyursan, dayan, oxuma!

Əlini sıxmağa əl uzadıram,
Bircə addım bəri gəl, uzadıram.
Tankın lüləsinə gül uzadıram,
Atdığın güllədən utan, oxuma!

Güllələr uçuşur belədən-belə,
Biri sağ qolumu yalayıb keçir.
Biri yanımdakı cavan oğlanı
Qızıl al qanına bulayıb keçir.

Sıralanıb durna qatarı kimi
Sağımdan, solumdan ötür güllələr.
Biri üzüqoylu yatır torpağa,
Birinin köksündə itir güllələr.

İKİNCİ HİSSƏ

İlham Allahverdiyev

Vətən can üstədi,
Canım dedi ki,
Bağlıdı əvvəlim, sonum Vətənə!
Vətən can istədi, bir can nədi ki,
Qıymamaq olarmı onu Vətənə?!

Əzizim buta-buta,
Xalları qoşa buta.
Ölək, gülüm, bir gündə,
Qoyulaq bir tabuta.

Fərizə Allahverdiyeva

Ürəyimi sənə verdim sevmişkən,
Boş sinəm sevinclə dolurmu, dolmaz.
Vətənim səniydin, özün demişkən,
Vətənsiz yaşamaq olurmu, olmaz!

Dəstinə gəl,
Dur, canım qəsdinə gəl.
Özümə yetəmməsən,
Qəbrimin üstünə gəl.

Sürəyya Babayeva

Süzüb hardan gəldi güllə bir anda,
Evimin içində haqladı yaman.
Su içən adamı vurmur ilan da,
Niyə vurdun məni su içən zaman.

Göz yuvası,
Sürmədi göz yuvası.
Hər kim yuva dağıdır,
Dağılsın öz yuvası.

Vera Bessantina

Ürəyi daş adam, qəlbi daş adam,
Görən bir yol gəlib daşıma baxıb?!

Öyünüb deməsin bir parça odam,
Utansın, utansın yaşıma baxıb!

Əzizinəm, doldular,
Kimlər yaşa doldular.
Qönçə idi min arzum,
Açılmamış yoldular.

İlqar İbrahimov

Getməz qulağımdan bu güllə səsi,
Sən dolan sevdaya dolmaram daha.
Adam öldürürsə əsgər gülləsi,
Mən əsgər olmaram, olmaram daha.

Mən aşıq, kabab ağlar,
Köz yanar, kabab ağlar.
Körpə balam gedibdi,
Ciyərim kabab ağlar.

Larisa Məmmədova

Yolundu güllərim hey ləçək-ləçək,
Özüm birini də üzə bilmədim.
Əsdi acı yellər,
Mən qönçə çiçək,
Bu acı yellərə dözə bilmədim.

Şaftalıyam, kalam mən,
Dilim yoxdu, lalam mən.
Zalım fələk qoymadı,
Arzu-kamım alam mən.

Zöhrab Abbasov

Vətənim can umur,
Canım yox bəyəm,
Ağlama, ağlama, ana, verirəm.
Yaşasın, yaşasın Vətənim deyə,
Mən qalan ömrümü ona verirəm.

Aşıq o yanda mələr,
Gedib o yanda mələr.
Analar balasını
Qəbrə qoyanda mələr.

İsbəndiyar Zülalov

Canım bu torpağın öz butasıdır,
Butamın qoynunda yatmasam əgər...
Mənim harayıma kim çatasıdı,
Vətənin hayına çatmasam əgər.

Mən aşığam, qalamı,
Yollar qanmı, lalamı?!
Mən saxlaram Vətəni,
Vətən saxlar balamı.

İzzət Həmidov

Sirrimi açdığım, sirdaş dediyim,
Yoxsa durub mənim qəsdimə, gəlir.
Dünən qucaqlayıb qardaş dediyim,
Bu gün yağı kimi üstümə gəlir.

Şəhərin yastı yolu,
Su gəldi, basdı yolu.
Getdim düşmən üstünə,
Qan gəldi, basdı yolu.

Adsız Adam

Atası, anası kimiydi axı,
Öz adını bilən varmı, söyləsin.
Köksündə aparıb ən böyük dağı,
Məzarı özünə darmı, söyləsin.

Əlimdə çatım yoxdu,
Altımda atım yoxdu.
Üstümdə bircə daş var,
Onda da adım yoxdu.

Vaqif Məmmədov

Cıdır meydanıdır Bakı elə bil,
Sıraya düzüblər tankları burda.
Yiyəsiz olsa da, oğulsuz deyil,
Ölərəm,Vətəni qoymaram darda.

Üzmə məni,
Kədərli süzmə məni.

Bu qədər həsrət olmaz,
Yazığam, üzmə məni.

Elçin Qeybullayev

Divlər yolub tökür bağçanı, bağı,
Sinəmə sığmayır bu saat ürək.
Bakıda Bakılıq qalmayıb axı,
Bakını özünə qaytarım gərək.

Vətən ağlar,
Köynəyi kətan ağlar.
Elə dağ çəkdi düşmən,
Mən sussam,Vətən ağlar.

Ülvi Bünyadzadə

Qələm görüb qorxur əlim hələ ki,
Qorxur torpağım da, daşım da hələ.
Qorxa-qorxa dinir dilim hələ ki,
Öz əlimdə deyil başım da hələ.

Adadı,
Oxuduğum odadı.
Taxtda bir şah əyləşib,
Hər işi qan-qadadı.

Fəridə Abbasova

Çağırın qəbrimin üstünə gəlsin,
Bir ana ömrünə qıyan ağlasın.
Ağlamaq necolur, bilmirsə bilsin,
Balamı anasız qoyan, ağlasın.

Eləmi balan ağlar,
Ah çəkib balan ağlar.
Ahı ərşə dirənər,
Körpəcə balan ağlar.

Yusif Sadıqov

Bu gün vaxtı çatıb dil açıb deyim:
-Gözümün qarası, ağı Vətəndi!
Mən ölmüşəm bəyəm,
Mən yoxam bəyəm,
Gəlib at oynadır yağı Vətəndə?!

Əzizim, daşa dağlar,
Baxtıma daş adaxlar.
Yüz tutun məni daşa,
Daş neylər daşa, dağlar.

İsmayil Mursaqulov

Bəlkə çatıb deyə ömrün son anı,
Gəldi qulağıma hardansa bir səs:
Alimin qələmi – şəhidin qanı,
Alimin özü də şəhid olsa bəs?!

Bu dağlar, qanlı dağlar,
Laləli, qanlı dağlar.
Öləndə qəbrim üstdə
El ağlar, qanlı dağlar.

Svetlana Məmmədova

Gözü dörd olub ki, kimisə vursun,
Yol pusur gecənin aydınlığında.
Mənim alimliyim bir yana dursun,
Daşı yumşaltmadı qadınlığım da.

Ün gəldi,
Qulağıma ün gəldi.
Ağla, qərənfil, ağla,
Ağlamalı gün gəldi.

İbrahim İbrahimov

Nə qədər suvarsa qılıncı qanla,
Alimi qorudu xanların çoxu.
Necə danışasan belə nadanla,
Tuşlayıb sinəmə sapladı oxu.

Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü.
Qəbrimi ellər qazıb,
Necə də dar düşübdü.

Ferqat Tuktamışev

Burda mənə qərib deməyin, dostlar,
Bura türk yurdudu,
Türk torpağıdı,

Vətən deyib yüz il yaşamaq olar,
Bu gün Vətən deyib ölmək çağıdır.

Qazan ağlar,
Od yanar, qazan ağlar.
Burda bir qərib ölüb,
Qəbrini qazan ağlar.

Mircamal Əbülfət

Yummadı bu gecə gözünü Bakı,
Güllə səslərindən perikdi quşlar.
Bu gün qanla yudu üzünü Bakı,
Qanla suvarıldı ağaclar, daşlar.

Ağlaram ozan olsa,
Gül solub xəzan olsa.
Bağlanıb dastan olar
Dərdimi yazan olsa.

Əyyub Abdullayev

Mənim əlimdə gül,
Onda avtomat,
Durmuşuq üz-üzə, göz-gözə burda.
Güllər güllələnir yenə çathaçat,
Qan çıxır, qan çıxır, qan dizə burda.

Yaşıldır başın, ördək,
Qaradır qaşın, ördək.
Həmişə cüt gəzərdin,
Hanı yoldaşın, ördək.

Azər Ələkbərov

Vətən bu gün can istəyir, can nədi,
Duzu verin qurbanlıqtək yalayım.
Vətən bu gün qan istəyir, qan nədi,
Damarımı damarına calayım.

Əzizim, bu canı da,
Gəl apar bu canı da.
Torpağım can istədi,
Əsirgəməm canı da.

Telman Bağırov

Sənin Vətənini Vətən sayırdım,
Qardaş da deyirdim özünə sənin.
Mən elə düşünür, elə qanırdım,
Yaman aldanmışam sözünə sənin.

Bu dağlar, hasar dağlar,
Qar yağar, basar dağlar.
Qurusun mənim dilim,
Səni nə hasand ağlar.

Mehman Muradov

Alışdıq bu odda,
Yandıq bu odda,
Qara baxtımıza sarı düşəndən.
Düz demişdi babam Dədə Qorqud da:
Dost olmaz, dost olmaz qarı düşməndən.

Hər aylar,
Hər fəsillər, hər aylar.
Gözüm gözünə həsrət,
Könlüm səni haraylar.

İlkin Cavanşirov

Unutmaz bu torpaq min il ötsə də,
Babam Cavanşirin adı yaşayır.
Min ocaq yansa da,
Sönüb getsə də,
Qəlbimdə bir eşqin odu yaşayır.

Əzizim, ilkin,
Adımı qoydun İlkin.
Vətən deyib ölməyə
Necə getməzdim ilkin.

Azad Mirzəyev

Mən azad doğuldum,
Adım da Azad,
Azad yaşamadım ancaq dünyada.
Ölsəm, Vətən qalsın yadımda azad,
Kaş sönməsin bu od, ocaq dünyada.

Əzizim balabanı,
Yaxşı çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

Yanvar Nəsirov

Ötən günlərimi tez-tez anırdım,
Qolumdan tutaraq ayağa durdun.
Mən səni özümə arxa sanırdım,
Sən məni, sən məni arxadan vurdun.

Yanvarda mən,
Doğuldum yanvarda mən.
Bu nə gəliş-gedişdi,
Gedirəm yanvarda mən.

Vaqif Mirzəyev

Dindirsəm, danışar Qorquddan, inan,
Ocaq Vətənimdə, köz Vətənimdə.
Gücüm torpaqdadı,
Yağı heç zaman
Mənə bata bilməz öz vətənimdə.

Əzizinəm, yas öyü,
Yas otağı, yas öyü.
Dünən evimdə toydu,
Bu gün olub yas öyü.

Andrey Nişenko

Quduzu, qulduru ana ha doğmur,
Atası, anası, qardaşı olmur.
Bir yol qəzəbini, hirsini boğmur,
Sirri ölümdüsə, sirdaşı olmur.

Maralın gözü qanlı,
Sinəsi, dizi qanlı.
Aləm qana bələndi,
Balası, özü qanlı.

Yusif Qasımov

Mən oğlu olmaram kölə Vətənin,
Kölənin ağzının dadı varmı ki?!

Yolunda ölmüşəm elə Vətənin,
Daha ağlamağın adı varmı ki?!

Nazbalış baş altdadır,
Ala göz qaş altdadır.
İstərəm durum gəlim,
Qollarım daş altdadır.

Müşfiq İsayev

Bura Çənlibeldi, bənd-bərəsi var,
Koroğlu qıy vursa,
Qulaqlar batır.
Hər qaya bir qala,
Hər daş bir divar,
Hər kolun dalında bir Eyvaz yatır.

Mən aşığam, gülmədi,
Göz yaşımı silmədi.
Cumdu gülləyə sarı,
Uşağıydı, bilmədi.

Rüstəm Əliyev

Qana susamısan, a qansız əsgər,
Al mənim qanımı iç, içə bilsən.
Vətənin önündə səngərəm, səngər,
Adlayıb üstümdən keç, keçə bilsən.

Lələ haray,
El haray, lələ haray.
Vətənə yağı gəldi,
Dağıtdı, lələ haray.

Xəlqan Əliyev

Bu gecə Bakıda tonqallar yandı,
Mənim and yerimdi bu od, bu ocaq.
Birinci Vətəndi,
İkinci candı,
Ölərəm, bu anddan dönmərəm ancaq.

Əzizim, Vətən səni,
Unutmaz Vətən səni.
Öldün Vətən yolunda,
Ağlayır Vətən səni.

Müzəffər Həsənov

Başına götürdü tüstü gecəni,
Dedim bu dünyanın sonudu, sonu.
Mən oğul gəzirəm,
Oğlum da məni,
Nə o məni tapdı, nə də mən onu.

Əzizim, bu da məni,
Haxladı qada məni.
Adını qardaş qoyub,
Atdılar oda məni.

Aslan Ağaverdiyev

Burda ağlayacam,
Burda güləcəm,
Ömrümün payızı, yazı Vətəndi.
Burda doğulmuşam, burda öləcəm,
Alnıma yazılan yazı Vətəndi.

Haray, Aslanım, haray,
Hanı Aslanım, haray.
Qara verin bağlayım,
Qoyun yaslanım, haray.

Rahim Məmmədov

Bir zaman baban da dolaşıb burda,
Yaxşı tanıyıram səni, ay dəli.
Babamın qanına bulaşıb burda
İki yüz il əvvəl babanın əli.

Əzizim, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir igid ölüb,
Göy kişnər, bulud ağlar.

Zaur Ələsgərov

Şirin yuxudayam burda elə bil,
Nəsə sıxır məni, qəlbim dözməyir.
Bura haradısa, Qarabağ deyil,
Bu saat Qarabağ məni gözləyir.

Bala şirin,
Kim qatıb bala şirin.
Can hər şeydən şirindi,
Candan da bala şirin.

Cavad İsmayılov

Sətirləndi yenə könlümün səsi,
Nöqtə qoymaq vaxtı işıqlar söndü.
Köksümə sancılan zalım gülləsi
Şeirin sonunda nöqtəyə döndü.

Qəmlidi,
Yer də, göy də qəmlidi.
Bu qəbri soran olsa,
Deyin Cavad Qəmlidi.

Elçin Bəxşəliyev

Qanımla boyanıb üçrəngli bayraq,
Onu tapdalayan qan qusa bilər.
Vətənləşib mənim canımla torpaq,
Onu tapdalayan can qusa bilər.

Mən aşıq, bular imiş,
Cana od salar imiş.
Əzrayıl yalanıymış,
Can alan bular imiş.

Mirzə Qəniyev

Sevdik gizli-gizli bir-birimizi,
Mən Vətəni sevdim, Vətən də məni.
Silinməz torpaqdan qanımın izi,
Xatırlayın burdan ötəndə məni.

Bir aydı,
Ömür bir gün, bir aydı.
Sağalmağa umud yox,
Can verirəm bir aydı.

Aleksandr Semyonov

Güllələr uçuşdu bir-bir yanımdan,
Canıma od saldı can-can deyənim.

Qanı qanımdandı, canı canımdan,
Qanıma susadı bəs niyə mənim?!

Nəm ağlar,
Bulud gələr, nəm ağlar.
Qəribi qürbət eldə
Kim ağlasa, kəm ağlar.

İlqar Əbilhəsənov

Qoymaz yatam barmağımın ağrısı,
Çətin bu gün düşmənimi güldürüm.
Yolur yenə bağı alma oğrusu,
Gedirəm ki, sarı divi öldürüm.

Qan olar,
Qada olar, qan olar.
Bir elə yağı girsə,
Talan düşər, qan olar.

Fuad Mövludov

Gəmilər fit verir,
Ulayır Xəzər,
Tanklar nərildəyir yollar boyunca.
Zalımın gülləsi qoysaydı əgər,
Sevərdim Vətəni mən də doyunca.

Mən aşıq, gül anbarı,
Gül əkdim, gül anbarı.
Zalım düşmən qoymadı
Doyunca güləm barı.

Aleksandr Marxevka

Sən Şaşa, mən Şaşa!
Qardaşıqmı, yox!
Birimiz öldürən, birimiz ölən!
Yaralar sarıyan bir həkiməm, bax,
Sənsən bədənimi yüz yerdən dələn.

Dağlarda lala yalqız,
Gül qoşa, lala yalqız.
Qorxuram qərib öləm,
Məzarım qala yalqız.

Boris Yefimov

Böyükağa qoydum öz adımı mən,
Bakı ağlasaydı, heç gülərdimmi?!
Görən Boris qalsam -
Deyirəm hərdən,
Rusun gülləsinə tuş gələrdimmi?!

Yük üstündə pərdə mən,
İndi düşdüm dərdə mən.
Ruhum göylərdə gəzir,
Necə yatım yerdə mən.

Oleq Yusupov

Ruhumla bağlıyam bu yerə, göyə,
Mən də türk oğluyam, tataram, Bakı.
Başından tük əskik olmasın deyə,
Canımı canına qataram, Bakı.

Əziziyəm, dost aşı,
Dost çörəyi, dost aşı.
Düşmənin gülləsindən
Yaman olur dost daşı.

Vladimir Xaritonov

- Sən rus, mən rus!
Heç kim bunu unamır,
Rus da rusa durub güllə atarmı?!
- Mənim gülləm urus-murus tanımır,
Rus olmağın gör dadına çatarmı?!

Qəsdimə duran urus,
Ərimi vuran urus.
Mən daha urus döyləm,
Anla urus, qan urus.

Yan Meyeroviç

Yaman ağır olur qardaş şilləsi,
Torpaq ləkə-ləkə,
Köksüm xal-xaldı.
Yaxaladı məni rusun gülləsi,
“Mən də rusam” sözü dilimdə qaldı.

Bala dərdinə,
Bal qatdı bala dərdinə.
Balamı məndən alan
Düşsün bala dərdinə.

Valeriy Boqdanov

Yaşım az olsa da,
Bu dünyada mən
Ölüm də görmüşdüm, qan-qada da mən.
Bu gecəki ölüm başqa ölümdü,
Qardaş gülləsilə ölmək zülümdü.

Atam mənə ad qoydu,
Doğulmamış ad qoydu.
Üzünü görəmmədim,
Ürəyimə od qoydu.

Ağanəzər İsrailov

Ürəyim sinəmdən çıxıb o gündən
Qəbrimin üstündə döyünür indi.
Sevinə-sevinə baxıb o gendən
Azad Vətənimlə öyünür indi.

Bala sına,
Bal sına, bala sına.
Soruşur, nə deyim mən
Balamın balasına.

Alla Nikolayenko

Mən bahar gülüydüm,
Tuş gəldim kimə,
İnsafsız-insafsız yoldular məni.
İnsan ha deyilmiş bunlar sən demə,
Tapdayıb keçdilər çölü, çəməni.

Əzizinəm, oyanmaz,
Hamı yanar, o yanmaz.
Gözü qanlı yağıya
Dayan desən, dayanmaz.

SONUC

Dururam önündə burda hər daşın,
Düşmən hiyləsinə daha uymuram.
Dalğın baxışından hər gözün, qaşın
Nələr anlamıram, nələr duymuram.

Bir ağ bulud gəzir göyün üzündə,
Yoxsa ayın, günün göz yaşlarıdır.
Şəhid məzarları – mənim gözümdə
Düşmənə sevginin baş daşlarıdır.

Ölüm saçmırdımı, qoxumurdumu
Onda Sisyanovun nəfəsi bəyəm!?
Bir ölüm nəğməsi oxumurdumu
Dünən Sisyanovun nəvəsi bəyəm!?

Neçə-neçə xanlar mən, mən dedilər,
Açıb qucağını yağıya, yada.
Doğma qardaşına düşmən dedilər,
Gör nələr olurmuş, nələr dünyada!?

Gözümün önündə qanlı səhnələr,
Ürək yuvasına sığışmır yenə.
Qalır yaddaşımda gör nələr, nələr,
Anıram, yanıram mən dönə-dönə.

Güllənin gözünü çoxdan ovmuşuq,
Yuxunu qatmasın güllə səsləri.
Vətəndən biryolluq elə qovmuşuq
Əlləri qanına batan kəsləri.

Daha yadın qapaz altı deyilsən,
Sevmirik hər yoldan ötəni indi.
Vətənin qoynunda rahat uyu sən,
Qardaşın qoruyur Vətəni indi.

Bir zaman sinəndə ürəyin sənin
Azadlıq eşqilə eləmi dindi.
Azad yaşamadın,
Azad Vətənin
Azad qucağında yatırsan indi.

♦ Nəsr

Natiq MƏMMƏDLİ

ƏN GÖZƏL GÜNAH*

♦ *Roman*

BİRİNCİ HİSSƏ

Mən fələyə neylədim?

Bakı, yanvar, 2018

Allah şahiddi ki, ona inanmaq istəyirdim. Dediklərinin yalan olmadığını sübut etmək üçün and içsə də, heç buna ehtiyac yox idi. Nəysə içimdən gələn səs məni armuda oxşayan ölkəsindən günəşli şəhərimə pənah gətirmiş bu qarabuğdayı, dərisinin altından sümükləri qabaran gəncin arıq vücudundan dəfələrlə böyük ürək sahibi olduğuna məni əmin edirdi. Elə kabinetimin ağzında boynubükük dayanıb səbirsizliklə növbəsini gözləyəndə də, çəkinə-çəkinə masanın arxasında oturub əllərini ovuşduranda da, arabir ürkək, sınayıcı nəzərlərlə məni altdan yuxarı süzəndə də ona inanırdım. İlk baxışdan anlamışdım ki, onu soyuq ölkələrin sazağından qorunmaq üçün mənim isti şəhərimə pənah gətirmiş quşlarla müqayisə etmək, ya da macəraçı turistlərə tay tutmaq olmazdı. Fırıldaqçı? Əsla! Belə düşünmək lap günah olardı. İyirmi ildən artıq iş təcrübəmdə o qədər dələduz adamlar görmüşəm ki, ağızlarını açmasalar da, yalan danışacaqlarını, öz uydurmalarına adamı inandırmaq üçün hətta utanmadan göz yaşı tökəcəklərini belə qabaqcadan hiss edirəm. Belə qabiliyyətə yiyələnməyim sizə fövqəladə bacarıq kimi görünə bilər, mənim üçünsə, sadəcə, peşə vərdişindən başqa bir şey deyil. İyirmi ildə hər gün söhbət etdiyin beş adamdan dördü səni aldatmağa cəhd edirsə, belə bacarığa yiyələnmək təəccüblü görünməməlidi. Amma ona inanmaq istəyirdim, daha doğrusu, inanırdım da. Hərçənd ki, danışdıqlarını kino kimi təsəvvür edəndə, adicə hind filminə oxşadığından gülməyim tuturdu. Kəndimizin yay klubunda həftə sonları göstərilən hind filmləri uşaqlıq illərimin ilğıma bürünmüş ən şirin xatirəsidir, həmin illər həftənin şənbə günlərini necə də səbirsizliklə gözləyirdim. Bəlkə də, bu qarayanız oğlanın danışdıqlarına inanmaq istəməyim də uşaq vaxtlarımın şirin aludəçiliyindən irəli gəlirdi. Elə

** Jurnal variantı*

o zaman da ekranda gördüklərimin gop olduğunu bilirdim. Təbii ki, həyat başqa cürdür, amma heç vaxt ağlıma gəlməzdi ki, nə vaxtsa film kimi həyat hekayəsini mənim özümə danışacaqdılar və onun xoş sonluqla bitməsi, sadəcə, mənim dərkənarımdan asılı olacaq.

- Sizi ölkənizdə bir-birinizi sevdiyinizə görə ölümlə təhdid ediblərmi? - sualım heç özümün də ürəyimdən olmadı, amma nə etməli, qanun-qayda var, hər şeyi protokola yazmaq, iddianı əsaslandırıb rəsmiləşdirmək lazım idi. Bəlkə də ona elə gələ bilərdi ki, mənim ürəyim daşdandı, dəftərxanada eşələnməkdən, lazımsız prosedurlara riayət etməkdən başqa əlimdən bir iş gəlmir. Neynək, qoy elə fikirləşsin, bir Allah şahiddi ki, mən doğrudan ona inanırdım və kömək etmək üçün əlimdən nə gəlirdisə, əsirgəməyəcəkdim. Axı mən də adamam… Yaxşı bilirəm ki, sevmək günah deyil.

- Bizi sıxışdırırdılar… biz qorxurduq…, - onun arıq, sivri dodaqlarından çətinliklə çıxan, sərçə civiltisinə oxşayan ikicə kəlmə söz mənim soyuqqanlı sualımın tam cavabı deyildi, hələ üstəlik, bu cavaba görə ona mənim vətənimdə nəinki sığınacaq verərdilər, əksinə, dərhal öz armuda oxşayan ölkəsinə deportasiya edərdilər. Görünür, o, məsələnin ciddiliyini mənim düşündüyüm kimi təsəvvür edə bilmirdi. Başqa tərəfdən də vəzifə borcum imkan vermirdi ki, ona açıq şəkildə yardım əlimi uzadım. Sualımı yenidən, bu dəfə bilərəkdən yönləndirici formada təkrar etməyə məcbur oldum.

- Başa düşün ki, bu suala verəcəyiniz cavab sığınacaq almağınız üçün çox əhəmiyyətlidir. Heç nədən çəkinməyin, dəqiq deyin, məhz bir-birinizi sevdiyinizə görə ölkənizdə həyatınız üçün təhlükə var idimi?

- Orada bizim sevgimiz günah sayılır. Günahkarı isə bağışlamırlar…

- Yəni?

- Yəni bizi günahkar sayırdılar.

- Belə olmaz, qardaşım, heç mənim ölkəm də günahkarların sığınacağı deyil, - onun tərəddüdləri, açığı, məni özümdən çıxarmışdı. Protokol üçün, həm də onun özü üçün həyati məna daşıyan kəlməni o sivri dodaqların arasından kəlbətinlə dartıb çıxarmaqdan ötrü sanki cərrahi müdaxiləyə ehtiyac yaranmışdı. Amma növbəti gün onun sevgilisini dindirəndə bütün bu tərəddüdlərin səbəbi gün kimi aydın oldu. Aydın oldu ki, Hindistanın cənub ucunda göz yaşı kimi düyünlənmiş adadan qaçaraq, bizim ellərə pənah gətirmiş bu sevən ürəklər həm də öz ölkələrinin vurğunudurlar və başlarına nə müsibət gəlsə də, vətənlərinin namını vermək istəmirdilər. İfadələrində bilərəkdən elə sözlər seçib danışırdılar ki, qürbət yerdə ölkələrinin adına xələl gəlməsin. Lakin ortada təkzibolunmaz fakt var idi – doğma yurdunda sevmək günah sayılır, elə buna görə də dünyanın tamam başqa səmtinə qaçmağa məcbur olmusan.

- Sualı bir də təkrar edirəm…

- Ehtiyac yoxdu, – o, artıq mənimlə höcətləşməkdən cana doymuşdu və səsinin tonuna özündən asılı olmadan əsəbi bir ötkəmlik verərək dilləndi, – bəli, bir-birimizi sevdiyimizə görə bizi təqib edirdilər, hamısını olduğu kimi danışdım axı? Heç nəyi də şişirtmirəm. Bilmək istəyirsiniz ki, həyatımız üçün təhlükə vardımı, yəni demək istəyirsiniz bizi öldürə bilərdilərmi? Keşkə bizi bir yerdə öldürəydilər… Amma o sarıdan da bəxtimiz gətirməyəcəkdi. Məni öldürəndən sonra torpağa basdıracaqdılar, onusa yandıracaqdılar, bizimkilər ruha inanır, onunkularsa yenidən doğuluşa. Başa düşürsünüzmü, mənim vətənimdə hətta öləndən sonra da rahatlıq yoxdu. Bax, beləcə də yazın, biz bura, sadəcə, mənasız ölümdən qaçıb gəlməmişik, sevgimizi qorumaq üçün burdayıq.

O, bütün bunları başını qaldırıb üzümə baxmadan, birnəfəsə söylədi. Bir bilsəydiniz həmin anda ürəyimdən nələr keçdi, istədim bütün rəsmiyyət formalarını kənara atıb onu bağrıma basım və bu lənətə gəlmiş dünyanın bütün qadağalarına tüpürərək hönkür-hönkür ağlayıb deyim ki, "lap xoş gəlmisiniz, lap əcəb eləmisiniz". Ölümdən sonra belə xoşbəxt ola bilməyəcəyini dərk edərək yaşamağın adına həyat deyilməz qardaşım, bunun üçün nəisə başqa bir ad düşünmək gərəkdi. O dünyanın zülmü bu dünyadan betər, belə həyatmı olur? Özümü toparlayıb onun dediklərini öz bildiyim kimi rəsmi üsluba çevirdim, ölkələrində yaşamağın həyatları üçün təhlükə yaratdığını quru ifadələrlə bacardıqca təsirli ifadə etməyə çalışdım. Lakin nə qədər çalışsam da, onun söylədikləri kimi canlı yaza bilmədim. Təsəvvür edirdim ki, rəisim protokolu oxuyanda qıyıq gözlərini eynəyinin altından heyrətlə mənə sarı bərəldəcək, "nə danışırsan, məgər XXI əsrdə belə şeylər də olur" – deyə soruşacaq, sonra başını bulayıb "Allah sən saxla, dünyanın axırı çatıb deyəsən" söyləyərək, sənədin altından təsdiq möhürünü vuracaq. Rəis, şübhəsiz, mənim prinsipial olduğumu, bütün prosedurlara necə lazımdır əməl etdiyimi çox yaxşı bilirdi, ümumiyyətlə, iyirmi ildən çox işlədiyim dövrdə bir neçə rəis dəyişsəm də, heç vaxt tərtib etdiyim sənədlərə irad bildirən olmamışdı. Amma indi, bu qarayanız oğlan saqqızımı oğurlamışdı və içimdə, niyə ona inanmalıyam, sualı yaranmamışdan qabaq artıq verəcəyim cavab haqqında düşünürdüm, çünki inanmaq lazım idi. Sidqi-ürəkdən, tam varlığınla inandığın iş bəzən səhv yolda olsan belə, adama elə təpər verir ki, hətta o işi axıra çatdıra bilməsən də, həmin inamın yaddaşında ilişib qalmış zərifcə közərtisi bir ömürlük xatirələrə işıq salmağa bəs edir. Bu, elə bir hissdir ki, onu həyatında bir, uzağı iki dəfə qarşılaşdığın möcüzəylə müqayisə etmək olar. Gərək o anda, məhz həmin məqamda özünü itirməyəsən və elə seçim edəsən ki, ömrünün həmin ana qədərki boşluqlarını da dolduran nəysə bir işartı olsun. Elə bir şey ki, vicdanınla baş-başa qalanda əlini ürəyinin üstünə qoyub rahatlıqla deyəsən, "bax mən bunu bacardım", "bunu mən sevərək, inanaraq etdim" və bəlkə də, mənim yer üzündəki missiyam məhz bu işi görməkdən savayı bir şey deyilmiş.

Oğlan, nəhayət ki, başını qaldırıb yorğun gözlərini üzümə zillədi və anidən gülümsünüb yenidən başını aşağı saldı. Saat yarımlıq söhbətimizdə ilk dəfəydi ki, onun sivri, qara dodaqları altında sıralanmış ağappaq dişlərini gördüm, güləndə yanağının sol tərəfi eynən mənim oğlumdakı kimi içəri batırdı. Görünür, uzun illərdi gülməyi yaddan çıxarıbmış, bəlkə də, gülməyə heç vaxt fürsət tapmayıbmış, amma təbəssüm bütün cavanlar kimi ona da çox yaraşırdı.

Suallarımın bitdiyini və artıq gedə biləcəyini deyəndə, çiynindən dağ götürülmüş kimi, dərindən nəfəs alıb ayağa qalxdı və gözləmədiyim halda mənə əl uzatdı. Onun damarları çıxmış qamış kimi qara əlini sıxaraq "mənim ölkəmə xoş gəlmisiniz, artıq təhlükədə deyilsiniz" - deyə bilərdim, lakin vəzifə borcum buna imkan vermirdi. Gənclərə gözaydınlığı vermək üçün hələ bir neçə proseduru da yerinə yetirmək, bir çox instansiyalardan keçmək lazım gələcəkdi. Ən azından, sabah onun kimi sevgilisini də dindirməli olacaqdım. Sonra bütün bu faktları təhlil etmək, hüquqi çərçivəyə salmaq, verdiyim sorğulara cavabı gələnə kimi gözləmək lazım gələcəkdi. Onun əlini bacardıqca möhkəm və hərarətlə sıxdım ki, məni qarşılaşacağı hüquqi şablonların baiskarı hesab etməsin. Ona inandığımı və ölkəmdə qalmaları üçün əlimdən gələni əsirgəməyəcəyimi deyə bilməzdim. Niyyətim saf və təmiz idi, inanırdım ki, Allah nə vaxtsa belə bir etirafı etməyim üçün mənə şans

verəcəkdi. Bilmirəm, o, bir neçə saniyənin içində qəlbimdən keçən bütün bu fikirləri oxuya bildimi, sadəcə, yüngülvari gülümsünüb qapıya sarı getdi.

Daqqa, noyabr, 2017

- Sakura çiçəklərini belə sevdiyini bilsəydim, Yaponiyaya gedərdik. Söz verirəm ki, səni ora aparacam, - Səid açıq pəncərədən otelin alaqaranlıq otağına dolan rütubət iyini ciyərlərinə çəkərək yataqdan qalxdı. Müjdə başını qaldırıb yastığa dirsəkləndi, gözlərini açmadan gülümsündü, - niyə gülürsən, yalan demirəm, Buddanın dişinə and olsun.

- Buddanın adını çəkmə, - qız qorxu içində yorğanı başına çəkdi, - sən necə adamsan? Axı keçən dəfə dedim belə şeylərlə zarafat eləmək günahdı, - Müjdə yorğanın altında dua edirmiş kimi titrəməyə başladı.

- Mən ciddi deyirəm, - Səid onun yanında oturdu, - Allaha and olsun ki…

- Bəli, bax belə, - Müjdə sıçrayıb yerindən qalxdı, - öz Allahına and iç, amma zarafatla yox.

- Kim deyir ki, zarafat edirəm, əgər doğrudan da Sakura çiçəklərini belə sevdiyini bilsəydim…

- Sən dünəndən yalnız bu haqda düşünürsən? Mən onu sözgəlişi demişdim, əzizim, bizim balaca büdcəmiz üçün elə bu üçulduzlu otel də pis deyil. Sakuraya gəldikdəysə, biz onu təsəvvür edə bilərik, bu ki, pulsuzdu…

- Hə, hələ ki, bu dünyada xəyal qurmaq pulsuzdu. Elə təsəvvür elə ki, mən səni ilk dəfə Sakura ağacının altında görmüşəm…

- Aha, yaxşı!

- Başdan ayağa çəhrayı çiçəklərə bürünmüş ağac o qədər gözəl idi ki, mən sizin ikinizi də birdən sevdim.

- Dayan, dayan, bu, bir az şit çıxdı axı. Bir az da bayağı. Necə yəni ağacla məni bir yerdə sevdin?

- Yaxşı, onda belə deyim – qollu-budaqlı Sakuranın ətrafa xoş rayihə saçan çəhrayı çiçəkləri arasında yalnız səni sevdim.

- Burda da təbiətə qarşı ironiya var. Axı Sakura çox gözəldi, belə soyuq qəlblə yanaşsan, onun xətrinə dəyərsən.

- Bəs belə necədi? - “Mən səni dünyanın dörd bir yanından gəlmiş onlarla turisti başına yığıb Buddanın möcüzələrindən həvəslə danışanda, Sakura öz çiçəklərini sevdiyi kimi sevdim”...

- Turistlər… təyyarə… saat neçədi? - hər ikisinin yataqdan atılıb paltarlarını geyinmələri göz qırpımı qədər çəkdi, - bax, görürsən, yaxşı ki, çamadanları axşamdan hazırlamışam, - Müjdə həyəcandan əsə-əsə dilləndi.

- Onsuz da gecikənlər olacaq, - Səid qızı sakitləşdirmək üçün özünü səbirli göstərməyə çalışdı.

- Onlar hamısı çoxdan hazırdırlar. İnan ki, artıq səhər yeməklərini yeyib foyedə var-gəl edirlər. Axı özün onlara dönə-dönə tapşırmışdın ki, gecikən olsa, gözləməyəcəyik.

- Görürsən, əzizim, sən demə bu dünyada xəyal qurmaq heç də pulsuz deyilmiş, -qaçaraq pilləkənləri düşəndə Səid zarafata salıb dilləndi.

- Hələ zarafat da edirsən?

- Axı xəyal qurmağı özün istədin?

- Səhv elədim, gərək əvvəlcə saata baxaydım.

Turistlər üçulduzlu otelin darısqal, alaqaranlıq foyesində adda-budda dayanmışdılar; qrupun yaşlı üzvləri, üzlərindən əbədi təbəssüm asılmış Tomas əmi və Merio xala qapının ağzına zorla yerləşdirilmiş yeganə divanda otur-

muşdular, onlardan bir qədər aralı Mariya ayaq üstə divara söykənib telefonunda nəsə qurdalanır, arabir başını qaldırıb divarda yanbayan asılmış saatlara baxırdı, ata və oğul Kruzlar dünya ölkələrinin iri şəhərlərinin vaxtını göstərən saatların əslində düz işləmədiyini öz aralarında dəqiqləşdirmişdilər, ancaq otel əməkdaşlarından heç kim ingiliscəni anlamadığından, bunu kiməsə başa sala bilməmişdilər. Yalnız gənc videobloger Vəli Özdəmir və elə tur başlayan gündən ona könüllü kameramanlıq eldən nəvə Kruz səhər açılandan işgüzar ovqata köklənmişdi. Vəli Özdəmir növbəti roliki üçün otelin qarşısında dayanıb axşamdan əzbərlədiyi sözləri üyüdüb-tökürdü: “Bəli, dünən mən artıq sizə söylədim ki, biz nağıllar şəhərinə düşmüşük. “Min bir gecə” nağıllarının düz ortasındayıq. Daqqanın hər qarışı sirlə doludur. Hər daşın altında tarix yatır. Bəli! Keçən rolikimdə demişdim sizə, füsunkar şəhərin ortasından…”

- Ay, zəhrimara qalasan! - nəvə Kruz az qala kameranı əlindən yerə salacaqdı, aşağı əyilib ayaqlarını, sonra qollarını ufuldayaraq qaşımağa başladı.

- Nə oldu, Con? - Vəli gözlərini bərəldərək soruşdu.

- Nə olacaq, təriflədiyin şəhərin ağcaqanadları səhərə kimi bədənimi didib-dağıdıb.

- Yaxşı, qurtar qaşınmanı. - Vəli də qollarını və ayaqlarını qaşıya-qaşıya gileyləndi, - mənim də bədənim qançır olub, - dedi.

- Dəhşətdi, insanlar burada necə yaşayır? - Con narazı halda kameranı çiyninə qaldırdı.

- Hə, harda qalmışdım? Ağcaqandlar… lənət şeytana...

- Şəhərin ortası…

- Hə, şəhərin ortasından əfsanəvi Braxmaputra və Qanq çayları keçir…

- Stop, - Con gülərək başını buladı, - yenidən başlamalı olacaqsan, əzizim, təbəssümü yaddan çıxarmışdın. Gülə-gülə danış, axı biz tarixin ortasındayıq.

- A-a-a, rikşa, rikşa, çək onu! - Vəli qışqıran kimi Con Kruz kameranı küçənin ortasında bir-birini ötməyə çalışan iki rikşaya tərəf çevirdi.

- Hə, bax budur Daqqanın ləzzəti. Əziz seyrçilər, yolunuz bu şəhərə düşərsə, nəqliyyata əlavə pul xərcləməyə heç ehtiyac yoxdu, rikşalar sizi mənzil başına daha tez çatdırar. Həm də komfortlu. Ümumiyyətlə, komfort və Daqqa bir-birini elə tamamlayır ki. Bu nağıllar şəhərinə gəlsəniz, peşman olmazsınız. Bizsə növbəti dayanacaqda görüşərik. Roliki bəyəndinizsə, “like” etməyi unutmayın. Bay, bay…

- Şükür, qurtardıq. - Con kameranı söndürüb dərindən nəfəs aldı, “daha bəsdi, keçək içəri, heç olmasa, o xarabada kondisionerə oxşayan nəsə işləyir. - Con Vəlini gözləmədən qaçaraq özünü otelin ətürpədən cırıltıyla açılan qapısından içəri tulladı.

- Ver baxım, deyirsən yaxşı alındı? - Vəli soruşdu.

- Super alındı, canım, inan ki, Daqqanı görməsəydim, sənin rolikinə baxdıqdan sonra bu nağıllar diyarına məmnuniyyətlə gələrdim.

- Sənə kim deyir ki, bura nağıllar diyarıdı? - baba Endryu Kruz nəvəsindən soruşdu.

- İndicə rolik hazırladıq, Vəli deyir ki, əsil “Min bir gecə” nağıllarının ortasına düşmüşük”.

- Ay aman, bu gənclərin başı xarab olub. İlahi! Eşidirsiniz, bu şəhərin “Min bir gecə”yə heç bir dəxli yoxdu. Heç nağıllarda onun adı da çəkilmir. Eşidirsinizmi?

Tomas əmiylə Merio xala baba Kruzun sözlərini təsdiqləmək üçün təbəssümlə başlarını tərpətdilər, Mariya da çiyinlərini çəkərək gülümsündü.

- İndi siz başa düşürsünüzmü, gənc nəsil nə qədər diletantdı. Bunlardan heç nə olan deyil, olmayacaq da.

- Ata, yaxşı sən Allah, böyüyəndə düzələcəklər. - Uilyam Kruz atası qəzəblənəndə həmişə onu eyni sözlərlə sakitləşdirməyə çalışsa da, indi bu, işə yaramadı. - Böyüyəcəklər? Bəlkə, böyüməsələr yaxşıdı! - baba Kruz əməllicə hiddətlənmişdi.

- Ata, sakit, eşidən olar?

- Qoy eşitsinlər! XXI əsrdə yaşayırıq, otelin səhv işləyən saatlarını düzəltmək üçün adicə ingilis dilində başa düşən adam tapmaq mümkün deyil. Eşidəndə nə olacaq ki? Bəlkə, onlar elə bilirlər mən rep deyirəm!

Qocanın sözlərindən sonra darısqal foyeyə toplanmış turistlərin hamısı qəhqəhə ilə gülməyə başladı, hətta "resepşn"dakı qaradinməz qızın da dodaqları qaçdı.

- Başa düşürsünüz?- baba Kruz üzünü qıza tərəf çevirib bacardıqca nəzakətlə dilləndi, - sizin saatlarınız geri qalır, onları düzəltmək lazımdı. İndi nə Nyu-Yorkda, nə Tokioda, nə də Parisdə sizin saatların göstərdiyi vaxt deyil. Vaxtdan geri qalmaq yaxşı əlamət sayılmaz, saatlarınızı düzəldin, - dedi. Baxışlarını yerə zilləmiş qaradinməz qızsa çiyinlərini çəkməkdən savayı heç nə etmədi.

- Bax, bu super alındı, rikşaları vaxtında çəkə bildin. Gör necə şütüyürlər? Afərin sənə, - Vəli baba Kruz eşitməsin deyə, pıçıltıyla Cona təşəkkür etdi. Con baxışlarını babasından ayırmadan dodaqlarını səyritməklə kifayətləndi. Səid və Müjdə dəhlizdə görünən kimi, turistlərin arasında canlanma yarandı, Tomas əmi və Merio xala artıq yüngül çantalarını çiyinlərinə asıb çıxış qapısının kandarına yaxınlaşmışdılar. Yalnız "resepşn"dakı qız əvvəlki kimi başını aşağı salmışdı, sanki ya ətrafda olanları görmür, ya da bütün bunların ona heç bir dəxli olmadığını açıqca hiss etdirirdi. Səid açarları təhvil verəndə "axır ki" deyib başını buladı. "Bir başqa problem yoxdursa, biz gedək", - Səid soruşdu. "Allah xatirinə tez gedin", - səsindən nigarançılıqdan daha çox qəzəb yağan qız, nəhayət ki, başını qaldırıb gözlərini bərəltdi. Səid həmişəki kimi heç nə söyləməyib aralandı, bir neçə dəqiqədən sonra dünyanın müxtəlif ölkələrindən gəlmiş turistlər onların müşayiəti ilə aeroporta yola düşəcəkdilər.

İşçiləri nə qədər adamayovuşmaz, acıdil olsalar da, Səid də, Müjdə də bu rütubətli oteldən inanılmaz dərəcədə xoşlanır, buranı özlərinin ən sevimli sığınacağı hesab edirdilər. Bura Daqqanın yeganə oteli idi ki, ölkədə hər şeyin onsuz da ucuz olmasına baxmayaraq, onların bələdçi kimi çalışdıqları şirkətin müştəriləri üçün iyirmi faizlik güzəşt paketi də təklif edirdi. Bu da yad ölkələrdə hər kəsin onları soymağa hazırlaşdığını zənn edən, az pulla dünyanı gəzib-dolaşmağın mümkünlüyünə özlərini inandırmış simic turistlərin diqqətindən, təbii ki, yayına bilməzdi. Otelin az sayda personalının niyə həmişə yorğun və qaraqabaq olmasının səbəbini isə "resepşn"dakı qaradinməz qız səfərlərin birində Müjdəyə söyləmişdi. Sən demə, turlar başlayanda onlar, demək olar ki, bütün sutkanı fasiləsiz işləməyə məcbur olurlarmış. Hamısı yaxşı bilirdi ki, hər tərəfə kamera quraşdırmış itigözlü menecer balaca bir xətaya görə ən yaxşı halda onların məvacibini yarıya kimi kəsə, ən pis haldaysa küçəyə ata bilərdi. Küçədə isə gözlərinin yuxusunu qovmaq üçün dərisini çərtib arasına duz basaraq günlərcə ayaq üstə dayanmağa hazır olan milyonlarla işsiz veyillənirdi. "Bunun adına kapitalizm deyirlər", - Müjdə Səidə bax beləcə söyləmişdi, "hələ sən də onlardan təbəssüm gözləyirsən…"

Doğrudan da insan daşımaq üçün nəzərdə tutulduğu baba Kruzda həmişə böyük şübhə yaratmış avtobusa oxşayan çoxyerli nəqliyyat vasitəsi

nərildəyərək otelin qarşısında dayananda Müjdə baxışlarını turistlərin üzərində gəzdirib siyahıdakı adlara nəzər saldı.

- Dostlar, hamı burdadırmı? - Səid ucadan səsləndi, - cənab Kruzlar, həmişəki kimi vaxtında, o-o-o, Mariya xanım, necə dincəldiniz?.

- Sualı yaxşı olardı belə qoyardınız, ümumiyyətlə dincələ bildinizmi? - Uilyam Kruz Mariyanın əvəzindən dilləndi. Səid buna bəndmiş kimi, uğunub getdi, bu gülüşdən daha çox qara, ətsiz dodaqları arasından ağappaq dişlərini göstərməyə oxşayırdı. Bunu ona turist bələdçilərini hazırlayan üç aylıq kurslarda öyrətmişdilər, xaricilərlə danışanda nə olursa olsun, mütləq dişlərini ağartmaq vacib şərt idi. Bir neçə cəhddən sonra Səid bu jesti elə mənimsəmişdi ki, hətta atasını öldürüb Siqiriya qalasında özünə sığınacaq qurmuş hökmdarın faciəsini turistlərə anladan da qeyri-ixtiyari dişlərini ağardardı.

- Çox zarafatcılsınız, cənab Kruz, - dilləndi, - bəs siz, gənc bloger, işlər necədi?

- Hələ ki, pis getmir, dünənki rolikimə “layk”lar iki mini keçib” - Vəli Özdəmir başını ayfonundan qaldırmadan dilləndi.

- Bu ki yaxşıdı, yes!

-Yox, abi, rekord Kolomboda olacaq, inşallah!

- İnşallah!, - Səid ətrafa baxaraq dilləndi, – bax, buna deyərəm başqa məsələ, Tomas əmiylə Merio xala artıq avtobusda yerlərini rahatlayıblar. Afərin sizə.

- İvanovlar yoxdular! - Müjdə həyəcanla dilləndi.

- Kim yoxdu? - Endryu Kruz başını açıq pəncərədən çıxarıb bağırdı, - İvanovlar? Yubanmaq rusların köhnə adətidi. Lənətə gələsiniz…

- Ata, sakitləş, səhər obaşdan nə olub sənə? - avtobusun yaxınlığında siqar tüstülədən oğul Kruz araya girdi.

- Nədi, onsuz da heç kim ingilis dilini bilmir. Onlara elə gəlir ki, rep oxuyuram! Axı bu ruslar niyə gecikməlidirlər? Axı biz nə üçün bu cəhənnəmin düz ortasında məhz onları gözləməliyik?

- “Min bir gecə” nağıllarının ortasında... - nəvə Kruz qımışaraq atmaca atdı.

- Sən kəs səsini, savadsız gənclik! Kütbeyin əbləhlər! Elə sizin ananız da…

- Ata, bəsdi…- bayaqdan Merio xalanın əlindən bərk-bərk yapışmış Tomas əmi özündən arxada oturmuş baba Kruza tərəf baxıb gülümsəyərək şəhadət barmağını dodağının üstünə qoydu, yəni sakitləş, ya da səsini kəs, zəhmət olmasa. Baba Kruz bir dənə də “lənət şeytana” deyib yana çevrildi.

İvanovların arxasınca getmiş Səid bir xeyli sonra otelin qapısında görünəndə avtobus sürücüsü əlini saatının üstünə vura-vura Müjdəyə nəyisə izah edirdi. Onun hansı dildə danışmasının tərcüməyə ehtiyacı yox idi, Daqqanın hələ də asfalt döşənməmiş darısqal küçələrindən keçərək uçuşa iki saat qalmış aeroporta çatmaq üçün vaxt daralırdı. Gərginlik hamıya sirayət etsə də, Səid təcrübəli bələdçi kimi “hər şey OK” deyib yenə də dişlərini ağartdı və yalnız Müjdənin eşidə biləcəyi pıçıltıyla “yatıb qalıblarmış” dedi.

- Onlar bütün gecəni o qədər içiblər ki, yatıb qalıblar. And içərəm ki, belədir, - baba Kruz yenə də özündən çıxdı.

- And içmək lazım deyil, elədir ki, var - Mariya da babanın sözlərini qüvvətləndirdi, - əslində, vaxtında gəlsəydilər, möcüzə olardı, - dedi.

- Bir dəfə biz onları burada qoyub getsək, ağılları başlarına gələr, - yerini Vəli Özdəmirin yanında rahatlamış nəvə Kruz da babasına qahmar çıxdı.

- Sən nə dedin! Axmaq gənclik, adam da yol yoldaşını atarmı? Sən görürsənmi, bu uşaqlar necə axmaq böyüyürlər?

- Ata, yalvarıram, özünü belə əziyyətə salma, - oğlu yenə onu sakitləşdirməyə girişdi, – bir baxın, gəlirlər.

- Şükür Allaha, - rütubət qarışmış istidən nəfəsi tıncıxan Vəli Özdəmir yarıyuxulu rusları qapının kandarında görən kimi qışqırdı.

İvanovlar – Cənub Şərqi Asiya ölkələrinə bal ayına çıxmış Saşa və Seryoja əzilmiş pomidor kimi dığırlana-dığırlana özlərini avtobusa çatdırdılar. “Sori! Sori” - Saşa az qala hamıdan bir-bir üzr istəyirmiş kimi, dilləndi. “Salam, bratva!”, - onun arxasınca Seryoja da əlini sinəsinə qoyub hamının üzünə acizanə baxırdı, Vəli Özdəmirlə Con Kruzun yanından keçəndəsə hər ikisinə göz vurdu. “Axşamkının adı nəydi?” nəfəsinin sarımsaq qarışmış spirti avtobusu başına götürmüş Seryoja ağzını Vəlinin qulağına yaxınlaşdırıb pıçıldadı. “Uf… hansını deyirsən?”, - Vəli üzünü turşudub soruşdu. “Bığ… bıx… baxx… cıcı…”. “Bəlkə bxaçi?” - Con tez dilləndi. “Yes, doroqoy, bxaçi! Əla getdi”. “Dəlisən? Bxaçi içki deyil, yeməkdi, onu içmirlər ki, yeyirlər”, - Vəli dedi. “A, bəs onda biz axşam nə içirdik?”. “Viski, doroqoy, viski. Sən, sadəcə, bir litrini də özünlə götürdün”, - Saşa dilləndi. “Uy da… deyirəm niyə başım partlayır, Amerikanın zibilləridi hamısı”. Seryoja Vəli və Condan sonra arvadıyla avtobusun lap arxa oturacağında özlərinə yer elədiyindən, yaxşı ki, baba Kruz onun sözlərini eşitmədi. Bürküdən nəfəsləri daralan gənclər isə avtobus tərpənənə kimi dayanmadan güldülər. Gülmək üçün əllərinə yaxşı fürsət düşmüşdü, hər dəfə Seryojanın, sadəcə, “bığ… bıx… cıcı…” deməsi kifayət idi ki, hamının dodağı qaçsın.

Avtobusun qabaq cərgəsində yanaşı oturmalı olsalar da, Səid yol boyu, demək olar ki, ayaq üstə dayanardı. Müştəriləri uzun yolda əyləndirmək üçün nələrsə etmək lazım idi, yəni bələdçi bacardıqca turistlərin diqqətini yayındırmaq, daha doğrusu, keflərini açmaq üçün əməllicə məzhəkə çıxarmalı idi. Qrupda gənclərin sayı çox olanda belə ucuz vodevillərin yeri olardı, amma elə ki, yaşlılar üstünlük təşkil edirdi, xüsusən də Endryu Kruz kimi tərs adamlar meydan sulayanda Səidin də işi çətinləşirdi. “Qarşıda bizi aeroporta kimi təxminən iki saatlıq yol gözləyir. Hər şey qaydasındadırmı? Daqqa gəzintisindən razı qalanlar əllərini qaldıra bilərmi?” “Mən ayağımı da qaldıra bilərəm”, - arxa cərgədən gələn boğuq səsin sahibi, heç şübhəsiz, Seryoja idi. Baba Kruza nəsə elə gəldi ki, bu, onun nəvəsi Condu, “tərbiyəsiz”, - deyə bağırdı, “sal ayağını! Gənclərdə abır-həya qalmayıb”. Seryoja onun nə deməsini anlamadı, bəlkə də, özünü eşitməzliyə vuraraq nəvə Kruzun çiynini dümsüklədi, “sənin də əcəb baban var. Qiyamət kişidi. Cavanlığında rep oxumayıb ki?”, - dedi. “Cavanlığında bilmirəm, ancaq həmişə ona elə gəlir ki, danışanda insanlar elə bilir ki, o, rep deyir”. “Mənə də elə gəlir…” Gənclər elə şaqqanaq çəkib güldülər ki, balaca avtobusun sürücüsü qarışıq hamı geri qanrılıb gülməyə başladı, hətta deyəsən, baba Kruzun da dodaqları qaçdı azacıq. “Yaxşı, dostlar”, - Səid bir az da ürəkli dilləndi, “yol boyu ürəyinizdən nə keçir? Bəlkə, keçən dəfəki kimi edək, lətifə yarışı keçirək, hə, nə deyirsiniz?” “Mənə elə gəlir ki, sakit otursaq yaxşıdı”, - Mariya bələdçinin xətrinə dəyməsin deyə gülümsəyərək cavab verdi. “Düzdür, belə yaxşıdı”, - ata-bala Kruzlar eyni vaxtda təklifi dəstəklədilər. Tomas əmi, Merio xala da gülərək başlarıyla təsdiq işarəsi verdilər. Vəli və Con dünənki roliklərinə gələn şərhlərə cavab yazdıqlarından, heç başlarını da qaldırmadılar, Seryoja nəsə demək istəyirdi, amma nə qədər çalışdısa, özünü toparlayıb ağzından düz-əməlli kəlmə çıxara bilmədi, Saşa isə avtobus tərpənən kimi başını pəncərəyə söykəyib yuxuya getmişdi. “Yaxşı, onda sakitcə yolumuza davam edək”, - Səid gülərək yerinə oturdu və “bu dəfə yaxşı qurtardıq”, - deyə Müjdəyə göz vurdu.

Avtobus daş döşənmiş küçələrdən adlayıb qismən hamar görünən asfalt yola çıxandan sonra yırğalanmaqdan cana doymuş sərnişinlər özlərinə gəldilər. Kənardan hamının gözünə yalnız ekzotik görünən bu Asiya ölkəsinin dünyanın çox az şəhərləri ilə müqayisə oluna biləcək paytaxtını tərk edərkən əsil düşüncələrə dalmağın vaxtı çatmışdı. “Burada ekzotik olan yeganə şey Banqladeşin yalnız xəritədə tutduğu yerdi, insanlarsa hər yanda eynidir; hamı səhər durub balasını məktəbə yola salır, analar yol gözləyir, atalarsa iş dalınca gedirlər, hamı hər yerdə olduğu kimi burada da bir tikə çörək uğrunda vuruşur”, - bu sözləri Tomas əmi arada Merio xalanın əlini buraxdığı vaxtlarda göy üzlü kitabçasına yazmışdı. İndisə yenə də sədaqətli arvadının əlindən yapışıb, hərdən alnında puçurlanmış tərini silə-silə uyuyurdu. Çətin ki, yırğalanan avtobusda o, nəsə böyük şeylər haqqında düşünə biləydi.

Adamların və maşınların eyni vaxtda hərəkət etdiyi dar küçələr yazqabağı məcrasından çıxmış dəlisov dağ çayını xatırladırdı. Avtobus bu selin düz ortasıyla yolunu azmış qayıq kimi ürkə-ürkə öz səmtini axtarırdı. İnsanlar tez-tez qəmli baxışlarını qaldırıb yolunu azmış qayığa, onun dərisinin rəngindən, gözlərinin maviliyindən bu yerlərə yad olduğu sezilən sərnişinlərinə tərəf baxıb gülümsəyir, əl edirdilər. Çoxdandı gülməyi tərgitmiş, ya da buna vaxt tapa bilməyən adamların qara, qırışmış çöhrəsində qəribə işıq oynayırdı. Günəşin böyük səxavətlə yandırıb-yaxdığı bu adamların üzünə təbəssüm elə yaraşırdı ki. Hara gəldi şütüyən maşınların arasından sıyrılıb uşağını darta-darta məktəbə aparan analar da, böyük ümidlərlə dünən divarda təsadüfən gözünə dəymiş iş elanında göstərilən ünvana tələsən atalar da, hətta çiynindəki meymunuyla saatlarca günəşin qızmarında dayanıb şəkil çəkdirmək üçün ağbənizli turist gözləyən dişləri tökülmüş qoca da selin ortasında ləngər vuran qayığı görcək gülümsünürdü. Daqqanın küçələri xüsusən də səhər çağı ilk baxışdan nəhəng xaosu xatırlatsa da, diqqətlə baxanda maşınların da, adamların da yalnız bir səmtə hərəkət etdiyini sezmək çətin deyildi. Bax, həmin bu anda Daqqanın mərkəzi küçəsiylə “Wall Street”in yerini dəyişmək mümkün olsaydı, yaxud tini burulan kimi günəşin qaraltdığı adamlar “Wall Street”ə, oradakı səliqəli kostyumlu, parlaq günəşə həsrət adamlar isə bu küçəyə çıxsaydılar, dünyanın məzmununda heç nə dəyişməzdi. Onsuz da hamı eyni ünvana can atırdı, hamı eyni cür tələsirdi...

Şəhər yuxudan təzəcə ayılsa da, dünyanın həm ucuz, həm də dadlı xörəklərinin bişirildiyi yeməkxanaların bacalarından çıxan iştahaçan rayihə ətrafı bürümüşdü. Dünən axşam Seryojanın viskiylə səhv saldığı “bxaci”nin qoxusu isə yolçunu yoldan saxlamağa bəs edirdi. Əgər bu yolçu tomat souslu kilkə konservi, turş xiyar və iki dilim qara çörəklə yarım litr arağı görəndə özünü cənnətə düşmüş hesab edən, qışın sazağını vətənində buraxıb buralara qədər gəlib çıxmış turistdirsə, məsələ aydındı.

Bal ayını Şri-Lankada keçirmək ideyası hələ toylarından bir ay əvvəl Saşanın ağlına gəlmişdi. Komplekssiz-filansız hamının yanında nişanlısının ondan ağıllı olduğunu dəfələrlə etiraf edən Seryoja təkliflə həmən razılaşmışdı. Toya bir həftə qalanda, gənclərin ürəyini oxuyurmuş kimi, qayınanasının etdiyi sürpriz lap yerinə düşmüşdü, – al, sizə Cənub-Şərqi Asiya ölkələrinə turpaket. Həmin gecə Seryoja arvadı haqqında özlüyündə formalaşdırdığı qənaətinə bir balaca korrektə etmişdi, – düzdür, Saşa ağıllı qızdı, amma anası ondan da ağıllıdı.

Turistlərin adına məscidlər şəhəri də dediyi Daqqanın yol kənarında adda-budda gözə dəyən çəhrayı boyanmış yastı hasarlarını görcək Müjdənin

üzündə təbəssüm oynadı “bayaq Sakuranı necə təsvir eləmişdin”, - qıyılmış gözləri yol çəkən Səiddən soruşdu.

- Sakura? Deyirsən təzədən xəyallar dünyasına qayıdaq? - Səidin nigaran sifətində təbəssümə oxşayan nəsə yaransa da, gözləri yenə yol çəkirdi.

- Qayıdaq, əzizim, məgər xəyallar dünyasına getmək üçün bizdən viza istəyən var? Axı özün deyirsən xəyal qurmaq pulsuzdu, - Müjdə dilləndi.

- Pulsuzdu, bəli, amma niyə həmişə bu dünyanın pulsuz və məsuliyyətli işləri bizim bəxtimizə düşür?

- Of, başlama, Səid. Bircə bəxt adını tutma. Müsəlmanlar niyə həmişə bəxtlərindən şikayətlənirlər, başa düşə bilmirəm?

- Bilirsən necədi?..

- Sakura!

- Hə, qoy sən deyən olsun, Daqqanın aeroportuna kimi xəyallar aləminə pulsuz səyahət edə bilərik. Mən səni Sakura öz çiçəklərini sevdiyi kimi sevirəm. Mən səni….

- Artıq heç nə demə. Bu qədər yetər. Elə cümlələr var ki, ondan sonra, sadəcə, susmaq lazımdı. İndi mən Sakura çiçəyiyəm , - Müjdə başını Səidin çiyninə qoyub gözlərini yumdu. Belə vəziyyətdə onlar ikinci cərgədə oturmuş Tomas əmi və Merio xalaya bənzəyirdilər, elə bir zaman maşını hardasa yarım əsr dala qayıtmışdı, gözəl Merio sevgilisi Tomasın uzaq Şərqdə bitən Sakura haqqında dediklərinə elə valeh olmuşdu ki, bir göz qırpımında özü Sakura çiçəyinə dönüb ətir saçırdı.

Avtobus müştəri görən kimi bir-birini ötməyə çalışan balaca rikşaların sıxlığından, nəhayət ki, sıyrılıb uzun enli yolla hava limanı səmtə üz tuta bildi. Dünyanın çox yerində payızın sonuncu ayında gözə görünməyə xəsislik edən günəş burada var gücüylə parladıqca ətrafı sarmış rütubətin ağırlığı adamın nəfəsini daraldırdı. Üzü qışa dönərkən bu yerlərə axışan turistlər təyyarədən enər-enməz, üzlərini qarsan hərarəti Şərqin ən böyük ekzotikası kimi çox sevirdilər. Okean boyu uzanan qumlu sahillərdə çəkilən saysız-hesabsız “selfilər”, yaşıl çəmənliklərdə, çiçəklərin arasında poz vermək qışın oğlan çağında yolları buz bağlamış ölkəndəki ağzıgöyçəkləri, elə dostlarını da qıcıqlandırmaq üçün ələdüşməz fürsət idi. Görəsən, Banqladeşdə rikşa sürən, ya da turist görən kimi çiynindəki meymunu ilə birgə ağzı sulanan kişi də bu nəfəs kəsən rütubətin əlindən canını qurtarıb, məsələn, Alp dağlarının ətəklərində xizək sürmək istəyərdimi, daha doğrusu, bunu arzulayardımı? Sakura kimi insanların da arzularının tumurcuqlayan, çiçəkləyən və solan vaxtları olur. Elə arzular da var ki, heç vaxt çiçək açmır, tumurcuqlayan kimi də solurlar.

Daqqada hər kəsin öz zövqünə görə nəsə bir şey tapması mümkündü. Səid isə bu şəhərdə heç vaxt soraqlamadığı, heç yuxusunda belə təsəvvür etmədiyi məhəbbətini tapmışdı: tanışlıqları dostluğa, ardınca da sevgiyə çevriləndən sonra adına Müjdə dediyi Amamuni Suentayla məhz bu şəhərdə rastlaşmışdı. Elə ilk baxışdanca, nağıllarda olduğu kimi, bir könüldən min könülə vurulmuşdu. Hər şeylə maraqlanan turistlərin mənalı-mənasız yüzlərlə suallarını cavablandırarkən nəzərləri bir kənarda dayanıb saatlarca gözünü ondan çəkməyən qıza sataşmışdı. Pozuq ingilis dilində nə istədiyini soruşanda isə qızın gülümsünərək, senqalca turist olmadığını söyləməsinə təəccüblənmişdi. Bundan sonra onun dediyi bütün sözlərə sifətində donmuş eyni təəccüblə qulaq asmışdı: hər ikisi eyni ölkədən, eyni şəhərdən, hələ üstəlik, eyni firmanın işçiləri idilər. Müjdəylə təcrübəli bələdçinin yanında iki aylıq sınaq müddəti keçdikdən sonra, yaxşı xasiyyətnamə alacağı təqdirdə

müqavilə imzalanacaqmış. Səid adamın beynini buxarlandıran qızmar günəşin altında gözlərini bir an da olsun ondan ayırmayan qızın söylədiklərinə bilmədi qəzəblənsin, ya sevinsin. Dostlarından eşitmişdi ki, firmanın hər şeydə qənaət etməkdə ad çıxarmış simic meneceri sınaq müddətində çalışan köməkçilərin pulunu da bələdçilərin məvacibindən kəsməklə ödəyir. Nə vaxtsa Asiyanın bu qızmar qazanından canını qurtarıb Londonda yaşamaq xəyalları quran Səidə isə əlçatmaz arzularını həyata keçirmək üçün hər şeydən çox pul lazım idi. O, ucuz benqal şorbası və bir-iki bananla gününü yola verməyə hazır idi, boğazından kəsib topladığı qəpik-quruşu hər dəfə sayanda, xəyalında yalnız bir şey vardı – bacardıqca uzaqlara qaçıb getmək, dünyanın o biri başına, daha doğrusu, Londonun dərinliklərinə. O, cırmaqlaya-cırmaqlaya acgöz menecerdən qopardığı halal məvacibini kiminləsə bölüşmək istəmirdi və heç vaxt da istəməyəcəkdi. Haradan ağlına gələ bilərdi ki, cibinin pulunu bölüşmək istəmədiyi bu qarayanız, gülərüz qızla, az keçməz ki, ömür yolunu bölüşəcək… Başını çiyninə qoyan kimi uyumuş Müjdənin yuxusuna gələcəyin şirin xəyalları girdiyindən, yaman qayğısız görünürdü. Yaxşı ki, bu dünyada xəyal qurmaq kimi, yuxu görmək də hələ ki, pulsuz idi, Səid özlüyündə düşünürdü.

Hər dəfə turistlərlə birgə vətənlərinə yaxınlaşdıqca səbəbini yaxşı başa düşdüyü ağırlıq altında sıxılırdı. Elə bil vətənə yaxınlaşdıqca dünyanın ən amansız cəlladı bütün doğmalarının gözü qabağında onun başını məngənənin arasına salıb sıxırdı, hamı elə məhz belə də olmalıymış kimi qımıldamadan kənarda dayanıb ona baxırdı. Adam da anadan olduğu, çörəyini yeyib, havasını udduğu torpağından uzaqlaşanda bu qədər xoşbəxt ola bilərmi yəni? Quşlar, başqa məsələ, qanadları çıxan kimi öz yuvalarından uçub gedirlər və heç vaxt yumurtadan çıxdıqları səmtə tərəf baxmırlar, heç ondan sarı darıxmırlar da. Çünki onların hansısa yaxşı və ya pis fərqi yoxdu, ağacın budağında öz yuvalarını qurmaq imkanı var və bunu, sadəcə, instinktlərinin köməyi ilə edirlər. İnsan quş deyil axı, pərvazlanıb hara baş vurursa-vursun yenə də öz torpağına dönmək istəyir, hətta dönmək imkanı olmasa belə, heç olmasa, bunu arzulayır. Yəni elə adam tapılarmı ki, xəritədə ölkəsinin yerini görəndə gözlərinə işıq gəlməsin? Elə adam təsəvvür etmək mümkündürmü ki, hansısa qürbət elin küçəsində qulağına uşaqlıqdan alışdığı doğma melodiyalar toxunanda nəsə xatırlamasın? Səidin Daqqadan hava limanına ilan kimi uzanan yolun bozluğunda beynini didən bu suallara cavabı beləydi ki, bəli, bu cür adamlar ola bilər. Adam var, öz elində, doğmalarının arasında tənhadı, sanki həmişə qürbətdə yaşayırmış kimi, gəzib-dolanır, adam var ki, zatında naşükürlük var, sadəcə, canını qoymağa yer axtarır, harda yorğanı qalındırsa, oraya da vətən deyir. Adam da var, içini yeyib dağıda-dağıda günahı həmişə özündə axtarır. Nahaq yerə! Əgər torpaq sənə vətən olmaq istəmirsə, neyləyə bilərsən? Belə olan halda ölüb o torpağa qarışmağın mənası nədi? O, başa düşürdü ki, Daqqa turundan sonra Hindistanın ucunda göz yaşı kimi düyünlənmiş vətəninə gedəcəkdi və qiyamət bundan sonra qopacaqdı. Dünyanın dörd bir yanından gəlmiş turistlər öz məzəli xatirələrini də yığışdırıb geri qayıdacaqdı. Və təbii ki, sevinərək. Döndükləri yer onların yuvası, istinad nöqtələri, öz yurdlarıydı axı, niyə də sevinməsinlər? Yalnız o, istisna idi. Vətəninə yaxınlaşdıqca canına daraşan əndişənin əsil səbəbini açıb Müjdəyə deyə bilmirdi. Qızcığazın onu təmiz, saf duyğularla sevdiyini bilirdi, hətta bu hisslər o qədər duru və qüsursuz idi ki, bunu ifadə etmək üçün məhəbbət sözünün özü belə hardasa qüsurlu görünürdü. Məhz Müjdənin xətrinə real həyatda bir dəfə də görmədiyi Sakura

və onun ürəkləri riqqətə gətirən ətirli çiçəkləri haqqında internetdə nə vardısa, tapıb oxumuşdu. O, hər dəfə ağac haqqında elə canlı danışırdı ki, Müjdə doğrudan da onun Sakuranı gördüyünü zənn edirdi. O, bu ağacı görmüşdü, lakin nə yuxusunda, nə də uzaq Yaponiyanın parklarında, Səid Sakura çiçəklərini Müjdənin gözlərində görmüşdü. O gözlərdə həmişə bahar idi, nə nəfəs boğan rütubətli istilər vardı, nə də ilik donduran şaxtalar. Orada həmişə bəxtəvərcəsinə dayanan Sakura qollarını yana açıb çəhrayı çiçəkləriylə insanları heyrətə salır, görənlərin qəlbini yalnız məhəbbətlə doldururdu.

"Günü-günə calamağın nə mənası? Nəyi gözləyirsən? Bir qərara gəl! Gül kimi qızın da gözünü yolda qoymusan", - söhbəti hardan salırsan, sal, anası yenə də həmişə eyni mətləbin üzərinə gəlirdi. Ana hər dəfə sözü evlənməyin üzərinə gətirəndə gözləri elə parlayırdı ki, sanki oğluna toy etməyə yox, özü ərə getməyə tələsirdi. O, uşaq vaxtından nənəsinə isinişmişdi, hər şeydə sözü keçən, nəslin bütün dərd-sərini təkbaşına qərarları, barmağının bir işarəsiylə həll edən ötkəm nənənin dünyasını dəyişməsindən sonra isə təzəcə bığ yeri tərləməyə başlayan Səid yavaş-yavaş doğmaları arasında təkləndiyini hiss elədi. Qəddar qəbilə başçısı taxtdan düşəndən sonra başını itirmiş kütlə yeni başçı meydana çıxana qədər vəhşi xaosun içərisində necə çırpınırdısa, Səidin də əmili, dayılı, xalalı, bibili böyük icması nənənin qəfil vəfatının ardınca bir-birini eləcə didib-dağıtmağa başlamışdı. Nə vaxtsa taxtın həndəvərində hamının barmaqla göstərdiyi yaraşıqlı "şahzadə" bir göz qırpımında yefreytora çevrilmiş generalı xatırladırdı. Hələ həyatın ucundan baxmağa fürsət tapmadığı anda insanların, özü də bir kökdən, bir şəcərədən gələn insanların amansız sifətini görəndə anlamışdı ki, bu dünyada ən soyuq şey uzaq Antarktidanın buzlaqları yox, adamın öz doğmalarının üzüdür. İnsan sifəti necə soyuq olarmış, qəlblər necə buz bağlayarmış, ilahi. Patriarxın gözlənilmədən, kiməsə bircə kəlmə demədən, ən əsası, heç bir vəsiyyətnamə qoymadan ölümü əvvəlcə hamını karıxdırsa da, az keçmədən bu çaşqınlığın yerini qəzəb və acgözlüyə bürünmüş siyasət tutdu. Patriarx-nənə də nə vaxtsa qəflətən, həm də beləcə urvatsız öləcəyini təsəvvür etmirmiş, ümumiyyətlə, ölmək haqqında fikirləşmir. Amma öldü. Nənənin açarını sinəsinin ortasında gizlətdiyi sehrli sandığından tutmuş, mülklərə və tor-paqlara, fillərdən, inəklərdən tutmuş itlərə, pişiklərə qədər hər birinin uğrunda xalalar-bibilər, əmilər-dayılar qruplaşmasının amansız davası başladı. Tarix dəfələrlə göstərib ki, irili-xırdalı bütün müharibələrdə ən böyük təhlükə qəfil endirilmiş zərbədən yox, tərəddüddən yaranır. Səid də tərəddüd içərisində çırpınırdı: bu qovğalarda, saysız-hesabsız şantajlar, qarayaxmalar, məhkəmə çəkişmələrində o heç kimin ağlına gəlməyən, heç kimin haqqında düşünmək belə istəmədiyi məsələ ətrafında baş sındırırdı – görəsən, haqlı kimdi? Alayarımçıq həqiqətin əlində əsir-yesir qaldığı vaxtlarda Lələ dayısı gözlənilmədən ona İngiltərəyə dil kurslarına getməyi təklif etdi. Bu, əslində onun öz arzusu idi ki, həyata keçirmək üçün turizm firmasından aldığı məvacibini qəpiyinə də toxunmadan yağıb saxlayırdı. Hətta nənəsinə belə söyləmədiyi arzusunu indi dayısı sanki onun gözlərindən oxuyurmuş kimi dilə gətirmişdi. Kişinin hələ səfərin bütün xərclərini də öz üzərinə götürəcəyini söyləməsi isə aydın səmada gözlənilmədən çaxan şimşək kimi gözlərini qamaşdırmışdı. Maraqlıdı ki, bütün nəsildə xəsisliyinə görə ad çıxarmış atası, heç vasvasılıqda ondan geri qalmayan anası da dayısının təşəbbüsünə həmən razılaşmışdılar. Beləliklə, patriarxın paqonları yonulmuş generalı öz şübhəli tərəddüdləri, mənasız həqiqət axtarışlarıyla nəsil davasında kiminsə əl-ayağına dolaşmaq şansını birdəfəlik itirmiş oldu. Altı ay nəzərdə tutulsa da,

hardasa bir ilə qədər uzanan London mədəni "sürgünündən" qayıtdıqdan sonra isə artıq həyat başqa cür idi: qarşı cəbhədə dayanmış əmilər və bibilər heydən düşmüş, parçalanmış onların yerini tutan dayılar və xalalar isə hər şeyi qamarlamış və möhkəmlənmişdilər. İndi onun nənəsinin sehrli sandığının açarı soyuq qəlbinə hətta şimal buzlaqlarının belə həsəd apardığı bibisinin - atasının evdə qız qarımış bacısı Qaracanın sinəsindən asılmışdı, onun general paqonları isə iki daşın arasında Lələ dayısının on dörd yaşlı balaca qızıyla nişanlanmağa müvəffəq olmuş böyük qardaşının çiyinlərində parlayırdı. Atasıyla anası nənə-patriarxın vaxtında olduğu kimi, Qaraca bibinin zamanında da yalnız maliyyə işləriylə məşğul idilər, daha doğrusu, nəslin, yerdə qalan üzvlərinin cibindəki pulları hesablayıb, onları necə qopartmağın yollarını axtarırdılar. Səid London səfərinin əslində onun bütün ümidlərini puç etməsini, işlərinin elə ilk gündən tərs gətirməsinin izahını vermək üçün kiminləsə danışmaq istəyirdi, amma evdə heç kim onu dinləyəcək ovqatda deyildi. İndi hamı, nəhayət ki, nəsil davasını qələbəylə başa çatdırmış yeni patriarxın zəfərinə – dayısı qızına nişanlanmış təzə generalın toyuna hazırlaşırdı. Nənəsinin vaxtında küncə sıxışdırılmış, səsləri siçan deşiyindən çıxan adamlar indi hardansa peyda olub olduqca vacib personaya çevrilmişdilər. Toya iki gün qalmış anası bundan sonra onun bütün həyatını qara rəngə boyayan sözləri demişdi, "yadından çıxmasın, Lələ dayının böyük qızı sənin göbəkkəsdindi". Gözləri dörd olmuş Səid nəsə deməyə macal tapmamış, ana əlavə etmişdi "siz anadan olanda belə şərt kəsmişik. Adətimiz belədi. Qaraca bibin də razıdı". "Axı mən hələ qundaqda olarkən üzünü görmədiyim qızı necə sevə bilərdim", - Səid başını döyəcləyən bu sualı nə həmin an, nə heç vaxt dilinə gətirmədi. Qardaşının toyu isə toydan daha çox tayfa davasından zəfərlə çıxmış yeni qüvvələrin təntənəli şousunu xatırladırdı. İndi evin hər tərəfində Qaraca bibinin özünə sədaqətli qohum-əqrəbanın uşaqlarından formalaşdırdığı "gənc qvardiya"nın üzvləri qaynaşırdı, nəsil düşməni elan edilmiş əqrəbalar isə məğlubiyyətin acısıyla çoxdan barışdıqlarından hətta evlərini dəyər-dəyməzinə satıb uzaqlara köçmüşdülər. Ata - puldan başqa hər şey onun gözünə iyrənc və məzmunsuz göründüyündən, sanki ətrafda baş verənlərlə maraqlanmırdı, ya da hər şeyin məhz belə olması ürəyindən idi. Ana – nənə taxtının mütləq sahibinə çevrilmiş qarımış baldızının bütün əmrlərinə dinməz-söyləməz əməl edərək sədaqətli köpəyə çevrilmişdi. Qaliblərə və məğlublara bölünmüş ağ-qara dünyada hər şeyi öz rəngində görən nəslin yeganə kişisi Səidin qəlbi isə həyatından çox sevdiyi Müjdənin yanında idi. Adətən atasından çəkinən Şərq kişiləri kimisə sevdiklərini analarına deyirlər, çox zamansa bunu deməyə ehtiyac qalmır, diqqətcil ana hər şeyi balasının nigaran gözlərindən oxuyub yavrusunun məhəbbət alovunda qovrulduğunu anlayır. Amma bura Şərqdi və burada iki dəfə iki heç də həmişə dörd eləmir.

Şri-Lankaya çatanda artıq bir ildən çox acı bağırsaq kimi uzanan bu "göbəkkəsdi" söhbətinə dəqiq nöqtə qoymaq lazım gələcəkdi. Səid yaxşı anlayırdı ki, Qaraca bibini hiddətləndirib özündən çıxaracaq bu nöqtəni elə öz həyatının son nöqtəsi kimi də başa düşmək olardı. Kəbini bələkdə kəsilmiş halalca dayısı qızını qoyub tanınmaza-bilinməzə başqa tayfadan, hətta başqa dindən qız almaq onların nəsil kitabında yazılmamışdı. Yeni səhifə açmağı isə kimsə arzulamırdı, çünki o səhifə yazılmamışdan əvvəl cırılıb atılmışdı. Hər şeyi ağ-qara görən qaliblər və məğlublar dünyasında nə Səidə, nə də Müjdəyə yer vardı. Hər zaman düşünərdi, dünyanın, demək olar ki, bütün rənglərinin əks olunduğu Şri-Lankada nədən insanlar hər şeyi yalnız iki

rəngdə görür? Bu barədə bir dəfə Müjdəyə danışanda qız onun dediklərini zarafat bilib gülümsəmişdi. Onun füsunkar gülüşləriylə elə bil Sakura günəşə sarı boylanıb tumurcuqlarını açırdı, elə bil təzə qanad açmış bülbüllər yasəmənin ətir saçan nəm budağına qonub nəğmə oxuyurdu. Hər dəfə bu zəqqun dadan həqiqəti demək üçün qızın üzünə baxanda, gözləri səhər mehini xatırladan təbəssümə toxunurdu və ağzını açmağa cürət etmirdi. Daqqanın hava limanına acı bağırsaq kimi uzanıb gedən yol nə vaxtsa qurtaracaqdı, turistlərin şit macəraları da arxada qalacaqdı və nəhayət, Kandiyə qayıtmalı olacaqdılar. Səid qəti qərara gəlmişdi ki, vətənə çatmamış təyyarədə - göyün yeddinci qatındaca hər şeyi açıb Müjdəyə danışsın. Ürəyinə dammışdı ki, ayağı vətən torpağına dəyən kimi yenə də dili tutulacaq, yenə həqiqəti deyə bilməyəcəkdi.

"Allahu-əkbər!", "Allahu-əkbər!"… - əllərində Banqladeşin bayrağını tutmuş, üst-başından his-pas, gözlərindən qəzəb yağan kütlə sanki boşluqdan peyda olmuş kimi avtobusun qabağını kəsdi. Sürücü əyləci basıb maşını saxlamağa zorla müvəffəq oldu; mürgü vuran sərnişinlərin hamısı irəli-geri gedib diksindilər, gözlərini açınca özlərini vahimə saçan insan selinin düz ortasında gördülər. "Allahu-əkbər!", "Allahu-əkbər!"… sifətləri toz-torpaqdan seçilməyən insanlar avtobusu əhatəyə alıb bağırırdılar.

Bakı, yanvar, 2018

Dostum mənə sevgi romanı yazmaq ideyasını verəndə, açığı deyim, yaradıcı böhran içindəydim. Həmin vaxtlar keçirdiyim hissin adına yaradıcı böhran yox, məyusluq desəm, daha doğru olardı. Düzdü, yazıçı kimi tanınırdım, iki hekayələr kitabım, dörd il bundan əvvəlsə romanım çıxmışdı, ölkəmin tirajı azalan qəzetlərində, jurnallarında aradabir müsahibələrim, hekayələrim, bəzən də məqalələrim dərc olunurdu. Hətta İncəsənət Universitetinin tələbələri jurnalların birində oxuduqları absurd pyesimi özlərinin buraxılış işi kimi səhnələşdirmişdilər də. Düzdü, cəmi-cümlətani bircə dəfə oynanılan tamaşanın premyerasına məni çağırmamışdılar, çox yaxşı uşaqlar idi, sonradan üzümə qarşı demişdilər ki, elə bilmişik siz ölmüsünüz. Açığı nə təəccübləndim, nə də onları qınadım, çünki bizim teatrlarda diri dramaturqlardan daha çox ölülərə üstünlük verildiyini hamı yaxşı bilirdi. Nəlbəkidə fırtınaya oxşayan müvəffəqiyyətlərimin hamısını sadalamağa ehtiyac duymuram, ona görə ki, bunların heç biri yeni əsər yazmağım üçün əsas vermirdi, əksinə, günü-gündən ruhdan düşür, daha da bədbinləşirdim. Əgər vicdanlı bir tənqidçi vaxtında deyəsdi ki, sənin nəinki böyük əsərlər yaratmağa, heç ədəbiyyatın sərhədlərinə yaxınlaşmağa istedadın çatmır, özünə əziyyət verib mənasız mətnlər qaralamaqdansa, bacardığın işlə məşğul ol, bəlkə də, mən dayanardım, rahat olardım. Amma bir vaxtlar tirajını deməyəcəyim dərgilərdə haqqımda elə dəhşətli şeylər yazırdılar ki, özümdən xoflanmağa başlamışdım. Hamını söyüb qaralamaqda ad çıxarmış ölkəmin məşhur mirzələrindən biri gözləmədiyim halda nədənsə kitablarım haqqında elə tərifli yazı yazmışdı ki, oxuyan kimi hər iki qoltuğumda qarpız göyün yeddinci qatına qalxmışdım. O məqaləni uzun müddət yazı masamın üzərinə sərib saxlayırdım, sonra böyük məmnuniyyətlə zibil qutusuna atdım. Həmin adam bəlağətli cümlələrlə əsərlərimi vəsf etdikdən sonra özümü də yaddan çıxarmamış və məni Markeslə müqayisə etmişdi. Siz mübaliğənin (oxu: ələsalmanın, həyasızlığın, sırtıqlığın, qanmazlığın, rəzalətin və sairənin) miqyasını təsəvvür edirsinizmi? O vaxta qədər mən Markes deyilən yazıçının

heç bir cümləsini oxumamışdım, utandığımdan, demək olar ki, bütün kitablarını tapıb oxudum və özümlə onun arasında nəinki dırnaq ucu, heç iynənin sapı keçən dəliyi boyda da oxşarlıq tapa bilmədim. Əksinə, bizim aramızda mənim vətənimdən Makondaya qədər uzanan dəf olunmaz, ümumiyyətlə, təsəvvürə gəlməz boşluq gördüm. Az qala unutmuşdum, o zamanlar mənim zərli paqonlarım var idi və onların parıltısından gözü qamaşan mirzələrin hamısı haqqımda paytaxt mətbuatından tutmuş rayon və divar qəzetlərinə qədər harda gəldi nələrsə yazırdılar, iş orasındadır ki, bu səfehlər briqadasının, hara gəldi dürtülənlər dəstəsinin cızma-qaralarına mən də inanırdım. Paqonlarımın zəri yolunandan sonra da mən yenə yazmağa davam etdim, özü də əvvəlkindən də böyük həvəs və şövqlə. Hiss edirdim ki, gecəmi gündüzümə qatıb öz üzərimdə işləməyim; qalın-qalın kitablar oxumağım, saysız-hesabsız bədii kombinasiyalar qurub eksperimentlər aparmağım artıq bəhrəsini verməkdəydi, mən daha yaxşı yazırdım, ən əsası isə yazdıqlarım artıq özümün xoşuma gəlməyə başlamışdı. Romanımdan sonra yeni hekayələr kitabımı həmişə olduğu kimi öz cibimin puluna çap etdirdim, hətta nəşriyyata əlavə ödəniş də etdim ki, qiyməti iki manatdan baha qoymasın. Amma bu dəfə mirzələr heç nə yazmadı. Mənim sadiq oxucularım da qeybə çəkildilər. Kitablarımı şəhərimizin barmaqla sayılan kitab satan mağazalarının vitrinlərindən yığıb dostlarımın çalışdığı qəzetin abunəçilərinə hədiyyə etməkdən başqa çarəm qalmadı. Hədiyyə deyəndə bir az böyük çıxır, onlar bunu mənim xətrimə dəyməmək üçün qəbul etmişdilər. Bir yerdə ki, müəllifin paqonlarının parıltısına görə kitablarıyla maraqlanırlar, bir yerdə ki, oxucuların hamısını az qala şəxsən tanıyırsan, bundan sonra davam etməyə dəyərmi? Gündüzlərini havalı kimi dalğın, gecələrini səksəkəli nigaranlıqla keçirdiyim günlərdə mən yalnız bu haqda düşünürdüm. Özümü qoymağa yer tapmırdım, çünki bu dünyada bacardığım ən gözəl iş yazı yazmaq idi. Məhz beləcə məyusluq burulğanına düşüb çabaladığım vaxtlarda dostum mənə sevgi romanı yazmaq ideyasını verdi. Bu sözləri telefonda deyəndə əvvəl elə bildim zarafat edir, amma görüşüb ciddi söhbət etmək lazım gəldiyini söyləyəndə, mütləq nəyinsə baş verəcəyini və yaxud nəsə böyük bir hadisənin ərəfəsində olduğumu anladım. Qərara aldıq ki, şəhər mərkəzində, iki sinaqoqun arasından uzanan Qış parkında görüşək.

Bağışlayın, özümü təqdim etməyi unutdum –"Allahu-əkbər" qışqıran adamların əhatəyə aldığı avtobusdakı turistlərin taleyindən nigaran qaldığınız anda özü haqqında tragikomik şeylər danışaraq romana dürtüşdürmüş adamın kimliyi ilə maraqlansanız, əlinizdə tutduğunuz kitabın üzqabığına baxa bilərsiniz. Yox, əgər bu sətirləri qımışaraq, hər halda, nəisə mənə elə gəlir ki, siz qımışırsınız, rahat divanda uzanıb planşetdə, ya da metronun basabasında ayaqüstə smartfonda oxuyursunuzsa, onda zəhmət olmasa, əvvələ qayıdıb müəllifin adına bir də baxın - tanışlığımıza çox şadam.

- Sənə yaxşı bir süjet verəcəm, - ağızucu salamlaşandan sonra dostum dərhal mətləbə keçdi. Açığı onun girişsiz-filansız birbaşa mövzudan danışması qəribə görünsə də, xoşuma gəldi. Parıldayan gözlərinə baxandaysa özümü "Müfəttiş" haqqında danışan Puşkinə heyrətlə qulaq asan Qoqolun yerində hiss etdim. Hər şey məhz həmin andan başlayır; heç kimin fikir verməyib yanından ötdüyü, hamının gözünün qabağında olsa da, görə bilmədiyi xırdaca bir detal sonradan böyük əsərlərin bünövrəsinə çevrilir. Sinaqoqların arasındakı uzun parkda yanaşı addımlayan biz dostları rus klassikləri ilə müqayisə etməyin nə boyda allahsızlıq olduğunu başa düşürəm, amma hər halda, söhbət böyük ideyanın kökündə dayanan sadə

həyat həqiqətindən gedir. Hansı ki, indi mənim dostum həmin həqiqəti anladırdı.

- Çox qəribə əhvalatdır, adamın içini göynədir, - deyə o, söhbətinə ayaq verdi. Mən əllərimi arxamda çarpazlayıb ona diqqət kəsilmişdim, – iki gənci bir-birini sevdiyinə görə öz vətənlərində öldürmək istəyiblər və onlar da sığınacaq almaq üçün bizim ölkəyə qaçıblar, - o, bunu deyib azacıq pauza verdi və düz gözlərimin içinə baxdı. Puşkin Rusiyanın ucqar bir əyalətində özünü məmurların gözlədiyi müfəttiş kimi təqdim edərək hamını doladıqdan sonra aradan çıxan Xlestakovun dələduzluğu haqqında danışanda Qoqolun hansı hisslər keçirdiyini deyə bilməsəm də, dostumun rəsmi protokol dilində söylədiyi cümlə məndə heç bir təəssürat oyatmadı. Onun parıltılı gözlərini hələ də mənim üzümdən ayırmadığını görüb ruhsuz bədən kimi dilləndim:

- Sonra?

- Nə sonra? Təsəvvür edirsənmi, XXI əsrdə insanları nəyə görəsə yox, bir-birlərini sevdiklərinə görə linc etmək istəyirlər. Başa düşürsənmi, dünyanın hələ də elə yerləri var ki, orada sevmək yasaqdı. Dəhşətli deyilmi? - Qış parkını o baş-bu başa gəzişə-gəzişə o, mənim nə reaksiya verəcəyimi gözləmədən danışırdı. Hiss etdim ki, çox sarsılıb və sadəcə, ürəyini boşaltmaq istəyir. Mən müdrikcəsinə susub ona qulaq asmaqdan savayı nəsə edə bilməzdim. Ona isə elə gəlirmiş ki, adi protokol cümləsinin təsirindən mən artıq beynimdə gələcək romanın kompozisiyasını qururmuşam. Ax sizi məmurlar, məmurlar... Elə bilirlər ki, yazıçının əlində sehrli çubuğu var, axşam evdə fırladan kimi masanın üstündə təzə roman peyda olacaq. Sizə nə deyim axı? Dünyanın harasına gedirsən get, hamınız bir-birinizə oxşayırsınız; qalstuklu, kostyumlu, əmrə müntəzir və hamıya məsləhət verən. Yaxşı ki, bu dünyada bir-birinə oxşamayan yazıçılar və onların özlərindən sonra heç kimə bənzəməyən ləpirləri var. O danışır, mənsə xətrinə dəyməyib qulaq asırdım və onun hesabına, nəhayət ki, mixəkli çay içəcəyimiz anı səbirsizliklə gözləyirdim. O isə maşallah, dil qəfəsə qoymurdu, yəqin nitqinin səlisliyinə uyub elə güman edirmiş ki, məni təzə roman yazmağa ruhlandıra bilib.

- Bilirsənmi, mən onların bizim ölkədə, bəli, məhz bizim ölkədə sığınacaq almaları üçün əlimdən gələni edəcəm. Onların da xoşbəxt olmaq haqqı var. Bu gün axır ki, oğlanın izahatını bitirdim. Adı bilirsən nədi? Səid – gör necə mülayim səslənir. İlk dəfə onun üzündə təbəssümə oxşayan nəsə sezəndə mənə elə gəldi ki, o, uzun müddətdir gülməyi yadından çıxarıbmış. Necə ola bilər ki, insanın vətənində, öz doğmalarının arasında üzü gülməsin? Onun ürəyi özündən iki dəfə böyükdü. Bəli! O ürəkdə sevgi elə kök salıb ki... İçi yalnız sevgiylə dopdolu olan ürəyin döyünməyə haqqı var. Axı adam buna necə biganə qala bilər? Bax, danışdıqca tüklərim biz-biz olur, hətta gözlərim də sulanıb. Nə fikirləşirsən?

- Çay içməyim… ağlamağım gəlir, - suala belə tez və hazırlıqsız yaxalanacağımı gözləmirdim. Adətən universitetdə, universitet demişkən, mən bu məmurla bir yerdə oxumuşam, hətta bir partada oturmuşam. Elə dostluğumuzun bünövrəsi də otuz il bundan qabaq tələbəlik illərində qoyulub. Yorucu mühazirələrdə müəllim yuxulu gözlərimə baxıb qəflətən sual verəndə də elə indiki kimi çaşıb qalardım. Dostumun gül kimi lirik, sentimental mühazirəsini də şuluq tələbə kimi korladım. Yazıq əməllicə dolmuşdu, mən də deyirəm çay içməyim gəlir.

- Yaxşı, gəl oturaq, - o, məyusluğunu gizlədərək, özünü o yerə qoymadı, – həmişəki kimi mixəyini bol elə, - ofisianta tapşırdı. Bax, bu başqa məsələ, indi mən buğlanan mixəkli çaydan qurtuldadaraq, barmaqlarımın arasında ağ

mələk kimi nazlanan sevimli siqaretimdən dərin qullab alıb lirikanın davamına məmnuniyyətlə qulaq asardım. Lakin oturan kimi elə bil sual yağışına düşdüm.

- Hə, nə düşünürsən? Bir şey alınar? - səbirsizliklə soruşdu.

- Maraqlıdı, - candərdi dilləndim. Başqası olsaydı dərhal deyərdim ki, yığışdır bu düşük lirikanı da məndən uzaq gəz. Aramızda otuz ilin xətir-hörməti, ağrısı-acısı vardı, o biri tərəfdənsə poqonlarımın zəri yolunandan sonra bir vaxtlar başıma pərvanə kimi dolanan mirzələr, tənqidçilər, dost hesab etdiyim kəslərin çoxu onsuz da bacardıqca məndən uzaq qaçırdılar. Cəmiyyətdən az qala təcrid olunduğum halımla bir tərəfdən də onu, ən yaxın dostumu itirmək istəmirdim, sadəcə, ümumi ifadələr və xoş sözlərlə yola vermək lazım idi, – sevgi həmişə ədəbiyyatın əsas mövzulardan olub, - dedim. Belə kitablar da yaxşı satılır, cavanlar alıb oxuyurlar, bir-birlərinə hədiyyə edirlər. Ümumiyyətlə, sevgi mövzusu bütün dövrlər üçün həmişə aktualdı.

- Bu adi sevgi deyil ki? Sən bunu adi oğlan-qız məhəbbəti kimi başa düşürsən?

- Axı sən danışdığın kontekstdə söhbət iki əks cinsin münasibətindən gedir də. Bunu maraqlı etmək üçün yazıçılar, demək olar ki, eyni texnologiyadan istifadə edirlər; qızla oğlan bir-birini sevir, ya valideynlər razı olmur, ya hansınınsa hardansa adaxlısı peyda olur, ya oğlan kasıb olur qız varlı, ya əksinə – təxminən beləcə oxşar kombinasiyalar saysız-hesabsızdı.

- Sən dediyin kombinasiyaların heç biri buna aid deyil. Oğlan da, qız da ayrı dinlərə məxsusdur, yəni sizin dilinizcə desək, konflikt üzdə deyil, dərindədir.

- Yazıblar, vallah onu da yazıblar. İstəsən mən sənə "Şeyx Sənan"ın bir neçə versiyasını danışa bilərəm. İslamın şeyxi sevgisi yolunda dinini dəyişir, hətta gedir…

- Saxla! Səid müsəlman olsa da, dinini dəyişmək istəmir, qız da onu sevir, amma öz Buddasına sitayiş eləyir. Üstəlik bu sevgini anlamayan cəmiyyət gəncləri parçalamağa hazırdı. Bunlar fərqli şeylərdir. Yox, əgər sən hesab edirsənsə ki, bu danışdıqlarım cəfəngiyatdı o başqa məsələ.

- Nə danışırsan, qardaşım, - artıq söhbət ciddiləşmişdi, o, mənim belə soyuq münasibətimi gözləmirmiş. Neyləyim ki, həqiqətin dadı həmişə acı olur. Axı qarşımdakı başqa adam deyildi, uzun illərin dostu idi, onun melodramı xatırladan məhəbbət süjetini yalandan tərifləsəm və hətta elə bu gecədən oturub nəsə yazacağımı desəm, riyakarlıq çıxmazdımı? İndi mən elə ehtiyatlı cümlələr seçməliydim ki, həm onun xətrinə dəyməsin, həm də bu söhbətə birdəfəlik nöqtə qoyulsun, – sənin danışdıqlarını başa düşürəm, doğrudan da təsirli əhvalatdı. Elə Şeyx Sənanın məhəbbətini də cəmiyyət məhv edir və final da çox təsirlidi - sevənlər əl-ələ tutub özlərini qayadan atırlar. Nakam sevgi…

- Bunların sevgisi isə nakam deyil, - o, yenə də sözümü kəsib israrla öz bildiyini deyirdi, onu fikrindən daşındırmaq heç də rahat olmayacaqdı. Bu arada ofisiant yaxınlaşıb çayları süzdü, bayaqdan umsuq olduğum mixəyin ətri burnuma toxunan kimi dünya gözümdə gözəlləşdi. Yenidən müdrik poza alıb dostuma qulaq kəsildim, – nəyə görə hesab edirsən ki, əsil sevgi mütləq yarımçıq qalmalıdı? Mütləq nəsə faciəvi sonluq olmalıdı?

- Faciə maraqlıdı axı, - çaydan bir qurtum alıb, mənasız replika atdım.

- Faciə maraqlıdı deyə Füzuli Leylini, Şekspir də Cülyettanı öldürüb?

- Əşi, sən hara getdin çıxdın? Tay elə də yox də, yəni deməyim odu ki, faciə janr kimi maraqlıdı.

- Sən də elə bir əsər yaz ki, orada segililər ölməsin, öz vüsallarına çatsınlar, bizim qəhrəmanlar kimi. Axı yazıçılar niyə gözlərinin qabağındakı həyatı görməyib, mütləq özlərindən nəsə uydurmalıdırlar? Mən sənə real həyatdan danışıram, real insan taleyindən, özündən nəsə kəşf eləməyə, artırıb-azaltmağa ehtiyac yoxdu.

Yaman yerdə axşamladıq, buna deyərlər. Büruzə verməsəm də, artıq əsəbləşməyə başlamışdım, bütün məmurluq karyerası boyu quru, rəsmi dildə izahat və protokoldan başqa bir şey yazmayan adamın indi qarşımda Emil Zolya kimi realizmdən master-klass keçməsinə dözməyə halım yox idi. Qulaqlarım yavaş-yavaş qızarırdı, bir az da belə davam eləsəydi yüz faiz "partlaya" bilərdim. İstədim deyəm ki, bilirsən nə var, belə ürəyindən keçir, götür özün yaz, onsuz da məmləkətimin o qədər mundirli yazıçısı var ki, biri də ol sən, bundan ədəbiyyat nə itirəcək, nə də qazanacaq. Demədim, dost idik axı. Dostluq belə şeydi də, uzun kəndirə oxşayır, gərək heç zaman qırılmasın, hərçənd qırılandan sonra da dartmaq olur, amma ortasında düyün qalır.

- Bilirsən, qardaşım, - yenə mülayim, bacardıqca diplomatik formada sözə başladım, - hərənin bir yazı tərzi var – kimi realizmi sevir, kimi magik realizmi, kimi naturadan çəkir…

- Amma hamı həyatdan yazır!

- Sən mənim canım, sözümü kəsmə də… Əsas odu yazıçı yazmaq istədiyi mövzuda ədəbiyyatı görsün. Başa düşürsənmi? Həyatda çox şeylər olur, bilmirəm hər dəqiqə dünyaya nə qədər insan gəlir, nə qədər insan ölür. Hərəsi bir taledir, hərənin özünə maraqlı görünən hekayəsi var, amma bunların hamısının içində ədəbiyyat yoxdu axı. Elə sənin danışdığını götürək, müxtəlif dinlərə sitayiş edən sevgililər qoşulub qaçıblar bizim ölkəyə. Deyim sənə ki, onlar çox zirək tərpəniblər, hiss olunur ki, təzə əsrin diribaş gənclərindəndilər. Amma Şeyx Sənan öz Tamarasıyla qayadan atılmışdı, heç yana qaçmamışdı. Elə bilirsən qaça bilməzdi, əksinə, onlar hamının gözü qabağında özlərinə qəsd eləməklə insanlığa dərs verdilər. Bax, buna deyirlər böyük ədəbiyyat. Sənin danışdığın əhvalatsa maraqlıdı, amma bağışla mən orda ədəbiyyatı görə bilmədim.

- Qulaqlarıma inanan bilmirəm bütün bunları sən danışırsan? Həyatın öldürə bilmədiyi sevgililəri ədəbiyyat öldürmək istəyir, bu ki, dəhşətlidi… Yəni onları öldürsəydilər, ya da özləri əl-ələ tutub Qanq çayına atılsaydılar, onda ədəbiyyatı görə biləcəkdin? Bəs onda "həppi-end"lə qurtaran sevgi romanları, ya da elə bizim öz dastanlarımız ədəbiyyat deyil?

- Çox israr edirsən, qardaşım. Demədim ki, onlar ədəbiyyat deyil, sadəcə, mən orada ədəbiyyatı görmürəm. Yəni bu, mənim mövzum deyil. Axı kitablarımı oxumusan, nə vaxt görmüsən ki, sənin dediyin tərzdə nəsə yazım? Ola bilsin ki, kimsə bu ideyanı göydə qapıb maraqlı roman yaza bilər, dərhal da bestsellerə çevrilər, hətta serial da çəkə bilərlər, amma mən bacarmaram. Bircə mən yox.

Mən hələ ehtiyatda bir-iki arqument də saxlamışdım, onun növbəti həmləsini gözləyirdim. Ondan çıxmayan iş, səsini kəsdi. Hərçənd bunu razılıq əlaməti də hesab etmək olardı, lakin onun xarakterinə yaxşı bələd idim, bilirdim ki, belə rahatlıqla qılıncını qınına salan deyildi. O isə buxarlanan mixəkli çaydan içib susurdu, hər halda, özünü incimiş adam kimi göstərmirdi.

Mən doğrudan da heç vaxt sevgidən yazmamışam, deyim sizə ki, bu mövzunu sağmal inək kimi istismar edən yazıçılara da ciddi yanaşmıram. İçi məhəbbət romanları qarışıq, detektiv və ya vahimə kitablarına aludə olan

insanları da heç vaxt başa düşməmişəm. Əsasən evdar xanımlar üçün sentimental şeylər yazan kişi müəllifləri hardasa anlamaq olar, içi mənasız söhbətlər, qeybət və dedi-qoduyla dolu kitabların tirajı artdıqca ciblərini doldururlar və heç kim də onları qadınların zərif hissləri ilə oynadıqlarına görə qınamır. Amma həyatı əyri-üyrü krossvord kimi təsvir edən qurama süjetli detektivləri, insanları milçək kimi öldürən, şiddət və qorxudan başqa heç bir effekt yaratmayan vahimə romanlarını başa düşə bilmirəm. Mən bilmirəm, anlamıram, lakin adamlar anlamadığım bu "əcinnə" kitabları əldə etmək üçün hətta yağışlı havalarda belə saatlarla növbəyə dayanmağa hazırdırlar. Milyonlarla insanın eyni vaxtda başının xarab olmasını iddia edə bilmərəm, iş orasındadır ki, mən də dəli deyiləm axı.

Yeri gəlmişkən, sizə bir uğursuz eksperimentimdən danışım. Nə gizlədim, hərdən ürəyimdən keçirdi ki, mənasız bir macəra süjeti götürüm, hadisələri də salım içərisində qorxulu ruhlar dolaşan şəhər kənarındakı alaqaranlıq villaya, gətirim ora təzə sevişən cütlükləri və hamısını kefim istəyən kimi şaqqalayım. Məni düzgün başa düşün, axı adam nə qədər öz cibinin puluna kitab çap etdirər, mən də istəyirəm sərf etdiyim enerjinin əvvəl-axır bəhrəsini görə bilim. Nəysə, başladım qorxu romanı yazmağa, nələr fikirləşməmişdim; detektiv araşdırma, köməksiz halda vahimə içərisində bağıran sevgililər, hətta evdar qadınları da yaddan çıxarmamışdım – sən demə, camaatı parçalayan manyak həm də peşəkar aşpaz imiş, aradabir yaxşı şirniyyat reseptləri verirdi. İşlər gözlədiyimdən yaxşı gedirdi – qorxunu elə kreativ (bu söz hardan gəldi düşdü kitabın içinə, lap yamaq kimi görsəndi. Neynək, qoy qalsın.) təsvir edirdim ki, axşamlar masanın arxasına oturanda özümü də vahimə basırdı, məcbur qalıb yazmağa gecələr yox, səhərlər davam etdim. Lakin… uzun təsvirlərdən sonra nəhayət, kimisə öldürmək məqamı yetişdi, neçə dəfə cəhd elədim… heç kimi öldürə bilmədim. Aydın məsələdir ki, söhbət qəddarcasına icra olunan qətlin yazılı şəkildə təsvirindən gedirdi. Bacarmadım. Qılıncla ya qələmlə, həyatda ya ədəbiyyatda öldürülən insandı axı… Mən adam öldürə bilmədim. Heç bir prinsip uğrunda yox, sadəcə, elə-belə, məzə üçün insan ölümünün təsvirini özünün biznesinə çevirmiş yazıçılar inanıram ki, gecələr yatanda heç vaxt işığı söndürmürlər. Qəddarlığa yalnız qorxaqlar sitayiş edir – bu, yüz faiz belədir. Məsələnin başqa tərəfi də var – ölümdən ləzzət alan oxucunu sevgiyə inandırmaq nə dərəcədə mümkündür? Bax, indi mən dostumla oturub şəhərimizin ortasında yaşıl zolaq kimi uzanan parkda çay içirik, səkilərin kənarında, ağacların altındakı skamyalarda yanlarından ötənlərə əhəmiyyət verməyən cavanlar qolboyun oturublar. Onlara yaxınlaşıb "sevgi nədir" sualını versən, sənə dəli kimi baxarlar. Bizim zamanın cavanları belə şeyləri kitablardan öyrənmirlər, onların bildiklərinin yanında ədəbiyyatın aşılamaq istədiyi ideya divara vurulmuş lax yumurta kimidir. Fikir vermisinizsə, artıq çoxdandır ki "sevgi" kəlməsinin qabağında "ülvi" sözü işlənmir, çünki buna ehtiyac yoxdur, artıq bu arxaizmdir, sevginin özü isə çoxları üçün əlverişli biznes növünə çevrilib. Gənclər rahatlıqla tanış olur, bunun üçün kitaba dəxli olmayan saysız-hesabsız vasitələr - tanışlıq saytları, sosial şəbəkələr var və rahatlıqla da ayrılırlar. Tərslikdən həyat da davam edir. İndi mənim dostum düşünür ki, onun danışdığı əhvalat əsasında roman yazsam, insanlar bunu oxuyub bir-birlərini daha dərindən sevə bilərlər, yaxud da sevməyi öyrənərlər. Bir kitab ki, sevgidən bəhs edirsə, orada mütləq erotik yerlər axtaracaqlar, necə ki biz uşaq vaxtı "Min bir gecə" nağıllarında izdivac səhnələrini tapıb dönə-dönə oxuyar, altından karandaşla xətt çəkər, abzasların kənarında "quş" qoyardıq. Yataq sərgüzəştlərinin təsviri, əlimin içi

kimi bilirəm, mənim qələmimdə bayağı alınacaqdı, belə götürəndə heç özümü əziyyətə salmağa ehtiyac da yoxdu. Axı smartfonla gəzən gənclər bunun daha keyfiyyətlisini İnternetdən asanlıqla tapıb oxuya yox, baxa bilər. Yox, əgər söhbət ilahi eşqdən gedərsə, bu, haqda heç danışmaq istəməzdim, bəlkə də, XIX əsrin ikinci yarısında, heç olmasa XX əsrin birinci yarısında yaşasaydım, danışardım, amma indi uzun parkda mixəkli çay içərkən nəinki bu haqda danışan, hətta fikirləşən yazıçıya adamlar birtəhər baxar.

- Sevgidən yazmaq həm də xatasızdı, - armudu stəkanına təzə çay süzərək, dostum, nəhayət, sükutu pozdu. Ağzını açan kimi hiss elədim ki, artıq taktikasını dəyişib, bu dəfə israrla məni fikrimdən daşındırmağın faydasız olduğunu görüb indi qılığıma girməyə çalışır, – sənin yazdıqlarında ideya yükü çox olur, həm də həmişə sosial mövzulara girişirsən, hələ siyasi rəngləri demirəm. Niyə başını ağrıdırsan? Fəlsəfə hamı üçün deyil, sevgisə hamı üçündür.

- Bəh, bəh! Təbrik edirəm, yaxşı tənqidçiliyin də varmış ki. Fəlsəfi yazdığımı bilmirdim. Düz deyirsən, fəlsəfə hamı üçün deyil, amma hamı da sevə bilmir axı.

- Bax, elə ona görə də istəyirəm bunu sən yazasan, çünki sevməyi bacarırsan, - o, bu sözləri deyərkən qımışdı, elə bil nəsə zəif yerimdən yapışıb inadımı alt-üst edəcəyinə əmin idi. “Sevməyi bacarırsan” nəydi – yəni bununla nə demək istəyirdi? Bu vaxta kimi bizim bütün ömrümüz, demək olar ki, bir-birimizin gözünün qabağında keçmişdi, toylarımız eyni ildə olmasa da, eyni ayda olmuşdu, uşaqlarımız müxtəlif məktəblərə getsələr də, bir-birlərini tanıyırdılar, yəni otuz ili haqlayan dostluğumuzda elə an olmamışdı ki, yadıma salmağa çətinlik çəkim. Düşünmürdüm ki, bizim aramızda deməyə çəkindiyimiz, ya heç vaxt dilə gətirə bilməyəcəyimiz nələrsə qala bilərdi. Yaddaşıma nə qədər güc eləsəm də ağlıma heç nə gəlmədi, – yadındadı rus qızı? - bic-bic gülümsəyib dilləndi, - tut ağacının altında yanağından öpmüşdün?

- Nə rus qızı? - təəccübümdən donub qalmışdım. Həmən alnımı soyuq tər basdı, sən bir buna bax, ən yaxın dostum məni şantaj edirdi, – sən hansı qızdan danışırsan?

- Rus yox e, ukraynalı… kəndinizdə... adı nəydi, Marqarita, Rita, yox, yox, Mariyana…

- Mariya?!

- Hə, Mariya.

- Qardaşım, sən nə təhlükəli adamsanmış! Bu hardan yadına düşdü? Mən onu otuz il bundan qabaq unutmuşam, sən adını çəkənə qədər də yadıma düşmürdü. Gör ağlın harda qalıb? “Sevməyi bacarırsan” deyəndə Mariyanı nəzərdə tuturdun? İncimə qardaşım, sən məzuniyyət götür, istirahətə get, bunlar hamısı çox işləməyin fəsadlarıdır, sadəcə, başın şişib, “refleş” olunmalısan.

- A, incimə, xətrinə dəydim? Kim var burda, söhbətdi də edirik. Hə, yaxşı, mısmırığını sallama. Mənə elə gəlir ki, mənim danışdığım əhvalatla sənin Mariyanı sevməyin arasında nəsə bir əlaqə var…

- Əcəb işə düşdük? Bu nə əhvalatdı e, quraşdırmısan? Balam, məmur kimi sənin işinin adı ölkəyə gələn miqrantların sənədlərini araşdırmaqdı, tay roman konsepsiyası uydurmaq deyil ki?

- Nahaq elə düşünürsən. Mən sənə roman ideyası-zadı vermirəm, sadəcə, olmuş hadisəni danışdım. Bir də nədənsə yadıma sənin Mariyan düşdü, bu qədər.

- Qəribə oğlansan. Qəribə… - başımı bullayıb yalandan dodaqlarımı qımışdırdım. Əslində onun fantaziyasına heyran qalmışdım, özünə aid olmayan, başqasının çoxdan unudulmuş xatirəsiylə dünən baş vermiş hadisə arasında əlaqə axtarmaq üçün məmur yox, yazıçı olmaq lazım idi. Görünür, bu da taleyin zarafatı imiş, bizim yerlərimiz səhv düşübmüş.

Həmin axşam dostum bir daha söhbətin üstünə qayıtmadı. Lakin mənim içimdəki cin artıq şüşədən çıxmışdı. Heç nə olmamış kimi tamam başqa şeylərdən söz salsaq da, hətta arada təzə lətifələrdən danışıb hırıldaşsaq da, gözlərim yol çəkirdi. Məndə həmişə belə olur; yazmağın havası gələndə gözlərim elə hey yol çəkər, qaşlarım çatılar, iştaham pozular, yuxularım qarışar, bir sözlə, dünya gözümdə qoz qabığına girərdi. Elə bil, dibi görünməz sərt bir uçurumun kənarında dayanıb düşünürsən – aşağı tullanıb amansız qayalara çırpılıb tikə-parça olmaq yox, qanad açıb qaranlıq yarğanın üzərində uçmaq və bacardıqca buludlara qədər qalxmaq haqqında düşünürsən. Lakin addımını atan kimi dərin yarğanın dibinə yuvarlanıb heç nədən ölməyin və unudulmağın daha realdı, amma qanad açmaq ehtimalın da ola bilər. Bax, beləcə, içini didib-dağıdan tərəddüdlərlə ilk cümləni yazırsan, yəni gözlərini yumub yarğana sarı addım atırsan və bu zaman bütün yazıçılara elə gəlir ki, onlar səmanın yeddinci qatındadırlar, ola da bilsin ki, məhz həmin an hamımız uçurumun dibinə yuvarlanıb ölürük, sadəcə, xəbərimiz olmur. Yazı necə yaranır? Bu sualın milyon cür izahı, saysız-hesabsız yozumu ola bilər, hətta verilən cavablar dünyanın gəlmiş-getmiş yazıçılarının sayından on dəfə, yüz dəfə çox da ola bilər. Bax, mənim yazılarım ürəyimdəki səsdən yaranır. Bayaq dostum bir zamanlar həyatımı alt-üst etmiş acı məhəbbət əhvalatıyla dünən baş vermiş hadisə arasında əlaqədən danışanda, qulağıma ürəyimdən gələn zərif bir səs toxundu. Elə bil, nəsə "tık" elədi.

Mariya… səni necə unuda bilərdim axı, unutmuşdummu məgər?

Gözlərim yol çəkirdi. Ürəyimdəsə artıq hay-küy qopmuşdu…

Daqqa, noyabr, 2017

"Allahu-əkbər!" qışqıran kütlənin toz-dumanı ətrafı elə sardı ki, avtobusdakı turistlər bir anlıq özlərini səhranın ortasında qum fırtınasına düşmüş kimi hiss etdilər. Sürücü pəncərədən bağıraraq camaata nəyisə başa salmağa çalışırdı. Hansısa izah olunmaz enerjidən vəcdə gəlmiş adamlar onun nə deməsinə əhəmiyyət vermədən avtobusun qabağında sıralanıb qışqırırdılar. Səid yarıyuxulu olduğundan bayırdakı vahimənin istər-istəməz turistlərə də sirayət etdiyini gec anladı və dərhal da yerindən sıçrayıb həyəcandan gözləri dörd olmuş sərnişinləri sakitləşdirməyə çalışdı. "Narahatığa əsas yoxdu! Biz dəmiryolu xəttinə yaxınlaşmışıq, qatar keçdikdən sonra yolumuza davam edəcəyik. Bəzən belə də olur. Hər şeyi nəzərə almışıq", - dedi. Yalnız Tomas əmi və Merio xalanın gülümsəyərək başlarını tərpətmələrindən savayı sifətlərində qorxu donmuş sərnişinlərdən heç biri qımıldanmadı; onlar yanlarından ötüb keçən torpaq rəngdə adamlara elə baxırdılar ki, sanki təngnəfəs olmuş ceyran balası bu dəqiqə nərildəyərək onun üzərinə atılacaq aslanın sonuncu həmləsinə təslim olmağa hazırlaşırdı.

- Qatar gözləyirik? - Endryu Kruz bərəlmiş gözlərini bayırdakı insan dumanından ayırmadan xırıltıyla dilləndi. - Nə dedin? Qatar?

- Bəli, cənab Kruz, qatar indi bu ərazidən keçəcək. Bəzən qrafikimiz toqquşur… - Səid yenidən izah etməyə cəhd göstərsə də, baba Kruzun heç

də bayırdakı insanların səsindən az vahiməli görünməyən xırıltılı bağırtısı hamının qulağında cingildədi.

- Sizin başınız xarab olub! Bu axmaq qrafiki kim fikirləşib? Lənət olsun sizə də, sizin turunuza da! Belə qatar gözləyərlər? Vəhşilər! Mən şikayət edəcəm, sizi biabır edəcəm! Az qalmışdı şəkər olam! Qanmazlar!"

Baba Kruz bağırmağa başlayan kimi Müjdə həmişə avtobusda gəzdirdiyi "apteçka"sından valerian çıxarıb plastik stəkana bir neçə damcı süzdü. Oğlu nə qədər çiyinlərindən dartsa da, kişi yerindən qalxıb bağırırdı, əsəbindən dili dolaşdığından arada, sadəcə, qırıq-qırıq səslər çıxarırdı. Bu vəziyyətdə onun dolaşıq nitqi repdən daha çox öz səsindən vəcdə gələn, boğazının damarları göyərmiş rok müğənnilərinin çılğın ifasını xatırladırdı. "Rədd olsun sizin turunuz! Mənim nə işim var bu vəhşilərin arasında! Mən sizdən tələb edəcəm..."

- Kəs səsini, qoca kaftar! - axşamkı viskinin təsirini artıq çoxdan unutmuş Sergey avtobusun axırıncı oturacağından dartınıb baba Kruza sarı gəlmək istəyirdi. Sifətinin qanı qaçmış Aleksandra bir əliylə onun çiynindən basır, o birisiylə ağzını yummağa çalışırdı. "Açın avtobusun qapısını, atın bu qoca kaftarı "vəhşi" dediyi adamların arasına! Kaftar! Yum ağzını! Ay camaat, eşidirsiniz – burda bir kaftar var sizə "vəhşi" deyir!"

- Kaftar sənin atandı! - baba Kruz içib qurtardığı valerian süzülmüş plastik stəkanı Sergeyə tərəf tulladı, Vəli Özdəmir vaxtında ayağa qalxıb onun qarşısını kəsdiyindən Sergey bunu hiss etmədi.

- Siz bilirsiniz, bu niyə tir-tir əsir? Hə, ay camaat bilirsiniz? - Sergey də qışqırırdı. "Bu kaftar "Allahu-əkbər" sözündən qorxur. Qorxur nədi, baxın şalvarını isladıb!" Bunu deyəndən sonra o, əllərini bir-birinə vuraraq ləzzətli qəhqəhə çəkdi – "Tomas əmi, Tomas əmi, yalvarıram mənə baxın. Siz "Allahu-əkbər"dən qorxursunuz?" Tomas əmi arxaya qanrılıb gülərək başıyla "yox" işarəsini verdi. "Bax görürsünüz, Tomas əmi qorxmur, kişi adamdı çünki! Mən də qorxmuram! Amma sən, Endryu Kruz, üyüdürsən!"

- Cavan oğlan, siz lap ağ elədiniz. Özünüzdən böyüklə bu nə danışıqdı? - atasını sakitləşdirməkdə olan Uilyam Sergeyə gözlərini ağartdı.

- Cənab Uilyam Kruz, siz bunu atanıza deyin.

- Sənin xoşuna gələr ki, hamının gözünün qabağında atana "kaftar" desinlər, - Uilyam dilləndi. Baba Kruz sanki öz-özünə danışırmış kimi, əslində isə hamının eşidəcəyi tərzdə dodaqaltı mızıldandı: "O, bilir ki, atası kimdi?"

- Siz də ağzınıza yiyə durun də, - Aleksandra da Sergeyə qahmar çıxdı, – Seryojanın atası Əfqanıstanda vuruşub. Elə orda da həlak olub.

- Mən də Vyetnamda vuruşmuşam, bala, - baba Kruz dilləndi.

- Bilmək olar sizin Vyetnamda nə itiniz azmışdı?

- Bəs siz Əfqanıstanda nə itirmişdiniz?

Uzaqdan gələn fit səsi qurbağa gölünə atılmış daş kimi ətrafda sakitlik yaratdı. Vəli Özdəmirlə Cek Kruz Səidin xəbərdarlığına məhəl qoymadan kameralarını da götürüb avtobusun üstünə qalxmışdılar. Buradan hər şey çox aydın görünürdü: uzaqdan qatardan daha çox qıvrıla-qıvrıla metrlərlə uzanan nəhəng ilanı xatırladan tüstülənən bədheybət insanları uda-uda növbəti dayanacağına yaxınlaşırdı. Uzaqdan nə qədər qorxunc görünsə də, yaxınlaşdıqca onun ilandan daha çox insanların pərçimləndiyi aciz və heybəli soxulcandan başqa bir şey olmadığı aydınlaşırdı. Qatarın içərisini tam doldurandan sonra qapılarından sallanmış adamlar, elə belə də olmalıymış kimi, açıq qatarın üstündə də barmaq basmağa yer saxlamamışdılar; kimisi bardaş qurub oturmuş, kimisi heybəsini başının altına qoyub uzanmış, bəziləri arvaduşağını, bəzilərisə toyuq-cücəsini qoltuğuna vurub əyləşmişdi. Birinci vaqo-

nun üstündə dayanmış cavanlarsa qatar hərəkət eləyən kimi “Titanik” pozasında əllərini yana açıb üzü küləyə dayanaraq qışqırır, onların arxasındakı cərgədən kimsə Banqladeşin bayrağını yellədirdi. Nədənsə hamı sevinirdi - az qala bütün Banqladeşin yerləşdiyi vaqonların içində və üstündə olan adamların hamısı qatar hərəkətə başlayan kimi gülürdülər. Hamı gülürdü, bir Allahları bilirdi nəyə. Bayaqdan avtobusun ətrafında toz-duman yaratmış kütlə gözünü açıb yumunca heybəli soxulcanın hansısa buğumlarına dürtülüb özlərinə yer tapdılar, deyilənə görə, hələ qabaqda bir neçə stansiya da olmalı idi. Bəlkə də bu stansiyalar sonsuza qədər uzansaydı, insanların kürək-kürəyə, ət-ətə sıxışdığı qatarda yenə də kimlərəsə yer tapmaq mümkün olardı. Banqladeşin himni və Endryu Kruzun canına vəlvələ salmış “Allahu-əkbər” sədaları səngiyən kimi toz dumanı yatdı. Avtobus yoluna davam elədi. Yolüstü belə adrenalin yaşamaq daha çox cavanların işinə yaramışdı – Vəli Özdəmir kamerasının obyektivindən yayınmayan kadrlara baxdıqca artıq minlərlə “layk”ları, saysız-hesabsız “komet”ləri sanki əvvəlcədən hiss edirmiş kimi, qımışırdı.

- Amma yaxşı iş çıxardıq, - Vəlinin yanında oturmuş Cek Kruz da elə onun kimi sevinirdi.

- Super! Bundan yaxşısını təsəvvür eləmək olmazdı. Amma bunu necə təqdim eləmək lazımdı, bilmirəm? Sponsorlarım inciməz ki?

- Niyə incisinlər ki? Yolüstü macəra, bundan yaxşı nə ola bilər? - Cek dedi. “Yaz ki, ekstrim turdan fraqment!” - bayaqdan iki dostun boynunun arxasından roliki izləyən Sergey daha yaxşı variant tapdığını düşünərək dilləndi.

- Yox, nə ekstrim? Bu vaxta qədər roliklərimdə ancaq komfortdan danışmışam. Adamlar yaxşı başa düşməz, - Vəli mızıldandı.

- Sadəcə, yaz “Banqladeş”. Vəssalam, hər halda biz Fransada deyilik, - yan cərgədə oturmuş Mariya gülərək söhbətə müdaxilə etdi. Vəli Özdəmir başına alma düşən Nyuton kimi sevindi, dönə-dönə Mariyaya təşəkkür elədi. “Mariya, sənin də başın işləyir ha”, - Sergey irişərək göz vurdu. “Bəs elə bilirdin ancaq sənin başın var?” -Mariyanın özünü gözlətməyən hazırcavablığı hamıdan çox elə Sergeyin özünə ləzzət elədi, Aleksandra çiynini dümsükləyənə qədər uğunub getdi. Artıq alayarımçıq tikililəri, rikşaların şütüdüyü əyri-yürü döngələri, ən əsası torpaq rəngdə adamların qaldırdığı toz-dumanı arxada qoyan avtobus Daqqanın aeroportuna yaxınlaşırdı.

Yol boyu yalnız Sakura ətirli çəhrayı rəngdə yuxular görən Müjdənin bayaqkı çaxnaşmadan sonra gözləri yumulmadı, sadəcə, başını Səidin çiyninə qoyaraq baxışlarını məchul nöqtəyə zilləmişdi. Turistləri müşayiət etdikcə başına kiməsə gülməli, kiməsə qorxulu görünən az hadisə gəlməmişdi. Hər şeylə maraqlanan, bir gəlişiylə Asiyanın dadını çıxarmağa çalışan turistlərdə yaxşı təəssürat yaratmaqdan ötrü onların türlü kaprizinə dözmək lazım gəlirdi. Şirkətinin reputasiyasına az qala öz namusu qədər, bəlkə də, ondan da ötə həssaslıqla yanaşan xəsis menecer ölkələrinə qayıdan hansısa turistin tur haqqında bir balaca mənfi rəy yazmasına görə bəzən saatlarca onları danlayır və məsələni o həddə çatdırırdı ki, işçi özü “səhv”ini etiraf edib məvacibindən tutulmaqla cərimə olunmasına razılaşsın. Müjdənin də, elə Səidin də bir neçə dəfə belə “səhv”ləri olmuşdu. Ürəklərinə dammışdı ki, bu səyahət də başa çatandan sonra başı çiyninin üstündə sağa-sola laxlayan menecer üzünə “narazı” maskasını taxıb onların maaşını kəsmək üçün necə lazımdı çənə döyəcəkdi. Hər şey ölkəsinə qayıtdıqdan sonra Endryu Kruzun verəcəyi rəydən asılı olacaqdı. Görünür, bayaq hədər yerə bağırmırdı, açıqca şikayət edəcəyəini də dilə gətirmişdi. İndi “Allahu-

əkbər”dən qorxan bir ağciyər amerikalıya görə insafsız menecer “uf” demədən onların maaşlarını kəsə bilərdi. “Bilirsən…”, - Müjdənin qayğılı gözlərinə baxanda Səid onun ürəyindən keçəni göydə tutdu. “Endru Kruzla işin olmasın. Onu mənə burax. O, heç də göründüyü kimi pis adam deyil. Kobuddu, amma pis adam deyil”. Müjdə artıq heç bir sual vermədi, ağzını açmadan Səidin onun nə demək istəməsini göydə tutmasına da təəccüblənmədi. Onlar çoxdan idi ki, kəlmə kəsmədən, eləcə qırıq-quruq səslərdən, sadəcə, baxışların toqquşmasından bir-birlərini anlayır, başa düşürdülər. İnsanların bir-birini bax beləcə tamamlamasının, ani baxışdan içindən keçənləri oxumasının geniş izahını verməyə, necə deyərlər yenidən velosiped icadına ehtiyac yox idi, bunun bircə adı vardı – sevgi.

Turistlər Daqqanın adam qaynayan hava limanında bir-birlərindən ayrı düşməmək üçün gözlərini irəlidə gedən Səidin başı üzərinə qaldırdığı sarı balaca üçkünc bayraqcığazdan ayırmadan addımlayırdılar. Bu basırıqda hətta elə təəssürat yaranırdı ki, avtobusun qabağından ləngər vurub keçən qatar bütün sərnişinlərini təyyarələrə təhvil verib relsindən çıxmışdı. Vaqonların üstündə üzü küləyə kürək-kürəyə dayanmış gülərüz adamlar sanki bu dəfə təyyarələrin qanadlarından, təkərlərindən sallanıb əllərində Banqladeşin bayrağı buludların üstünə qalxacaqdılar. Nə gömrük məntəqəsində, nə də sərhəd keçidində dərisinin rəngindən bu yerlərin adamlarına oxşamayan şəxsləri çox da yubatmırdılar, hətta bəzən adama elə gəlirdi ki, heç çantaları yoxlamağa da həvəs göstərmirlər. Ədviyyatlı yeməklərin damaqda ilişib qalmış dadından, sadə, qarabuğdayı adamların nigaran təbəssümündən, bir də günəşin yandırdığı ölkənin qəlbinə hopmuş istisindən başqa Banqladeşdən nə aparmaq olardı ki?

Saatlardı ciyərlərinə çəkdiyi rütubətli havadan bezib guruldayan təyyarədə hamı öz yerində oturmuşdu, heybəli soxulcana oxşayan qatardan fərqli olaraq onun gövdəsindən heç kim sallanmamışdı. Müjdə tur iştirakçılarının göyərtədə olduqlarını dəqiqləşdirmək üçün sonuncu dəfə narahat nəzərlərlə turistlərə, bir də əlində tutduğu vərəqə baxırdı. Nəhayət, yerinə keçəndə oturacağın üzərində bir dəstə Sakura çiçəyini, bir də Səidin ona zillənmiş parlayan baxışlarını fərq etdi.

- Sakura hardan çıxdı? Özü də noyabr ayında…

- Yuxuma girmişdi, mən də sənin üçün dərdim.

- Yaxşı görək?

- Nə var ki, burda. Demişdim axı, səni Sakura öz çiçəklərini sevdiyi kimi sevirəm.

- İndi noyabrdı axı?

- Bizim Sakuramız ilin bütün fəsillərində, bütün aylarında çiçəkləyir. Bax, bu da sübutu.

- Axı sən bunu necə elədin?

- Dedim axı, yuxuma girmişdi.

Müjdə artıq israr etməyə söz tapmadı, heç buna cəhd də göstərmədi. İnanılmaz idi, bir azdan göyün yeddinci qatına qalxacaq təyyarədə yerdə soraqladığı çiçəkləri əlində tutmuşdu. Bir istədi soruşsun ki, axı Sakura həmişə mənim yuxularıma girir, sən başqasının yuxusundan necə çiçək dərə bilirsən? Səidin parlaq gözlərində qışı qabaqlamış baharın hərarəti elə yer etmişdi ki, heç nə soruşmadı. Bəlkə, ikimiz də eyni vaxtda eyni yuxuları görürük, məgər dünyada belə qəribə şeylər olmurmu? Müjdə gözlərini rayihəsi ruhunu oxşayan çiçəklərə zilləyib bu sual haqqında düşünürdü. Təyyarə Sakura ətirli məhəbbət qaranquşu kimi rütubətli havanı yarıb artıq çoxdan buludların üstünə qalxmışdı.

Vəli Özdəmir Cek Kruzla xısın-xısın nədənsə danışıb pıqqıldaşır, Aleksandra ilə Sergey Şri-Lankadakı macəralar üçün ciblərində nə qədər pulun qaldığını hesablayır, Uilyam Kruz hələ də əsəbləri soyumamış atasının peysərinin arxasından buludlara baxıb düşünür, Tomas əmi Merio xala həmişəki kimi əl-ələ tutub oturmuşdular, hərdən baxışları toqquşanda gülümsəyirdilər. Qrupdan bir qədər aralı düşmüş Mariya isə yanında əyləşmiş qara çadralı əndamlı qadının təyyarə havaya qalxar-qalxmaz xoruldamasından heyrətə gələrək smartfonunu qurdalamaqdaydı.

Təxminən qırx dəqiqəlik uçuşdan sonra təyyarə dərin çuxura düşmüş kimi qəflətən aşağı yuvarlandı, sonra bir təhər müvazinətini tənzimləmək istəyirdi ki, bu dəfə də sol qanadı üstə əyilib bir müddət ləngər vurdu. Yırğalanma elə möhkəm oldu ki, stüardessalardan biri özünü saxlaya bilməyib yerə yıxıldı, arxa cərgələrdə kimlərinsə ürəyi bulanmağa başlamışdı, ara-sıra eşidilən qışqırıq, hıçqırtı səsləri təyyarənin ikinci ləngərindən sonra artıq bütün salona sirayət etdi. Mühərrikin səsi dəyişilib ətürpədən uğultuya çevriləndə insanlar mütləq nəsə pis bir şeyin olacağını anlayıb qaynaşmağa başladılar. Oturacaqlardan yapışaraq birtəhər yerdən qalxan stüardessa əliylə nəsə işarə eləməyə macal tapmamış orta cərgələrdən kimsə "Allahu-əkbər" qışqırdı, hələ də nəyin baş verdiyini fərq etməyən Endryu Kruz bu sözə bəndmiş kimi bayıldı, amma onun ürəyinin getməsini heç yanında oturmuş oğlu belə fərq etmədi. Onun armud kimi sinəsinə sallanan başına baxan Uilyama elə gəlmişdi ki, uzun yolun yorğunluğundan atası mürgü vurur. Sərnişinlərin içərisində ən acınacaqlı vəziyyətdə olan qapısı heç cür açılmayan tualetdə ilişib qalmış şişman bədənli kişi idi; o, əvvəlcə var gücüylə qapını döyəclədi, bacardığı qədər ucadan bağırdı, sonra pişik kimi xoruldadı və səsini kəsdi. Şiddətli külək təyyarəni saplağından qırılıb yerə düşməyə hazırlaşan axırıncı payız yarpağı kimi titrətdikcə, adamlar vahimə içərisində artıq axırlarının çatdığını zənn edib bağırırdılar.

Həmin anda kiminsə rasional düşündüyünü güman etmək, sadəcə, mümkün deyildi, labüd ölümün qabağında dinindən, dualarından, savadından və pulundan asılı olmayaraq hamı, sadəcə, ət və sümük parçasından başqa bir şey deyildi. On min kilometr hündürlükdən okeana, bəlkə də yerə çırpılacaq bu qədər ət və sümük parçasının bir-birinə qarışıb "doğmalaşacağının" ölüm mələyi üçün fərqi yox idi. Hamının hönkürtüylə ağlayaraq sona çatmağa saniyələr qaldığını düşündüyü anda qara çadralı əndamlı qadının mışıl-mışıl uyuması Mariyada heyrətamiz qibtə hissi yaratmışdı və elə həmin an – bu vurhavurun o, özünün çarşabın altında xoruldayan qadının yerində olmasını arzulayırdı. Xışıltının arasından pilotun zorla eşidilən qırıq-quruq səsi isə adamları sakitləşdirmək əvəzinə gərginliyi bir az da artırmış oldu: "…Çalışacağıq… çalışırıq aşağı enək… cəhd göstəririk…" Yırğalanan təyyarənin salonunda hərəkət edə bilməyən stüardessalar, sadəcə, kənarda əl-qol işarələriylə nələrisə izah etməyə çalışsalar da, başının hayında olan adamlar bu mənasız jestlərə əhəmiyyət vermirdilər. Sürətlə aşağı enməkdə olan hava gəmisi yalnız buludların arasında bir qədər yavaşıyıb müvazinətini düzəldə bildi. Hərə öz bildiyi dildə, öz tanıdığı tanrısına dodağının altında dua edərək titrəyirdi. Salona çökmüş ani sükutu stüardessanın tualetin qapısını şappıltıyla açması pozdu, daha doğrusu, qapı açılan kimi şalvarının belini çəkməyə imkan tapmamış güllü tuman geymiş yoğun bir cəmdək yerə sərildi. Qızlar onun qollarından tutub sürüyərək Mariyanın yanında xoruldayan qadının arxasındakı oturacağa pərçim etdilər. İnsanlar təyyarənin ağ buludların arasında toxtayıb sakitləşdiyinə elə sevinmişdilər ki, burunlarını deşən pis qoxunun fərqinə varmadılar.

"Hörmətli sərnişinlər, danışan kapitandır. Həyəcana əsas yoxdur. Xahiş edirəm yerlərinizdə əyləşib kəmərlərinizi bağlı saxlayasınız. Marşrut üzrə hərəkətimizi davam etdiririk", - pilotun sözləri istər-istəməz adamlarda toxtaqlıq yaratmalı idi. Lakin, bayaqdan ətürpədən uğultuya çevrilmiş səslər çıxaran mühərrik bu dəfə cəllad kötüyünə çırpılan balta kimi taqqıldamağa başlayanda ağ buludların üzərinə zərif qara xəttə bənzəyən tüstü cığırı göründü. Yenidən vahimə və bağırtılar…

Yavaş-yavaş hamının burnunu deşib canına vəlvələ salan tüstü qoxusu hətta pilot kabinesinə qədər gedib çatmışdı. Nə vaxtsa belə bir xaosun içərisinə düşəcəyini ağlına gətirməyən stüardessa orta cərgədə illüminatora qısılıb siqaret tüstülədən bığıburma kişini vaxtında aşkarlamasaydı, çox güman ki, pilot da təyyarənin yandığını güman edəcəkdi. "Cənab, nə edirsiniz? Söndürün siqareti!". "Niyə axı?!" - kişi eyni qəzəb və təəccüb dolu səslə bağırdı – "onsuz da ölürük, sonuncu dəfə siqaret çəkmək istəyirəm. Rədd olun!" - o, qorxudan, ya stressdən axan göz yaşını silib, yenidən dərin bir qullab aldı. "Cənab…". "Rədd olun!". "Xəbərdarlıq edirəm, yığışdırın xuliqanlığı. Sizə qarşı sanksiya tətbiq edərik. Bir daha təyyarədə uça bilməzsiniz". "Bundan sonra uçsam, əclafam! Bu artıq sondur. Biz ölürük!..". "Mən sənin kimi heyvanla bir yerdə ölmək istəmirəm", - bu, kişinin arxasında oturmuş Mariya idi, əlini uzadıb közərən siqareti onun barmaqlarının arasından götürdü. Kişi elə buna bəndmiş kimi döş cibindən yenisini çıxarmaq istəyərkən Mariya müdhiş bir cəldliklə bütün qutunu qamarlayıb stüardessaya tərəf tulladı. Qorxu və hikkə bığıburma kişinin gözlərini elə tutmuşdu ki, çiyinlərinin arxasından uzanan ağappaq mələk əllərinin incəliyinə fikir verə bilmədi, ona elə gəldi ki, nəsə artıq hərəkət etsə, iblisin alovlu barmaqları ulğumunu üzüb buludların üstünə ata bilər. Müqavimətin mənasız olduğunu anladığından başını illüminatora döyəcləyərək "ölürük, ölürüüük…" deyə zarıdı. Mariyanın gözləri elə qızarmışdı ki, nəinki stüardessanın heyrətlə ona təşəkkür etməsinə, xoruldayan çadralı qadına belə əhəmiyyət vermədi. Ədəbsiz birini yerində oturdacaq qədər qətiyyət göstərməsi özünü də heyrətləndirmişdi, əgər qarşısına məqsəd qoysaydı, heç vaxt belə addım ata bilməzdi. İçindən keçən hansısa hiss, babalarının genindən süzülən hansısa instinkt idi ki, cahilliyin üzərinə vulkan kimi püskürmüşdü. Mariya elə indicə, göyün yeddinci qatında içində gizlənmiş üsyankar təbiəti kəşf eləmişdi və bundan sonra yalnız yaşamaq istəyirdi. Ölmək olardı – istənilən vaxt, istənilən saatda, bircə indi yox. Salonun ön tərəfində oturmuş qrup üzvləri onun şücaətindən xəbər tutmadılar, bu qədər hay-küyün içərisində heç ona sarı çevrilib baxan da olmadı.

Cəllad kötüyü dayanmadan taqqıldayırdı; ölümlə gizlənpaç oynayan şıltaq bir baş boynunu kötüyün üzərinə uzadır, balta enən kimi dərhal geri çəkilirdi, boş yerə çırpılmaqdan ağzı küləşmiş balta əvvəl-axır ona meydan oxuyan bu həyasız başı saplağından ayırmaq üçün daha da qəzəblə qalxıb-enirdi. Yarıməzəli, yarıağlamalı bu təhlükəli tryukun tamaşasına yığılmış adamlar həyatla ölüm arasında kəndirbazlıq edən yaramaz başdan daha çox onu bədənindən ayırmaq üçün qəzəb içində boğulan baltanın tərəfində idilər. Əzrayılın pəncəsindən sıyrılıb qaçmağa nail olmaq – kiminsə göstərdiyi fərdi qəhrəmanlıqdı və bu, geniş kütlə üçün o qədər də maraqlı gəlmir. Ölümlə nəticələnən, kiminsə həyatı bahasına göstərilmiş fədakarlıq başqa məsələ – bu əhvalat hamının gözünü yaşardır. Elə buna görədir ki, insanlar ölü qəhrəmanları dirilərdən daha çox sevirlər. Ən yaxşı şeirlər, hətta ən düşük şairlərin ifasında ölümündən sonra qəhrəman olduğu bilinənlər haqqında

yazılır. Bu təyyarənin sərnişinləri arasında nə qəhrəman, nə də qorxaq vardı, lakin artıq dəqiq idi ki, insanlar bu siçan-pişik oyunundan boğaza yığılmışdılar. Hətta bəziləri buludların arasında gah o, gah da bu biri qanadı üstə ləngər vuran hava milçəyinin, nəhayət ki, yerə çırpılıb dağılmasını səbirsizliklə gözləyirdi. Ani bir tappıldı vəssalam, qalanı təfsilat idi, qalanı dirilərin işi olacaqdı.

"Görürsənmi, ata? Ölümə gedirik, deməli, hər şey bura qədərmiş. Sənə qəribə gələcək, istəyirəm son nəfəsimizdə sənin qəzəbli sifətində nəsə təbəssümə oxşayan bir şey görüm. Həmişə bunu arzulamışam. Bütün ömrüm boyu. Səni güldürmək üçün nə qədər oyunbazlıq eləmişəm, bir bilsən? Heç vaxt mənim üzümə baxanda eynin açılmayıb. Nəvəni doğum evindən gətirəndə, onu qəsdən evimizin kandarında qucağına verdim və diqqətlə sifətinə baxdım, heç dodağın da qaçmadı. Rəhmətlik anam deyərdi ki, sən heç öz toyunda da gülməmisən. Bu ki dəhşətdi ata, belə necə yaşamaq olar? Eşidirsənmi, Allahıma şükür edirəm ki, mən sənə oxşamamışam. Heç nəvən də sənin tayın deyil. Amma bunu çox arzulayırdın, eləmi? Axırımız çatana yaxın axırıncı sirrimi də deyim ata, mən biseksualam. Mən sənin arzuladığın adam deyiləm, heç buna cəhd də eləməmişəm. Sənin öyüd-nəsihətini qulaqardına vurmaqdan keyfli nə ola bilərdi ki... Yaxşı ki, indi ölürəm. Bilirsən, mən buna sevinirəm, çünki sənin kimi qocalmaq da istəməzdim. Ata, eşidirsənmi…" Uilyam Kruz bütün bunları həyəcanlı pıçıltılarla atasına söyləyəndə təyyarə buludların arasından sıyrılıb dağları, qayaları nöqtə boyda sezilən materikə yaxınlaşırdı. İllüminatora yaxın oturmuş adamlar seyrəlmiş duman qatının arasından yağlı boya ilə işlənmiş tablonu xatırladan torpaq parçasını görərkən daha ucadan qışqırmağa başlamışdılar. Bu, bağırtıların arasında Uilyamın bütün ömrü boyu hamıdan gizlətdiyi sirlərinin faş olması heç kimin eyninə deyildi. Ata Enrdyu Kruz isə oğlunun səmimi etiraflarından sonra sinəsinin üstündə ləngərləyən başını qaldırıb heç onun üzünə də baxmadı.

"Saşa, möhkəm ol! Saşa, Saşacan! Bizim axı nə itimiz azmışdı Asiya cəngəlliyində?! Hər şeyi sənin anan elədi. Bəli, Saşa, günah anandadı", - Seryoja təyyarənin birinci təkanında özünü itirmişdi. Aleksandranın onu sakitləşdirmək üçün etdiyi bütün cəhdlər boşa çıxmışdı. Affekt vəziyyətində gözünə görünən nə varsa, dağıtmağa hazırlaşan Seryojanı stüardessanın iki daşın arasında hardansa tapıb gətirdiyi yüz əlli qramlıq vodka bir balaca toxtatmışdı. Mühərrikin uğultusu cəllad baltasının taqqıltısına çevriləndə, o da əksər sərnişinlər kimi hönkür-hönkür ağlamağa və sistemsiz sözlər danışmağa başlamışdı. "Saşa, mən atam kimi ölmək istəmirəm. Onu elə mən yaşında… hə mənimlə eyni yaşda olanda öldürüblər. Saşa, bilirsən atamı necə öldürüblər? Onu da Əfqanıstanda vertolyotda partladıblar. Mən ölmək istəmirəm, Saşacan. Lənət olsun sənin anana! Saşa, sənin anan fahişədi, bunu bilirdin? Onun çoxlu pulu var. Hamısını atandan oğurlayıb. Səndən gizlədir. Bilirsən mənə necə təkliflər eləyib… mən də hamısına razılaşmışam. İstəyirəm ölməmişdən qabaq bunu biləsən. Onsuz da əvvəl-axır biləcəkdin… Saşa, mən səni sevirəm… mən ölmək istəmirəm atam kimi…" Aleksandra başını əllərinin arasında sıxıb dayanmışdı; o, göyərtəni başına götürmüş insan nalələri arasından bal ayına çıxdığı ərinin dediyi bütün sözləri yaxşıca eşidirdi və bu söz yığınını ölümə gedən adamın sayıqlaması bilib ciddiyə almaq istəmirdi. Seryoja daha hündürdən bağıraraq yenə nəsə qırıq-quruq səslər çıxarmağa davam edə bilərdi, Saşanın onun sifətində partlayan tərs şapalağı monoloqun davamına imkan vermədi.

Vəli Özdəmir təyyarənin ikinci silkələnməsində burnuna tüstü iyi dəyən kimi kamerasını çıxarıb bağıraraq dua edən adamları çəkirdi və bu nəhəng xaosun içərisində yaşamağı hamıdan çox, o, arzulayırdı. Real ölümə gedənlərin əsil hiss və həyəcanını lentə almaq dünyanın hələ heç bir blogerinə nəsib olmamışdı. Bu artıq realiti-şou deyildi, bu, elə həyatın özü idi və ölüm qulağının dibində dayanıb səninlə məzələnirdi. Vəlinin həmin anda ürəyindən keçən yeganə arzu hansısa möcüzə nəticəsində ölümün pəncəsindən xilas olub bütün bunları internetə yükləmək idi. Vəssalam, bircə rolik və dünya şöhrəti! O, kamerasının obyektivini yanında əyləşmiş Cek Kruza tərəf tuşlayanda, hərəkətinin kənardan nə qədər tragikomik göründüyünün fərqinə vardı. Başına hava gəlib, onsuz da hamımız ölürük, hərənin heç olmasa, bir tikəsi tapılacaq sənin kameranın isə heç izi-tozu da qalmayacaq – Vəli içindən gələn səsə təslim olub titrəməyə başladı.

- Ata! Ata! - Cek Kruz yan sırada iki cərgə arxada əyləşmiş atasını haylayanda Uilyam başı sinəsinin üstündə ləngər vuran atasına nələrisə etiraf edirdi və bu qədər bağırtının arasında az qala yadından çıxardığı doğma oğlunun onun haylamasını eşidə bilmədi, - mən səni sevirəm ata! - Cek səsinə güc verərək hıçqırırdı.

- Cek, bəxtin gətirib, atanla, babanla bir yerdə öləcəksən. Mənimkilərsə çox uzaqdadılar, hərəsi də bir tərəfdə, - Vəli kamerasını dizinin üstünə çırpıb əyləşdi, - bəxtin gətirib, Cek...

- Sən əsil axmaqsan. Nə danışdığını bilirsənmi?

- Cek, mən atamı çox sevirdim, amma o, məni atdı. Mən anamı ondan da çox sevirdim, o da məni atdı…

- Başın sağ olsun.

- Onlar ölməyiblər, Cek, yaşayırlar, sadəcə, məni atdılar. Hərəsi bir ayrı cürə xoşbəxtdi, məndən savayı. Sevdiklərim hamısı məni atır, yaxınlarım, doğmalarım…

- Vəli, niyə belə danışırsan? Biz ölürük, ona görəmi?

- Cek, mən adamlardan çox, pulu sevirəm. Bilirsən niyə? Çünki Avropada yaşamaq istəyirəm, orada tualet təmizləmək, taksi sürmək yox, əsil adam balası kimi yaşamaq istəyirəm. Avropada pulu olmayana hörmət eləmirlər. Bilsəydim ki, bədənim Hind okeanında balıqlara yem olacaq, heç olmasa, pullarımın yerini kiməsə deyərdim.

- Mənsə LGTB-nin üzvüyəm, Vəli. Bunu hiss eləmişdinmi?

- Mən indi heç nə hiss eləmirəm, Cek!

- Atama deməmişəm, hər halda, bilsə, məni öldürməzdi. Babamsa başqadı. Eşitsə, yəqin ürəyi partlayar. Əgər nə vaxtsa o, öz əcəliylə ölərdisə, mən hər şeyi atama etiraf edə bilərdim. Babam istəyir mən də onun kimi dəniz piyadası olum. Mənsə Amerikanın prezidenti olmaq istəyirdim. Oval kabinetdə dünyanı dəyişəcək qərarlar vermək idi mənim arzum. İşə bax, indi üçümüz də eyni vaxtda ölürük… arzularımızla bir yerdə…

Sakura ətirli məhəbbət qaranquşunun göyün ənginliyinə qalxar-qalxmaz şıltaqlıqla qanadlarını səyritməsi nə Səidi, nə Müjdəni qorxutmuşdu, çünki, onlar indi çox uzaqda idilər; okeanın ortasında dünyanın heç bir xəritəsində görünməyən, heç bir səyyahın bu vaxta kimi arayıb tapa bilmədiyi sakit adada bitən yeganə Sakura ağacının altında əyləşib dalğaların pıçıltılarına qulaq asırdılar. Nə ürəkləri, nə dilləri danışırdı, eləcə okean pıçıldayırdı. “Mən səni sevirəm” kəlməsi lazımsız adamların dilində o qədər işlənib, bayağı mahnılarda, məzmunsuz şeirlərdə o qədər istismar olunub ki, əsil sevgililər bir-birlərinə bu cümləni lap axırda utana-utana, çətinliklə ya da candərdi

deyirlər, bəzən isə heç vaxt demirlər, sadəcə, ləpəli sahilin pıçıltısına qulaq asırlar. “Mən səni sevirəm” - əvvəlcə ürəkdə boy göstərib tumurcuqlanan bu sözlər gəlib dilin ucunda düyünlənənə kimi nə qədər yol qət etmək lazım gəlir, bilən varmı? Bu kəlmənin elə sehrli qatı var ki, onu bütün varlığınla deyəndə mütləq ətrafına baxmağı unutma – bir göz qırpımında dünyanın necə gözəlləşdiyinin şahidi olarsan, hətta qarlı-şaxtalı havada belə, burnuna Sakuranın xoş ətri toxuna bilər. Və bir də güc! Qarşını kəsən maneələri – aşılmaz sədləri, qaranlıq yarğanları hamarlayıb düppədüz edən gücü yalnız sevərkən hiss eləmək olur. Ölüm sevginin ayağına dolaşan quyruğu kəsik küçük kimi yalnız zingildəyə bilər, lakin heç vaxt ona qalib gələ bilməz. Bəlkə də, təyyarənin göz yaşı tökən sərnişinlərindən heç olmasa bircəciyi “ilahi, bizi sevənlərə bağışla” deyərək dua eləsəydi, sürətlə yerə çırpılmağa hazırlaşan hava gəmisi özünə gəlib toxtayardı. Müjdə başını sevgilisinin çiyninə qoyub çəhrayı çiçəkləri burnuna sıxmışdı, Səidin gözləri illüminatordan aşağı zillənsə də, qulağında tənha adanın sahillərinə çırpılan azman okeanın ləpələrinin xışıltısından başqa heç nə eşidilmirdi.

Elba sahilindəki Florensiyada isə tufan qopmuşdu. Fevralın ilik donduran şaxtasında dəmir başlı əjdahaların püskürtdüyü alov insanları diri-diri yandıraraq külə döndərirdi. Göydən od yağırdı. Küçələri, tinləri yalayıb keçən dəmir donlu, qəzəbli əjdahaların ağzından çıxan alov dilimləri arasında övladlarını haraylayan anaların nalələri, tərk edilmiş mənzillərdə siçovultək civildəyən qundaqdakı körpələrin iniltisi bir-birinə qarışmışdı. Kimlərinsə uzaqda tüstü-dumanı içərisində çətinliklə sezilən silueti görünür və elə həmin an da alov dalğalarının ağuşunda yoxa çıxırdı. Başlarına yağan bombalardan qorunmaq üçün zirzəmilərə doluşmuş adamlar sadəlövhcəsinə sağ qalacaqlarını ümid etsələr də, küçələri dəmirçi sobası kimi qızdırmış qasırğa onların elə gizləndikləri yerdəcə canlarını alırdı. Açıq havada canını qurtarmaq üçün hara gəldi qaçanlar alov dilimləri arasında yanıb külə dönür, sığınacaqda gizlənənlər isə havasızlıqdan boğulurdular. İnsanların əllərini göyə qaldırıb Allahı axtardıqları səmtdən aşağı baxanda Elba sahilində nəhəng bir tonqal yanırdı, göyün yeddinci qatına insan hayqırtıları çatmasa da, eləcə tonqala baxmaq kifayət edirdi ki, amansız cinayətin miqyasını görə biləsən. Həmin an Yer kürəsinin qaynar qazana çevrilmiş bu nöqtəsində nəyin baş verdiyini və yaxud da niyə baş verdiyini aydınlaşdırmalı olan tarix özü də heç vaxt bu sualların dəqiq cavabını tapa bilməyəcəyindən xəcalət çəkirdi. Bəs məntiq? Məntiq çoxdan yanıb külə dönmüşdü. Şəhərin qürur mənbəyi sayılan Frauenkirxe kilsəsinin xarabalıqları arasından sıyrılıb ayaqyalın qaynar sobanın üstüylə qaçan altı yaşlı oğlan dağılmış bəndin üzərindən tullanaraq nəhayət, Elbaya yetişdi. Göydən od yağdıran əjdahaların nəriltisi arasında qulağına soyuq çayın bir qədər yoxuşa düşən sahili tərəfdən pişik miyoltusuna oxşar inilti səsləri gəldi. Əynində hisə batmış gecə köynəyi, sağ ayağına keçirdiyi burnucırıq corabından savayı heç nəyi olmayan tifil bir qız titrəyə-titrəyə ağlayırdı. Onu görcək, bircə kəlmə söz dedi - “əlimi buraxma”. Bu, onların əl-ələ verib yaşadıqları bütün ömürləri boyu bir-birlərindən eşitdikləri ilk və sonuncu sözlər olacaqdı – “əlimi buraxma”. Sonradan, lap sonralar dünyanın bütün həkimləri onlara anadangəlmə lal diaqnozunu qoyanda da, sadəcə, gülümsəyib başlarını yelləyəcəkdilər. Onlar lal deyildilər, dünyanın misli görünməmiş dəhşəti, sümükləri sızladan ədalətsizliyin qabağında səsi qulaqardına vurulan bütün vicdanlı adamlar kimi dilləri qurumuşdu. ...Bir-birinin əlini buraxmayan tifillər ayaqlarının altı qançır olana qədər Elba boyu qaçırdılar - arxada doğmalarını, dəyərlərini, mədəniyyətlərini buraxaraq

qaçırdılar... İndi hərənin öz dilində Allahını harayladığı təyyarənin göyərtəsində bircə Tomas əmi və Merio xala əl-ələ tutub gülümsəyirdi. Sən bir təsadüfə bax, bir vaxtlar başına göydən od yağsın, indi isə özün od olub yerin üstünə düşməyə hazırlaşasan – hər ikisi labüd ölüm idi, amma onlar artıq bir dəfə nəsə buna oxşayan ölümə qalıb gəlmişdilər. Onlar bir dəfə ölüb dirilmişdilər. Bircə, əlimi buraxma…

Ərşə dayanmış insan bağırtıları arasında pilotun çətinliklə eşidilən səsindən belə anlamaq olardı ki, bəxtləri gətirsə, təyyarə qəza enişi etməyə məcbur olacaq. Qanadı yaralı göyərçin sonuncu qüvvəsini toplayıb yerin səthinə yüngülvari çırpılıb silkələnəndə Mariyanın yanında oturmuş çarşablı qadın gözlərini açıb ürəkdolusu əsnədi, ondan arxada əyləşmiş əri isə əvvəlcə kərəlib ətrafa baxdı, sonra iri qarnını dala verərək şalvarının qabağını bağlamağa çalışdı, sifətlərində göz yaşı donmuş adamların hamısı bir nəfər kimi əl çalırdı. Alqış sədaları altında gözlərini açan Endryu Kruz, nəhayət, armud kimi sinəsinə sallanmış başını yuxarı qaldırdı və həmin an Uilyama elə gəldi ki, atasının sifətində nəsə təbəssümə oxşayan cizgilər peyda oldu.

Bir neçə dəqiqədən sonra dünyanın bütün informasiya agentlikləri göyərtəsində 189 nəfərin olduğu, Daqqadan Kolomboya uçan Boeinq-737 təyyarəsinin mühərriklərindən birində yaranmış nasazlığa görə, Banqkok aeroportunda qəza enişi etdiyi barədə xəbər yayacaqdı. Gözlərində yaş donmuş insanlar əl çalırdılar.

İKİNCİ HİSSƏ

Sarı yağış

Bakı, yanvar, 2018

Səhərə yaxın, saat beşə işləmiş yatağımda o tərəf-bu tərəfə çevrilməkdən bezib siqaret çəkməyə qalxdım. Oğlum balaca, toppuş əlini çənəsinə dirəyib elə mışıl-mışıl yatmağındaydı, yenə də üstünü açmışdı, yorğanını çəkib alnından öpdüm. Yanağının sol tərəfinin içəri batıb qımışmasından hiss etdim ki, yuxusunda da nəsə oyunbazlıq eldir. Pəncəmin üstündə ehmalca irəliləyib eyvanda siqaret yandıranda tək oğlumun deyil, bütün şəhərin mışıl-mışıl uyuduğunu gördüm, mənə elə gəldi ki, hardansa peyda olmuş şən kloun indi bu dəqiqə hamının yuxusuna girib oyunbazlıq edir və hamının yanağının sol tərəfi batıb, hamı qımışır, məndən savayı.

Dirigözlü açdığım səhərdə ağlımda yalnız Müjdənin bu gün mənə verəcəyi cavablar dolaşırdı. Yalnız protokol doldurmaq üçün əvvəlcədən hazırlanmış və bu vaxta kimi saysız-hesabsız miqranta ünvanladığım suallar haqqında heç düşünmürdüm. Ölkəmdə yaşamaq və ya, sadəcə, burada qaçqın statusu aldıqdan sonra üçüncü ölkəyə göndərilmək üçün nə qədər nağıllar uyduran asiyalı miqrantlar dindirmişdim. Asiyada nağılları çox sevirlər, lakin onların hamısının əcaib dərəcədə bir-birinə bənzəməsinin, bir-birini təkrarlamasının çox az adam fərqindədir. Həmin o az sayda adamların siyahısını tərtib etmək mümkün olsaydı, şübhəsiz, mənim adım da ilk onluğa düşərdi. Vəzifə borcum tələb edirdi ki, nağıllara yox, uzun-uzadı dindirmələr nəticəsində ortaya çıxardığım faktlara, yazıçı dostumun diliylə desəm, həyat həqiqətlərinə istinad

edim. Həqiqətsə həmişə olduğu kimi zəhər təki acı və sadədən sadə idi: hamı yaxşı həyat sorağındaydı. Vətənində bunu tapa bilməyən milyonlarla insan dünyanın dörd bir yanına səpələnib qeyri-müəyyən üfüqlərdə duracağı bilinməyən axtarışa baş vurmuşdu – vətən axtarışına. Bu vaxta kimi eşitdiyim nağıllar içərisində bircə onların nağılı fərqli idi – Səidlə Müjdənin. Öz vətənini sevən və sevgisinə görə ondan bacardıqca uzaqlaşan iki çırpınan qəlbin nağılını mən uydurmamışdım, lakin bundan savayı heç nə eşitmək istəmirdim. Səhərə kimi yerimin içində vurnuxanda Allaha dua edirdim ki, bugünkü dindirmədə keşkə Müjdənin dilindən ürəyimdən keçənləri eşidə biləydim. Uzun avqust axşamlarında kəndimizin üstüaçıq kinoteatrında hind filmlərini seyr edərkən hansı hissləri keçirdirdimsə, indi də həmin həyəcanla titrəyirdim. Quldurların qoluna zəncir vurduğu sevgilisini xilas etmək istəyən qız ayaqyalın sərt qayalığın, sındırılmış şüşələrin üstündə oynaya-oynaya ona yaxınlaşır və bu zaman dünyanın yaxşı adamları axışıb köməyə gəlir, xeyir şər üzərində təntənəli, bəli, məhz təntənəli qələbə çalır. Müjdə haqqında düşünəndə özümdən asılı olmadan həmişə gözümün qabağında həmin cəsur rəqqasə canlanırdı. Mən o zamanlar o filmi də, o qızı da çox sevərdim. Heç vaxt inanmazdım ki, aşırma şalvar geyinmiş kənd uşağının üstüaçıq kinoteatrda yaşadığı hisslər illərdi dövlət qulluğunda saç ağartmış kişinin də qəlbinə dolub ona yenidən uzun avqust gecələrinin unudulmaz romantikasını yaşada bilərdi. Aradan illər keçsə də, gözünü bərəldib heyranlıqla hind filmlərinə baxan, heç olmasa, kinolarda xeyrin şər üzərində qələbəsindən ürəyi iftixarla dolan, güləndəsə yanağının sol tərəfi içəri batıb bütün dişləri ağaran o aşırma şalvarlı uşaqdan ötrü elə darıxmışdım ki. Mən inanırdım, danışdıqlarının qurama əhvalat olmadığına, gənclərin məhz bir-birlərini sevdiklərinə görə təqibə məruz qalmalarına inanırdım.

Dünyanın harasına gedir-getsinlər, şablon sorğu-suallarını yağış kimi yağdıran məmurlar ağızlarını açan kimi onların ixtisaslı miqrant olmadığını, ölkələrinin iqtisadiyyatına çətin ki töhfə verəcəklərini anlayacaqdılar. Amma onların verəcəyi faydanın hər hansı maadiləşmiş formayla müqayisə eləməyin qüsurlu, daha doğrusu, günah olduğunu hamıdan əvvəl mən duymuşdum: onlar qədəm qoyduqları torpağı öz sevgiləriylə birgə vətən edəcəkdilər. Deməli, mənim ölkəmdə sevənlərin sayı artacaqdı. Deməli, dünyanın heç də hər yerində rast gəlinməyən təmənnasız və saf məhəbbətin sərhədləri bir az da genişlənəcəkdi. Mən bütün bunları özünə kifayət qədər uğurlu karyera qurmağa nail olmuş təcrübəli məmur kimi yox, ölkəsində sevənlərin sayının artacağından qəlbi fərəhlənən aşırma şalvarlı kənd uşağı kimi düşünürdüm. Nə yaxşı o uşaq öz təmizliyi və məsumluğuyla həmişə mənimlə olub. Onun gözləriylə baxanda dünyamız necə də gözəl görünür.

Amamuni Sunetanın, daha doğrusu, Müjdənin sağ biləyindəki kəsiyi görəndə zavalı qızcığazın acısını öz biləyimdə hiss etdim. Ətim ürpəndi. Təəssüf, çox təəssüf ki, kişilər vaxtında ağlaya bilmirlər, bunu qadınların yanında etməyi isə heç özlərinə sığışdırmırlar. Mən də başımı yana çevirib göz yaşlarımı sonraya saxladım. Belə vəziyyətdə bizim ikimizin də ürəyindən xəbər verən bir təsəlli var idi – sükut. Müjdə bütün suallarıma çox dəqiq, elə mən istəyən kimi cavab verdi. Onun danışdıqlarıyla Səidin protokolunda yazdıqlarımın hamısı üst-üstə düşürdü. Amma içimi didib-dağıdan, düşüncələrimə hakim kəsilmiş nağılın bəzi detalları var idi ki, onlar məni protokol xatirinə yox, bir insan kimi maraqlandırırdı. Qaraca bibisini fikrindən daşındıra biləcəyini əminliklə söyləyəndən sonra Siqiriya qalasında Səidin birdən-birə yoxa çıxmasının heç cür izahını tapa bilmirdim.

“Heç mən də bilmirəm”, - Müjdə də eynən mənim kimi təəccüblənərək çiyinlərini çəkdi, “gözümü açanda onu başımın üstündə gördüm. Heç gözümü açmaq istəmirdim, açığı yenidən həyata qayıtmağın, qaldığımız yerdən davam eləməyin mənası qalmamışdı. Burnuma Sakura ətri dəydi. Yəqin inanmırsınız, noyabrın axırlarında bu, necə ola bilər? Sadəcə, gözlərimi açdım və çarpayımın yanında onun mürgü vurduğunu gördüm. Sən demə, o da burnuna dəymiş Sakura ətrinin dalınca düşərək gəlib məni tapıbmış. Biz qaladaykən qeyb olması barədə bir kəlmə də danışmadı, heç mən də soruşmadım”. “Siqiriya qalasında azıb qala bilərdimi?” - bu sualı verməyim içimdəki məsum uşağın sadəlövhlüyündən irəli gəlirdi, elə bil, qılığıma girib qulağıma pıçıldadı, mən də xətrinə dəymədim. “Yox, Səid Siqiriyanı beş barmağı kimi tanıyır, amma heç vaxt oradan xoşumuz gəlməyib. Turistlərin hamısı məhz o qalanı görməyə can atır. Bizimsə həmişə orada ürəyimiz sıxılıb. Məncə, onu tutub saxlayıblarmış, bəlkə də, girov götürüblərmiş”. “Bu necə ola bilər? Səid heç bu barədə danışmayıb”. “Deyirəm axı danışmaq istəmir, mən də üstünü vurmuram. Amma bilirəm ki, başına nəsə qəza gəlibmiş, yoxsa heç vaxt məni tək buraxıb qeybə çəkilməzdi”.

Kandi, noyabr, 2017

Anasının Bandarın oğlu Murinin onu istəmək üçün elçi göndərməyə hazırlaşdığını söyləyəndən sonra Müjdənin sağ qolunun damarlarını doğrayaraq özünü öldürməyə cəhd göstərməsi xəbəri Muridən daha çox filləri pərişan edib depressiyaya salmışdı. Bu hadisə 2017-ci ilin noyabr ayının son həftəsində baş vermişdi. Elə həmin gün də insanları qorxuya salan qəribə işlər olmuşdu. Kandi şəhəri adi payız günlərini yaşayırdı, amma adi olmayan üç gün üç gecə aramsız buz kimi soyuq yağışın yağması idi. Əslində, havası rütubət qoxuyan bu yerlərdə payızın sonlarına yaxın selləmə yağışların artmasında qeyri-adi heç nə yox idi, hətta sinoptiklər də yağıntının illik norma daxilində olduğunu söyləmişdilər. Adi olmayan göydən tökülən suyun rənginin sarılığında və buz kimi olmasındaydı. Sarı yağışda islanmaqdan canlarına vəlvələ düşmüş Budda məbədinin kahinləri başlarını çölə çıxarmadılar, bütün günü şam yandırıb ibadətdə oldular və hətta yağış kəsəndən sonra da üç gecə dualarına davam etdilər. Yalnız heç nə olmamış kimi buludların arasından sıyrılan günəşin isitdiyi torpaq sarı yağışın axırıncı damcısını da canına hopdurandan sonra kahinlər bunun böyük günah ərəfəsində xəbərdarlıq olduğunu dedilər. İnsanların günaha batacağından duyuq düşən buludlar toqquşaraq Kandi camaatına sarı rəngdə qəzəb məktubu yollayıblar ki, təmiz qəlblərini çirkaba bulaşdırmasınlar. Kahinlərin yozumuna görə, belə xəbərdarlıq heç də hər yerə göndərilmir, dünyanın çox şəhərlərində insanlar günah işlətməkdə davam edir və gələcək nəsillər özləri də bilmədən babalarının eyni səhvlərini təkrarlayaraq günah içində ömürlərini başa vururlar. Yalnız Buddanın dişlərinin qorunduğu Kandi şəhəri müqəddəs olduğundan göylər rəhmə gəlmiş, hələ ki, sarı xəbərdarlıqla kifayətlənmişdi. İnsanlar harda günah işlədiklərini anlayıb, nəfslərinə “dur” deməsələr, heç şübhəsiz, bir gün göydən sarı yağış əvəzinə qara daş da yağa bilərdi. Camaat kahinlərin həyəcanlı çaığrışından sonra əllərində Yasəmən çiçəkləri Dalada Milqava məbədinə axışıb şam yandırdılar. Hamının bircə duası var idi: Budda onları bəd nəzərlərdən, yaman əməllərdən qorusun və bu torpağın adamlarını günahlardan saxlasın. Payız vaxtı soyuq ölkələrdən gələn turistlərə Buddanın dişləri yerləşən məbəddə adamların dayanmadan dua etməsi olduqca ekzotik

görünürdü, hətta turistlərdən də şam yandıranlar olurdu – dua eləmək yox "selfi" çəkdirmək üçün. Adamlar günah hissindən qorxurdular, amma söhbətin hansı günahdan getdiyini bilən yox idi.

Bandarın oğlu Muri təkgöz ağ fili çayda çimizdirəndə söhbətin hansı günahdan getdiyini onun yekə pələ qulaqlarına pıçıldamışdı "biz hamımız Sunetanın ahına gəldik. Belə olmamalı idi. Belə olmasını heç vaxt düşünməzdim. Damarlarını doğramış bakirə qızın qanı torpağa düşən kimi gurultu qopdu. Nə yer, nə də göy bunu götürdü". Təkgöz ağ fil xortumunu yuxarı qaldırıb uladı, özünü itirmiş Muri vaxtında geri sıçramasaydı, iri pəncələrin altına düşəcəkdi. Adamların günahından xəbər tutan yetimxanadakı fillərin hamısı xortumlarını yuxarı qaldırıb zarıdılar. Həyatlarında ilk dəfə belə möhtəşəm mənzərəylə qarşılaşan turistlər dərhal telefonlarının kamerasını sazlasalar da, kimsə nəsə çəkməyə müvəffəq ola bilmədi. Muri ağlı kəsəndən bu yana qulluq etdiyi fillərin hamısının eyni vaxtda xortumlarını göyə qaldırmasını heyvanların da insanlar kimi, bəlkə də, onların əvəzinə dua etməsi kimi başa düşdü. Bundan sonra yetimxanadakı fillər başlarını aşağı salıb heykəl kimi yerlərində donub qaldılar, yalnız toran qovuşana yaxın küskün-küskün pələ qulaqlarını tərpətməyə başladılar. Heç şübhəsiz ki, insanların əvəzindən fillər xəcalət çəkirdi. Belə götürəndə yaxşı ki, sarı yağış yağdı, yoxsa bakirə qızın qanı həm torpağın sinəsində, həm insanların vicdanında qırmızı ləkə kimi ilişib qalrdı.

Axırıncı dəfə turistləri Siqiriya qalasında birgə müşayiət edərkən, Səid işlərin hətta onun gözlədiyindən də yaxşı getdiyini söyləyib tezliklə elçi göndərəcəyini demişdi. "Bibim heç də düşündüyüm kimi çətin adam deyilmiş, nahaq bu vaxta kimi ondan saxlamışam. Hər şey yaxşı olacaq, Müjdə", - söyləsə də, günlərdi gözə dəymirdi. Telefonuna zəng çatmır, vatsap mesajları isə oxunmamış qalırdı. Anası bir az ürkək, bir az utancaq səslə onu istəmək üçün elçi gələcəyini söyləyəndə isə Müjdə hər şeyin belə sürətlə və asanlıqla baş verməsindən çaşıb qaldı. Əbəs yerə Səidin ötkəmliyini ciddiyə almamışdı, görünür, nəsə bilirmiş. Bəs niyə zənglərə cavab vermirdi? Bəlkə, növbəti sürprizinə hazırlaşırdı? Müjdə təyyarədəki Sakura çiçəklərini xatırladı, nə illah eləmişdisə Səid onları hardan aldığını, kimsəni duyuq salmadan göyərtəyə necə keçirdiyini söyləməmişdi, "yuxuma girmişdi, sənin üçün dərdim", - söyləmişdi. İndi neçə gündü pəncərənin qabağındakı güldandan boy göstərən çiçəklər elə bəxtəvər görünürdülər ki, balaca evi başdan-başa öz ətrinə qərq etmişdilər, hətta Müjdəgilin məhəlləsindən uzaqlardan da məhəbbət qoxusu gəlirdi. Anası "elçi" sözünü eşidəndə qızının yanaqlarının çiçək kimi çırtladığını görcək, dərhal ikinci həmləsini elədi, "özü də çox yaxşı oğlandı", - dedi. "Anam Səidin yaxşı olduğunu hardan bilir? Bunlar nə vaxt tanış olublar? Bəlkə, hamı ona sürpriz etmək üçün sözü bir yerə qoyub? Əgər anam belə düşünürsə, deməli, atam da razı olacaq. Afərin sənə, Səid, doğrusu, gözləməzdim", - Müjdə özlüyündə düşündü. "Bilirsən qızım", - anası onun sakit davranışından, sanki bu xəbəri çoxdan gözləyirmiş kimi sevincəyə düşməsindən ruhlanmışdı, ürəyində nə vardısa hamısını açıb tökmək istəyirdi, - "xoşbəxt olmaq sənin haqqındı, özü də hamıdan çox. Biz də sevinirik. Belə yaxşı adamlar hər kəsin qabağına çıxmır. Gözümüzün qabağında böyümüsünüz, bir-birinizi tanıyırsınız, bundan artıq bizə nə lazımdı? Bu qismətdi, qızım".

Duruxub qalmış Müjdə anasının xeyir-dua qarışıq uzun-uzadı verdiyi arayışdan ona doğrudan da sürpriz hazırlandığını anladı. "Gözümüzün qabağında böyüyən" oğlanın Muri olduğunu eşidəndə isə dünya başına

fırlandı. Ona görə yox ki, məktəbdə bir parta arxasında oturmuş, bütün sirlərini hamıdan əvvəl bir-birləriylə bölüşən dostu Muri pis oğlan idi, ona görə ki, Muri onu yox, bacısı Sonalini sevirdi, hələ üstəlik Səidi sevməsindən də xəbərdar idi.

- Yox! - qəzəb və hiddət dolu kəlmə sevincindən danışa-danışa gözləri dolmuş ananın xeyir-duasını ağzında qoydu.

- Nə! Yox? Bəs bayaqdan gözlərin elə parlayırdı ki…

- Yox! Belə şey olmaz. Mümkün deyil! - Müjdə dəli kimi bağırdı.

- Niyə birdən-birə göyərdin? Murini tanımırsan? Özün həmişə tərifləyirdin, “dostumdu” deyirdin. Sənə birdən-birə nə oldu?”

- Ana, yığışdır bu söhbəti! Murinin başına hava gəlib, deyəsən. Bunu özü niyə mənə deməyib? O, bu xəyanətə necə cürət edib?

- Nə xəyanət, bala? Qıza elçi gəlmək, kimisə sevmək nə vaxtdan xəyanət olub?

- Ana, sən çox şeyi bilmirsən. Bu, alınan iş deyil…

- Sakitləş, Suneta, nədən danışdığını bilmirəm. Heç vaxt səni belə görməmişəm. Bəs atana nə deyim? Onun üzünə necə baxım?

- Bu, alınan iş deyil, ana.

- Yenə də eyni sözü deyirsən. Murinin yox, sənin ağlın çaşıb. Mən həmişə sənin işləməyinin əleyhinə olmuşam. Görünür, turist turları ağlını aparıb. Sən bizim qızımızsan, bunu unutma. Sizi necə əziyyətlə böyütmüşük, indi üzümüzə ağ olursunuz?

- Ana…

- Heç nə eşitmək istəmirəm!

- Bəs Sonali hanı? Sonali!..

- Bağırma! Bacın da sənin kimi səfehdi. Elçi sözünü eşidəndə qışqırıb evdən qaçdı. Yox, bu işi belə qoymaq olmaz. Nə qədər ki, bizi biabır eləməmisiniz, buna bir əncam çəkmək lazımdır.

Müjdə Muri ilə görüşmək, nə baş verdiyini onun öz dilindən eşitmək üçün evdən çıxmaq istəsə də, anası tərsliyinə salıb icazə vermədi. Ana bərk qəzəblənmişdi, qızlarının ikisinin də özlərini dəli kimi aparması, Müjdəninsə açıqdan açığa üzünə qayıtması qəlbinə toxunmuşdu. Ayağının birini müharibədə qoyub gəlmiş ərinin fil nəcisindən düzəltdiyi suvenirləri turistlərə satmaqla yaman dünyada iki qız övladı böyütmək hər ananın işi deyildi. Hərçənd ki, qonşuluqda onlardan da betərləri vardı, amma Müjdənin anası Suzan Pale heç vaxt aşağılara baxıb şükür edən adamlardan deyildi, o, yalnız yuxarılara baxıb fikir edərdi. Səhər o başdan şəhərin ensiz küçələrini süpürüb, gün əyiləndən ta axşama qədər otellərin mələfələrini yuyub qurudanda ağlından yalnız bir şey keçərdi, yaman dünyada qızlarını böyüdüb xoşbəxt edə bilmək.

Müjdə anadan olanda Şri-Lankanı ağuşuna almış vətəndaş müharibəsinin on dördüncü ili idi, sonra bacısı Sonali dünyaya gəldi – sevinc və dərd göz yaşlarının bir-birinə qarışdığı anlaşılmaz dünyada onlar yavaş-yavaş böyüməyə başladılar. Müjdənin yalnız on iki yaşının tamamına az qalmış vətənin başı üstündə asılan qara buludlar nəhayət çəkildi. İndi onların evində savaş illərini atasının itirilmiş ayağına geyindiyi protezdən başqa heç nə xatırlatmırdı. Pis günlərin adamın canına üşütmə salan vəlvələsi yalnız yaddaşlara köçüb heç vaxt unudulmayan ədəbi nifrətə çevrilmişdi. Doğmalarını, yaxınlarını itirmiş, burnunda barıt qoxuyan, cibində quru çörək gəzdirən müharibə dövrünün adamları üçün xoşbəxtlik anlayışı çox sadə olur - açıq səmada sinə dolusu nəfəs almaq kimi, övladlarının böyüməsinə tamaşa

etmək kimi. Müharibə dövrünün uşaqlarının arzusu isə sadədən də sadədi – qarnını doyurmaq, şirin yuxular görmək kimi.

Suzan Pale əsəbindən titrəyirdi. Müjdə nə qədər israr etsə də, onu evdən buraxmamışdı. Qapını arxadan qıfıllayıb gün əyilənə yaxın ərini qarşılamaq üçün üzüyoxuşa məhəllənin şimal səmtinə getmişdi. Ayağını itirəndən sonra həyatdan əlini birdəfəlik üzmüş Daruna Pale məhz arvadının inadkarlığı sayəsində sanki yenidən dünyaya gəlmişdi. Onun israrıyla depressiyadan çıxmış, onun təkidi ilə suvenirlər düzəldib satan balaca mağaza açmışdı. Hər dəfə toran qovuşanda məhəllənin şimal tərəfində yolunu gözləyən arvadına uzaqdan əl eləməkdən, gülərək qoluna girib evinə getməkdən o qədər zövq alırdı ki, ayağının yoxluğunu yalnız axşamlar yerinə girən vaxt protezi çıxaranda yadına düşürdü. Suzan ərinin müharibədəki sücaətindən elə şeylər quraşdırıb danışardı ki, qulaq asanların gözünün qabağında "Rembo" filminin bütün fraqmentləri canlanardı. Əlində avtomat cəngəlliklərdə düşmənə qənim kəsilmiş Daruna Pale haqqında bitib-tükənməyən rəvayətlər ya o yatanda, ya da evdə olmadığı vaxtlarda boy göstərərdi. Hərçənd hərbi xidmətdə olduğu dörd il on gündə çoxlu döyüşlərdə iştirak etsə də, Daruna Pale bir dəfə də olsun adam öldürməmişdi, bunun üçün hamıdan çox imkanı olmuşdu, amma tətiyi çəkmək istəməmişdi, bəlkə də, ürək etməmişdi. Ayağını da bədbəxt bir təsadüf nəticəsində minalınmış sahədən keçərkən itirmişdi. Özü də bilirdi ki, o, savaş adamı deyildi, amma savaşın düz ortasına düşmüşdü. Hər dəfə bu haqda danışmaq istəyəndə Suzan əlini onun dodaqları üstünə qoyub sözünün dalını gətirməyə imkan verməzdi, "bizə qəhrəman lazımdır, sən də qəhrəmansan, vəssalam", - deyərdi. Qızlar hətta yuxarı siniflərdə atalarının sücaəti haqqında yaşıdlarını heyrətə salan inşalar yazanda da, suallara nə üçünsə həmişə analarının cavab verməsinin fərqinə varmırdılar, ağılları kəsəndən sonra isə bu haqda heç düşünmədilər də. "Bizə qəhrəman lazımdır, vəssalam…"

Əsəbindən titrəyən Suzan ərini uzaqdan görən kimi yenə də əl salladı, lakin nə illah etdisə gülümsəyə bilmədi. Çəliyini yerə dayaq verərək, yavaş-yavaş yaxınlaşmaqda olan ərinə qızının oyunbazlığını necə çatdıracağını götür-qoy edirdi. Elə sözlər seçmək lazım idi ki, müharibənin şikəst elədiyi adamın könlü də yaralanmasın. Şimşək çaxanda Daruna Pale ona lap yaxınlaşmışdı, göyün bağrı yarılıb yerə buz kimi soyuq sarı yağış tökəndisə Suzan artıq ərinin qoluna girmişdi. Leysanın soyuqluğu damarlarına işlədikcə çənələri şaqqıldasa da, həmişəki kimi addımlarını asta-asta atırdılar. Hələ arada ərinin yanağından süzülən sapsarı suya baxanda Suzanı gülmək tuturdu. Daruna Pale bir göz qırpımında sarı cücəyə dönmüş arvadının nəyə güldüyünü, onun qolundan əvvəlkindən möhkəm yapışdığını yaxşı bilirdi. Əgər yenidən müharibə başlasaydı, məhz bu təbəssümün uğrunda ikinci ayağını da qurban verməyə hazır idi. Sarı yağışın altında islandıqca başa düşürdü ki, milyonlarla insanın həsrət qaldığı belə təbəssümün sahibi indi göydən daş yağsa belə, onun əlini buraxıb qaçası deyildi. Daruna Palenin sapsarı saralmış buz bağlayan başına bu vaxta kimi ağlından keçməyən fikir gəldi – o heç vaxt bu fədakar qadına "mən səni sevirəm" söyləməmişdi. İndi, məhz doğma evinə gədən palçıqlı yolda o bu sehrli sözləri bacardıqca ucadan bağırmaq istədi.

- Suzan! - dəhşətli ildırım gurultusuyla eyni vaxtda ağzından çıxan kəlməni heç öz qulaqları eşidə bilmədi ,– bunu çoxdan deməliydim…

- Bilirəm, əzizim, darıxdırma özünü. Heç əsəbləşib eləmə. Mən bilirəm onun inadını necə ram etmək olar, - arvad başını aşağı salıb donquldandı.

Belə vəziyyətdə Darunanın boyda özündən ən azı iki dəfə balaca arvadının daha məzəli göründüyünün fərqinə varsa da qımışmadı. Boy fərqinə görə onlar evlənəndə də hamıya qəribə gəlmişdi. Hələ siftə vaxtlarda arvadıyla yanaşı addımlayanda hətta Darunanın özünü də gülmək tutardı. Başı sərv qamətli ərinin dirsəyinə ancaq çatan Suzan isə təbiətin bu qeyri-mütənasibliyini heç vaxt eyninə almazdı, əksinə, buna ağzıgöyçək rəfiqələrini qısqandırmaq üçün əla fürsət kimi baxardı. Ayağını itirəndən sonra ərinin çəliyə dayaq verib yeriməsini də, özünə dərd etməmişdi, çünki o, ölkəsini düşmənlərdən rəşadətlə müdafiə edərkən şikəst olmuş qəhrəmanın arvadı idi.

- Suzan nədən danışırsan? - Daruna Pale gözlərinin içinə qədər sarı gəlinciyə çevrilmiş arvadının qolundan dartdı –kimin tərsliyi tutub?

- Bəlkə də, günah bizdədi. Nə bilim? Çox ürəyi yumşaq olmuşuq. Bu yaman dünyada gərək sərt üzümüzü göstərəydik. İndi də gec deyil, eybi yox, öz payıma günahımı boynuma alıram…

- Sən əməlli-başlı titrəyirsən, Suzan. Yəqin başına soyuq dəyib?

- Mən özümü çox yaxşı hiss edirəm! Həmişə demişəm, Sunetanın işləməsinə ehtiyac yox idi. Qız uşağı evdə oturar, valideynlərinin sözünə baxar, heç olmasa, anasına söz qaytarmaz!

- Sunetayla dalaşmısan? Qəribədi.

- Qəribə olan nədi? Ananın övladının xoşbəxtliyini istəməsi ya övladın ananın üzünə ağ olması? Ayıb olsun ona! Məgər Muridən yaxşı oğlan tapacaq? Kim bilir ağlı haralara gedir? Nahaq onun işləməsinə razı oldum, nahaq.

- Dayan görüm, nə Muri? Bu hardan çıxdı?

- Bəs özün deməmişdin ki, Bandarın oğlu Muri elçi göndərmək istəyir. Əvvəlcə çiçəyi çırtladı, Murinin adını eşidəndə isə dəli kimi bağırmağa başladı. Hələ Sonali… onunla işim sonraya qalsın. Göstərərəm ona anasının üzünə qapını çırpıb qaçmaq necə olur.

Daruna Pale bilmədi başını saralmış palçıqdan qaldırmadan üyüdüb-tökən arvadının halına acısın ya gülsün. Bir-birlərinə oğrun-oğrun baxıb təzəcə tanış olanda da, uşaqları dünyaya gələndə də, əri müharibədən şikəst qayıdan da Suzan heç vaxt özünün qurduğu xəyallar dünyasından ayrılmamışdı. Daruna Pale bunların hamısını yaxşı bilirdi və susurdu. Bilirdi ki, Suzan kimi arvadı xoşbəxt etməyin yalnız bir yolu var, onun eşitmək istədiyi sözləri söyləmək və onun arzuladığı dünyanın çərçivələrindən bayıra addım atmamaq. Elə buna görə də həmişə susmuşdu, hətta etmədiyi qəhrəmanlıqlar haqqında Suzanın uydurduğu rəvayətləri eşidəndə burnunun ucuna qədər qızarsa da, ağzını açmamışdı. Lakin indi yuxudan ayılmaq vaxtı idi, indi susmaq günaha batmağa bərabər idi.

Uzaqdan Sonali ilə Murinin bağıraraq evlərinin qapısını döyəcləməsini görcək çəliyini atıb onlara tərəf yüyürdü. Ürəyinə damdı ki, elə bu dəqiqə, bu an bağlı qapının arxasında nəsə pis bir şey baş verməkdədi və bu pis şeyin acısı ayağını itirərkən yaşadığı vahimədən də dəhşətli ola bilərdi. Damarlarını doğramış qızını otağın qaranlıq küncündə yarımcan vəziyyətdə tapanda da, Bandarın oğlu Murinin Sunetaya yox Sonaliyə elçi göndərməyə hazırlaşdığını biləndə də, Suzan ana hələ də xəyallarının yarımçıq yuxusundan ayılmamışdı. İlk dəfəydi ki, nə ərindən, nə də qızlarından eşitmək istədiyi sözləri eşidirdi. İlk dəfəydi ki, bütün ömrünü bünövrəsini bərkitməyə həsr etdiyi dünyası buz kimi sarı yağışın altında əriyib yoxa çıxırdı.

“Ayıl, özünə gəl! Bu gedişlə hər şeyi məhv edəcəksən! Biz sənin uydurduğun adamlar deyilik, bizim də ürəyimiz var, bizim də başımız işləyir.

Lənətə gələsən, biz də adamıq axı!", - Daruna Pale başına döyəcləyib bağırırdı. Qapının kandarında hərəkətsiz qalmış Suzan ana bu sözlərin mahiyyətinə lap sonralar vardı və hər dəfə bu müdhiş günü yadına salanda ürəyi sızlasa da, heç vaxt günah hissini özünə yaxın buraxmadı. Övladının xoşbəxtliyini arzulamaq ana üçün günah sayılmaz, bu yolda mən nələrdən keçmişəm; cavan ömrümü xərcləmişəm, müharibədən şikəst gəlmiş axsaq kişinin yox, qəhrəmanın arvadı olmaq istəmişəm, məgər bu, ayıbdımı? Öz illüziyalarına bəraət qazandırmaq üçün hazırladığı nitqi Suzanın qəlbini çoxdan yara eləmişdi və həmişə dilinin ucunda düyünlənib qalırdı. Artıq onları kiməsə deməyin mənası da qalmamışdı – sarı yağış yağan günü onsuz da görmək istədiyi dünya yıxılıb məhv olmuşdu. "Mən demişdim ki, Bandar bu axşam bizə gəlmək istəyir, xeyir iş üçün. Keşkə dilim quruyaydı! Axı Murinin Sunetanı sevdiyini hardan çıxardın? Çünki sən belə istəyirdin, eləmi? Yalnız özünün doğru bildiyin şeylərə inanırsan. Yalnız eşitmək istədiyin şeyləri eşidirsən. Sən kar və korsan Suzan!", - Daruna Pale bu sözləri bağırarkən həkimlər Müjdənin həyatını xilas etmək üçün son həmlələrini edirdilər.

Sarı yağış səngimişdi. Pale ailəsinin sapsarı oyuncağa oxşayan evinin sağ yanındakı pəncərənin aşağısında iki körpə fidan torpağın kəhrəba sinəsini yarıb günəşə sarı boy göstərməyə çalışırdı. İlk baharın nəfəsini duyan kimi çəhrayı çiçəklər açanda insanlar bu körpə fidanların Sakura olduğunu biləcəkdilər. Amma bu sonralar olacaqdı, sonralar.

* * *

İki gündü qəsəbə xəstəxanasının reanimasiya şöbəsinin darısqal palatasında yatan Müjdənin yuxusuna odlu torpaq girmişdi. Sakura ətrini alaralmaz gözlərini açanda isə Səid başı sinəsinə əyilmiş heykəl kimi çarpayının yanındakı kətildə mürgü vururdu. Heyi olsaydı sevincindən sıçrayar "bəs bu vaxta kimi harada itib-batmışdın, ay zalım" deyib, boynuna sarılar, hönkürhönkür ağlayardı. Sinəsindən qopan küt ağrı bunların heç birinə imkan vermədi, sadəcə, sevgilisinin əyilmiş başına, altı tulumlanmış gözlərinə baxaraq qımışdı. Nəsə pıçıldamaq, heç olmasa, onun əlindən yapışmaq üçün özünü toparlamaq istəsə də, nə dodaqları tərpəndi, nə də qolunu qaldıra bildi. Hər şeyi aydınca görürdü; palatanın nəmişlikdən kif basmış divarlarını, pəncərənin yarımaçılı nəfəsliyindən içəri düşən gün işığında oynaşan toz zərrəciklərini, tavandan asılmış tək lampası yanan lüstrun içində tor qurub təkəmseyrək uçuşan milçəklərə, ağcaqanadlara iştahayla baxan hörümçəyi də seçə bilirdi. Qapının o tərəfindəki ensiz dəhlizdə o baş-bu başa yeriyən gonbul tibb bacılarının cırıltılı ayaq səslərini, payız yarpaqlarının altında eşələnən sərçələrin acgöz civiltilərini də eşidirdi, hətta xəstəxananın həyətində doğmaları əməliyyata girmiş nigaran adamların duaları da qulağına çatırdı. Gördükləri və eşitdikləri ona o qədər doğma gəlmişdi ki, Müjdə buranın evlərində iki tin yuxarıdakı məhəllədə yerləşən xəstəxana olduğunu anladı. Bura heç də yaxşı yer deyildi və xəstəxanadan daha çox əlacı kəsilmiş adamların ağrılarını ovundurmaq üçün üz tutduqları Nuh əyyamından qalmış köhnə bir binaydı. Düzdür, bəzən Buddanın möcüzəsi nəticəsində əməliyyatdan sağ qurtulanlar da olurdu, amma əsasən bu binanın qapısından ümidi kəsilmiş adamların meyiti çıxardı və hamının reallığın bu acı üzüylə razılaşmaqdan savayı əlacı qalmazdı. Ölüm! Heysiz bədənin içində çırpınan ürəyi qara-qura fikirlərin məngənəsində bir az da sıxılmağa başladı və Müjdəyə elə gəldi ki, bəlkə də, o, əslində ölüb. Gördüklərinin hamısı il-

lüziyadan başqa bir şey deyil, yanında əyləşmiş adam da Səid yox, onun boynubükük müqəvvasıdı. Bir azdan qapı açılacaq, gonbul tibb bacıları onu süni nəfəs aparatından ayıracaq, əslində bu xəstəxanada heç vaxt belə bir aparat-filan olmayıb, sadəcə, ölümcül xəstələrin yaxınlarından pul qoparmaq üçün belə şeylər uydururdular. Bir azdan vay-şüvənlə onun da cəsədini yandırmaq üçün aparacaqdılar. Ağlayanlar əlbəttə ki, çox olacaq, özü də ürəkdən, hönkürə-hönkürə ağlayacaqdılar. Qınayanlar da tapılacaq və bəlkə də ağlayanlardan daha çox, Allahın verdiyi cana qəsd etdiyi üçün bütün dinlərdə olduğu kimi lənətlənəcəkdi. Çox güman ki, onun ölümündən sonra Muriylə Sonalinin izdivacı da mümkünsüz olacaqdı, buna hamıdan əvvəl heç Sonalinin özü razı olmazdı. Ölüm –bütün günahları yumağın, özünü təmizə çıxarmağın tək yolu sayılmaz, adam var ki, öləndən sonrakı günahı yaşadığından betər olur. Müjdə qımıldanmayan bədəninə göz atıb köks ötürdü, Səidin müqəvvaya çevrilmiş yazıq sifətinə baxanda isə göz yaşlarını tuta bilmədi. Ölülər xiffət çəkəndə ağlayırmı görəsən? Bəlkə də…

Gonbul tibb bacısı qapını açan kimi gözləri parladı, əlini qızın alnına qoyub dişlərini ağartdı, “Ayıldı! Ayıldı! Bu ki lap möcüzədi!”, - qışqırıb dəhlizə qaçdı. Həkimlərdən qabaq Suzan, onun ardınca isə Daruna Pale özünü palataya atdı, hətta Bandar da oğlu Muri və Sonali ilə birlikdə çarpayının yanında dayanıb heyrətlə xəstəyə baxırdılar. Hamının gözləri qızarmışdı, hamı ağlayırdı. Acı bağırsaq kimi uzanan əzabla dolu bu iki gündə onlardan heç biri palatanın yanından çəkilməmişdi, Bandar nə illah eləmişdisə, nə Suzan, nə də Daruna Pale gözlərinin çimirini almaq üçün evə getməmişdilər. Yorğun, üzücü gecələri yola verib səhərləri dirigözlü açan adamlar məhz bu anı – Müjdənin həyata qayıtmasını görmək üçün öz həyatlarından keçməyə hazır idilər. Hamı günahkar idi, hamının üzərində bakirə qızın torpağa tökülmüş qanının ləkəsi vardı, bu, yalnız Müjdə gözlərini açandan sonra təmizlənə bilərdi. Doğmalarını görcək ürəklənən qız həkimlər gələnə qədər özünü toparlayıb bekara gülümsünən kimi oldu. Sarğılı qoluna baxıb hönkürən anasını özünə tərəf çəkib boynuna sarıldı “dünyanın ən gözəl anası, bağışla məni”, - pıçıldadı. “Yox, sən bizi bağışla qızım! Mən axmağam, mən qanmazam… məni atıb hara gedirdin, Suneta?” - bu sözlərin ağırlığına, ya balasının ikinci dəfə həyata qayıtmasının sevincinə ürəyi tab gətirməyən ananın dizləri büküldü, müvazinətini itirməmək üçün onu çarpayının yanındakı yeganə kətildə əyləşdirdilər. Elə bu zaman Müjdəyə elə gəldi ki, Səidi yenidən itirdi, nəzərləri doğmalarının üzərində nə qədər səyrisə də, onu tapa bilmədi. Bayaqdan bəri başı heykəl kimi sinəsinə əyilmiş adam sanki bir göz qırpımında qeybə çəkilmişdi, onun mürgü vurduğu kətildə isə indi anası əyləşmişdi.

Bəlkə qara-qura fikirlər bayaqdan ona görə qəlbini sıxırmış ki, ölən o yox, Səid imiş. Heç yuxusuna girmiş odlu torpaqda da Səidi görə bilməmişdi. Nə qədər qəribə və əsrarəngiz mənzərə idi; qartal dimdiyi kimi dənizə əyilmiş torpaq başdan ayağa oda qərq olmuşdu, əzəmətli quş qanadlarını gərib Quzğun dənizin suyunu canına çəkdikcə alovlar daha da şiddətlənirdi. Alovun suya meydan oxuduğu o qəribə yer ürəyinə elə yatmışdı ki, əgər vətən seçmək imkanı olsaydı, heç şübhəsiz, məhz buranı seçərdi, sadəcə, alovlar arasında yaşamaq marağından, sadəcə, heyrətdən… Amma Səid gözə dəymirdi.

Həkimlər palataya daxil olanda elə kobudluqla hamının çıxmasını tələb etdilər ki, çəliyinə söykənmiş Daruna Pale belə üz vurmadı, səssizcə gözlərinin yaşını silib arvadının qolundan yapışdı. Doğmaları qapını örtən kimi divarın küncündə peyda olan Səid gülə-gülə əlindəki Sakura çələngini çarpayının ayaq tərəfinə qoydu.

- Səid… Sakura… - Müjdə pıçıldadı, yaralı qolunu ona tərəf uzatmaq istəsə də, həkimlər imkan vermədilər. “Qara basır”, - həkimlərdən biri dodaqaltı mızıldandı.

- Axı o burdadı? - Müjdə dikəlib Səidə sarı baxdı, o isə yenə də divarın küncündə dayanıb gülümsəyirdi.

- Burda olan bizik, mənim balam, - onun nəbzindən tutmuş həkimlərin ən yaşlısı dilləndi –belə şeylər olur. Sən yenidən həyata qayıtmısan, bu, möcüzədi. Ayağa duranda mütləq Dalanda Milqavaya gedib şam yandırarsan. Nəbzin normaldı, indi sənə yalnız dincəlmək qalır. Çoxlu qan itirmisən, yalnız dincəlməlisən, - dedi.

- Siz heç Sakuranın da fərqində deyilsiniz? - Müjdə soruşdu. Yaşlı həkim duruxaraq başını bulladı “burada bir Sakura var, o da sənin özünsən. Dincəl, qızım, bir azdan sistem köçürəcəyik”, - söyləyərək, otağı tərk etdi.

- Səid, bu doğrudan sənsən? Yoxsa, həqiqətən məni qara basır?

- Mənəm, əzizim.

- Bəs bu vaxta kimi hardaydın, Səid? Qalada yoxa çıxdın. Çox soraqladım səni, tapa bilmədim. Niyə məni tək qoydun?

- Həmişə sənin yanında olmuşam, əzizim. Başına gələnləri bilirəm, mən də əzab çəkirəm, Müjdə. Həmişə səbirsiz olmusan. Özünə qəsd eləyəndə heç məni fikirləşdinmi?

- Sən yoxa çıxmışdın axı. Tək, yalqız, əlimdən nə gəlirdi?

- Mən məcbur oldum, Müjdə. Siqiriyadan sağ çıxmamalı idim. Əmr beləymiş. Bilirsən, o qalaya necə nifrət edirəm, elə məni öz nifrətimlə də boğub öldürmək istəyirdilər. Dadıma Sarı Aşıq yetdi. Elə səni tapmaq üçün də yolu mənə o, göstərdi.

- Nələr deyirsən? Nədən danışırsan, əzizim?

- Ağlınla fikirləşmə, Müjdə, məntiqi bir kənara at, sən demə, məntiq çoxdan ölübmüş, sadəcə, heç kimin bundan xəbəri yoxdu. Qəlbinin səsini dinlə. Aşıq məni qalanın sirli yollarından keçirdi, sonra dedi ki, burnuma dəyən Sakura ətrinin dalınca düşüb getsəm, səni taparam. Və bir daha heç vaxt, heç vaxt yanından ayrılmayacağam. İstəyirsən Tomas əmi və Merio xala kimi heç vaxt bir-birimizin əlini buraxmayaq.

- Səid, sən ölmüsən, ya hələ də sağsan?

- Sağam, əzizim, özü də sapa-sağlamam. Artıq ölümdən qurtulmuşuq, onun bizə gücü çatmaz. Əslində ölmək istəyirdim. Sarı yağış yağanda anladım ki, sən məni qabaqlamısan.

- Axı niyə səni öldürmək istəyirdilər? Bizim günahımız nədi? Səid, nəsə gizlədirsən məndən?

- Bizim günahımız bir-birimizi sevməyimizdi. Bilirsən, bu, necə gözəl “günahdı”, bütün ömrüm boyu bu günahla yaşamağa hazıram. Mən qorxaq deyiləm, əzizim, ölümdən çəkinmirəm. Səni itirmək ölümdən də betər olardı, bu, əzabla yaşamağı heç vaxt bacarmazdım.

- Mən də bacarmaram. Hər yanda səni görürəm –çiçəklərin ətrində, bütün yuxularımda … içdiyim suya da yalnız sənin əksin düşür, Səid. Siqiriyada elə inamla danışmışdın ki, zavallı anam elçi gələcək deyəndə uçmağa bircə qanadım yox idi.

- Yalançı vədlərə inanıb ürəklənmişdim. Əslində hamısı tələ imiş. Amma mən yenə də israrlıyam, heç vaxt, heç vaxt inadımdan dönməyəcəm. Bu dəfə məni aldada bilməyəcəklər, öz qurduqları tələyə özləri düşəcəklər.

- Məni sevdiyin üçün sənə tələ qurmuşdular?

- Sənin nə günahın var, əzizim, səni sevdiyim üçün yox, ümumiyyətlə, sevdiyim üçün. Darısqal dünya sevənləri anlamır. Sevgini unutdurmaq istəyirlər, bunu mənə Aşıq dedi. Onu da söylədi ki, sevgi heç vaxt təslim olmayacaq.

- Kimdi o pis adamlar? Tanıyırsanmı?

- Adam öz doğmalarını tanımazmı? Qəfil və sağalmaz zərbəni adama kim vurar – öz yaxınları? Düşmən məlumdu, həmişə göz-gözə dayanırsan, amma doğmaların… onlar arxadan vururlar axı… Səni sevdiyimi söyləyəndə Qaraca bibim elə sakit dayandı ki, özüm də duruxub qaldım. Atam, anam özündən çıxsalar da, o, heç halını da pozmadı, gözlərini də bərəltmədi. Ümumiyyətlə, onun üzündə heç vaxt heç bir ifadə olmur, təsəvvür edirsənmi? Məni öldürmək üçün Siqiriya qalasına Lələ dayım özü gəlmişdi. Onu özündən çıxardan mənim kimisə sevməyim yox, böyüklərin yanında "sevirəm" sözünü işlətməyim imiş. O, bunu tərbiyəsizlik kimi başa düşübmüş. Müjdə, sən də mən də "tərbiyəsizik" və bu "əxlaqlı" adamların yanında bizə yer yoxdu. Qaçmaq, bacardıqca uzaqlara qaçmalıyıq…

- Qaçmaq? Buna atamın ürəyi tab gətirməz. Anam möhkəmdi, atam isə dözə bilməyəcək…

- Onların sevinmək üçün hələ bir dəfə də şansları olacaq – Muri ilə Sonali tezliklə evlənəcəklər, yaman günlərin hamısı yaddan çıxacaq. Bizimsə artıq şansımız yoxdu…

- Bu sözləri söyləmək nə qədər asandı, Səid. Hər şeyi geridə buraxıb, sadəcə, qaçmaq – sözdə adama asan gəlir. Bu qədər xatirələri, öyrəşdiyimiz torpağın ətrini götürüb hara qaça bilərik ki?

- Burdan çox uzaqlarda qartal kimi dimdiyini dənizə əymiş odlu torpaqlar var…

- Alovun suya meydan oxuduğu qəribə torpağı deyirsən? Səid, bu ki mənim yuxumdu. Yoxsa, biz yenə eyni yuxunu görürmüşük…

- Mən heç bir yuxu görməmişəm, əzizim, o yeri mənə Sarı Aşıq nişan verdi. Qaçmaq, bacardıqca tez, uzaqlara qaçmaq lazımdı…

- Qaçmaq?

- Qaçmaq… qaçmaq…

Ensiz dəhlizdə getdikcə yaxınlaşan cırıltılı ayaq səslərini eşitcək Səid əvvəlki kimi küncdə dayandı. O, yenə də işıq saçan baxışlarını Müjdənin üzündən ayırmadan gülümsəyirdi. Gonbul tibb bacısı içəri daxil olan kimi çarpayıya baxıb heyranlıqla köks ötürdü:

- A...a... gülləri kim gətirdi? Necə də gözəldilər, - o, gül dəstəsini burnuna yaxınlaşdırıb dərindən köks ötürdü.

- Siz onları görürsünüz? - Müjdə təəccüblə gözlərini bərəltdi.

- Görürsən nədi, mənim balam, indi onları bankaya qoyaram, heyif bu çiçəklərə layiq güldanımız yoxdu. Bəxtin gətirib sənin, inan ki, bu yaşa çatmışam, hələ heç kim mənə gül bağışlamayıb.

Qəsəbə xəstəxanasının darısqal palatasından yayılan Sakura ətri ətrafı elə sarmışdı ki, hər yandan - hətta çox-çox uzaqlardakı odlu torpaqlardan belə onun qoxusu gəlirdi.

ÜÇÜNCÜ HİSSƏ

Dünyanın üzü

Banqkok, noyabr, 2017

Dan yerinin təzəcə ağartmış sübh şəfəqləri Vəli Özdəmirin göz qapaqlarını döyəcləsə də, onun hələ bu dadlı röyadan oyanmaq fikri yox idi. Top atsaydılar belə, oyanmazdı. Arabir burnuna dəyib-qayıdan qadın ətrindən bihuş olmuşdu, elə bilirdi ki, yuxu görür. Sinəsinin üstündə gəzişən yumşaq barmaqlar çənəsini, dodaqlarını və nəhayət, burnunun ucundakı yastı nöqtə kimi yumrulanmış qara xalını tumarlayanda yuxusu qaçdı, əvvəlcə möhkəm asqırdı, həmən də dikəlib kənara sıçradı. "Bismillah" deyib gözlərini elə bərəltdi ki, sanki yumşaq əllərdən bədəninə elektrik cərəyanı ötürülmüşdü. Qızın otağın tavanını silkələyən qəhqəhələri altında özünün qıc olmuş bədəninə baxdı və adyalı tələsik qurşağına çəkib titrəməyə başladı.

- A, Vəli, qorxuzdum səni? Niyə belə əsirsən? - Saşa özünü zorla ələ almağa çalışsa da, hıçqırtılarına hakim ola bilmirdi.

- Sən… sən… burda nə gəzirsən? Nə vaxtdan burdasan?

- Dəlisən? Necə yəni burada "nə gəzirsən"? Sən gətirmisən ki məni bura. Bütün gecəni lap pələng kimi idin… yox, yox aslan kimi. Yox, pələng yaxşıdı…

- Nə danışırsan? Olmaz… ola bilməz... Get, get burdan…

- Nədi, ərimdən qorxunsan? Nahaq yerə. Onun boyuna-buxununa fikir vermə, ağciyərin biridi. Əgər onunla rinqə çıxsan, bir yumruğa sərərsən yerə. Düz sözümdü. Nə olsun köntöydü. Yaxşı da, titrəmə! Bu dəqiqə ürəyin partlayacaq. Özüm gəlmişəm bura. Eşidirsən, özüm öz ayaqlarımla. Guya sən məni bura zorla gətirə bilərdin?

Vəli Özdəmir Aleksandranın sözlərindən sonra hələ də nəyin baş verdiyini aydınlaşdırmaq üçün bir qədər də titrəyə bilərdi, bir yandan da qızın dayanmadan hırıldaması artıq əsəblərinə işləyirdi. "Mən heç nəyi xatırlamıram? Seryoja viski içirdi… Sən də yanındaydın də. Sonra Ceklə mən gəldim… sonra…", - Vəli hiss edirdi ki, nəinki baş verənləri xatırlamaq, heç bütöv cümlə qurmağa da taqəti qalmayıb. Gicgahlarını sarmış küt ağrı bütün bədənini elə süsləşdirmişdi ki, ağzını açan kimi ürəyi bulanırdı. Bir neçə dəfə gözlərini ovuşdurub bərəltsə də, çarpayısındakı çılpaq qadının ancaq ümumi siluetini seçə bildi, səsini çıxartmasaydı heç onun Saşa olduğunu da zənn etməyəcəkdi. Başı isə heç sözünə baxmadan yırğalanırdı, zərif boyunun onu saxlamağa gücü çatmırdı.

- Sonra biz qol-qola girib otelə qayıtdıq. Sonra bütün gecəni romantika…

- Yox, axı sən elə bil, nələrisə buraxdın?..

- Mən Seryojanı buraxdım, daha doğrusu, o, məni tərk etdi. Sən demə heç zaman mənim olmayıbmış. Nə isə bunlar xırdalıqlardı. Unudulmaz gecə üçün sənə təşəkkür edirəm. Borcum nə qədərdi?

- Nə? Saşa, sən nə danışırsan? - belə gedişlə artıq özünü tuta bilməyəcəkdi, mədəsindən burula-burula qalxan hərarət boğazına dayananda, adyalı belindən tullayıb vanna otağına qaçdı. Və boğula-boğula "mən kişiyəm", söyləyə bildi.

- Başa düşürəm, kişisən. Elə ona görə soruşuram nə qədər ödəməliyəm? Sağ ol, bütün gecəni mənə həsr elədin. Özün deyirdin ki, vaxt puldu. Burda

dramatikləşdiriləcək nə var ki? Adi işgüzar münasibətdi də. Hə, de də nə qədər ödəməliyəm? - özüylə danışırmış kimi çıxsa da, Saşa bu sözləri onun arxasınca tam ciddiliyi ilə deyirdi. Vəli isə tualetdə boğuq-boğuq səslər çıxarırdı. Tailanda gələndən onsuz da mədəsi pozulmuşdu, indi isə bütün vücudu titrəyirdi.

- Yığışdır bu söhbəti Saşa! Təhqirə keçmə! Lənət şeytana! Çıx get! Heç nə xatırlamıram… - Vəli özünü toparlayıb yalnız bunları deyə bildi və təzədən öyüməyə davam etdi.

- Mənimsə hər dəqiqəsi, yox-yox, hər saniyəsi yadımdadı. İstəyirsən bir-bir danışa bilərəm – qapıya çatana kimi lap gülməli idin, ayaqların bir-birinə dolaşırdı, elə küçədəcə məni yemək istəyirdin. Təsəvvür edirsən, düz küçənin ortasında! Bilirsən, sən içəndə lap məzəli olursan…

- Get burdan! Get...

- Niyə qovursan axı məni? Seryojaya görə belə edirsənsə, nahaq yerə, onunla sənsiz də bacararam.

Vanna otağından artıq əcaib səslər gəlmirdi, su kranı da bağlanmışdı. Araya çökən ani sükutda Saşaya əvvəl elə gəldi ki, Vəlini unitazın üstündə yuxu tutub, lakin o, güzgünün qabağında dayanıb özünün əzilmiş pomidora dönmüş sifətinə baxaraq hər şeyi yerli-yataqlı xatırlamağa cəhd edirdi. Hərçənd xatırlanacaq elə bir şey də yox idi, hər şey iki butulka pivədən başlamışdı, sonrakı epizodların hamısı Saşanın diktəsiylə olmuşdu, adama bir qədəh tekila, sonra yenə bir qədəh, bunların qədəhləri niyə belə balacadı, yaxşısı budu elə özümüz süzək, bunu da içək o sağlığa, bunu da o biri sağlığa, bunu da içək tay bəsimizdi. Vəlinin dəqiq yadındaydı ki, "bəsimizdi" sözünü başı incə boynunun üstündə ləngər vurmağa başlayanda özü dilə gəlib demişdi və dərhal da Saşanın məzəmmətinə tuş gəlmişdi. Qız düz onun gözlərinin içinə baxaraq "birinci dəfədi sənin kimi içən incə-mincə kişi görürəm" - deyəndə Vəlinin içindəki yatmış vulkan yerindən oyanmışdı, qızın utanmadan ona irişməsi əməllicə heysiyyətinə toxunmuşdusa da, həmin gecə bunu üzə vurmamışdı. Bundan sonra Saşanın kinayəli atmacalarına tuş gəlməmək üçün onun etdiklərini bacardığı qədər məharətlə təkrarlamaqdan başqa çarəsi qalmamışdı. Seryojanın birdən-birə onları qərib küçənin tinində təkbaşına buraxıb getməsi Vəliyə çatmamışdı, əvvəlcə nəsə iş dalınca yollandığını düşünmüşdü, lakin gecə yarısını keçəndən sonra Saşanın öz otağına qayıtmaq istəməməsini, hətta səhərədək elə otelin qabağındakı skamyada yatacağını söyləyəməsindən sonra Seryojanın arvadını qoyub qaçdığını başa düşmüşdü. "Axı niyə o, səni atıb qaçdı? Niyə axı onu vurmaq istəyirdin?" suallarını gecə boyu dəfələrlə Saşadan soruşmuşdu və qız hər dəfəsində yerli-yataqlı hər şeyi açıb danışmışdı, lakin indi onun dediklərinin heç biri Vəlinin yadına düşmürdü. İçindəki yatmış vulkan oyanandan sonra onun qığılcım oynaşan gözləri Saşanın dodaqlarında, sinəsində kilidlənib qalmışdı. "Khaosan Road"un rütubətli gecəsində qızın uzun-uzadı nə danışmasından, niyə qəzəblənib ərinin başına butulka çırpmaq istəməsindən daha çox Vəlinin başında yalnız bir fikir vardı, bunu Saşa da hiss edirdi. O, xəyanətin gözlənilməz zərbəsindən sarsılmışdı və bundan sonra hər şeyi öz bildiyi kimi edəcəkdi.

- Bilirsən, biz yataqda olanda "selfi" çəkib Seryojanın telefonuna göndərdim", - Saşanın sözlərindən sonra araya çökmüş sükutu vanna otağında Vəlinin təzədən öyüməyə başlaması pozdu, o, qusurdu, ya öskürürdü fərq etmək mümkün deyildi. Nəhayət, Vəli oğru pişik kimi başını qapıdan çıxarıb acizanə miyoltuyla "axı sən niyə belə edirsən ki, - söylədi.

- O axmaqdan həyatımın ən gözəl qisasını aldım. Ürəyimdən tikan çıxdı! Bax, belə! Bundan sonra heç nə əvvəlki kimi olmayacaq. Heç nə.

- Demək, ərindən qisas almaq üçün məndən istifadə eləmisən? Bəs, təsəvvür edirsənmi mən Seryojayla necə üz-üzə gələcəm? - Vəli hamamdan çıxan kimi dərhal şalvarını əyninə keçirib dilləndi.

- Vəli, təsəvvür edirsən biz bal ayına çıxmışıq...

- Aman Allah, doğrudan e, siz axı bal ayındasınız… Bilirsən mən...

- Sənin niyə dilin topuq vurur axı? Dedim axı mən özüm belə istəmişəm. Sən gəlməsəydin, "Khaosan Road"da kiminlə gəldi...

Mobil telefonun qəfil cingiltisi Saşanın sözünü ağzında qoydu. Vəli hələ də özünü dəhşətli yuxuda zənn etdiyindən bir müddət yerindən qımıldanmadı. Çağıran Vəlinin çarpayının yanına atılmış telefonu idi. Nömrəni görəndəysə, sifətinin özünə gəlməmiş rəngi bir az da ağardı – zəng vuran Seryoja idi. Özünü xəyanət və məhəbbətlə dolu serial qəhrəmanı kimi aparan Saşa hər şeyin ssenarisinə uyğun getməsinin məmnunluğunu yaşayırdı və qımışa-qımışa telefonu açmaq lazım gəldiyini işarə etdi. Vəlinin həmin anda hansı həyəcan yaşamasını heç çiynindəki mələklər də duya bilmədi, o, sadəcə, əlində telefon, gözləri bərəlmiş ağappaq heykələ dönmüşdü. Təyyarə qəza enişi edəndə hamı kimi o da ağlayırdı, qorxudan nitqi tutulduğundan, sadəcə, qırıq-qırıq səslər çıxardıb bağırırdı. Ayağını torpağa basandan sonra Vəliyə elə gəlmişdi ki, yenidən anadan olub və ikinci dəfə yaşamaq şansı qazandığı həyatda bir daha belə sarsıntıyla üzləşməyəcəkdi. Ölümün ağzından sıyrılaraq təzədən həyata qayıtmaq hər insanın ömründə olsa-olsa yalnız bir dəfə təsadüf edərdi, növbətisinə ürək tab gətirməzdi. Onun hələ çatlamamış, paslanıb damarları kirəcləşməmiş cavan, təcrübəsiz ürəyi köksündə guppultuyla elə döyünürdü ki, öz halından məmnun Saşanın belə ona yazığı gəldi və yerindən dikəlib "telefonu açmasan, o axmaq özü bura gələcək" - deyə qışqırdı. Vəli əmrə tabe robot kimi qeyri-ixtiyari telefonu açdı və həmən də Seryojanın spirt hopmuş səsinin alovu qulağını qarsdı: "Doroqoy, yatmısan? Cəld aşağı gəl! Duud, duud, duud…".

Səs amiranə deyildi, nə qəzəb, nə inciklik duyulmurdu – "aşağıda ol" vəssalam, özü də həmişəki kimi "doroqoy" dedi. Aydın məsələdi, axı hər halda, o da özünə görə kişidi, Saşa razılaşsa da, razılaşmasa da, onun da özünə görə heysiyyəti, mənliyi vardı, yaxud da olmalı idi. Deməli, Seryoja, əsil kişi kimi söhbəti hamının yanında yox, ikilikdə çürütməyə qərar verib. Bir tərəfə baxanda bu, Vəlinin də ürəyindən idi, çünki bundan da pisi ola bilərdi, məsələn, ayıqlığını çoxdan itirmiş Seryoja gecə yarısı otağa hücum çəkə, qapını sındıra, onu da, arvadını da əzişdirə, eyvandan aşağı ata bilərdi. Bütün bunlar heykələ dönmüş Vəlinin beynindən qığılcım kimi keçəndə yadına düşdü ki, Cekin israrına baxmayaraq otağı ikinci mərtəbədən götürmüşdü, otelin həyəti isə təzə biçilmiş qazon olduğundan yəqin aşağı atılanda elə də ciddi xəsarət almazdı. Bəs Saşa? O, hələ də çarpayının üstündə açıq əndamını tumarlaya-tumarlaya balışa dirsəklənib gülümsünürdü və sanki Vəlinin ürəyini köksündən qoparıb yerə salan tufanın dırnaq ucu boyda belə ona dəxli yox idi.

- Qorxursan, ondan eləmi? - Saşanın naqolay sualı nəhayət, Vəlinin heykələ dönmüş vücudunu titrədə bildi.

- Mən qorxmuram, Saşa. Ondan yox, səndən qorxmaq lazımdı. Məni vura bilər, mən də bacardığım qədər müqavimət göstərərəm, amma nəyə görə, hə!? Kimin və ya nəyin uğrunda vuruşmalıyam? Günahkaram axı…

- Sən niyə? Dedim axı öz ayaqlarımla gəlmişəm. Deyə bilərsən ki, mənim günahım yoxdu, get arvadına yiyə dur…

- Bəsdir! Çıx get burdan! Açığı Seryojanın yerinə mən təəssüf edirəm. Bəli, sənin kimi arvaddan qorxmaq lazımdı. Lap yaxşısı, gərək uzaq gəzəsən", Vəli paltarını geyinərkən dişinin dibindən çıxanları qızın üzünə yağdırdıqca ürəyi boşalırdı.

Bu gün oteldə gecələmələrinin axırıncı günü olduğundan balaca çamadanını axşam "Khaosan Road"a gəzməyə çıxmamışdan qabaq hazırlamışdı. Bir gözü saata zillənmiş Vəliyə elə gəldi ki, nədənsə əqrəblər həmişəkindən daha sürətli hərəkət edir, zaman bir azdan yaşanacaq tragikomediyanı yaddaşına həkk etmək üçün bir ayağını qaçaraq qoymuşdu. Qaynar qazana dönmüş başını əllərilə sıxaraq, otaqda var-gəl etdikdən sonra çarpayının küncündə oturdu və indi onu yalnız bir şey düşündürürdü – xəyanətə necə bəraət qazandırmalı? Hər şeyi olduğu kimi danışmaq: yəni arvadın öz ayağı ilə otağıma gəldi və mən də özümdən asılı olmadan onun istəklərini yerinə yetirdim. Hə də, neyləməliydim, kişiyəm də. Düzdü çox bayağı səslənəcək, amma hansı axmaq bu cəfəngiyata inanardı? Axı o da kişidi. Ya da ki belə variant – "Seryoja, "doroqoy", bunlar hamısı bir zarafatdı, Saşa bütün bunları səni qısqandırmaq üçün fikirləşmişdi, əslində bizim aramızda heç nə olmayıb, bütün gecəni o çarpayıda, mənsə divanda yatmışam – bu, lap səfehlik olardı, onda belə çıxacaq ki, mən kişi deyiləm. "Kişi deyiləm?" - hə, bax bu variant lap əla oldu? Deyərəm ki, mən də Cek kimi LGTB-di, nədi onun üzvüyəm, ah, keşkə cibimdə o təşkilatın üzvlük vəsiqəsi olaydı, deyərdim ki, "doroqoy" bax, bu da mənim vəsiqəm, arvadın sənə sürpriz hazırlamışdı, məndən də, sadəcə, aksesuar kimi istifadə edib, vəssalam. Tutaq ki, Seryojanı buna inandıra bildim, bəs özümü bu cütlüyün həqiqətən də ailə olduqlarına, doğrudan da bir-birlərini sevdiklərinə necə inandıra bilərəm? Bax, bunun mənə heç bir dəxli yoxdu. Vəli fikirləşdi ki, bəlkə, Seryojanın düşüncəsindəki "namus" anlayışı, türklərdəki kimi əşhədü-vacib məsələ deyil. Bəlkə, rus ailəsi haqqında türk kimi fikirləşəndə mənzərə dəhşətli görünür, rus kimi baxanda burda faciəyə çevriləcək bir şey yoxdu? "LGTB" variantı ürəyinə sərinlik gətirdiyindən Vəlinin daxili təlatümləri azacıq soyudu, nəhayət əllərini bərk-bərk sıxdığı gicgahından aralayıb başını qaldıranda qarşısında sinəsi açıq ağ paltarda parıltılı sarışın saçlarını boynunun arxasında düyünləməyə çalışan Saşanı gördü.

Lənət şeytana, o, doğrudan da gözəl idi! Dünən bürkülü gecənin qaranlığında nə əcəbsə buna fikir verməmişdi. Tailandın parlaq günəşi onun təbəssüm qarışıq mavi gözlərini, qar kimi ağ bənizini işıqlandıranda Vəli ikinci dəfə yuxudan ayılmış kimi oldu. Doğrudan da bütün gecəni dünyanın ən gözəl qadınıyla keçirib və bunun dəyərini bilməmək dünyanın ən böyük axmaqlığı deyildimi? Əgər Seryoja həqiqətən də arvadına xəyanət eləyibsə, bu günaha çox güman ki, sərxoş olanda batıb, ayıq başla belə bir səfeh iş tutmaq, sadəcə, mümkün deyildi. Saşa isə gülürdü, təbəssüm onun sifətində sübh şəfəqinin ilk parıltıları altında tumurcuqları təzəcə çırtlamış yasəmən kimiydi. "Qorxma", -tumurcuqların arasından süzülən bircə kəlmə söz Vəlinin bütün vücudunu yasəmən ətrinə qərq etdi, artıq heç kimdən qorxmadığını söyləmək istəsə də, kəlmələr boğazında kilidləndi, "o, mənim gecəni sənlə keçirdiyimi bilmir. Hə, "selfi" çəkməyə həqiqətən cəhd göstərdim, amma sənin bəxtindən telefonumun şarjı bitmişdi", - qız şeytancasına dişlərini ağardıb baxışlarını onun burnunun ucundakı girdə qara xala zilləmişdi. "Bu, anadangəlmədi?" - soruşdu.

- Hə, - Vəli utana-utana pıçıldadı, - uşaq vaxtı mənə "burnu xallı" deyirdilər. İndi də dostlarım elə çağırır. Nədi ki?

- “Burnu xallı” yaxşı ayamadı. Sənə belə desəm inciməzsən ki?

- Niyə belə edirsən, Saşa? Bəlkə, sənin ərin heç düşündüyün kimi pis oğlan deyil? Təzə ailə qurmusunuz axı, nəsə bütün bu olanlar mənə çatmır?

- Ailə?.. Sənin ailə haqqında nə təsəvvürlərin var axı? Hamını öz arşınınla ölçmə?

- Mənim heç bir arşınım yoxdu. Mən yetiməm, Saşa. Daha doğrusu, yetim kimiyəm. Atam lap körpəlikdən məni atıb Avropaya gedib. Heç xatırlaya bilmirəm onu, xatırlanacaq bir şey buraxmayıb çünki. Nənəm deyərdi ki, onun da burnunun ucunda bax belə qara xal olub. Anamsa… onun da öz həyatı var, o, kənd qızı idi, atam böyük şəhərləri, o isə kəndi sevirdi. Mən nənəmin uşağıyam, bir az qayğıma qaldı, sonra da öldü. Bax belə, görürsən, mənim heç ailə haqqında təsəvvürlərim də yoxdu ki, sənə dərs keçim.

- Təsirlidi. Deməli, sən də mənim kimi taleyin ümidinə buraxılmısan. Amma mən həm də aldadılmışam. Bu, daha ağırdı. Qadınların hamısı aldadıldığını hiss edəndə bununla barışa bilmirlər, heç barışmaq lazım da deyil.

- Saşa, bilirsən nə var, sənin kimi qıza xəyanət etmək axmaqlıqdı. Bu, mümkün deyil. Axı nəyə görə?

- Pula görə, Vəli. Bu dünyada hər şeyin öz qiyməti var, hər şey alına və satıla bilir. Bunu dünən axşam yox, təyyarəmiz qəza enişi edərkən kəşf eləmişəm. İndi Banqkokun küçələrində öz bədənini satan adamları başa düşürəm, onlara haqq da qazandırmaq mümkündü. Biri də var həyatında nə varsa hamısını satasan. Bunların ikisi də eyni şey deyil.

- Səni başa düşməyə çalışıram. Amma heç cür alınmır, incimə, mən balaca adamam, heç vaxt böyük şeylər haqqında düşünməmişəm. Bilmək istəyirsənsə, Saşa, mən heç düşünə bilmirəm. Heç cür anlamıram ki, niyə məhz məni seçdin?

- Seçdim? Sən düşünə bilmədiyin kimi mən də seçə bilmirəm, əzizim. Mənə həmişə hər şeyi hazır təklif ediblər, mən də razılaşmışam. Cek Seryojanı sürüyüb aparanda yanımda yalnız sən qalmışdın. Bunun harası seçim oldu?

Qız danışdıqca, Vəli burnuna dolmuş yasəmən ətrindən elə məst olmuşdu ki, bayaqdan bəri dörd nala çapan vaxtın indi bir az da uzanması üçün nə lazımdırsa, edərdi. Otelin dəhlizinə enməyə sayılı dəqiqələr qaldığını eyninə almasa da, Saşa artıq çıxmağa hazırlaşırdı.

- “Bəlkə bir az da söhbət edək”, kəlməsi Vəlinin boğazında elə düyünləndi ki, onu doğru-dürüst ifadə etməyə dilinin gücü çatmadı. Bayaqdan qovmaq istədiyi, nalayiq sözlərlə aşağıladığı qız yanından uzaqlaşdıqca, ruhunun tarıma çəkildiyini, nəfəsinin daraldığını hiss edirdi, elə bil, gözü görə-görə nəsə qiymətli bir əmanətini itirirdi. Əgər indi vaxtın bu qovhaqovunda həmin əmanəti əlindən buraxsaydı, həyatı başdan-başa qapqaranlıq içərisində yeri heç vaxt doldurulmayan mənasız boşluğa çevriləcəkdi. Ürəyində “Saşa, deyəsən axı sənə vurulmağa başlamışam” kəlməsini fikirləşsə də, dilindən “bəs bundan sonra nə edəcəksən” sualı çıxdı. Qız qapının kandarında dayanıb, gülümsəyərək başını buladı. Bu gülüş səhər açılandan bəri qəhqəhələri otağı başına götürmüş şıltaq təbəssümdən daha çox, göz yaşını zorla saxlayan, boğazında ilişib qalmış qəhəri ovunduran təsəlliyə bənzəyirdi. Saşa qapını açıb qırmızı xalı sərilmiş uzun, ensiz dəhlizə çıxdı. Bir neçə dəqiqədən sonra Vəli qızın qırmızı xalının üstündəki iziylə oteli birdəfəlik tərk edəcəkdi.

* * *

Turistləri Daqqadan Kolomboya aparmalı olan Boeinq-737 təyyarəsinin Banqkok aeroportunda qəza enişi etməsi səbəbinin mühərriklərindən birində yaranmış nasazlıq olduğu rəsmi olaraq deyilsə də, adamların hərəsi bunu öz bildiyi kimi yozurdu. Uilyam Kruz əvvəldən belə düşünürdü ki, onların möcüzəvi şəkildə xilas olması və təyyarənin məhz Banqkokda yerə enməsinə ilahinin qisməti kimi baxmaq lazımdır: hətta çoxlarına gülməli görünsə də, o, həmin vaxtı göyərtədəki 189 nəfərin taleyində nəsə oxşar cəhətlərin olduğu qənaətinə gəlmişdi. Onun danışdıqlarını beyin silkələnməsindən yaranmış "sayıqlama" hesab edən atası Endryu Kruz kimi Mariya da bütün uçuş boyu yanında oturub xoruldayan çarşablı şişman qadınla özü arasında nəsə oxşarlıq axtarmağın səfehlik olduğunu anlayırdı. İnsanlar eyni vaxtda, bilərəkdən ya bilməyərəkdən ölümün qarşısında öz hiss və həyəcanları ilə bir-birlərinə oxşasalar da, real həyatda onsuz da hərə öz bildiyi kimi yaşayırdı. Adam cəmi bir dəfə ölür, lakin hər gün yaşamağa məhkumdu - düşünən Mariya hər şeyi qismətə bağlayan Uilyamla höcətləşməkdən özünü zorla saxlayırdı. O, bu fikirlərini Banqkokda qaldıqları sonuncu – ikinci gecədə hamının gülərüz kimi tanıdığı Tomas əmi və Merio xalaya söyləmişdi. Həm də əlavə eləmişdi ki, sürü kimi hamını bir-birinə bənzətməyə çalışmaq həyatı mənasızlaşdırmaqdan başqa bir şey deyil. Onun ixtisasca sosial psixoloq olduğunu eşidəndə isə Tomas əmi sevinərək göy üzlü dəftərçəsini çıxarıb ona öz qeydlərini göstərmişdi. Onlara həmkar da demək olardı: Mariya insan davranışındakı anlaşılmazlığın bu gününü, Tomas əmi və Merio xala isə keçmişini öyrənirdilər. Uilyam psixoloq və tarixçilərin belə tez ortaq məxrəcə gəlib anlaşmalarından xəbərsiz idi, yoxsa bunu da adi bir təsadüfə yox, ilahinin lütfünə bağlardı. Ata Kruz isə təyyarənin niyə məhz Tailandın paytaxtına eniş etməsinə təəccüblənsə də, özünü lazımsız fikirlərlə çox da yükləmədi, hətta nəvəsinin səhər erkəndən yaxınlıqdakı parkın həndəvərində qaçmaq təklifiylə də dərhal razılaşdı. Uilyam adamayovuşmaz atasının yavaş-yavaş ipə-sapa yatmasını, hətta hardasa gülümsəməyə cəhd göstərməsini isə qismətlə yox, Banqkokun rütubəti azalmış havasının onlara düşməsiylə izah etmişdi.

Vəli Özdəmirsə çox məyus idi. Təyyarədəki ekstrim anını lentə köçürə bilməməsini heç cür özünə bağışlaya bilmirdi. Turizm şirkətinin Banqkokdan roliklər hazırlamaq təklifi alanda azacıq eyni açıldı, amma insanları ölüm anında çəkmək şansını əldən verməsini heç vaxt, heç vaxt unutmadı. "Khaosan Road"u o baş-bu başa gəzərək, dadlı tay yeməkləri barədə hazırladığı rolik sosial şəbəkələri partlatmasa da, hər halda maraqla qarşılanmışdı. Hərçənd ki, rolikində bəh-bəhlə tərifləyiyi qızardılmış kakos və 80 sentlik ananas şirəsinin ardınca süddə pörtlədilib üstünə darçın səpilmiş banan yedikdən sonra səhərə kimi qarın ağrısına düşmüşdü. Növbəti süjet isə "Koasan rud"un gecə həyatına həsr olunacaqdı. Bu ideyanı ona Cek Kruz vermişdi, lakin rolikin çəkilməsi Vəlinin çox sonralar anlayacağı səbəbdən baş tutmamışdı; o, əvvəlcə Cekin "azad insan azad seksdən doğulur" əsaslandırmasına heyrətlənmiş və yol boyu ciddi-ciddi mübahisə etmişdi, sonra isə ərinin başına viski butulkası çırpmaq istəyən Saşanı sakitləşdirməyə çalışmış, səhər ayılanda isə onu öz yatağında görmüşdü.

Seryoja isə söhbət hansı mövzuda olursa-olsun hamıyla mübahisə etməyə hazır olsa da, qismət məsələsində Uilyamla yüzdə-yüz razı idi – bir qəpik də xərcləmədən Banqkokda peyda olmağın başqa izahı haqqında heç düşünmək belə istəmirdi. Elə xoşbəxt idi ki, Saşanın özünə qapanmasını, bütün günü dinib-danışmadan mısmırığını sallamasını belə, görə bilməmişdi.

Səidi isə təəccübləndirən tamam başqa şey idi; çalışdığı turizm şirkətinin xəsis meneceri yuxusuna girsə belə inanmayacağı fors-major vəziyyətlə hay-küysüz barışmışdı. Təyyarənin qəza enişi xəbərini duyar-duymaz Banqkokdakı tərəfdaşlarının əliylə şəhərin ortabab yox, məhz prestijli hotellərinin birində yerlər bron eləmişdi. Kolomboya uçuşun hava şəraitinə görə bir neçə gün yubanacağı xəbərini eşidəndə isə, "keşkə bu vaxtı menecerimizin üzünü görə biləydim", - deyə Müjdəyə zarafatla söyləmişdi. Sözün bütün mənalarında göydəndüşmə Banqkok səfəri hamı kimi onların da ürəyindən idi, vəziyyət fors-major olduğundan qrafik də buna uyğun qurulmuşdu. Daha doğrusu, heç bir qrafik yox idi, sadəcə, hamı Şri-Lankaya reysin nə vaxt açılacağını gözləyirdi.

Tomas əmi və Merio xalanın Mariyayla isinişib, demək olar ki, həmkar olduqlarını aydınlaşdırdıqları ikinci gecəyə kimi oteldə gözləməkdə olan turistlər arasında kimin üçünsə adi, kimin üçünsə mənasız və mənasız olduğu qədər də qanqaraldıcı hadisə baş verdi. Səhər yeməyinə Saşasız düşən Seryoja hardansa konyak adıyla aldığı butulkanı tək boşaltdıqdan sonra əvvəlcə Cekə "sambo"nun "tay boks"dan daha mükəmməl olduğunu sübut etməyə çalışdı, günorta yeməyində oteldən sifariş etdiyi Çin arağından içərkən Vəliyə rus vodkasının türk rakısından üstünlüyü barədə gurultulu fikirlər söylədi, axşama yaxın isə Mariyanın ürəyinə toxunacaq, Tomas əmi və Merio xalanın heç vaxt unutmayacaqları həmin qanqaraldıcı hadisə baş verdi.

- Qismət, kim düşünərdi ki, biz tayların vətənində nə vaxtsa qarşılaşa bilərik? Belə götürəndə müxtəlif adamlarıq, amma bəlkə də, müxtəlif deyilik, - otelin sərin, dəbdəbəli lojasında Uilyam viskidən bir qurtum alıb söhbətə başladı. Üzündəki ifadəsindən olduqca xoşbəxt görünən Seryoja badəni axıra kimi başına çəkib məmnunluqla ona baxırdı.

- Tamamilə razıyam, Uli, qismət gözəl şeydi.

- Şükür, nəhayət ki, kiminsə fikriylə razılaşdın, - Uilyam gülümsədi.

- Nədi, elə bilirsən mən höcət adamam? Bu, heç də elə deyil. Adamlar mənimlə razılaşsalar, mən də razı qalıram. Burda nə var ki?

- Sənlə sonsuza qədər mübahisə edərdim, amma baş qoşmaq istəmirəm Seryoja, inan Allaha, sənə baş qoşmaq dünyanın ən cəncəl işidi. Yaxşısı budu viskimizi içək.

- Bravo! Bu, başqa məsələ, sən mənə viski süz, fikir ver badəm boş qalmasın. Məgər çox şey istəyirəm. Xoşbəxt olmaq üçün özünü çox da dağadaşa vurmaq lazım deyil, Uli, ömür qısadı., sadəcə, mənimlə hesablaş, bir də badəmi boş qoyma. Bax, görürsən nə qədər az şey istəyirəm.

- Müsibətsən, Seryoja! Sizdə hamı belə fikirləşir, yoxsa sən lap cavanlığına salmısan?

- Kimin nə fikirləşdiyi mənim heç vecimə deyil. Adam yerinə qoyulmamaq və boş bakal heç kimin xoşuna gəlməz. Hamı görməlidi ki, bax mən – Sergey İvanoviç burada oturmuşam, yəni mən burdayam. Səncə, məni görməmək olar? Yox! Sən məni görürsənmi? Deməli, hörmət eləməlisən.

- Hörməti qazanmaq lazımdır, əzizim. İnsanların sənlə razılaşması üçün gərək sənin də nəsə fikrin olsun, özü də elə fikir ki, hamı hardasa ona ehtiyac duysun, hamının nəyinəsə yarasın.

- Ay sağ ol, Uli, biz elə eyni şeydən danışırıq da. Hörmət! Sən hörmət deyəndə nəyi nəzərdə tutursan ki? Yəni nüfuz, eləmi? İnsan yalnız güclü olanda nüfuzlu olur. Mən güclüyəm, bunu nəzərə almaq lazımdı. Qurtardı getdi. Kimsə bunu görməsə, lazımdır ki, ona yerini göstərəm. Güclə hesablaşmaq lazımdı, elə fikir budu də.

- Gücün o biri üzü də qorxudu…

- Sağ ol, Uli! Bravo! Elə mən də onu demək istəyirdim, bəli, qorxu. Neyləyim axı adamlar qorxduqlarına görə hörmət edirlər? Mənim öhdəmə düşən güclü olmaqdı.

- Seryoja, qiyamətsən! Sənlə razılaşdıqca ürəyində nə varsa açıb tökürsən.

- Görürsən, mən necə səmimiyəm, Uli. Çünki çox şey istəmirəm, hə?

- Sən axı həmişə güclü ola bilməzsən? Hər şeyin necə sürətlə dəyişməsinə fikir vermək lazımdı. Biz indi bu gündən danışırıq, bəs sabah nə olacaq…

- Dayan, dayan… niyə məsələni qəlizləşdirirsən? Sabah nə olacaqsa, o da qismətdən asılıdı. Mən bu gündən danışıram. Bax, oturmuşuq üzbəüz, viski içirik, ağlımıza nə gəlsə edə bilərik, elə deyilmi? Sabahı düşünmə, Uli!

- Seryoja, sizdə hamı belə fikirləşir?

- Əşi, cəhənnəm olsun hamı! Süz görək! Bu gün, yalnız bu gün!

Tomas əmi və Merio xala otelə daxil olanda Uilyam artıq ikinci butulkanın qapağını açırdı, onları görcək əl eləyib qımışdı. Seryoja xumarlanan baxışlarını qocaların üstündə gəzdirib dodaqaltı nəsə qımıldandı. Onların foyenin iri sütunları arxasındakı qırmızı divanda əyləşdiklərini, Tomas əminin göy üzlü dəftərçəsini çıxarıb nəsə yazmağa başladığını heç biri fərq etmədi.

- Bunları görürsən, Uli? Mən heç vaxt belə qocalmaq istəməzdim, Allah eləməsin. İnsan anadan olur, yaşayır və bax beləcə mənasız yerə qocalaraq ölür. Bu həyatdırmı? Elə gəzirlər, özlərini elə aparırlar, heç elə bil yoxdurlar.

- Qocalmaq pis deyil, gərək qocala biləsən. Əvvəl elə bilirdim onlar, sadəcə, laldırlar, sən demə, həm də kar imişlər. Özlərini xoşbəxt göstərməyə çalışan bədbəxt, zavallı cütlük...

- Mən qocalmağa nifrət edirəm, bilirsən niyə? Çünki gücün qalmır, deməli, nə olacaq? Sənlə hesablaşmayacaqlar. Bəlkə də, yenə deyirəm, bəlkə də, kimlərsə hörmət edəcək, amma qorxduqları üçün yox, yazıqları gəldiyi üçün. Bax, mənim atam döyüşdə həlak olub, onun atası da müharibədə ölüb. Bir işə bax Uli, qəribədi, indi ağlıma gəldi ki, bizim nəsildə heç öz əcəliylə ölən olmayıb, heç kim də qocalmayıb. Qəribədi, nə əcəb indiyə kimi bu haqda düşünməmişəm?

- Mənim atam da müharibə iştirakçısıdı…

- Sənin atan qiyamət kişidi, Uli. Heç qabağından yemir ha. Yəqin elə bilir ki, mən ona nifrət edirəm. Amma inan ki, bu, belə deyil. Düzdü, höcətdi, amma sərt kişidi. Əgər mənim atam da qocalsaydı, eynən o cür olardı. Necə deyim sənə, bizdə beləsinə “mujik” deyirlər. Amma mən bunu sənə deyirəm, onun yanında heç vaxt etiraf etmərəm.

- Seryoja, gəl ataların şərəfinə içək…

- Bravo, Uli! Bayaqdan heç sağlıq deməmişik. Mən döyüşən ataların şərəfinə içirəm. Onlar bizi məhz beləcə görmək istəyərdilər, özləri kimi güclü, özləri kimi cəsur. Uli, bayaqdan ancaq suallar verirsən, niyə sən də öz fikrini demirsən?

- Ay səni, Seryoja, nə yaxşı yadına düşdüm? Mən bayaqdan sual vermirəm, sadəcə, ağzımdan çıxanı tamamlamağa macal vermirsən. Həm də söz danışdıq axı, heç olmasa, bugünlük sənlə mübahisə eləmək istəmirəm.

- Yəni, güc, hörmət barədə dediklərimlə razı deyilsən, eləmi? Bəs mənimlə hesablaşmaq barədə necə?

- Bilirsən, Seryoja, sən daha çox mənim atam kimisən, o da hər şeyi bax beləcə görür…

-Çünki “mujik”di.

-Mənim güc haqqında anlayışım başqa cürədi, yəni, demək olar ki, eyni fikirləşirik, amma həm də yox. Mən bankda işləyirəm. Bilirəm ki, güc puldu, müharibə isə elə keçmişdə də, indi də əlverişli biznesdi. Kimlərsə müharibədə qəhrəman olmaq üçün döyüşür, kimlərsə bundan yaxşı pul qazanır.

- Uli, sənin atan Vyetnamda pula görə döyüşürdü?

- Seryoja, bəs sənin atan Əfqanıstanda pula görə döyüşüb?

- Sayıqlama… Vətən…

- Axı ikimiz də bilirik ki, bizim vətənimiz haradı.

- Uli, sən yaxşı olar danışmayasan, yoxsa məni əsəbləşdirə bilərsən. Süz! Yaxşı sağlıq gəlir – bunu içək vətənimizin şərəfinə!

- Vətənimizin şərəfinə!

Tələsik foyedə peyda olan Mariya iri sütunların arxasındakı qırmızı divanda əyləşmiş Tomas əmi və Merio xalanı görcək gülümsünərək onlara tərəf bir-iki addım atmışdı ki, Seryojanın yarı nəvazişli, yarı ciddi səsini eşitdi "Maşa, Maşinka, bizə yaxınlaş zəhmət olmasa". Mariya bir az duruxsa da, özünü o yerə qoymadı və masaya yaxınlaşdı. "Maşinka, niyə tək gəzirsən? Kimsə xətrinə dəyməyib ki? Yox, kimsə xətrinə dəyibsə, mənə deyə bilərsən. Bax ha…".

- Sən narahat olma, xətrimə dəyən olsa özüm cavabını verərəm, - Mariya özünü bacardıqca nəzakətli göstərməyə çalışsa da alınmadı.

- Sağ ol Maşa. Bəs onda niyə təksən?

- Nə olsun? İndi sənin arvadın da otaqda təkdi, deməli, onun da xətrinə dəyiblər?

- Nə danışırsan Maşa, mən onun anasını… oy bağışla, özünü, hə lap özünü sevirəm. Biz bal ayındayıq axı.

-A, heç güman eləməzdim. Təbrik edirəm.

-Sağ ol Maşa, amma bilirsən bəzən təzə evlənənlər arasında nəsə problemlər olur, necə deyim, psixi problemlər…

-Psixoloji.

-Ay sağ ol. Mənə bax, sən hardan bilirsən?

-Çünki psixoloqam.

-Bax gördün, Uli, necə ağıllı qadındı. Ağıllı qadınlar bizim cəmiyyətdə nadir tapıntıdı, bunu yadda saxla.

-Sizin cəmiyyətdə, yəni?

-Maşa, bu nə söhbətdi axı "bizim", "sizin"? Maşinka, bizim vaxtıyla bir vətənimiz olub, təsəvvür edirsənmi, ikimizin də qırmızı, qıp-qırmızı pasportumuz var idi. Maşa, gəl bir əlli qıram viski iç, bir ucunda gün çıxanda o biri tərəfində gün batan gözəl vətənimizin şərəfinə!

- Yox, əziz yoldaş, mənim vətənimin üzərində gün çıxanda hər tərəfi işıqlanır, qaranlıq yeri qalmır. Özün iç. Bilirsən, bəzən aşırı nostalgiyanı da psixoloji diaqnoz kimi qiymətləndirmək olur.

Seryoja karıxmış halda Mariyaya, Uilyama və bir də yarımçıq süzülmüş badəsinə baxdı. Bu arada ortaya pərtlik yağan lal sükut da çökə bilərdi, yaxud qadın necə gəlmişdisə eləcə də "məclisi" tərk edərdi. Lakin bunların heç biri olmadı. Seryoja nəsə demək istədi, ancaq boğazına ilişmiş hikkəsi bütöv bir fikri ifadə eldən cümlə qurmağa heç cür imkan vermədi. O, ayağa qalxıb Mariyanın biləyindən yapışdı, əlindəki badəni onun dodaqlarına yaxınlaşdırıb bağıranda Uilyam artıq tələşlə gözlərini bərəltmişdi.

- İçəcəksən, ləçər! Vətənin şərəfinə içmək istəmirsən?! Aç ağzını!

- Seryoja, lazım deyil, nə edirsən? - Uilyam onu sakitləşdirməyə cəhd göstərmək istəyərkən Mariya sərt hərəkətlə biləyini onun iri, cod barmaqları

arasından sıyıraraq özündən kənara itələdi. Seryoja müvazinətini saxlaya bilməyib arxadan onun çiyinlərindən yapışmış Uilyamla bir yerdə divana sərildi. O, bu vaxta qədər Banqkok otelinin eşitmədiyi və yəqin ki, heç vaxt da eşitməyəcəyi çoxmərtəbəli söyüşlərini elə yıxılı halda Mariyanın üzünə söylədi. Uilyam çiyinlərindən yapışmasaydı, sadəcə, yerindən təpik atmaz, eyni qəzəblə ayağa qalxıb hamının gözü qarşısında qadını yarımcan olana qədər yumruqlaya bilərdi. Amma ona uzanıqlı vəziyyətdə söyüş söymək ayağa qalxıb yumruqlarını düyünləməkdən daha çox yaraşırdı. “Sənin şərəfinə içmək istədiyin vətən artıq yoxdu, bədbəxt! O, dağılıb! Əyyaş patriot! Bir bax, nə gündəsən? Başqalarının hesabına əyyaşlıq eləmək, hər yanı murdarlamaq – budu sənin sifətin. Tfu!”, - ilk dəfə üzlərindəki təbəssümün yerini qorxu almış Tomas əmi və Merio xala Mariyanın yanında dayanıb eyni qəzəblə divana sərilmiş iki əyyaşa baxırdı. Ağzı köpüklənmiş Seryojanın artıq heç nə vecinə deyildi, təsadüfən gözünə sataşan masanın altına düşmüş viski bakalını qamarlayıb onlara tərəf qolayladı. Bakal foyenin iri güzgülü sütunlarından hansınasa dəyib çilikləndi. “Nahaq məni saxladın, Uli. O qancığa yerini göstərməliydim”, - deyə hayqırsa da, Uilyamın onu dinləməyə halı qalmamışdı. O, başlarının üstünü kəsdirmiş otel mühafizəçilərinə nəsə izahat verir, üzrxahlıq edirdi. Seryoja hələ bir müddət bağırmağına davam etdi: “Vətənin şərəfinə içmək istəmir! Vətən xaini! İt qızı! “Beşinci kalon”un qancığı! İmperializmin nökəri!”, - o bir neçə kəlmə də hansısa imperializmin anasına söydükdən sonra yarımçıq viski butulkasını qamarlayıb qoltuğuna vurdu. Uilyam səndələyə-səndələyə birtəhər onu təmiz havaya çıxaranda isə, artıq Banqkokun əlvan işıqları sayrışan axşam saatları başlamışdı.

“Khaosan road” Banqkokun adi küçələrindən biri də ola bilərdi; hamının hər səhər işə gedib-gəldiyi, tələsik addım səslərinin şütüyən maşınların uğultusuna qarışdığı, axşamlar fənərlərin solğun işığının düşdüyü səkilərə düzülmüş girdə masalarda insanların qəhvə içdiyi adi şəhər küçələrindən biri. Bəlkə də o da nə vaxtsa adicə küçə ömrünü yaşayıb, ya da həmişə adını eşitdiyi başqa sakit küçələrin xiffətini çəkərək, nə vaxtsa onu hüzura qovuşduracaq günəşin doğmasını arzulayıb. Dünyanın dörd bir yanına səs salmış indiki halı onun ürəyindən idimi, nə biləsən? Hər halda, insanlar onu necə görmək istəyirdilərsə, “Khaosan road” elə görsənirdi. Gecə düşər-düşməz avtomobillərin hərəkətinin yasaqlandığı küçəni qarışqa seli kimi qamarlamış adamların arasında çaşıb qalmaq olardı, amma azmaq mümkün deyildi. Kənardan anlaşılmaz xaosa oxşasa da, hər qarışının öz sahibi, öz müştərisi olan yerdə istəsən də aza bilməzsən. Dünən axşam Vəli Özdəmiri qarınağrısına salan süddə pörtlədilmiş darçınlı banan satan balacaboylu, cır səsli xala da, ananas şirəsi sıxan, qurbağa çığırtması, ilan qızartması bişirən aşpazlar da, öz bədənini hırıldayaraq “endirimli” qiymətlə istənilən yoldan keçənə təklif edən yarıçılpaq fahişələr də iş başındadı. Hər tinindən ədviyyat iyi gələn, tay ritmlərinin qulaq deşdiyi küçədə dünyanın adidən adi alveri gedir – kimsə nəsə satır, kimsə nəsə alır. Biz bilirik “fast-fud” zərərlidi, lakin bütün sanitariya qaydalarına tüpürərək məmnuniyyətlə ona pul xərcləyirik. Bizi təsadüfi intim münasibətin ağır fəsadlar verə biləcəyinə inandırmaq üçün dünyanın donorları nə qədər qrantlar xərcləyirlər, lakin biz yarıçılpaq gözəlçələrin yanından ötəndə maarifçilərin gözünün yaşına məhəl qoymuruq. Göydə ay görünən kimi “Khaosan road”da başlayan coşqunluğu London birjasında hay-küy salmaqdan boğazı qurumuş brokerlərin canfəşanlığıyla müqayisə etməmək üçün nəsə arqument fikirləşmək istəyirsən, amma baş sındırmağa dəyməz, alver hər yanda alverdir, istəyirsən bunu bahalı

kostyumda elə, istəyirsənsə elə-belə, çılpaq bədənlə. Bura bütün qadağalara bilərəkdən meydan oxuyan həyatın özüdür. Burada heç kim ikinci planda deyil, hamı öz həyatının baş rolunu oynayır. Zəncəfil, darçın, qızardılmış ət qoxuyan, tay ritmlərinə qarışmış gözəlçələrin qəhqəhəsinin ərşə qalxdığı məkana xoş gəlmisiniz! Bura insanların maskalarını çıxardığı, içlərindəki vəhşi ehtirası oyadaraq özləri kimi olmağa çalışdıqları planetin tək yerlərindəndi! Bura "Khaosan road"dur!

"Əgər azad insan azad seksdən doğulursa, onda belə çıxır ki, azad insanın anası fahişədi?" - bayaqdan Cek Kruzu dinlədikcə tükləri biz-biz olan Vəli, nəhayət ki, beynində vurnuxan qənaətini dilinə gətirdi. Banqkokun gecə həyatını çəkmək üçün kamerasını sazlasa da, yol boyu səfər yoldaşının azadlıq haqqında söylədiyi fikirlər onun azad dünya haqqında bütün düşüncələrinin altını üstünə çevirmişdi. Vəlidən fərqli olaraq, Cek beyninə hakim olmuş həyat ideologiyasını elə əsaslandırırdı ki, onun fikrincə, bütün ömrü boyu əlləşib hazırladığı azadlıq konsepsiyasına qarşı çıxmaq günaha bərabər idi. Təbii ki, onunla razılaşmamaq da olardı, amma bunun üçün Cekin təfəkküründə şübhələrə yol açan nəsə arqument söyləmək lazım idi ki, bu da Vəliyə görə iş deyildi. Biri var gurlayan meydanda çıxış edən, özünü hamının ürəyini oxuyurmuş kimi göstərən və ən əsası kütlənin nə istədiyini bilib barmağının işarəsiylə onu öz bildiyi səmtə yönləndirən hiyləgər natiq, biri də var aşağıdan yuxarı heyranlıqla ağzını açıb baxan, nə eşitdiyini fərqinə varmadan əlləri qabar olana kimi çəpik çalıb hayqıran sıradan biri. Belə götürəndə Cekin parlaq nitqi yox idi, elə adına konsepsiya dediyi də filosofların seks və azadlıq haqqında sitatlarından çırpışdırılmış gurultulu sözlərdən başqa bir şey deyildi.

"Artıq dünya hetroseksual liderlərin hökmranlığından yorulub, onu yeni məcraya salmaq, yeni düzən vermək lazımdı", - Cek yavaş-yavaş Vəlinin gözlərinin bərəlməsinə səbəb olacaq monoloquna məhz bu sözlərlə başlamışdı. Monoloq ona görə ki, Vəlinin bu vaxta kimi eşitmədiyi sözlər qulağına dəyib qayıtdıqca o, yalnız öz ürəyində donquldanırdı. Yalnız axırda cəmi bircə dənə sual verdi, vəssalam. "Başa düşürsənmi, mən Amerikanın prezidenti seçiləndə, inaqurasiya mərasimindəki çıxışımın əsas məzmununu indi sənlə bölüşürəm, Vəli. Bunu mənim yalnız ən yaxın dostlarım bilir. Əgər yeni dünyada yerini tutmaq istəyirsənsə, sən də qərar versən yaxşı olmazmı? Dəqiqləşdir, bizimləsən, yoxsa yox? Bizimlə olsan planetin simasını bir yerdə dəyişərik. Siyasi xəritələr, coğrafiyalar, milli kimliklər, nə bilim, daha nələr, nələr, hamısı artıq köhnəlib. Babamın uğrunda döyüşdüyü dəyərlər də, atamın hər şeydən çox sevdiyi pul da artıq əvvəlki kimi deyil, hamısı dəbdən düşüb. Artıq insanların əvəzindən çox şeyləri süni intellekt icra edir və vaxt gələcək ki, qərarları da o, verəcək. Bizim – insanların əvəzindən, başa düşürsənmi? Bizə yalnız sevişmək və azadlıq hissi qalır, yəni azad sevgi – bunu bizim əlimizdən almağı heç kim bacarmaz". Cek yol boyu Vəlinin çaşqın baxışlarını yerə zilləyib susmasından ruhlanaraq gələcək haqqında daha odlu-alovlu nələrsə söyləyə bilərdi, lakin birdən gələcəyin azad insanının anasını şübhə altına alan solaxay sual səsləndi. Cek hazırcavablıq göstərib yenə də öz baxışlarının siyasi-fəlsəfi tərəfləri barədə nələrsə deyə bilərdi, amma sual kifayət qədər dəqiq, bir qədər də sərt olduğundan o, taym-aut götürməyə üstünlük verdi. Əvvəlcə başını qaşıdı, sonra barmaqlarını şaqqıldatdı, əlini Vəlinin çiyninə qoyub qımışaraq dilləndi:

- Axı azad insanın anasının fahişə olub-olmamasının məsələyə nə dəxli var? İnsanın ruhu azaddırsa, bu yetər.

- Yaxşı, onda belə çıxır ki, “Khaosan road”da hər gecə nə qədər azad insanın bünövrəsi qoyulur? Bir gör nə qədər atasından xəbərsiz azad insanlar doğulacaq?

- Vəli, bilirsən problem nədədi? Sən müsəlman kimi düşünürsən. Çoxlu komplekslərin var, bax, əgər onlardan imtina etsən, bu vaxta kimi doğru hesab etdiklərinin çoxunun yalan olduğunu görərsən və ya əksinə. Yəni incimə, müsəlman kimi düşünüb gələcək qurmaq – nəsə mənə çatmır?

- Cek, demək istəyirsən ki, sənin qurmaq istədiyin dünyada müsəlmanlar olmayacaq?

- Bax, yenə də hər şeyə eyni bucaqdan yanaşırsan. Söhbət insanların yox, ideyaların idarə edilməsindən gedir. Bu gün dəbdə olan nədirsə, adamlar da onunla ayaqlaşmağa çalışır. Bunun üçün çoxlu pul xərcləyirlər, dəridən-qabıqdan çıxırlar, çünki dəbdən geri qalmaq gerilikdi, bunu ki bilirsən. Yəni söhbət yeni dünyanın yeni dəbindən gedir, biz bunu yaratmalıyıq. O ki qaldı ana söhbətinə, məncə, çox dərinə getmək lazım deyil. Bilirsən, bunlar hamısı formadı…

- Bəs birdən kimlərsə dəblə ayaqlaşmaq istəmədi, onda necə? Onda müharibələr aparıb etiraz edənlərin hamısını qırmaq lazım gələcək?

- Of Vəli! Gərək sən əvvəlcə beynindəki tarakanlardan yaxa qurtarasan. Onsuz da dünyada hardasa həmişə müharibə gedir və gedəcək də? Bizim məqsədimiz öz ideyamızı, dəbə mindirməkdi, bu, sənin başa düşəcəyin qədər bəsit bir formuldu. Dərindən fikirləşsən, əgər hamı eyni dəblə ayaqlaşarsa heç müharibələrə də gərək qalmaz.

- Bəs birdən ayaqlaşmasalar, birdən istəməsələr?

- Əgər yeni dəb kiminsə xoşuna gəlmirsə, ondan yaxşısını təklif etsin. Hə, buyur, bəlkə, daha yaxşı fikrin var?

Vəli Özdəmir, sadəcə, çiyinlərini çəkdi. Köhnə dünyaya yeni düzən verəcək ideyaları anlamaq üçün ona hələ bir müddət, bəlkə də sonsuza qədər vaxt lazım olacaqdı. Onlar artıq “Khaosan road”a yaxınlaşmışdılar. Parlaq əlvan işıqların kölgəsini bir-birinə qarışdırdığı adamlar arxayınca gəzişir, vitrinlərə baxaraq hərə öz dilində nəsə üyüdüb-tökürdü. Anlaşılmaz səslərin bir-birini batırdığı küçədə onların qulağına tanış nərilti gəldi – darısqal səkilərdə düzülmüş balaca dördkünc masalardan birinin arxasında əyləşmiş Seryoja hiddətdən gözləri bərəlmiş Saşaya baxaraq uğunub getmişdi.

“Özünü heyvan kimi apardığını təsəvvür edirsənmi? Mariyaya təpik atdığını eşidəndə utandığımdan yerə girdim. Sən Tailandın paytaxtında bağırırsan, kef edirsən, mənsə xəcalət çəkirəm. Deyəsən kim olduğunu çox tez unutmusan?”, - Seryoja nə qədər içkili olsa da, Saşanın nifrətlə söylədiyi sözlərin, sərt atmacaların arxasında nələrin dayandığını yaxşı başa düşürdü, elə ona görə də susmağa üstünlük verirdi. Susurdu, ona görə yox ki, bu çəkiləsi ağır olan sözləri üzünə tərs şillə kimi vuran bal ayına çıxdığı arvadıydı, ona görə ki, qarşısında oturan ölkəsinin oğru dünyasının tanınmış simalarından birinin qızıydı. Onunla ukraynalı qadın kimi rəftar etmək; viski dolu badəni zorla dodaqlarına pərçimləmək, var-yoxunu söyüb təpik atmaq olmazdı. Seryoja üçün həmin anda vətən üstündə heç vaxt gün batmayan ucsuz-bucaqsız coğrafiya yox, hikkəsindən dil-dodağını gəmirə-gəmirə danışan bu bəstəboylu sarışın qızcığaz idi. Bəlkə də, ayrı vaxt olsaydı Saşa ərinin hansısa başqa bir qadını söyməsini çox rahatlıqla onun içkili olmasıyla izah edərdi. Amma sinəsində qəflətən baş qaldıran küt ağrılardan qıvrılarkən onun köməyinə ərindən əvvəl yetişmiş Mariyanın oteldən xeyli aralıda yerləşən aptekdən ağrıkəsici alıb qayıdanda Seryojanın məzhəkəsinin düz

ortasına düşməsini həzm edə bilmirdi. “Bağışlayın, üzr istəyirəm” sözlərinin yaralanmış ürəyə məlhəm olacaqdısa, Seryoja bunu yüz dəfə edərdi, özü də hamının gözü qabağında, lazım gəlsə, dizlərini yerə ataraq. Lakin çamurun həmişə izi qalır və o, acı xatirəyə çevrildikcə heç vaxt özünü unutdurmur.

Seryoja qorxusundan səsini içində boğmuşdu. “Kim olduğunu unutmusanmı”, sualı isə onun içkidən keyləşmiş bədənini soyuq duş kimi sızıldatdı, bütün həyatı göz qırpımında ağ-qara kino lenti kimi sürətlə geriyə - kim olduğu vaxtlara fırlanırdı. Doğrudan da kim idi o? Onun fiziki mövcudluğunu ikicə kəlmə lik sadə cümləylə ifadə etmək mümkün olsaydı, belə alınardı – küçə adamı. Bütün ağıllı başların kəsilib tükəndiyi, dərrakəli beyinlərin küncə sıxışdırıldığı, məntiqlə düşünüb yaşamaq istəyənlərin lağ obyektinə çevrildiyi günlərdə lap nağıllardakı kimi başına dövlət quşu qonmuş sıradan bir küçə adamı. Dünyamızın milyonlarca şəhərləri, kəndləri var, o şəhərlərdə və kəndlərdə bir-birinə paralel, ya da kəsişən, kimlərinsə adını daşıyan və ya, sadəcə, nömrələriylə tanınan on milyonlarla küçə var. İməkləyə-iməkləyə qəddini düzəldən bəşər övladı ilk qədəmlərini atan kimi küçəyə tələsir, hələ küçələrdə doğulub-böyüyən milyonlarca insanı demirəm. Amma onların heç də hamısı küçə adamı sayılmaz, bu, tamam ayrı kateqoriyadır. Bu, elə növ adamlar dəstəsidir ki, qarışıqlıq və hay-küyün yaratdığı fürsətdən faydalanıb layiq olmadıqları zirvələrə qalxır, layiqli adamların yerlərini tutur, israrla başqalarını da özlərinə oxşatmağa səy göstərir, onlara bənzəməyənlərinsə insafsızcasına ömürlərini çürüdürlər. Küçə adamı kateqoriyasına aid olanlar yoxuşa doğru qalxan ensiz kənd yolunun tozanağını, palçığını, maşınların şütüdüyü enli prospektlərinsə tıxaclarını, basırığını sevirlər. Çünki onlar yalnız tozanaqda və ya basırıqda heç kimdə olmayan fitri istedadlarını işə salıb hamını əzib keçmək şansı qazanırlar. Küçə adamları ağıldan qorxmazlar, məntiqdən çəkinməzlər, parlaq zəkaları tezcə aldadıb yoldan çıxarar, başlarına corab hörüb barmaqlarına dolayarlar. Belə adamlarda ləyaqət olmaz, heç bunu özlərinə dərd də eləməzlər, sadəcə, ləyaqət haqqında eninə-boyuna danışmağı sevərlər. Onlar harda peyda olurlarsa olsunlar, həmişə təsadüfidirlər və bunu hamıdan yaxşı anladıqları üçün gurultulu şüarlarla əla qrimlənə bilirlər. Küçə adamlarının qorxduqları yeganə şey təzədən küçəyə qayıtmaqdı. Onlar arxalarınca kimlərin gəldiyini, kimlərin pusquda dayanıb növbə gözlədiyini yaxşı bilirlər, yenidən küçəyə qovularlarsa, özlərindən betərlərinin caynağında parça-parça olacaqlarına əmindirlər. Küçə adamları küçəyə qovulmaqdan qorxurlar! Seryoja məhz bunun üçün susmuşdu. Yırğalanan başını viski butulkasına söykəyib bəstəboy, sarışın arvadının atmacalarını udmaqdan başqa çarəsi yox idi, ola da bilməzdi.

Seryoja küçədə püxtələşmiş fiziki ömründə başına “dövlət quşu” qonduran mühüm bir sirri ürəyinin dərin yerində əbədi qıfılladığını güman edirdi. Yalnız bircə dəfə labüd ölümün qarşısında illərcə trenajor zallarında bərkitdiyi əzələləri mum kimi yumşalıb titrəyəndə, dili topuq vura-vura həmin müdhiş sirrin ucundan-qulağından nəsə anlatmışdı. “Saşa, sənin anan fahişədi, bunu bilirdin? Onun çoxlu pulu var. Amma səndən gizlədir. Bilirsən, mənə elə təkliflər eləyib ki… mən də hamısına razılaşmışam. Biz bunu gizlədirdik səndən. Onsuz da əvvəl-axır biləcəkdin… Saşa, mən səni sevirəm… mən ölmək istəmirəm atam kimi…” Göyün yeddinci qatında hamı kimi ölümün soyuq nəfəsini duyan Saşa bu sayıqlamaları ciddiyə almamışdı, heç ümumiyyətlə, Seryojanın nə danışdığına fikir də verməmişdi. “Boeinq-737”nin göyərtəsindəki 189 nəfərdən biri kimi Saşa da ölməyə hazırlaşdığından onun

üçün yanında oturan adamın atasının cangüdəni, ya anasının “boy-frendi”, ya da özünün əri olmasının heç bir anlamı yox idi. Lakin onlar ölmədilər axı. Həyat ağına-bozuna baxmadan ənənəvi sürətiylə davam etməyindəydi. Yalnız o zaman Saşanın ilk tərəddüdləri, sinəsində küt ağrıya çevrilən şübhələri də göyərməyə başladı. Təyyarə yerə endikdən, ölümün caynağından qurtulmuş adamlar sanki yenidən həyata vəsiqə aldıqdan sonra elədikləri etirafları, hətta dualarını da unutdular. İnsanlar hər gün ölmürlər, amma hər gün yaşayırlar. Uilyam Kruzun sözü olmasın, qismət, yalnız qismət.

Küçə adamının cangüdən, boy-friend, ər triadasının bütün fazalarını eyni uğurla adlayaraq ağ atın belinə atlanıb işıqlı dünyaya çıxması çoxları üçün bəlkə də, “cek-pot” udmaq kimi görünə bilər, lakin həyatda belə şeylər də olur və bunu etiraf etməmək mümkün deyil. Bəziləri üçün bu, çoxdan gündəlik həyat normasına çevrilib. Milyonlarla insan belə acı reallıqlar məngənəsində sıxılaraq beyinlərində qabar bağlamış “niyə axı” sualına bütün ömürləri boyu cavab tapmaq üçün əlləşir, amma heç vaxt kələfin ucunu tapa bilmirlər. Çünki ağıllı adamlar heç şübhəsiz, bütün çətin sualların cavabını kitablarda axtarırlar, fəqət, onları əbləh yerinə qoyan tarix küçədə yaranır. Mayasında küçə təfəkkürünün dayandığı, oğru qanunlarına yazılı sənədlərdən daha çox riayət olunduğu dünyanın alaqaranlıq labirintlərindən çıxış yolunu kitabda axtarmaq eybəcər dərəcədə sadəlövhlükdür.

Kim olduğunu unutma! Seryojanın gicgahları dəhşətli küt ağrılardan sıxılsa da, arvadının sərt xatırlatmasından sonra ömrünün bütün mənalı-mənasız anlarını dərhal yadına saldı, daha doğrusu, kim olduğunu xatırladı. Oğru dünyasının tanınmış simasının qızıyla evlənmək, inanılmaz etimad idi. Oğru öz övladını cibində bıçaq, tinlərdə siqaret tüstülədən, eynəkli qocalara, köməksiz qadınlara “xox” gələn milyonlarla küçə uşağı arasından məhz ona etibar etmişdi. O isə özünü əsil oğru kimi apararaq sahibinin qızından əvvəl arvadının da könlünü oğurlayıb, orada özünə xudmani guşə rahatlamağa müvəffəq olmuşdu. Seryoja yaxşı başa düşürdü ki, oğrunun intuisiyası nə qədər güclü olsa da, onun bu dünyadan umduğu heç də hamının zənn etdiyi kimi, pul, xəzinə, sərvət yox, yalnız sədaqətdir. Sədaqət bütün oğruların zəif yeridi. Söhbət sümük görəndə ağzının suyunu axıdıb quyruğunu bulayan köpək sədaqətindən gedir. Seryoja da köpək kimiydi, bəlkə də, ondan da betər idi. O, “Khaosan road”da çənəsinə dayaq verdiyi butulkanı fırladıb arvadının başına çırpa bilərdi, İlahi bunu etməyi necə də çox istəyirdi. Lakin “sədaqətli ər” obrazından çıxmaq ona həyatı bahasına başa gələrdi. Bəlkə də, o da nə vaxtsa maskasını dəyişmək, ya da yeni maska seçmək hüququna yiyələnəcəkdi. Lakin bunun üçün əvvəlcə sayılıb-seçilən, hörmət qazanmış oğru olmaq lazım idi. Nə dünəni, nə də sabahı haqqında fikirləşməyən və belə adamlardan uzaq gəzən Seryojanın bu basabasda yadına atası düşdü. Onun hamının gözünün içinə dik baxaraq heç bir maskasız-filansız qürurla deyə biləcəyi yeganə həqiqət üzünü görmədiyi atasının Əfqanıstanda döyüş tapşırığını yerinə yetirərkən hərbi vertolyotda həlak olması idi. Hər halda, ona belə demişdilər. Seryoja yetim qalanda çox balaca idi - böyüyəndə atası kimi əsgər olacağını düşünəcək qədər tərtəmiz və balaca. İndi isə onun arvadının məzəmmətinə sakitcə qulaq asmaqdan başqa yolu yox idi və naəlac qalıb dişlərini ağartdı.

- Hə, çox gülməlidi? - birdən-birə ərinin qımışması Saşaya bayaqdan bəri danışdığı bütün sözləri unutdurdu. Bəlkə, doğrudan da onunla danışmağın mənası yox idi? Elə hər şey bal ayındaca başa çatmalı, bu mənasız sevgi məzhəkəsinə nöqtə qoyulmalı idi? O, seçim etməkdə çətinlik çəkdiyini səhəri

günü ilk dəfə Vəli Özdəmirin yatağında etiraf edəcəkdi, amma seçməkdən əvvəl qərar vermək lazım idi, tərslikdən Saşa bunu da bacarmırdı , - burda ələ salınası adam varsa, o da sən özünsən, Sergey İvanoviç, - dedi.

- Saşa, Saşinka, nədən danışırsan? Ələ salmaq hardan çıxdı? İnan ki başım partlayır. Bilirsən, Saşinka, burda hər şey geydirmədi, görəsən, viskidən olar? Bəlkə, heç yerli-dibli bu Amerika zibilini içməyim, nə deyirsən?

- Sən dözülməzsən, Seryoja. İslaholunmazsan. Mən bayaqdan nədən danışıram? Sən həmişə yalnız qarnını fikirləşirsən. Yox, səhv elədim, sən daha çox qarnınla fikirləşirsən...

- Yaxşı, bax, indi bu dəqiqə gedib Mariyadan üzr istəyərəm. Deyərəm "Maşinka, bağışla məni. Qələt eləmişəm! Keç günahımdan! Lap istəyirsən bir dənə də üzümə şapalaq vur. Vur hə, istəsən təpik də at". Bax, elə belə də deyəcəm. Bu, sənin hirsini soyudar?

- Sən mənə xəyanət eləmisən..., - bu kəlmələr Saşanın ağzından niyə və necə çıxdısa, heç özü də anlaya bilmədi. Bəlkə də, demək istəyirdi ki, yalnız arvadlarına xəyanət eləyən kişilər belə üzrxahlıq edə bilər. Amma o, son sözünü qabaqcadan söylədi. Seryojanın içkidən keyləşmiş beynində elə bir şimşək çaxdı ki, qorxudan ayaqları titrəməyə başladı. Hərçənd ki, o, təyyarədə nə sayaqlamışdısa, trapdan enən kimi də hamısını unutmuşdu, heç Saşa da nəyisə üzə vurmamışdı. Qızın dodaqları arasından sıyrılan "xəyanət" kəlməsindən sonra ortaya mənasız sükut çökdü. Seryoja həmin bu ağır dəqiqələrdə yanan vertolyotdan xilas olmaq üçün çarpışan atasının iztirablarından betər ağrılar yaşayırdı. Gənc arvadının onun xəyanətindən xəbərdar olması vurulmuş vertolyotun içərisində yanıb külə dönməyə bərabər idi. Küçə adamları küçəyə qovulmaqdan qorxurlar. Qovulmamışdan öncə onun hansı işgəncə üsullarına "qonaq" edilməsi isə artıq oğru atanın verəcəyi qərardan asılı idi. Ən zəif yeri sədaqət olan oğruların bağışlamadığı ən böyük günah da heç şübhəsiz, xəyanət idi. Seryoja çənəsinə dayaq verdiyi butulkanı nəhayət, masanın bir küncünə qoydu. Həmin anda beynində qığılcım kimi doğan fikri arvadının üzünə demək üçün özünü toparlayıb ağzını açmaq istəyirdi ki Saşa dilləndi: "Düzünü de, Mariya ilə aranızda nə var?" Uzun sürən mənasız sükut qızın sinəsində küt ağrıya çevrilmiş şübhələrin artıq nöqtəsini qoymuşdu, lakin görünür oğru atasından keçmiş instinktlər Saşanı həlledici zərbəni endirməmişdən qabaq hələ bir az oynamağa, həqiqətlə məzələnməyə təhrik edirdi. Onun özünü lap kütbeyin yerinə qoyub ərinin Mariya ilə münasibətindən şübhələndiyini söyləməsi gözlədiyi effekti verdi. Seryoja məhz onun istədiyi nəticəyə gəlmişdi. O, artıq tam əmin idi ki, arvadı nə qədər müasir görünsə də, bütün gününü televizorun qabağında əttökən seriallara baxaraq keçirən evdar qadınlardan artıq heç nə düşünə bilməzdi, daha doğrusu, bacarmazdı da. Bir qədər əvvəl Seryojanın beynində qığılcım kimi doğan fikri isə özünü toparlayıb hər şeyi etiraf etməkdən ibarət idi – "Bağışla məni Saşa, məni sənin anan yoldan çıxartdı", - söyləyərək qaçmaq... "Khaosan road"da adamların arasında gözdən itmək və heç vaxt geriyə boylanmamaq... Elə bu an arvadı öz sərsəm versiyası ilə onun həyatını xilas etmiş oldu. Keşkə yanan vertolyotdan atasını də xilas etmək mümkün olaydı... O, yenə də gülürdü, bu dəfə lap ucadan. Hətta nəriltiyə oxşayan qəh-qəhələri bu qədər adamın arasından fərq edən Ceklə Vəli uzaqdan əl edib onlara yaxınlaşdılar.

"Ay səni, kütbeyin heyvan!", - Saşa balaca dördkünc masanın üstündəki butulkanı onun başına çırpmaq üçün yerindən sıçradı. Özünü yetirən Vəli cəldliklə qızın biləyindən tutdu, Cek ani olaraq başını geri çəkən Seryojanın

kətildən yıxılmaması üçün kürəyindən yapışdı. Saşanı özündən çıxaran ərinin onun sualına, ümumiyyətlə, heç bir cavab verməməsindən daha çox uğunub getməsiydi. Ona yaxşı bir şillə ilişdirmək üçün bir az dartınsa da, Cek hırıldamaqdan ağzı əyilmiş Seryojanın qoluna girib adamların arasında itdi. Saşa hələ də uzaqdan həyasız hayqırtıları eşitdikcə qəzəbdən titrəyirdi. Vəli onu sakitləşdirmək üçün küçə restoranından, sadəcə, su almaq istəsə də, vitrində pivə və tekila butulkalarından başqa gözünə tanış heç nə dəymədi. Hər şey pivədən başladı.

"Khaosan road" qaynayırdı, Banqkokda olduqları sonuncu gün Vəli üçün Youtube kanalının izləyicilərinə söz verdiyi küçənin gecə həyatını çəkmək üçün axırıncı fürsət idi. O, yalnız indi kamerasının sərxoş Seryojanı uzaqlaşdıran Cekdə qaldığını fərq etdi. Əslində kamera oteldən çıxıb bura gələnə kimi yeni dünya düzəni haqqında konsepsiyasını əsaslandırmağa çalışan Cekin çiynində olmuşdu. Pivələri masanın üstünə qoyub uşaqların arxasınca getmək istədiyini söyləyəndə, Saşanın ağladığını gördü. Qız bu qədər gurultunun içində yalnız onun qulaqlarının eşidə biləcəyi pıçıltıyla "məni tək qoyma" dedi. "Narahat olma, kameranı alıb tez də qayıdıram", - Vəli ağızucu mızıldınab özünü adamların arasına vurdu. Ona elə gəlmişdi ki, Ceklə Seryoja heç yana uzaqlaşmayıb, sadəcə, ala-qaranlıq tinlərin birində dayanıb onlara göz qoyurlar. Ona elə gəlmişdi… Hamının unudulmaz gecə yaşamaq üçün nəsə soraqladığı nəhəng küçədə onların heç biri gözə dəymədi. Bütün ümidini itirdiyi, məyusluqdan hətta hönkür-hönkür ağlamağa hazırlaşdığı vaxtda yad adamların arasında tanış bir cüt gözdən başqa heç nə görmədi. Bal ayına çıxmış rus gəlini ensiz səkinin üstündəki dördkünc masadan nəmli və ürkək baxışlarını ona sarı zilləmişdi. Vəlinin həmin anda planetin bütün canlıları arasında nifrət etdiyi yeganə kimsə vardısa, o da bu yazıq baxışların sahibi Saşa idi.

* * *

Tomas əmi və Merio xala hərəsi Mariyanın bir qolundan yapışıb öz otaqlarına gətirəndən sonra belə, Seryojanın bütün oteli başına götürmüş söyüşləri qulaqları dəlib keçməkdəydi. Pilləkənləri qalxanda Mariya geri qayıdıb əhlikef kişinin cavabını vermək üçün dartınsa da, qolundan yapışmış nurani qocalardan keçə bilmədi. Tomas əmi və Merio xalanın üzündə ədəbi yuva qurmuş təbəssümün yerini indi bir az nigarançılığa, bir az tələşə bənzəyən hiss almışdı. Onlar Mariyanı bacardıqca tez bu rüsvayçı mənzərədən uzaqlaşdırmaq üçün tələsirdilər. Yaşları imkan verməydi, bəlkə də, qaçardılar, lap göydən alov yağan gecə Reyn sahilində əl-ələ tutub qaçdıqları kimi. Qocalar elə həyəcanlı idilər ki, ikinci mərtəbədə qalsalar da, hələ də pilləkənlərlə yuxarı qalxırdılar. Yalnız üçüncü qatda Mariya ayaq saxlayıb Seryojagilin qaldığı otağa tərəf gedəndə Tomas əmi səhv gəldiklərinin fərqinə vardı və onu dayandırmaq üçün qolundan dartdı. "Dərman… ağrıkəsici… Saşaya dərman almışam", - Mariya onun üçün nə qədər ağır olsa da, gülümsünərək dilləndi. Qocaların israrıyla bütün gecəni onların yanında keçirən Mariya sinəsindəki küt ağrılardan qıvrılan Saşaya dərman almaq üçün oteldən çıxdığını söyləyəndə Tomas əmi və Merio xalanın sifətindəki əbədi təbəssüm təzədən öz yerini tutdu.

Onların söhbəti bütün gecə boyu uzandı. Bu, söhbətdən daha çox Mariyanın monoloquna, qocalarınsa göy üzlü dəftərçənin səhifələrinə yazdığı sözlərdən ibarət yazılı və şifahi nitqin bir-birinə qarışmış maraqlı kombi-

nasiyasına bənzəyirdi. Dünya səyahətinə çıxmış drezdenli qocaların Babil qüllələrini tədqiq edən tarixçilər olduğunu biləndə, Mariya da özünün insanların kollektiv davranışındakı problemlər haqqında dissertasiya yazan sosial psixoloq olduğunu söylədi. Hər şey bir-birini elə tamamlayır, elə üst-üstə düşürdü ki, sanki bütün ömürləri boyu dünyanın bu qərib yerində məhz bu gecəki söhbət üçün yol gəlirmişlər.

"Adam cəmi bir dəfə ölür, lakin hər gün yaşamağa məhkumdu", - Mariya Merio xalanın dəmlədiyi yaşıl çaydan bir qurtum içib dilləndi, - "insanı öyrənmək, onun davranışından baş açmaq çətin işdi. Təsəvvür edirsinizmi, iyirmi ildən çoxdu Kiyev Universitetində bu mövzuda mühazirələr oxuyuram. Tələbələrim elə bilir ki, mən hər şeyi bilirəm, mənimsə, demək olar ki, lap az şeylərdən başım çıxır. Amma həmişə çalışmışam ki, öyrəndiklərimin mahiyyətini anlayım. Gənclər həmişə eyni sualları verir, nəsillər dəyişir, təzə tələbələr gəlir, amma suallar dəyişmir. Nə qədər təzə adamların dilindən səslənsə də, köhnə sual elə köhnədi, cavabı da həmçinin. İndi anlayıram ki, insanı öyrənib başa çatmaq, sadəcə, mümkün deyil, amma yenə də öyrənirəm", - parıldayan gözlərini Mariyaya zilləmiş qocalar böyük həvəslə birinci kursa qədəm qoymuş tələbələr sayaq nəfəslərini içlərinə çəkib ona qulaq kəsilmişdilər.

Tomas əmi göy dəftərçəsində tezcə nəsə qaralayıb ona tərəf uzatdı - "Maraqlı işlə məşğulsunuz".

"Hə, hardasa maraqlı görünür. Həm də yorucu və cansıxıcı. Bəzən utanıram, bəzən də özümə yazığım gəlir. Başa düşürəm ki, faydası yoxdu, amma yenə də kitabların arasında əlləşirəm. Sanki insan qəsdən özünü sehrli qapılar arxasında gizlədib ki, ondan baş açmaq olmasın. İnsanları öyrənmək dünyanın ən lazımsız peşələrindən biridi, buna heç vaxt sosial sifariş olmayıb, heç kim bunu istəməyib. Bəlkə, heç buna lüzum yoxdu. Gec də olsa, belə qənaətə gəlmişəm, amma gecdi", - Mariya başını yelləyib gülümsündü. O, danışdıqca tələbələr kimi qeyd aparan Tomas əmi dəftərçəsini Merio xalaya ötürdü, o da nəsə yazıb Mariyanın qarşısına qoydu.

Tomas əmi: "Tədqiqatın predmetini yox, rakursu dəyişmək olmazmı? Məsələn, insanın özünü dərk etməsinə nəzər sal. İnsanı başqa canlılardan fərqləndirən elə budu".

Merio xala: "Ruhdan düşmə, qızım!"

"Eh, Merio xala, ruhdan düşməmək üçün əsas yoxdu, lakin ruhdan düşüb nə edə bilərəm ki?" - Mariya gülərək çiyinlərini çəkdi, - "rakurs məsələsinə gəldikdəysə, Tomas əmi, haqlısınız, amma insanın özünü dərkini nəzərdə tutursunuzsa, sizinlə razılaşa bilmərəm. Mən insanı başqa canlılarla müqayisədə xeyli müşahidə etmişəm və gəldiyim qənaətləri desəm, yəqin təəccüblənəcəksiniz. Kollektivdə insan və sürüdə heyvan – paralellik aparanda gördüm ki, heyvanların dərketməsi heç də bizdən pis inkişaf etməyib və nə qədər əcaib görünsə də, hardasa, onlar daha humanistdirlər, amma tərsinə olmalı idi, deyilmi?"

Sifətlərindəki anlaşılmaz ifadədən qocaların Mariyanın tərs sualından bir şey anlamadıqları aydınca sezilirdi. Onlar anlayırdılar, lakin insanın bir varlıq kimi belə aşağılanmasını və hətta bunun elmi müddəalarla əsaslandırılmasını başa düşməyə çətinlik çəkirdilər. Bütün ömürləri boyu əl-ələ tutub oddan-alovdan keçmiş qocalar başlarının tükü sanı soyuq sifətlər görmüşdülər, haqsızlıqlarla qarşılaşıb, ətürpədən mənzərələrin şahidinə çevrilsələr də, heç vaxt heyvanların insanlardan daha humanist keyfiyyətlərə malik olduğu qənaətinə gəlməmişdilər. Daha doğrusu, gəlmək istəməmişdilər.

"Əvvəlcədən deyim - mən sürüyə qarşıyam. Sürünün bütün formalarına nifrət edirəm. Bir alim kimi yox, insan kimi həmişə bu düşüncədə olmuşam. Sürü kimi hamını bir-birinə bənzətməyə çalışmaq həyatı mənasızlaşdırmaqdan başqa bir şey deyil", - deyərək Mariya davam etdi, "bax, sizə qoyun-canavar-insan sürüsü üçbucağında insanın mübarizəsi və ümidləri haqqında danışa bilərəm. Qoyunlar yapıncılı çobanın dəyənəyi altında sürü kimi yaşamaqdan ona görə məmnundurlar ki, onların yumşaq tüklü dərisinin altındakı yeməli ürəklərinin dərinliyində daim məğlub olmaq instinkti gizlənib. Davamlı olaraq elliklə məğlub olmanın qorxusu bu canlı növün özünü sürüdən kənarda hiss etməsinə imkan vermir. Əbədi qorxu qarşısında daim tir-tir əsən sürü şüurlu şəkildə özünü düşünmə və digər bacarıqlarını çobana təslim edir, onun tütəyinin avazı, çomağının qalxıb-enməsi ilə həyatını qurur, güzəranını sürür. Əvvəl-axır boğazına bıçaq dirənəcəyini bilsə də, yenə də sürüdən uzaqlaşmır, çünki başının kəsilməsini yalnız özünün fərdi faciəsi və yaxud da qəzavü-qədərin qaçılmazlığı kimi başa düşür. Axı bu vaxta kimi heç bir çoban bütün sürünün başını eyni vaxtda kəsmir. Sürüdən kənarda isə həyat yoxdu, ağzıqara çoban itlərinin gözündən uzaqlaşan kimi labüd ölümlə, yəni yeməli ürəyin dərinliyində gizlənmiş qorxuyla rastlaşmaq qaçılmaz olur. Qoyunlar və canavarlar sürü halında yaşayanda nəyi necə etmək lazım gəldiyini çox gözəl bilirlər, onların arasında səssiz və incə harmoniya mövcuddur - qoyunlar başa düşürlər ki, onlar qorunmalıdır, canavarlar da bilirlər ki, onlar parçalamalıdır. Yəni "qorun" və "parçala" əmrlərini onlara xatırlatmağa ehtiyac qalmır, bu həyatdır, onun ən bayağı ritmi belədir. İnsanlar da belədir, sürüyə çevriləndə, hərəkət siqnallarını mütləq kənardan gözləyirlər, ən adi şeylər barədə birgə fikirləşmək imkanından məhrum kütlə yalnız qeyri-müəyyən dirijorun çubuğunun qalxıb-enməsinə tabe olan başını itirmiş icraçıdan başqa bir şey deyil. İnsan bir qayda olaraq ürəyində başqa şeyi tutub, dilində hamının eşitmək istədiyi şeyi deyirsə, bu, artıq sürüləşmənin ilkin simptomudur. Müasir insan artıq düşünmək istəmir – bu isə ikinci simptomdur. Tomas əmi, qəribəliyi görürsünüzmü, qoyunun əbədi ölüm mələyi sayılan canavar da sürü halında yaşayır. Siz elə bilirsiniz ki, canavarların birgəyaşayışı mükəmməldir, çünki çobana ehtiyacları yoxdur? Bu, yanlış təsəvvürdür. Bütün sürülərin çobanı var, kimisi əlində çomaq təpənin üstündə oturur, kimisi də dişlərinin qıcayıb beyinin içində. Bütün sürüləri birləşdirən bir cəhət var: bu, genetik yaddaşa işləmiş qorxudu. Hətta qorxacaq bir şey olmasa belə, onu təsəvvür etmək kifayətdir ki, istənilən canlı sürüyə çevrilsin. Fərdin ən böyük mübarizəsi özünü göstərmək, yəni insan olduğunu sübut etmək üçün atdığı ilk addımdan başlayır. Düşünmək imkanı olmayan və ya bunu bacarmayan varlığın ümidi və mübarizəsi haqqında danışmağa dəyərmi? Artıq insan bütün fərdi keyfiyyətlərini xərcləyib qurtarıb, heç kim başqasından fərqlənmək istəmir. Heç kimin fərqlənmək şansı qalmayıb. Çünki bizim zamanın adamları artıq düşünmək qabiliyyətini itirməkdədir".

Tomas əmi əlində qələm hazır dayanmışdı və lakonik sualdan sonra ortaya çökmüş qısa pauzada tələsik dəftərçəsində nəsə yazıb Mariyaya uzatdı: "Bəs nəticə?"

"Açığı mən konkret nəticəyə gəlməyə hələ çətinlik çəkirəm. Amma söyləməkdən özümü zorla saxladığım bir qənaətim var – deyəsən, insan artıq Yer kürəsində öz missiyasını başa vurub. Deyəsən, bizim yerimizi daha mükəmməl varlıqların tutmasına hazır olmalıyıq", - Mariya yorğunluq və tələş yağan səsiylə pıçıldadı.

Tomas əmi: "Siz yəqin süni intellektə işarə edirsiniz. Amma onu da insan yaradır və insan da təkmilləşdirir".

Merio xala: “Lakin süni intellektin ruhu olmur, qızım, ola da bilməz”.

“Elə bir zaman gələ bilər ki, insanların yaratdıqları onu qabaqlayar və istədiyi əmrləri verərək, bizi köləyə çevirə bilər. Bəli, mən təzə heç nə danışmıram, bu, köhnə nəzəriyyədi. Amma reallaşa da bilər və biz günbəgün, bəlkə də, daha sürətlə həmin vaxta doğru yaxınlaşırıq. İnsanların böyük əksəriyyəti onların əvəzindən verilən qərarlara nəinki etiraz edir, əksinə, bundan məmnun görünür. Hər şeyin məhz belə, rahat və əlçatımlı olması hamının ürəyindəndir. Merio xala, çox düz buyurursunuz, süni intellektdə ruh olmaz, bəs ruhu olan düşüncəsiz adama nə deyirsiniz? Guya onun robotdan bir fərqi varmı?”

Bu dəfə araya içinə çaşqınlıq hopmuş sükut çökdü. Nurani qocaların sifətində təəccübdən əsər-əlamət olmasa da, nigarançılıq sezilirdi. Onların itirməyə heç nəyi qalmamışdı; başlarına od yağan gecə əl-ələ tutub var güclərilə qaçmışdılar, keçmişlərindən, doğmalarından uzaqlaşsalar da, sonradan tarixi öyrənərək, yaddaşlarında pozulmuş doğma səhifələri qismən də olsa bərpa edə bilmişdilər. Yaşanmış günləri geriyə qaytarmaq mümkün deyilsə də, onun xatirəsini heç olmasa, bir ömür boyu uzatmaq, yaddaşın ən təmiz, ən saf guşəsində qoruyub saxlamaq imkanı həmişə olur. Müharibə görmüş qocalara insanın necə vəhşiyə çevrilməsini, amansızcasına hər şeyə qənim kəsilməsini, öz həmcinslərinin yaratdığı dəyərləri necə alt-üst etməsini sübut etməyə ehtiyac yox idi. Mariya bütün bunları yalnız nəzəri baxımdan təsəvvür edirdisə, Tomas əmi və Merio xala onları yaşamışdı. Amma… Elba sahilindəki Florensiyanın göylərindən alov yağdıran da, onları qana susamış əjdahaların caynağından xilas edən də insan idi axı.

“Bircə əlimi buraxma”- deyib ayaqları qançır olana kimi naməlum səmtə qaçan tifillər özlərini səfil paltarında bostan müqəvvasına oxşayan adamın arıq qolları arasına atanda dünya öz vicdanını ovutmaq üçün heç olmasa, iynənin ucu boyda təsəlli tapdı. Məhz həmin an hardasa çox uzaqlarda torpağın bağrını yarıb boy göstərməyə tərəddüd eldən Sakuranın doğulmasına səbəb oldu. Elba sahili alovlanır və tərslikdən həyat davam edirdi.

Bostan müqəvvası qollarının arasından sıyrılmamaları üçün tifilləri az qala sümükləri görsənən qabırğalarına sıxıb yarıdağılmış dəyirmana tərəf qaçırdı. Onlar zirzəmidə özlərinə oxşayan, özləri boyda və özləri dərddə divarın küncündə qarın-qarına dayanmış bir neçə adamçığazın da parlayan gözlərini gördülər. Onların hamısı insan olmaqdan utanan və yalnız başlarına yağan alovun gətirdiyi əzabverici ölümdən gizlənmək üçün titrəyən canlılar idi. Döyüş təyyarələrindən şəhərin başı üzərinə bombalar yağdıran cavan pilotlar əmrini yerinə yetirdikləri komandirlərinin gözündə daha da yüksəlmək üçün koordinatları bacardıqca dəqiq vurmaq uğrunda yarışa girmişdilər. Pilotlar məsafə etibarı ilə Allaha daha yaxın idilər və o yüksəklikdən aşağı baxanda alovlu atəşfəşanlıqdan savayı heç nə görmürdülər. Hamısının da bəraəti əvvəlcədən hazır idi “biz əmr icra edirik”… və sonra “al sənə medal, qüsursuz hərbi qulluğa, göstərdiyin rəşadətə, başqa sözlə, insanları yaxşı öldürdüyünə görə”. Alov dilimlərinin içində qovrulan qundaqdakı körpələr məsafə etibarı ilə Allahdan aşağıda idilər, onların analarının naləsində, dağıntılar altında son nəfəsini verən insanların iniltisində çox sadə və hamının başa düşəcəyi bir arzu düyünlənmişdi: “yaşamaq istəyirik”… və sonra hardasa köhnə dəyirmanın küncündə gözləri parlayan tifillərin mükafatı olacaq həyat – “al sənə yaşamaq, əgər bundan sonra yaşa biləcəksənsə…”.

Tomas əmi və Merio xala o zaman onların başına mərmiləri yağış kimi yağdıraraq tarixlərini və doğmalarını bir gecənin içində silib atan qırıcıların

Amerika təyyarələri olduğunu bilmirdilər, lakin onların həyatını xilas edən bostan müqəvvasının Drezdendə əsir saxlanılan Amerika əsgəri olduğunu elə həmin müdhiş gecədə bilmişdilər. “Bu, dəhşətdir, özümüz özümüzü öldürürük! Təsəvvür edirsinizmi, adamın doğma bombalardan gizlnəməsi necə çətindi…”, - müqəvvaya çevrilmiş əsgər titrəyə-titrəyə dodaqaltı mızıldanırdı. Onun məzlum sifətində həyat əlamətləri yalnız işıldayan gözlərində qalmışdı. İçəri batmış ovurdlarından yuxarıda qabaran iri almacıq sümüklərinin üstünü tük basmasaydı, onun sifətini başı aşağı asılmış armuda da oxşatmaq olardı. Fevralın soyuğu arıq vücudunu qılınc kimi kəssə də, viran qalmış küçələrin künc-bucağında insan harayına yetişmək üçün mücadiləsini davam etdirən bu müqəvva doğma bombaların yağışı altında əsil mələk kimi idi. Yiyəsiz dəyirmanın qaranlıq zirzəmisində əl-ələ tutub titrəyəndə də, labüd ölümə doğru getdiyi heç kimdə şübhə doğurmayan təyyarədə olanda da Tomas əmi və Merio xala artıq Yer kürəsində insanın öz missiyasını başa vurması haqqında düşünməmişdi. O dəhşətli gecədə hətta öz həyatını itirmək bahasına olursa belə, yad insanları od saçan əjdahaların caynağından qurtaran əsgər də bu haqda fikirləşə bilməzdi. Onları həmin gecə bütün ömürləri boyu nə özlərinin, nə də məşğul olacaqları tarix elminin bu vaxta kimi cavab tapa bilməyəcəyi bir sual düşündürürdü – axı Drezden niyə bombalandı? Xeyir və şərin mübarizəsi gedir – bu, köhnə söhbətdi və təbii ki, xeyrin qələbə çalması da xeyirxah insanların uydurduğu təsəlliverici sonluqdu – bu da təzə məsələ deyil. Ancaq insan! Bütün amansız mübarizələrin, qanlı savaşların qalibi də, məğlubu da, kimin üçün xeyir, kimin üçün şər olanda odu. Və qəribədir, öz missiyasının başa çatdığını düşünəndə odur…

“Bəşəriyyətin bətnində orta əsrlərdən qalmış vəhşi bir güc özünə yer eləyib. Gördüyümüz təzə nə varsa hamısını öz libasına bürüyür, xirtdəyimizdən asılıb qalır, nə udqunmaq olur, nə tüpürmək”, - Mariya sonsuzluğa danışırmış kimi davam etdi. “Bax, bu qüvvə ayaqlarımıza qandallanmış bir cüt qara daş kimi bizi daim geriyə, özü gəldiyi səmtə sarı sürükləyir, nə qədər çırpınsaq da, əlimizi uzatsaq da XXI əsrə çatmır ki çatmır. Dünyanın heç də hər yerinə XXI əsr gəlməyib, ona hələ çox var. Tarixin seçim anı yaxınlaşanda isə, babalarımızın üç yüz il, beş yüz il bundan qabaq elədiyini təkrarlayırıq - yəni heç nə etmirik… Yəqin tez-tez eşidərsiniz – deyirlər “tarix təkrarlanır”. Tarix təkrarlanmır, Tomas əmi, biz səhvlərimizi təkrarlayırıq”.

Tomas əmi buğlanan yaşıl çayından bir qurtum alıb bayaqdan bəri dayanmadan qeyd götürdüyü dəftərçəsini Merio xalaya uzatdı. Qadın ərinin qeydlərinə baxıb gülümsündü və tezcə nəsə qaralayıb dəftəri Mariyaya ötürdü. Bayaqdan fikir ümmanının burulğanında yelkənli qayıq kimi sahilə çatmaq üçün əlləşən Mariya qeydlərə baxanda heyrətdən donub qaldı – o, alovlu polemikaya gətirib çıxaracaq suallar əvəzinə qarşısında təzəcə çiçəkləməyə başlayan ağac şəklini gördü. Şəklin aşağısında bayaq Merio xalanın yazdığı beşcə kəlmə söz vardı: “uğur”, “oyanış”, “gümrahlıq”, “sevinc” və “sülh”. Mariya bayaqdan bəri danışdıqları və hər kəlməsindən məyusluq yağan qənaətləriylə qocaların bahara işarə edən çiçəklənmiş ağac şəkli arasında heç bir səbəb-nəticə əlaqəsi tapa bilmədi. Universitetdə də özünü mühazirə dinləyirmiş kimi göstərən tələbələr bəzən olurdu ki, qeyd götürmək əvəzinə şəkillər çəkərdilər, amma Mariya bunların heç birini onların üzünə vurmaz, ciddiliyini pozmadan dərsinə davam edərdi. Lakin, indi onun qarşısında həyatın dadını çıxatmaq istəyən tələbələr yox, ömrünün qürubunu yaşayan Babil qüllələrini öyrənən tarixçilər oturmuşdular. Qürub çağında - günəşin son közərtisinin üfüqdə itməsini seyr edərkən belə, bahar haqqında düşünmək yalnız insana

xas qəribəliklərdən sayıla bilərdi. Merio xala çoxdan yır-yığış etdiyi səfər çantasından axtarıb tapdığı medalyonu ona göstərəndə isə Mariyanın təbəssümü sifətində donub qaldı. Dördkünc miniatür kitaba bənzəyən, qızılı suya salınmış medalyonun üstündə Tomas əminin çəkdiyi ağacın – bəxtəvərcəsinə qollarını yana açıb gərilmiş Sakuranın əksi var idi. O qədər canlı idi ki, hətta balaca medalyondan belə, onun ətrini duymaq olardı. Arxa tərəfində isə Merio xalanın dəftərçəyə yazdığı beşcə kəlmə söz həkk olunmuşdu – "uğur", "oyanış", "gümrahlıq", "sevinc" və "sülh". Mariya bütün bu əlamətlərin nə demək olduğunu anlamaq üçün hələ bir müddət gözləməli olacaqdı. Tomas əmi ona nəsə izah etmək üçün qələmini götürüb yazmağa başlayanda gözlənilmədən qapı döyüldü. Saat üçə on dəqiqə qalmışı göstərirdi.

Gecənin bu saatında otel xidmətçilərinin əgər fövqəladə nəsə baş verməmişdisə, qapını döyməsi ağlabatan deyildi. Tomas əmi qapını açar-açmaz otağı bürüyən spirt iyindən çağırılmamış qonağın özünü təqdim etməsinə ehtiyac qalmadı – Seryoja başını aşağı sallayıb kandarda dayanmışdı, o, yalnız sözlərini deyib geriyə çevriləndə, arxasınca Cek Kruzun arıq kölgəsinin süründüyünü gördü.

"Maşinka burdadırmı?" - dodaqaltı pıçıldadı. Həyatın hər üzünə bələd olduğundan sifətində əbədi yuva qurmuş təbəssümü əsla dəyişməyən Tomas əminin belə heyrətdən ya qəzəbdən əlləri titrəməyə başladı və həmin anda ona elə gəldi ki, qarşısında dayanmış kimdirsə indicə onun üstünə atılmağa hazırlaşır. O isə yırğalanırdı, bəlkə də, kürəyini söykədiyi Cek Kruzun arıq çiyinləri olmasaydı, heç öz ayaqları üstündə belə, dayana bilməyəcəkdi. Tomasın titrəyən əlindən yapışan Merio xala isə "Maşinka" sözünü eşidəndə zavallının arvadını axtardığını zənn etdi. Lakin qocaların qarşısına keçib Seryoja ilə az qala burun-buruna dayanan Mariyanın "burdayam", söyləməsindən sonra məsələnin nə yerdə olduğunu anladı.

- Maşa, Maş… mən çox pisəm. Bağışla... Hamısı geydirmə Amerika viskisinə görə oldu. Maşa, viski heç yaxşı deyil. Zibildi. Heç vaxt içmə. Adamı dəli edir. Nə deyirsən, bağışlayırsanmı? - Seryojanın üzr istəməyi də qəribəydi, sanki dodağının altında öz-özüylə danışırdı və peşmançılığını, ya utandığını pərdələmək üçün başını qaldırmırdı.

- Nə bağışlayım? - Mariya məzəmmət edirmiş kimi dilləndi – "indi hardan tapım sənə əsil irland viskini?

- Yox, Maşinka, nə viski? Unut getsin. Unut, xahiş edirəm.

- Yaxşı, unutdum, - Mariyanın sakit danışığı və artıq-əskik heç nə demədən qanqaraldıcı hadisəni unutduğunu söyləməsi Tomas əmi və Merio xalaya, qaranlıqda heç silueti də görünməyən Cek Kruza nə qədər qəribə gəlsə də, Seryojanı daha da ürəkləndirdi. O, bu dəfə başını yuxarı qaldırıb Mariyanın gözlərinin içinə baxaraq növbəti xahişini etdi.

- Onda onu da başa sal. Saşanı… Başa sal ki, mən heyvanam, ancaq sənlə mənim aramda heç nə yoxdu, - dilləndi.

- Yaxşı, başa salaram. Deyərəm ki, belə lazımsız şeylərə görə başını ağrıtmasın. Deyərəm, ağlını başına yığsın. Bizim aramızda heç nə yoxdu və olmasını təsəvvür eləmək səfehlikdi, - Mariya yarızarafat, yariciddi dilləndi.

- Ay sağ ol! Hə, bax belə də de, Maşa. Unutdun, eləmi?

- Unutdum!

- Sağ ol.

- Yaxşı yol.

Seryoja gəldiyi kimi də uzun dəhlizin qaranlığında gözdən itdi. Yalnız arxasınca Cek Kruzun arıq kölgəsi sürünürdü. Mariya yarımçıq qalmış

mühazirəsini məmnuniyyətlə davam etdirmək istəyirdi. Elə Tomas əmi də bayaqdan əlamətlərlə başa salmağa çalışdıqlarını nəhayət, dəftərçəsinə yazıb ona anlatmaq üçün səbirsizlənirdi. Lakin dan yerinin sökülməsinə bir şey qalmamışdı. Sabahkı uzun yolçuluq ərəfəsində Mariya yaşlı dostlarını çox yormamaq üçün otağına getmək istədi. Gedərkən Merio xala bayaq göstərdiyi qızılı suya salınmış medalyonu onun ovcuna basdı və iki daşın arasında imkan tapıb dəftərçəyə yazdığı "hədiyyə" sözünü ona göstərdi. O, öz böyük ürəkləri və tükənmiş fiziki güclərilə onu qorumağa çalışan qocaları bağrına basaraq sağollaşdı. Hər şey arxada qalmışdı və bundan sonrakı saatı yalnız rahat uyumaq qalırdı, lakin…

Banqkokdakı sonuncu gecə heç birinin gözünə yuxu getmədi; Tomas əmi və Merio xala, eləcə də Cek Kruz unutmaqla bağışlamaq arasındakı əlaqəni, daha doğrusu, bu kəlmələrin doğrudanmı eyni məna verdiyini anlamaq üçün xeyli səy göstərdilər. Və heç nə anlamadılar … Bunu yalnız bir ucunda gün çıxanda o biri ucunda gün batan keçmiş ölkənin keçmiş vətəndaşları anlaya bilərdilər. Ən ağır cinayətləri, ən iyrənc əməlləri unutdurmaqla hər şeyin arxada qaldığını zənn etmək və bunu kütləyə aşılamaqla qırmızı yalanlara haqq qazandırmaq bu dünyada yalnız keçmiş sovet vətəndaşlarının yaşadığı tale idi. Lakin heç kim və heç nə unudulmur - sovet insanına bunu da orta məktəb kitablarından əzbərlətmişdilər.

Günəşin doğmasına az qalırdı...

* * *

- Başa düşürsünüzmü, sizin saatlarınız səhv işləyir. Vaxta uduzursunuz, aydındırmı? Bu, lənətə gəlmiş saatları kimsə düzəldəcək, ya yox, - resepşına düşən kimi Endryu Kruzun səsi aləmi başına götürmüşdü. Qolundakı saatla divarda müxtəlif şəhərlərin vaxtını göstərən saatlar arasında ciddi fərq olduğunu görən kimi özündən çıxmışdı.

- Axı burda niyə heç kim vaxta fikir vermir? - Endryu gözüylə etirazını bildirmək üçün adam axtararkən Tomas əmi və Merio xalanın aşağı düşdüyünü gördü. Onlardan vaxtı soruşanda məlum oldu ki, üzügülər qocalar heç vaxt saat taxmırlarmış. "Əcəb adamlarsınız", - Endruyu istehzayla dilləndi, "dünyanı gəzib-dolanırsınız, amma qolunuzda saat yoxdu. Hətta lazımınız olmasa belə, yanınızda saat gəzdirməyiniz məsləhətdi. Vaxtla zarafat eləmək olmaz. Özü də bu yaşda".

Seryoja otelin qapısından içəri özünü atanda istər-istəməz hamının gülməyi tutdu, hətta Endryu Kruzun da sifətində gülüşə bənzər nəsə cizgilər gəzişdi. O, ortasından yapışdığı elə təxminən özü boyda olan oyuncaq ayı ilə içəri daxil olarkən kandarda ayağı büdrədi və üzü üstə yerə sərildi. Qucağında tutduğu iri yumşaq oyuncaq olmasaydı, heç şübhəsiz, xəsarət də alacaqdı. Onun arxasınca çiynində Vəli Özdəmirin kamerası Çek Kruzun pıqqıltısı eşidildi, "neylədin? Kadr korlandı. Dur ayağa, təzədən! Dayan, yaxşısı budu içəri əvvəlcə mən keçim"- dedi. Seryoja bacardıqca "rejissor"un bütün işarələrinə əməl eləyən aktyorlar sayaq heç nə olmamış kimi yerindən qalxdı, "ayı"sını qucaqlayıb bayıra çıxdı. İndi o, növbəti "dubl"a hazır idi. Cek əlini aşağı endirən kimi yenidən otelin qapısını açaraq, bu dəfə ehtiyatla içəri keçdi. Əvvəlcədən danışdıqları kimi iri oyuncağı kameranın obyektivinə yaxınlaşdırıb bir müddət beləcə də dayandı. Bəli, ikinci "dubl"dan hər şey planlaşdırılmış kimi alındı. Cek "OK" deyib kameranı söndürdü. İndi onların hər ikisinin həyəcanlı baxışları pilləkənə dikilib qalmışdı. Baba Kruza

nəvəsinin elə bil onu görməməsi, görmüşdüsə belə, nədən əhəmiyyət verməməsindən daha çox Seryojanın Cekin göstərişlərinə dinməz-söyləməz əməl eləməsi çatmadı. “Ayı”sını otelin iri sütunu arxasında gizlədəndən sonra Seryoja sanki Cekə yalvarırmış kimi soruşdu, “bəs indi nə edim?”. “Zəng elə, onsuz da bir azdan aşağı düşməlidi”, - Cek gözünü pilləkəndən çəkməyərək cavab verdi. Xəttin o başındakı adam telefonu gec açdığındın Seryoja pəncələrini yerə döyəcləyə-döyəcləyə dizini yumruqlayırdı. Nəhayət telefona cavab verən tapıldı. O, qarşı tərəfin heç “alo” deməsini də gözləmədən “doro-qoy, yatmısan? Cəld aşağı gəl!”, - söyləyərək “NO” düyməsini basdı. Ceklə bir-birlərinə göz vurub gülüşdülər. Onlar elə həyəcanlı idilər ki, çiynində ağır yol çantaları liftdən çıxan Uilyamı da fərq etmədilər.

- Bu nə komediyadır? - Endru oğlunu görən kimi dilləndi.

- Gənclər yəqin nəsə planlaşdırıblar. Fikir vermə, ata.

- Onların nə elədiyi eynimə deyil. Saatlar yenə düz işləmir, axı dünən bu kütbeyinlərə tapşırmışdım ki, məni özümdən çıxarmasınlar. Buna bir əncam çəksinlər!

- Ata, yenə köhnə söhbət? Axı dünən heç bunu demirdin?

- Demirdim? Mən tələb edirdim! Mənə bax, vaxtdan dala qalmanın nə boyda qəbahət olduğunu onlara başa sal.

Uilyam artıq heç nə söyləmədi. Təcrübədən bilirdi ki, belə vəziyyətlərdə nəsə deməyin heç bir mənası yoxdu. O, resepşının qarşısında bir az dayandıqdan sonra gülərək ona yaxınlaşan mühafizəçiyə saatların səhv işlədiyini söylədi. Uilyam dünən axşam Seryojanın qaldırdığı mərəkədə ciliklənmiş viski bakalını təmizləyib ortalığı sahmana salmaq üçün məhz bu mühafizəçinin cibinə iyirmi dollar qoyduğunu xatırlamadı. Mühafizəçi onun axmaq sualından karıxmış kimi bir divardan asılmış saatlara, bir də Uilyamın pörtmüş sifətinə baxdı və başını yırğaladı. Yəni bu mümkün deyil, yaxud da “siz səhv edirsiniz”. “Bilirsən, - oğul Kruz nəsə təklif edəcəkmiş kimi onun qo-luna girib kənara çəkdi, - atamın xasiyyəti tünddü, tutduğunu buraxan deyil. Yəni heç olmasa, Nyu-York vaxtını göstərən saatı düzəldə bilərsinizmi?” - soruşdu. Mühafizəçi bu dəfə kinayəsi açıq sezilən kobud ingilis ləhcəsində “sən bilirsən Tailand sözünü mənasını”, - sual etdi. Uilyam eşitdiyi qəribə su-aldan tutuldu və, sadəcə, başını yelləməklə kifayətləndi. “Öyrənərsən, pis olmaz. Biz kiminsə diktəsiylə vaxtımızı dəyişmirik”, - mühafizəçi sərt və amiranə səslə sözlərini deyəndən sonra oradan uzaqlaşdı və az keçməmiş nə fikirləşdisə geriyə qayıtdı. Eləcə yerində donub qalmış oğul Kruzun üzünə sonuncu dəfə qımışaraq “amma bir variant mümkündür”, - söylədi. “İstəsəniz, Nyu-York vaxtını müvəqqəti satın ala bilərsiniz”, - deyərək barmağını qoşalayıb yellədi. “İki yüz?” - Uilyamın gözləri az qala hədəqəsindən çıxacaqdı. “Yox, biz insafsız deyilik, iyirmi də bəs edər”. Üstündə ən aşağı nağd pulun yalnız əlli dollarlıq olduğunu söyləyən kimi mühafizəçi dərhal cibindən çıxardığı bir dəst dolların arasından pulun xırdasını qaytardı. Uğurlu sövdələşmədən sonra mühafizəçi resepşının arxasına keçib Nyu-York vaxtını göstərən saatı divardan çıxarıb yerə qoydu. Ata Kruz isə oteldən çıxana kimi divardakı dəyişikliyə fikir vermədi, indi onu nəvəsinin dikbaş Seryojanı muma çevirməyə necə müyəssər olması maraqlandırırdı.

“Onun könlünü almasam qanım getdi. Başa düşürsən, Cek, mənimki bura qədərmiş. Nəsə eləmək lazımdı!”, - butulkanı başında sındırmaq istəyən Saşanın hiddətindən qorxaraq “Khaosan road”da adamların arasında tezbazar gözdən itən Seryoja pişik kimi miyoldayırdı. Kənardan baxana elə gələ bilərdi ki, Cek yekəpər kişinin qolundan yapışıb zorla harasa sürütləyir,

əslində bunların hamısı bəhanə idi, Seryoja özü dabanına tüpürüb qaçmaq üçün fürsət gəzirdi. Onun əlindən zəncir gəmirən Saşanın hirsini soyutmaq üçün nəsə fikirləşmək lazım idi. Seryoja istəmirdi ki, bal ayının elə əvvəlindən onun haqqında qayınatasının qulağına lazımsız sözlər çatsın. Nə qədər kefli olsa da, özünə haqq qazandırmaq üçün kifayət qədər ciddi arqumenti var idi, çünki törətmədiyi əmələ görə günahlandırılırdı. Xəyanət böyük sözdü. O qədər böyükdür ki, onun bədəlini ödəmək üçün insanlar bəzən həyatlarını verirlər. İş orasındadır ki, Saşa onu həqiqi xəyanətinə görə yox, öz xəstə müşahidələrinə əsaslanaraq, işləmədiyi günaha görə ittiham edirdi. Deməli, Seryoja haqlı idi və elə buna görə də özünü hardasa güclü tərəf kimi aparmağa çalışırdı. Amma istənilən halda arvadının könlünü almaq üçün mütləq nəsə eləmək lazım idi. Amma nə?

- Nə bilim nə, Seryoja? Bayaqdan elə üstüörtülü danışırsan ki, elə bil, tapmaca deyirsən. Axı sizin aranızda birdən-birə nə baş verdi ki? - Cek "Khaosan road"un qaranlıq tinlərinin birində daldalanmış Seryojadan soruşdu.

- Kütbeyinə elə gəlir ki, ona xəyanət eləmişəm, - başqaları eşitməsin deyə dodaqaltı pıçıldadı.

- Xəyanət? Əcəb də eləmisən!

- Başın xarab olub, dedim axı, Cek, ona elə gəlir.

- Seryoja, onda niyə gizlənirsən? Axı sən haqlısan? Gəl bu dəqiqə gedək yanına, de ki, nahaq mənim haqqımda belə fikirləşirsən.

- Çox ağıllısan, balaca. Demək istəyirdim də, görmədin az qaldı butulkanı başımda sındırsın.

- Onda nəsə bir şey al. Biz ki, "Khaosan road"dayıq. İstəsən pəncərəsinin qabağında serenada oxuya bilərsən. Hə, necə fikirdi? Ya da, bütün yataq otağına qədər hər yeri qızıl güllə bəzə. Yox, bu, alınmaz, axı biz oteldəyik. Bilirsən, ən yaxşısı nəsə almaqdı. Onun ən çox sevdiyi şey nədi?

- Başın işləyir ha! Afərin sənə, - Seryoja Cekin nəsə almaq təklifiylə göydə razılaşsa da, arvadının ən çox nədən xoşunun gəlməsi məsələsində əməllicə ilişmişdi. Xatırladı ki, ildırım sürətiylə tanış olub ailə qurduqları qısa vaxtda heç vaxt bu haqda kəlmə də kəsməmişdilər və "8 mart"da isə ona qayınanasının xoşladığı ətri hədiyyə etmişdi. Elə Saşa da Seryojanın ürəyindən keçənlərdən xəbərsiz idi, hətta bir dəfə alış-verişə çıxanda ona atasının ölçüsündə, atasının sevdiyi rəngdə köynək almışdı. Seryojanın qaşlarını çatıb fikrə getdiyini görcək Cekin ağlına ilk gələn sözü dilinə gətirdi:

- Mənə bax, pulun azdısa, mənim kartımdan çəkə bilərsən.

- Söhbət təkcə pulda deyil", - Seryoja nəhayət özünə gəlib dişlərini ağartdı – "nəsə almaqda tərəddüd edirəm. Hər halda, nəsə gərək yumşaq şey olsun ki, başıma çırpmaq istəyəndə ağrıtmasın.

- Seryoja, doğrudan arvadının nədən xoşu gəldiyini bilmirsən? Onda özün istəyən nəsə al. Məsələn, sən ən çox nəyi xoşlayırsan?

- Ayını, - Cekin birdən-birə gözlərinin bərəldiyini görən Seryoja eynən onun kimi gözlərini ağardaraq – "diri yox, oyuncaq ayı. Həmişə istəmişəm ki, ağappaq, qəşəng bir ayım olsun. Düzdü, anam söz verirdi, axırda dedi ki, atan qayıdanda alacaq. O isə... Hə ayı alacam! Hardan ayı tapa bilərik?

Cek onunla söhbət eləyən ayı boyda adamın arzusunun kiçikliyinə heyrətlənsə də, bunu üzə vurmadı. O, əslində Seryoja ilə söhbət etmək üçün yaxşı mövzu tapmışdı - xəyanət. Özlüyündə ona verəcəyi sualları da sıralamışdı; "doğrudanmı arvadına xəyanət etmisən", "və ya nə vaxtsa xəyanət eləmək istərdinmi", "qadınlar daha çox xəyanətə meyillidi, yoxsa kişilər". Cekin bütün bu sualları verməkdə məqsədi eşidəcəyi bayağı cavab-

lardan daha çox Seryojanı söhbətə çəkmək, onun beyninin dərin qatlarını qurdalamaq idi. Və bütün bunların ardından azad insan və yeni dünya düzəninin trendləri haqqında Vəli Özdəmirə söylədiklərini onunla da bölüşmək niyyətindəydi. Lakin… O, baxışlarını "Khaosan road"un yan-yörəsindəki mağazaların vitrinlərindən ayırmadan addımlarını yeyinlədən Seryojaya, küçə boyu bədənlərini münasib qiymətə və istənilən valyutaya kimə gəldi təklif edən gözəlçələrə baxaraq düşünürdü ki, bütün bunlar yeni dünyaya köhnə dünyadan miras qalmış əmtəədən başqa bir şey deyil. Onları idarə etməkdən ötrü hər gün nələrsə fikirləşmək, nələrsə diktə etmək lazım gələcəkdi.

Bütün küçəni ələk-vələk etsələr də, axtardıqları "ayı"nı qaldıqları otelin lap yaxınlığındakı mağazanın vitrinində gördülər. Mağaza bağlı idi və qapıya vurulmuş balaca lövhədə onun sabah sübhdən açılacağı yazılmışdı. Deməli, aeroporta gedənə kimi Seryojanın hələ özünü bağışlatması üçün şansı qalırdı. Hava yavaş-yavaş işıqlandığından ikisi də elə otelin foyesindəki divanların üstündə mürgü vurdular. Cekin başına dostunun ürəyindən xəbər verən elə bir parlaq ideya gəldi ki, hətta eşidəndə Seryojanın yorğun sifəti birdən-birə işıqlandı. O, çiyninə asdığı Vəlinin kamerasını işə salıb hədiyyənin Saşaya təqdim edilməsi anını lentə almağı, yaxşı bir rolik hazırlamağı təklif etdi. Rolikin adı da işıq sürətiylə beyninə girdi – "Banqkokda sevgi etirafı". Cek bunu eşidəndə Vəlinin gözlərinin necə alışıb-yanacağını təsəvvür edirdi. "Khaosan Road"un gecə həyatını çəkmək ona müyəssər olmasa da, hər halda, təzə ideya məyusluğu ört-basdır etmək üçün yaxşı variant idi. Cekin dahiliyinə əmin olduqdan sonra Seryoja onu "ideya çəlləyi" hesab edirdi və elə onun təhrikiylə də Vəliyə zəng eləyib "doroqoy, yatmısan? Cəld aşağı gəl!", - söyləmişdi. İndi onlar qulaqlarını şəkləyib dayanmışdılar və pilləkəndə bir qaraltı görər-görməz irəli şığımağa hazır idilər.

Əvvəlcə Mariya göründü; çamadanını bir küncdə rahatlayanda gözü Seryojanın qucağındakı ayıya sataşdı, gülümsəyərək ona göz vurdu, zavallı Seryoja xala xətrin qalmasın dişlərini ağartdı. Qadının bu jestindən sonra onun hər şeyi unutduğuna tam arxayınlaşmışdı. İndi yalnız Saşanın könlünü almaq qalırdı. Mariya Tomas əmi və Merio xalanın ona bağışladığı medalyonu taxmışdı, lakin qocaların sifətində həmişə daimi təbəssüm olduğundan bu jestin onların nə dərəcədə xoşuna gəlməsini aydınlaşdıra bilmədi. Vəli Özdəmir birinci mərtəbəyə enənə kimi təzəcə düşünməyin dadına baxan beynində sevgi və tarakanlar arasında mövqe savaşı başlamaq üzrəydi. Aşağıdan gələn "Ura!", "Yes!" qarışıq hayqırtı sədaları hələ ki, təzəcə qızışmağa başlayan "savaşı" yarıda kəsdi. Vəli, sadəcə, heyrətdən donub qalmışdı. Onun gözünün qabağında heç yuxusunda da görə bilməyəcəyi mənzərə var idi.

Cek Kruzun ssenari müəllifliyi, rejissorluğu, prodüserliyi və operatorluğu ilə "Banqkokda sevgi etirafı" roliki gözlənilməndən də uğurlu alındı. Saşa pilləkəndə görünən kimi "ağ ayı"nın arxasında gizlənmiş Seryoja irəli çıxıb diz üstə çökdü və nədənsə ingiliscə "I love you, my baby", - deyə qışqırdı, sonra hardansa Frenk Senatranın eyni adlı mahnısının nəqarət hissəsi guruldadı. Cek bunu romantikanın barıtını bir az da artırmaq üçün düşünmüşdü. Mənzərəni seyr edənlərdən kimlərsə kövrəlmiş, kimlərsə "vau" deyərək gözlərini bərəltmiş, bəzi diribaşlarsa bu qeyri-adi sərgüzəşti qaçırmamaq üçün onu telefona çəkmişdilər. Adamlara təbii olaraq elə gəlmişdi ki, cavan əcnəbi turist uzun yol qət eləyərək, məhz bu ecazkar Şərq ölkəsinə sevgi etirafında bulunmaq üçün gəlibmiş. Bircə dünən axşam sındırılmış viski bakalının qırıqlarını təmizləyən, bir az əvvəl isə "Nyu-York" vaxtını iyirmi dollara Uilyama

satan qarabuğdayı mühafizəçi başını bulayırdı. O, tur iştirakçılarının ayaq üstə Seryojanın jestini alqışladığını, hətta Mariyanın lap ucadan "Ura!", "Yes!", - deyərək qışqırmasını görəndə təəccübdən ağzının bir balaca əyildiyini də hiss elədi. Saşa əməlli-başlı karıxmışdı. Hətta özünü elə itirmişdi ki, birinci "ayı"ının burnundan öpdü, əgər Seryoja vaxtında ayağa qalxmasaydı, az qalmışdı ki, oyuncağı qucaqlasın.

Çəkilişi yekunlaşdıran kimi Cek özünü pillələrin başında ayaqları yerə kilidlənmiş Vəlinin üstünə atdı. "Alındı! Super! Adını da fikirləşmişəm – "Banq-kokda sevgi etirafı". Necədi?". "Axı onlar…" - Vəlinin dodağından çıxacaq kəlməni havada tutan Cek tələsik dilləndi: "Nə dəxli var axı! Onlar ki, Ancelina Coli ilə Bred Pitt deyil? Kimdi onları tanıyan? İnan, bunu kanalına yükləyən kimi reytinqləri dağıdacaqsan". Hər şey Cekin dediyi kimi də oldu; nəhayət, qarışıq hisslərinin əsarətindən yaxasını qurtarmağı bacaran Vəli roliki kanalına yükləyən kimi "layk" yağışına düşdü. Adamlara daha çox Senatranın ifası fonunda Seryojanın diz çökməsi və Saşanın ağlayaraq onun boynuna sarılması anı təsir etmişdi. Vəli istifadəçilərin yazdıqları şərhləri oxuyandan sonra rolikə bir daha baxdı və yalnız bu zaman Saşanın ağladığını fərq etdi. Onun niyə ağlaması, daha doğrusu, nəyə ağlaması Vəliyə çatmadı.

(Ardı var)

OXUCULARIN NƏZƏRİNƏ!

2021-ci İL ÜÇÜN

"AZƏRBAYCAN"

jurnalına abunə yazılışı davam edir.

"AZƏRBAYCAN"

jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,
illik abunə qiyməti 18 manatdır.
İNDEKS: 76300



İlham QƏHRƏMAN

NİYƏ BİR GÜLLƏYƏ YIXILMIRSINIZ?!

Yetim-yesirin haqqı
ilan sümüyündən pisdi, cənablar!
Təbiniz necə çəkdi,
Allah əlacınızı
beləmi kəsdi, cənablar?!

Sac üstündə Qunça nənə:
- Tez bu çörəyi qonşuda
sağırlara ver, - deyərdi.
Gör-götür məktəbiydi,
mərhəmət dərsi keçərdi...
Qəlbimizdə mərhəmət hissi
Qunça nənə tökənlərdən cücərdi...

Belə haçanacan gedər, -
geridən gələnə nə yol qoyur,
nə öyrədir, nə qandırırsız?!
Tutduğunuz əməllərlə
bizi niyə utandırırsız?!

Xeyirə bir koma qaralamadınız,
şərə saray, ev tikən cənablar,

İndi gözünüz dörd divara dikilib,
yetimin payına göz dikən cənablar!

Axı başqasına görk olsun deyə
Neçə başda duran tutulmalıdı?!
Niyə bir gülləyə yıxılmırsınız,
Sizə neçə güllə atılmalıdı?!

O biclik qalmadı əl atmayasız,
Düzü kəsib əyri calayırsınız.
6-nı 9-a çevirən yerdə,
Yuxa qulağımı sulayırsınız?!

Heçmi gözünüzə gəlmədi
axirət günü, əcəl dərdi?!
Ona heyifim gəlir ki,
sizə zindan ucaldanlar
balalara məktəb ucaldardı.

Yetim-yesirin haqqı
ilan sümüyündən pisdi, cənablar!
Təbiniz necə çəkdi,
Allah əlacınızı
beləmi kəsdi, cənablar?!

NAXÇIVAN

Adın şeirə çəkilər,
dəftər səhifəsindən keçər...
Sənə olan sevgimiz
yağı nəfəsinə gələr,
yağı nəfəsindən keçər.

Qisas qaldıqca acıyar,
dərdimiz acıya gəldi,
Arşın malçı əlində
Vətən şülən oldu,
Zəngəzur butasından
qayçıya gəldi.

Badamlı, Sirabın durudu,
yumrulmuş yollara bax -
sıx gözünü, duru ağla.
Bir yaylağın dəsmal olsun,
Qarabağ-Zəngəzuru ağla.

Bizdən oğul olarmı, -
dərd varmı bundan ağır?!
Bizim olan torpaqdan
üstünə güllə yağır.

Sadəlövhlüyümüzdəndi -
hər vaxt bizi kələk tutur.
Sən qıraqda tək ağacsan,
dörd bir yandan külək tutur.

Biz sənə yaxın gəlməkdən
bir az da uzağa düşdük.
Başdakılar mılıx oldu,
tələyə, duzağa düşdük.

Fələk bir oyun oynaya
ayrılıq, həsrət kəm düşə?!
Kəllədəki ev kimisən
soyuq çəkirsən həmişə.

Hansı müəllim istəyər
məktəbin yolu bağlansın,
şagirdi dərsə gəlməsin?!
Əhdimiz var - yollarında
ayağımız torpaq görsün,
sevgi nəfəsə gəlməsin.

SALXIM SÖYÜD KİMİ İNCƏ BİR GÖZƏL

Görən umsuq olur, udqunur keçir,
Bağrının başına od qonur keçir.
Tanıyan tanıyır, yad donur keçir,
Salxım söyüd kimi incə bir gözəl.

Elə cilvələnir - gözün yellənir,
Ürəyin atlanır, için dillənir.
Baxanın ağzının suyu göllənir,
Salxım söyüd kimi incə bir gözəl.

O gedər, ardınca çox aşiq düşər,
Küçə, xiyabana yaraşıq düşər.
Arx üstə dayansa, qarışıq düşər,
Salxım söyüd kimi incə bir gözəl.

Bərbərlər tellərə burux düzdülər,
Cavanlar yolunda çarıx üzdülər...
Heç kimə yendiməz, ərik əzdirər,
Salxım söyüd kimi incə bir gözəl.

Özündən deyəni pəsdə qoyubdu,
Söhbəti bir “hə”nin üstdə qoyubdu,
Kəndin qulağını səsdə qoyubdu,
Salxım söyüd kimi incə bir gözəl.

SƏNSƏN

Bir mən candı, bir mən xəyal,
can həmişə can evində,
xəyal gecələyən oda sənsən.
Az kitab oxumadım bura qədər,
oxuduğum ən maraqlı
bir kitab var – o da sənsən.

ƏLAMƏT

Arxeoloq Vüsal Paşaya

Bu sevgi sümüyə işlər...
Bir gün bir antropoloq
tapdığından çaş-baş düşər,
qaşı çatılar, -
Bir nikah aktında adın çəkilər,
özgə sümüyündə sevgin tapılar.

BATDI, NƏ BATDI

(təcnis)

Ətəkdən süründü üzü yoxuşa,
Dağlar kor dumana batdı, nə batdı!
Kim xəbər alırdı – "Kim batdı çayda?"
Tanıdım – o kəs ki, batdı, Nabatdı.

Gülün həvəsidi, bülbül yan süzür,
Toyda bir gözəllə bir cavan süzür.
Deyirəm, əlindən qızıl qan süzür,
Deyirsən: Əlimə batdı! – Nə batdı?

Hesab vurma, bölmə, toplama, çıxdı,
Dəli endi, sağlar ağaca çıxdı,

Tufandan bir Nuhun gəmisi çıxdı,
Qalanı qərq oldu – batdı, nə batdı!

O Simurq quşuna alov yer idi,
Bu könlüm od yeri, alov yeridi.
Bazar tüstüləndi, alov yeridi,
Hamının mayası batdı, nə batdı!

Yağış salar bizi ya sel, ya zığa,
İlham gedər ya Hövsana, ya Zığa.
Yalan qandırdılar sevən yazığa
Onun da ağlına batdı, nə batdı!

CİNAS

Könül, bəxtin bəxt olmadı,
Çox tutunma göz yaşına.
Yazan qələmi kim görüb –
Ya utana, ya yaşına?!

Dağda itəni tapın, a!
Göz olun dərə, tapına.
Bir qoca eşqə tapına
Dönər cavanlıq yaşına.

İlhamdan dönən Şirindi,
Qəfəsdən çəkir şir indi...
Yanmışın odu şirindi,
Qurudan keçsin yaşına.

KÖNÜL

Yağıb açan rüzgar kimi,
Təbdən təbə düşən könül.
Mənim xatirimə gəlmir,
Heç oldumu nəşən, könül?!

Qara yeli əsdi yurdun,
De, bunumu istəyirdin?!
Buza döndü isti yurdun
Bənövşətək üşən, könül.

Səni qiblə tutdum eşqə,
Belə etməyəydim keşkə...
Adam ağlatmaqdan başqa
Varmı ayrı peşən, könül?!

GEDƏNİ

Adamlar haysız qoydular
Həmişə haya gedəni.
Şirin sözü-söhbətiylə
Şənliyə, toya gedəni.

Sevincdən əzabı tutub,
Yol gedir uzağı tutub,
Tanrının qəzəbi tutub
Xəlbirnən suya gedəni.

Havalı, yelli görərlər,
Əlini belli görərlər...
Çöllərdə dəli görərlər
Əməyi zaya gedəni.

QARĞIŞA GƏLMƏK

Bu necə qarğışa gəlməkdi, fələk,
Bunun arxasında Şeytan olmasın?!
Anatək sevəsən yurdu - di gəl ki,
Sevgisi ürəyə yatan olmasın.

Görən hara qaçır o qarşı qaçan?!
Kimin naləsidi bu ərşi aşan?!
O günə qalasan – kor qarışqacan
Vətən deyiləndə butan olmasın.

Qor sönsün, gözlərin külə dikilsin,
Yükün ağır bassın, dizin bükülsün.
Davada üstünə millət tökülsün,
Sənə əl yetirən, tutan olmasın!

OĞUL

(Oğlum kimi işsiz olub yardım ala bilməyən gənclərə)

Yoxsul qazana gön qoyar,
Ha qaynayar bişməz, oğul.
Körpələr yuxu tutunca
Qazan oddan düşməz, oğul.

Şərəf deyilmi həyatda -
Əsgərisən dar ayaqda.
Ayrıseçkiliktək ox da
Ürəkləri deşməz, oğul.

Nə qandın alın yazından? -
Ya çəkicsən, ya da zindan.
Halal adam boğazından
Haram tikə keçməz, oğul.

SEVGİ TESTİ

Sevgiyə tutulan zaman
Adam bir az hayalanır.
Ağac kökündən su içir,
Sevgi gözdən mayalanır.

GÖRÜŞ YERİ

Bilmədin - görüş yerini
Bu gün gedib yoluxdum e.
Elə yer var gülümsədim,
Yer də var ki, doluxdum e.

Gəlib saçını dağıdıb -
Hallaşmağım yadındamı?!
Getmə deyib sol qolundan
Sallaşmağım yadındamı?!

Hansımız qabaq gəlsəydi,
Bax, burda durub gözlərdi.
O tutun iri gövdəsi
Bizi gözlərdən gizlərdi.

Bir dəfə geridən gəlib,
Əlimlə gözünü örtdüm.
Qəsdən adımı gec çəkdin, -
Nə qədər pərt oldum - pörtdüm.

Bir payız kənddə gecikdin,
Heyvalar dəyənə gəldin...
Dedim bu pis əlamətdi,
Axır mən deyənə gəldin.

Elə bildim yenə gəlir -
Ağköynək, qırmızıbant qız.

Bir gün gözlədim, gəlmədin,
Getdin, məni qoydun yalqız.

TAM ARZU

(təcnis)

Sənə dil anlayan bir gül tuş gələ,
Kamına yetməzmi cümlə tam arzu?!
Bir-bir ürəyindən dilə yeriyər
Çatar o gözələ sözün tam ərzi.

Ömür getdi, yerdə qaldı ta xılı,
Apar dəyirmana, üyüt taxılı...
Gül kimi sinəndə olam taxılı,
Adam elə yerdə qalmaz tamarzı.

Rəhm sən gözəldə çox kəsat, əşi!
Bəlkə bir sözüm var – bir kəs atəşi,
Tapmaz qeyri canda heç kəs atəşi
Gedib dolansa da, İlham, tam ərzi.

BAYATILAR

* * *

Ah çəkdim yeri qaldı,
Kövşənin vəri qaldı.
Mən öldüm - Laçın adlı
Həsrətim diri qaldı.

* * *

Qəribə bir yer edin,
Halına nəzər edin.
Əgər Laçın alınsa,
Mənə də xəbər edin.

* * *

Ölmüşəm, hüzürüm var,
Günahda üzürüm var.
Laçın alınan günə
Mənim də nəzirim var.

* * *

Dağlara qar yağırdı,
Dağdan bir səs çağırdı.
Tabutuma güc verin,
Dərdlərim çox ağırdı.

* * *

Dəryaya qayıq düşər,
Qayıqçı ayıq düşər.
Bacım çox ağlamasın,
Məzarım duyuq düşər.

* * *

Karvan gedir, haxlayın,
Kimsə qalar, yoxlayın.
Balam itkindən dönsə,
Məni muştuluxlayın.

* * *

Qəm çəkdim, sayrı düşdüm,
Kəm bəxti əyri düşdüm.
Sonayam, səfim vardı,
Vuruldum, ayrı düşdüm.

* * *

Durna, teli şana qoy,
Arı, balı şana qoy.
Qəribəm, tanıyan yox,
Qəbrimə nişana qoy.

* * *

Bağ-bağat yolağ oldu,
Bağbanı çolağ oldu.
Sinəmdə bağ becərdim,
Dərd dərdə calağ oldu.

Xəyalə SEVİL

DURUB GÜZGÜYƏ BAXDIM

Durub güzgüyə baxdım,
Əl gəzdirdim saçıma.
Dedim ki, "innən belə,
Bir də göz yaşı olmaz".
...Bapbalaca ümidlə
Bu boyda xəyal quran
Məndən başqası olmaz.
Sonra səni düşündüm,
Sonra sən deyənləri.
Bir xəfif külək əsdi
Onda könlümdən bəri.
Gördüm ki, sən duyduğun
Mən duyduğum hiss deyil.
Nəfəs bilib sevdiyin
Əslində həvəs idi,
Mənimki həvəs deyil.
Axşam düşdü pəncərəmə
Gec oldu, gecə oldu.
Ürəyim də qısaldı,
Elə sənin adın kimi
İkicə heca oldu.
Nə sən, nə mən,
Nə ikimiz...
Bu eşq
Heç-heçə oldu.

İSTƏYİRSƏN, YOXLA

Axşam sərin küləyini
Yelləyə üzümə sarı,
Göy üzü də aram-aram
Silkələyə buludları.
Bədənimin ayaq vaxtı
Yolların qonağı olam.
Bir də... Bir də ürəyinin
Açılmayan bağı olam... 20
Tanrının oyaq vaxtına
Düşəm, danışam dərdimi,
Sarı bənizimdən qopan
Bir az qaraşın dərdimi.

Eşidirsənmi, İlahi?!
Açıq qoy pəncərəni,
Qapını bir azca aralı saxla.
Əlimi göyə qaldırıb
Sənə təslim olmuşam.
Üstümdə heç nə yoxdu
Məhəbbətdən savayı,
İstəyirsən, yoxla.

NƏ VAXTSA BİTƏCƏKDİ…

Nə vaxtsa bitəcəkdi,
Bir az tez oldu, olsun.
Mən də nəsə öyrəndim,
Mənə dərs oldu, olsun.

Ürəyimi gözümə
Süzən deyiləm daha.
Getmisən, seçim sənin,
Küsən deyiləm daha.

Gözlərinə günəş qoy,
Ürəyini qar saxla.
Məndən aldığın ömrü
Götür yadigar saxla.

ONA NƏ QƏDƏR QALIB?!

Burda hava soyuqlayıb.
Yalın fevral ağacları
Əsir küləyin altda.

Topa-topa buludların
Səsi yağır yollara,
Hərə bir küncdə gizlənib,
Mənsə, ürəyin altda.
Pəncərəmin iç üzünü
Çöl üzünün soğuqluğu ağladır,
Əllərim nəm divar kimi
Tökülür dizlərimə.
Burda göyə baxıram,
Göy də ögeydi mənə.
Eh! Mənim yer dərdimdən
Göyə nə?
Hə... Göyə nə?
Burda hər şey qarışıb,
Burda yollar dolaşıb.
İlahi, bilirsənmi
Sona nə qədər qalıb?
Ürəyim yol üstədi,
Ona nə qədər qalıb?!

RƏNGLİ DUALAR

Xəyallarım rəngli dualar kimi
Çatacaq göy üzünə.
Bir gün Tanrı eşidəcək səsimi,
Bir gün Tanrı boylanacaq səsimə.

İndi mənə hamı yaddı,
İndi mən hamıya yadam.
Dünya boyda ev-eşikdə
Ev-eşik tapmayan adam.

Gözüm gözləmə salonu,
Başımı qatıb durmuşam.
Bir gün Tanrı gələcək...
Bədənimin sol küncündə
Qırmızı çadır qurmuşam.

SAĞ OLSUN ÜRƏYİM DƏ

Sağ olsun ürəyim də
Xatırladır özünü.
Hərdən bir sancı tutur,
Elə bil ki, sinəmə
Çıxıb atır özünü.
Tanrı işini bilir,

Göylərimi kuzə verib.
İz itirib qaçıb göyə,
Amma gəl ki, taleyimdə
Özünü biruzə verib.
Sən də məndən uzaq durdun,
Gəlmə, bir də uzaq dur.
Mən özümü
Götürdüm bu oyundan.
Tək oynamaq yasaqdır.

ÜRƏK XATİRƏNƏ QƏM TORBASIDI

Tüstüsü gözümü yaşardır indi,
Özüm qalamışdım bu ocağı da.
Guya ağlım kəsir, guya böyüdüm,
Sındırıb tulladım oyuncağı da.

Nə yoxsan, nə varsan, baş açammadım,
Ümidim nə yoxa, nə vara qaldı.
Elə hey gözlədim, eh... ara yerdə
Gözlərim yollarda avara qaldı.
Ürək xatirənə qəm torbasıdı,
Nahaq yırğaladım bu boş beşiyi...
Sən kimsən? Özüm də bilmirəm daha,
Heç nəyim, heç kimim, yoxsa, hər şeyim?

ÜRƏYİMİN AY İŞIĞI

Ürəyimin ay işığı,
Yenə payız vurub məni,
Mənim işim xəzəllədi...
Bu ürək yenə sınacaq,
Düzəltmədin... Düzəlmədi...
Çöləm, yolam, səhrayam,
Daha evcik deyiləm.
Mən sənincün bəzəkli
Bir gəlincik deyiləm.
Çərçivə ürəyimdə
Şəklin çilik-çilikdi.
Şeirim yanağıma
Yazdığım gündəlikdi.

İlqar FƏHMİ

BAZAR GÜNÜ

♦ Dörd pərdəli pyes

Hadisələr cəbhə bölgəsində yerləşən hərbi hissə komandiri polkovnik Rauf Mirbabayevin Bakıdakı evində cərəyan edir…

İştirakçılar:

RAUF MİRBABAYEV	*– Polkovnik. Cəbhə bölgəsində yerləşən hərbi hissə komandiri (47 yaşda)*
TEYMUR KİŞİ	*– Raufun atası. Ailənin ağsaqqalı (75 yaşda)*
KAMALƏ	*– Raufun bacısı (42-43 yaşlarında)*
SAHİB	*– Raufun oğlu. Magistr (22 yaşda)*
SEVİL	*– Raufun qızı (20 yaşda)*
ZÖHRƏ	*– Raufun xanımı (45 yaşda)*
XUMARƏ	*– Zöhrənin bacısı. Bağça müdirəsi (47 yaşda)*
ELXAN MÜƏLLİM	*– Xumarənin əri. Böyük bir bankda filial müdiri (50 yaşlarında)*
AQŞİN	*– Zöhrənin qardaşı. Keçmiş jurnalist. Həmin bankda kiçik kredit məsələləri üzrə mütəxəssis (35 yaşlarında)*
AFA XANIM	*– Elxanın qohumu. Avropada yaşayan çox varlı bir sahibkar xanımı (50 yaşlarında)*
NURİK	*– (Nurlan) Afa xanımın oğlu. Doktorant (25 yaşlarında)*
CAVİD	*– Sevilin sevgilisi. Leytenant (25 yaşlarında)*

Proloq

Pərdə önü

Müasir dövrümüz. Şəhərdə bir park...
Səhər açılıb…
Sevil ilə Cavid gəzişirlər… Cavid leytenant rütbəli hərbçi paltarındadır.

SEVİL – Səhər tezdən niyə çağırdın məni?
CAVİD – Ad gününü təbrik eləmək istəyirdim…
SEVİL – Axı danışmışdıq, sabah görüşəcəyik. Bu gün evə gəlib-gedən çox olacaq. Sabah rahat çıxardıq...
CAVİD – Sabah burda olmayacam… Komandir zəng eləmişdi. İşə çağırırlar… Burdan birbaşa çıxıram rayona…
SEVİL – Aaa, bəs axı məzuniyyətdəydin? Niyə qoymurlar dincələsən? *(ani düşünür)* Bəlkə nəsə olub orda?
CAVİD – Dəqiq bilmirəm. Yəqin, sən demiş, təmas xəttində yenə nəsə atışma-filan olub… *(hədiyyəni qıza verir)* Bu da sənin ad gününə hədiyyə…
SEVİL – Aa, nədi ki?
CAVİD – Evdə baxarsan… *(nəsə düşünür)* Evdəkilər salamatdı? Anamgiliylə danışmışam, inşaallah, bir az vəziyyət düzəlsin, bu xəstəlik sovuşsun, bizimkiləri göndərəcəm…
SEVİL – *(təəssüflə)* Göndərməyinə göndərərsən… Amma anam heç razı deyil…
CAVİD – *(əlini yellədir)* Narahat olma, birtəhər razı salarıq… *(telefonuna zəng gəlir)* Alo… hə, bildim… artıq çıxmışam... *(telefonu qapadır)* uşaqlar gözləyir... Yaxşı, can, mən gedim. Bir daha təbrik edirəm… Böyük qız olasan…

Qucaqlaşırlar…

SEVİL – Cavid, xahiş edirəm, özündən muğayat ol… mən səni çox istəyirəm… Sən olmasan, mən havalanaram…
CAVİD – Mən də…

Sevil başını oğlanın çiyninə qoyur…

Səhnə qaranlıqlaşır…

* * *

1-ci səhnə

Polkovnik Rauf Mirbabayevin Bakıdakı evi…
Həyət evi…

İri salon…

Otaq səliqəli də olsa, təmirinin köhnə olduğu hiss olunur. Divarların və mebellərin rəngi də solğundur. Kasıb ailə olduqları avadanlıqlardan hiss olunur…
Divarda xalçadan xəncər bıçaq, tüfəng, şəkillər və başqa dekor əşyaları asılıb…
Bir küncdə yerə qoyulmuş iri, qədimi, kəfkirli saat görünür. Lakin kəfkiri tərpənmədiyindən, saatın işləmədiyi bilinir.
Divarda hərbçi paltarında ev yiyəsinin müxtəlif rakurslarda şəkilləri var…
Salonun Qarşısında şüşəbənd var, şüşə arxasından bayırdakı meyvə ağacları, güllər görünür…

Sevilin ad gününə hazırlıq gedir…
Sevilin anası Zöhrə otağı səliqəyə salır, süfrəni düzəldir, iş görə-görə telefonla danışır…

ZÖHRƏ – Hə, deyərəm, çox sağ ol, təbrik edərəm… Allah sizinkiləri də saxlasın… Yox ey, bizim haramıza yaraşır restoranda-filanda ad günü eləyək... İnşaallah xeyir işi olar, keçirdərik… Həə, elə özümüz yığışacağıq, beş-altı nəfər… Hə, demə… Heç icazə verirlər ki... Yaxşı, sağ ol, öpdüm, sağ ol... *(telefonu qapadır)* Lap zəhləmi tökdü e, Allah saxlamış, nə qədər danışar adam.

Zöhrə işini davam edir… Qapı açılır, Zöhrənin kiçik qardaşı Aqşin gəlir…
Salamlaşırlar, Aqşin hədiyyəsini kənardakı yazı stolunun üstünə qoyur. Aqşin oturur, hiss olunur ki, dilxordur.
Zöhrə stol arxasında nəsə iş görə-görə söhbət edirlər...

ZÖHRƏ – *(təəccüblə)* Elmiragil hanı?
AQŞİN – *(kefsiz səslə)* Gəlməyəcəklər?
ZÖHRƏ – Niyə?
AQŞİN – Nə bilim…
ZÖHRƏ – *(diqqətlə onun üzünə baxır)* Yenə qırıb-çatmısız bir-birinizi?
AQŞİN – *(boğuq səslə)* Hə… Axşam uşaqları götürüb getdi anasıgilə.
ZÖHRƏ – *(ağzını büzür)* Siz də az qala qırx yaşına çatdız, yenə uşaq oyunu oynayırsız. Mən səsimi çıxardıram, deyirsiz, Zöhrə baldızlıq eləyir... *(başını yellədir)* Həftə səkkiz-mən doqquz, balaca uşaq kimi küsüb gedir, sonra gəlir, sonra yenə gedir… İndi nə istəyir? Əvvəl həmişə pula görə deyinirdi, bir ildi, Allaha şükür, o məsələ də həll olunub...
AQŞİN – *(pauza)* Deyir, çox içirsən…

Zöhrə əl saxlayır, fikrə gedir, sanki düşünür ki, sözü kiçik qardaşına necə desin ki, xətrinə dəyməsin…

ZÖHRƏ – Aqşin, düzü, elə mən də istəyirdim bu barədə sənlə bir söhbət eləyim…
AQŞİN – Bəsdi də… indi də sən başladın? Mən bəyəm kefimdən içirəm? Əvvəl öz istədiyim yerdə işləyirdim… O xəbər agentliyi yaranan gündən orda olmuşam. Zülüm də çəksəm, yorulmurdum. Çünki ürəyim istəyən iş idi… Amma burda çətindi mənimçün…
ZÖHRƏ – Aa, deginən, yeznə həll eləsin də… Elxan özü səni yanına götürəndə demişdi ki, nə problem olsa, mənlikdi.
AQŞİN – Eeeh, Elxanın nə vecinə? Özü filial müdiridi, oturub kabinetində, kağız-kuğuzla eşələnir... mən amma bütün günü camaatın içindəyəm. Qapı-qapı gəzirəm kredit sahiblərinin dalınca… Biri yubandırır, verə bilmir, ağlayaıb yalvarır, o birisi hay-küy qaldırıb hədə-qorxu gəlir, biri qaçıb gizlənir… *(dişlərini sıxır)* Uff, adam gün ərzində nə qədər ağlaşma eşidər, nə qədər söyüş-qarğış yiyəsi olar… Götürə bilmirəm e. Qulaqlarımdan getmir səsləri… İçməsəm, havalanaram o işdə…
ZÖHRƏ – Onda elə qalardın köhnə yerində də. Maaşı az da olsa, heç olmasa, belə hala düşməzdin…
AQŞİN – *(əlini yellədir)* Eeeh, oranın da öz problemləri vardı da... Onu yazma, bu mövzuya toxunma, filan şeyi tənqid eləmə, filan hadisəni demə…

Çox dözdüm, səbrim kəsildi. *(ani pauza verir)* Hərçənd axır vaxtlar vəziyyət bir az dəyişib. Neçə dəfə istəmişəm qayıdım geri…

ZÖHRƏ – Get də…

AQŞİN – Elmirə imkan verir ki? Deyir gül kimi maaşın var, ayda filan qədər pul gətirirsən… Qayıdacaqsan əvvəlki yerə, yenə oturacağıq makaron-vermeşilə…

Pauza

ZÖHRƏ – Siz ər-arvad əliniz isti yerdədi, əsl çətinlik görməmisiz. Mənim yerimdə olsan, neynərdin? *(başını yellədir)* Günah bizdədi… Balaca qardaşımız idin, uşaqlıqdan ərköyün elədik səni... İndi dözümün yoxdu çətinliyə… *(onun təqlidini çıxardır)* Orda filan problem vardı, işləyə bilmədim, burda filan problem var, dözə bilmirəm… *(səsini qaldırır)* Kişisən ey… Bir az möhkəm ol da... Cəhənnəmə ki söyürlər, qarğış edirlər… Bir qulağından al, o birindən ver… Camaat söyüş-qarğış yığa-yığa, milyonlar qazanır, heç vecinə də deyil… Sən də deyirsən, səsləri qulağımdan getmir…

AQŞİN – Eee, sən də elə Elmirə deyən deyirsən…

ZÖHRƏ – *(səsi qalxır)* Yaxşı, heç nə deməyək, sən də get qucaqla butulkanı, iç səhərəcən, gör axırın hara gedib çıxacaq…

Zöhrə əsəbiliklə qalxır…
Səsə Zöhrənin oğlu Sahib içəri otaqdan çıxır…

SAHİB – Çağırdın ana?

ZÖHRƏ – *(əlini yellədir)* Yox. Sənlə deyildim…

Zöhrə mətbəxə keçir.

SAHİB – *(dayısını görür)* Salam dayı, necəsən? *(əl verib salamlaşırlar)*

AQŞİN – Sağ ol, yaxşıyam…

SAHİB – Dayı, kompüterin antivirusu təzələnmir ey… Keçən dəfə sən necəsə eləmişdin, düzəlmişdi…

Aqşin könülsüz də olsa qalxır...

AQŞİN – Yaxşı, gedək baxaq…

Onlar Sahibin otağının qapısına yaxınlaşırlar, birdən Aqşin ayaq saxlayır…

AQŞİN – Anan necə əsəbləşdirdi e məni. Onsuz da qanım qaraydı… *(nəsə düşünür)* Ad günü üçün içməyə bir şey almamısız?

SAHİB – Yox, amma keçən dəfə Elxan əmi gətirmişdi, onlardan qalıb…

AQŞİN – Hardadı? Tez elə, gətir, nə qədər anan görməyib…

SAHİB – *(ağır-ağır)* Yaxşı…

Sahib mətbəxin qapısına boylanır, tez şkafı açır, ordan yaraşıqlı formalı bir xarici içki şüşəsi çıxardır, gətirib Aqşinə verir…

Onlar Sahibin otağına keçirlər…

2-ci səhnə

Sevil gəlir, əlindəki bir-iki kulyoku stolun üstünə yığır, rəngli hədiyyə çantasını da kənardakı yazı stolunun üstünə qoyur, pencəyini soyunub asılqana asır…

Zöhrə əllərini dəsmalla silə-silə mətbəxdən çıxır.

ZÖHRƏ – *(stola yaxınlaşır)* Bu hardan? *(hədiyyə kulyokuna baxır)*

SEVİL – Qızlar verib...

ZÖHRƏ – *(kinayə ilə)* Səhər tezdən onunçün çağırmışdı səni qızlar? *(pauza verir)* Elə bilirsən, bilmirəm hardan gəlirsən?

SEVİL – Eey, ana, heç olmasa ad günümdə başlama da…

ZÖHRƏ – *(dişlərini sıxır)* Yaxşı… Amma istəyirsən lap özünü öldür. Mən səni ona verməyəcəm. Sən hərbçi arvadı olmayacaqsan… Özümün çəkdiyimi sənə çəkdirə bilmərəm...

SEVİL – Bəs mənim fikrim sənincün maraqlı deyil? Bəlkə mən istəyirəm?

ZÖHRƏ – *(kinayə ilə)* Elə o vaxt mən də istəyirdim… Atan geyinirdi zabit formasını, çiynində ulduzları parıldayırdı, boy-buxun, vid-fason… Mən də sənin kimi dirəndim ki, yox ey, hər şeyə dözərəm… *(başını yellədir)* Amma indi başıma döyürəm... O vaxt bacım nə qədər dedi, qulaq asmadım, öz bildiyimi elədim… Nə oldu? Odey, Xumarə il uzunu haçan istəyir, hara istəyir gedir, dünyada ölkə qalmayıb gəzməsinlər, amma mən heç yerə çıxa bilmirəm… Nə var-nə var, ərim hərbçidi, yüksək rütbəli zabitdi, bir addım da qırağa çıxmaqçün gərək əlli dənə yerdən icazə alsın… Ömrüm getdi rayonların palçığının içində… İndi istəyirsən sənin də hərbçiyə getməyə razılaşım? Heç vaxt…

SEVİL – *(əsəbiləşir)* Gərək mütləq ad günümü zəhərə döndərəsən də…

Elə bu vaxt o biri otaqların birindən Zöhrənin baldızı Kamalə çıxır… Zöhrə ilə Sevil onu görüb sakitləşirlər, çünki onun yanında 15 yaşlarında qız uşağı da çıxır. Bu, məktəb müəlliməsi olan Kamalənin evdə hazırlaşdırdığı uşaqdır…

Onlar mehribanlıqla pıçıldaşaraq, qapıya tərəf gedirlər, qız çönüb evdəkilərlə də sağollaşır.

Kamalə tələbəsini yola salıb stol arxasındakıların yanına qayıdır…

KAMALƏ – Sakit olun da, evdə adam var axı… Uşağın fikri qalmışdı sizin söhbətinizdə…

ZÖHRƏ – Eybi yox, qoy ibrət götürsün... sabah onun da qarşısına çıxacaq. *(qapıya tərəf boylanaraq)* Aa, uşaq tək gedəcək? Niyə buraxdın?

KAMALƏ – Eybi yox, yox, atası zəng eləmişdi, küçənin başında gözləyir…

ZÖHRƏ – *(başını yellədir)* Qız uşağıdı, xalxın əmanətidi… Tut əlindən, apar təhvil ver atasına…

KAMALƏ – *(stol arxasına əyləşir, bezmiş səslə)* Eeh, gedəcəm, yenə başlayacaq söz eşitdirməyə, ehyam vurmağa… *(başını yellədir, təqlid edir)* Qız uşağını tək böyütmək çətindi, böyük qız olub, mən də daha çatdırmıram, işim ağırlaşıb-filan.

ZÖHRƏ – Sən də dəhşətsən ey… *(narazılıqla üz-gözünü turşudur)* Bu yaşında Allah sənincün o cür qapı açıb. Dul kişidi, o cür imkanı, şəraiti… Qız da səni o cür çox istəyir, əl çəkmir səndən…

KAMALƏ – *(fikirli)* Atası da hər dəfə elə onu deyir… Deyir anası öləndən sonra, bu on ili evlənmədim ki, uşağın ürəyi sınmasın, tək böyütdüm. Amma sizə o cür öyrəşib, isinişib, bütün günü evdə sizdən danışır…

SEVİL – *(müdaxilə edir)* Hə də, düz deyir, ay bibi… Yeniyetmə qız uşağı kaprizni olur. Əgər sənə o cür bağlanıbsa, deməli, elə bir ailə də olsaz, etiraz eləməz…

KAMALƏ – Eeeh, ayıbdı, siz Allah, mənim bu saat ailə quran vaxtımdı? Camaat gülər mənə…

Danışığından hiss olunur ki, Zöhrə baldızı Kamalənin ərə gedib evdə bir otağın da boşalmağının arzusundadır...

ZÖHRƏ – Niyə gülürlər ki? Nə yaşın var bəyəm? Qırxı təzə keçmisən… Bir də, hamı bilir də başına gələni… Heç kim qınamaz.

KAMALƏ – Yox, bacarmaram... Həm də mən *(pauza verir, səsi bir az ağırlaşır)* ona söz vermişdim.

ZÖHRƏ – Ay qız, 25 il keçib ey üstündən… Söz çoxdan uçub gedib ey… Ömrünün axırınacan tək oturmayacaqsan ki…

Kamalə gəlib divarda asılmış şəkillərdən birinin yanında dayanır, şəhid olan nişanlısının şəklinə baxır…

KAMALƏ – Axı mən onu atıb necə ərə gedim? Axı mən ona demişəm, Ya sən, ya heç kim… *(Zöhrəyə çönür)* Yadındadı axırıncı dəfə Rasimlə bir yerdə bizə gəlmişdi? Alxanlıdakı evimizə. Yadındadı? Həyətdə samovar qaynatdılar, söhbət elədilər. Mürəbbə açdım onlarçün… Sonra Rauf da gəlib çıxdı… həmin gün o qədər gülüb danışdılar ki…

Qapıdan çıxanda əlimdən tutdu, dedi gözlərində saxla məni həmişə… Elə bil hiss eləmişdi nəsə... Sonra nə oldu? Getdilər… Bir günün içində ikisi də… Həm kiçik qardaşım, həm də nişanlım. Hər ikisi nər kimi igidlər…

ZÖHRƏ – *(ah çəkir)* Ay qız, bəsdi sən Allah, indi mən də kövrələcəm. *(ağlamsınır)* Bəsdi…

KAMALƏ – *(şəklə baxmaqda davam edir, gözləri dolur)* İndi mən onu gözlərimdən necə çıxardım? Başqasına necə gedim? 25 ildi əllərinin istisi ovcumdadı. Saxlamışam…

Kamalə şəklə baxa-baxa ağlayır. Zöhrə isə birtəhər özünü ələ alır, su içir.

ZÖHRƏ – *(Sevilə baxır, yavaşca)* Budey, bax, ibrət götür… Hərbçiyə könül verməyin axırı belə olur. Heç toy eləməyə də imkan tapmadılar, getdi şəhid oldu…

Kamalə bir az sakitləşir, çönüb stola tərəf gəlir, oturur, su içir…

ZÖHRƏ – *(qızına)* Sən də gözünün qabağına gətir bu həyatı… Gör dözə bilərsən?

SEVİL – Ee, niyə nəhs gətirirsən ey, ana. Hərbçidisə, mütləq ölməlidi?

KAMALƏ – *(söhbətin nədən getdiyini başa düşür)* Yenə Cavidin davasını eləyirsiz?

ZÖHRƏ – Adını çəkmə onun. Əsəbiləşirəm…

KAMALƏ – *(köksünü ötürür)* Bilmirəm niyə inad eləyirsən, ay Zöhrə. Vallah, yaxşı oğlandı, … Ailələri də yaxşı ailədi. Neçə il qonşu oldular bizimlə, bir dənə artıq-əskik hərəkətləri olmadı... Atası da o cür hörmətli, izzətli…

ZÖHRƏ – *(yenə bir az əsəbiləşir)* Qoy oturmuşuq… Hörmətli… İyirmi ildi oturub bir texnikomda, müəllimlikdən yuxarı qalxa bilmir… Quru bəydi də… Onun hörməti elə toylarda şeir oxumaqdandı… *(gülümsünür)* Amma zalım balasının doğurdan qəşəng şeir deməyi var… Bir deyən yoxdu ki, belə şeir oxumağın var, heç olmasa, gedib toylarda tamadalıq eləyərdin, əlin də pulla oynayardı… Yoxsa aman-zaman bir dənə oğlun ola, onu da aparıb atdı hərbiyə ki, uşaqçün ev-eşik düzəltmək dərdini çəkməsin…

SEVİL – Ana, Cavid özü seçib hərbi sahəni…

ZÖHRƏ – Hə də, daha özünü sındırıb deməyəcək ki, məcbur olub getmişəm ora… Anası da keçən il Əsmərgildə yasda deyir ki, *(təqlidini çıxardır)* oğlum qulaq asmadı bizə, öz bildiyini elədi… *(başını yellədir)* Daha demir ki, başlarından eləyiblər uşağı. Qoy vayenni olsun, bizim başımızdan açılsın, bütün dərdü-sərini də hökümət çəksin…

SEVİL – *(artıq dözə bilmir)* Sənin gözündə elə hamı axmaqdı, keydi, səfehdi…əsas budu ki, Cavid məni sevir, mən də onu sevirəm.

ZÖHRƏ – *(izah eləməyə çalışır)* Əgər doğurdan çox istəsəydi, başqa cür hərəkət eləyərdi. *(nəsə xatırlayır)* Məsəlçün atan məni çox istəyirdi, ona görə o vaxt neçə dəfə dedi ki, bax otur yaxşı fikirləş, mənim həyatım o birilər kimi olmayacaq, çətinlikləri çoxdu, bir də gördün sabah müharibə başladı, vurub öldürdülər məni. Zabit xanımı olmaq asan deyil,… Mən də dedim yox, hər şeyə razıyam, hər şeyə dözəcəm… *(birdən səsi qırılır, sanki yaralı yeriymiş kimi, həmişəki kimi təkrar edir)* Kaş razı olmazdım. O vaxt nə qədər dedilər, qulaq asmadın. Öz bildiyimi elədim. Bütün ömrüm heçə getdi… *(ah çəkir, özünü ələ alır. Qızına çönür)* İndi sən də özün bax, elə bil ki cəhənnəmin qapısında dayanmısan. Mən özümü öldürürəm ki, ora düşməyəsən. Düşdünsə, daha geri yol olmayacaq. Hələ cəbhədə-filanda onun başına bir iş gəlsə, sənin ömrün ümumiyyətlə cəhənnəmə dönəcək.

SEVİL – *(dözə bilmir)* Bəsdi də… Bütün işlərimə nəhs gətirdin, həmişə qabağımı kəsdin… O qədər deyəcəksən ki, axırda doğurdan da Cavidin başına bir iş gələcək... Evini yıxacaqsan yazığın... *(gəlib onun qarşısında dayanıb dişlərini sıxır)* Heç adamın sənin kimi deyəni olmasın…

Zöhrə də nəsə demək istəyir, amma qəfildən lap əsəbiləşir… Əlindəki dəsmalı hirslə stolun üstünə çırpır, oturur…

ZÖHRƏ – Hə də, siz yaxşısız, mən pisəm… Mən bədniyabətəm, tamahkaram, naşükürəm… Mən sizin yolunuzu kəsirəm, həyatınızı məhv eləyirəm… *(ağlamsınır)* O vaxt mən də istəyirdim ki, hər yerdə fəxr eləyim ki zabit arvadıyam, xəyal qururdum ki, hamı barmağıyla göstərəcək ki, bax, bu filankəsin xanımıdı, əri qəhrəmandı, döyüşçüdü. Amma 25 il gözləyə-gözləyə qaldım… Elə ancaq əzab-əziyyət. Rayon qalmadı, kənd qalmadı. Bir il orda, iki il burda… İllər keçdi, amma mən fəxr eliyə bilmədim. *(ani pauza verir)* O, mənə söz vermişdi ki, kəndimizi alacaq, uşaqlara orda toy edəcək… Amma uşaqlar da böyüdü, evlənmək vaxtınız da çatır, bu gün-sabah nəvələrim olacaq, ancaq ortada heç nə yoxdu… Hələ ki fəxr eləmək qismət olmadı mənə. Elə ancaq xəcalət çəkirəm. Orda-burda kimə deyirəm ki, zabit arvadıyam, o saat ağızları əyilir. Bizdə fərli ordu var ki? Bizdə hərbçi nə gəzir? Hamısı boş-boşuna hökümətin pulunu yeyirlər. Bir tikə torpaq ala bilmirlər ermənidən…

(başını yellədir) Elə bilirsiz asandı illərlə bu sözləri udmaq? Elə bilirsiz asandı səfeh-səfeh adamların yanında dili qısa olmaq? Mən 25 il buna dözdüm, indi istəyirsən ki, sənin də bu həyatı seçməyinə dözüm? Dözə bilmərəm ey, vallah ikincisinə dözə bilmərəm. Başa düşün də məni…

Zöhrə danışdıqca səsi qalxır, həyəcanlanır, təngnəfəs olur…
Sevil hiss edir ki, anası möhkəm əsəbiləşib, tez onu sakitləşdirməyə çalışır...

SEVİL – Ana, yaxşı da, sakit ol, yenə təzyiqin qalxacaq... Niyə çıxdın ey özündən? Mən nə dedim ki?

Kamalə ona su verir, Zöhrə alıb içir, alnını isladır.

ZÖHRƏ – *(səsi batmış)* Öldür məni, çıx axırıma… Aparıb basdırarsan, sonra hərbçiyə ərə gedərsən… (boynunu ovuşdurur) Yenə boynumun damarı tutdu…

Kamalə tez şkafın üstündən dərmanı götürür, Sevilə verir, Sevil alıb dərmanla anasının boynunu ovuşdurmağa başlayır. Zöhrə bir az sakitləşir.

ZÖHRƏ – *(ağır səslə)* Bir azdan Xumarə xalan gələcək… Onun baldızıgili də qonaq çağırmışam…
SEVİL – *(tutulur)* Kimi, Afa xanımı?
KAMALƏ – Almaniyada yaşamırdılar onlar?
ZÖHRƏ – Əşi, onların ki elə bizneslərі var, kefləri istəyəndə ordadılar, kefləri istəyəndə burda… *(pauza verir)* Qısası, oğlunun gözü düşüb sənə...
SEVİL – *(fikrə gedir)* Həəə, yayda xalagildə bağda olanda, ordaydılar. Hiss elədim elə…
ZÖHRƏ – Qoy xalan gəlsin, özü ətraflı başa salar…
SEVİL – *(qaşlarını çatır)* Xala mənə nə başa salacaq? Mən başqasını sevirəm…
ZÖHRƏ – Heç nə olmaz… Ərə gedərsən, bunu da sevərsən.
SEVİL – *(yenə əsəbiləşir)* Sən nə danışırsan ana? Cavid orda döyüş bölgəsində vətənçün can qoyur, mən ona deyim ki, bağışla, mən səni atıb xaricə ərə gedirəm?
ZÖHRƏ – *(yenə əsəbiləşir)* Saxla görüm ey… Atan da vətən deyə-deyə ömrünü Murovda çürütdü. Polkovnik də oldu, aylarla sapoq çıxmadı ayağından. Nə olsun? «Çox sağ ol» deyən var? Adam yerinə qoyan var? Odey, elə divar qonşumuza bax da… *(əliylə göstərir)* Yol polisinin serjantı da bizə yuxarıdan aşağı baxır… *(birdən nəsə xatırlayır)* Özün də xalanın yanında Cavid-filan söhbəti eləmə. Deməmişəm ona, xəbəri yoxdu. Eşidirsən məni?
SEVİL – *(dözə bilmir, bərkdən)* Yaxşı… Demərəm, əl çək…

Sevil də keçib divanda oturur, qulaqcığı taxıb telefonda qurdalanmağa başlayır…
Mübahisə fonunda o biri otaqdan qoca kişinin səsi gəlir…

TEYMUR KİŞİ – Ay qız, nə olub orda… Kamalə…
KAMALƏ – Bəsdirin də... Kişini durğuzduz yuxudan… *(o biri qapıya tərəf gedir)* Gəlirəm ata, gəlirəm…

Kamalə qapını açıb atasının otağına keçir...

ZÖHRƏ – Bu Allah saxlamış da lazım olan şeyi qışqırarsan, eşitməz, amma lazım olmayan şeyi yuxuda da qulağı alar...

Zöhrə şkafdan çıxardıb dərman içir, dodaqaltı deyinə-deyinə işini davam edir, stolu hazırlayır…

3-cü səhnə

Kamalə iç otaqlardan birinin qapısını açır, əlil arabasında olan atası Teymur kişini çıxardır, bir küncdəki televizorun qarşısına gətirir.

TEYMUR KİŞİ – Niyə qışqırırdız?
KAMALƏ – Heç, qab düşmüşdü ayağımın üstünə…
TEYMUR KİŞİ – Yekə qızsan, bir dənə qabı əlində saxlaya bilmirsən…

Teymur kişi pultu götürüb televizoru yandırır, kanalları dəyişərək televizora baxmağa başlayır…

ZÖHRƏ – Sən Allah, səsini çox vermə, başıma düşür… Sonra yenə davlenim qalxacaq…

Teymur kişi səsini alır…

Kamalə Zöhrənin yanına gəlir…

ZÖHRƏ – *(Kamaləyə)* Kişi bir şey yeyib?
KAMALƏ – Hə, bayaq yedizdirdim. *(stol arxasında oturur)* Ver, mən də təmizləyim...

Kamalə də şkafdan çıxan təzə stəkanların tozunu almağa başlayır…

ZÖHRƏ – Belə də həyat olar? Adamın evinə illərlə heç kim gəlmir… Qabqacaq da qalıb şkafda toz basır. Elə bilirsən istəmirəm? Amma belə ev-eşiyə kimi çağırasan?
KAMALƏ – *(qabları silə-silə)* Yaxşı da, Zöhrə, sən canın, hər şeyçün çıxma özündən. Şükür Allaha, bir tikə çörəyimiz var, heç kimə möhtac deyilik, heç kimin yanında dili qısa deyilik… Allah qardaşımın canını sağ eləsin. Bütün yükümüzü çəkir.
ZÖHRƏ – *(başını yellədir)* Elə Allaha şükür eliyə-eliyə oturmuşuq ki, bir addım qabağa gedə bilmirik də…

Zöhrənin telefonuna zəng gəlir. O, telefonu açıb qulağına sıxır…

ZÖHRƏ – Alo, hə, salam bacı, necəsən? Gəlirsiz? *(dinləyir)* Həə? Yaxşı, bu saat uşaqları göndərərəm…

Zöhrə telefonu qapadır, oğlunun otağına tərəf çönür…

ZÖHRƏ – *(bərkdən)* Sahib, ay Sahib… Neynirsiz orda?

Sahib qapını açıb çıxır…

SAHİB – Nədi?
ZÖHRƏ – Xalangil gəlib. Düş, kömək elə, deyəsən, yükləri ağırdı…
SAHİB – *(çıxdığı otağın içinə çönür)* Dayday, sən proqramı perezaqruzka elə, mən indi gəlirəm…

Sahib otağın qapını örtür, giriş qapısına tərəf keçib ayaqqabılarını geyib çıxır. Qadınlar iş görə-görə söhbətlərinə davam edirlər.

KAMALƏ – Bacın uşaqlarını gətirməyib ki?
ZÖHRƏ – Yox, keçən həftə axırı yol açıldı, getdilər Türkiyəyə. Yoxsa dərsləri qalmışdı yarımçıq.
KAMALƏ – İkisi də eyni yerdə oxuyur?
ZÖHRƏ – Yox, bir yerə salmaq istədilər o vaxt, alınmadı…

Elə bu vaxt qapı açılır, Zöhrənin bacısı Xumarə, əri Elxan müəllim içəri daxil olurlar… Elxanın əlində səliqəli kulyok var, içində iki içki şüşəsinin olduğu hiss olunur.
Zöhrənin bacısının və ərinin geyim-kecimindən hiss olunur ki, daha imkanlı adamlardır…
Onların gəldiyini görüb, Sevil də qulaqcığı çıxardır, gəlib onlarla salamlaşır, qucaqlaşırlar…

XUMARƏ – Böyük qız olasan, o gün olsun, toyuna gələk…

Elxan müəllim əlindəki kulyoku kənardakı yazı stolunun üstünə qoyub, Teymur kişiyə yaxınlaşıb salamlaşır, yanındakı kresloda oturur…

ELXAN MÜƏLLİM – Necəsən, Teymur kişi…
TEYMUR KİŞİ – Çox sağ ol, sən neynirsən?
ELXAN MÜƏLLİM – Sağ ol, babatam… Yenə zillənmisən televizora? Əşi, çox fikir vermə onlara, onsuz da hamısı yalandan danışır… Bir kəlmə düz söz demirlər…
TEYMUR KİŞİ – Guya başqa yerdə düz danışan var? *(əlini yellədir)* Heç olmasa, başım qarışır…

Əlində yekə bir şəkilli qutu olan Sahib ləhləyərək otağa daxil olur. Ağır qutunun üstündəki rəngli qab şəkillərindən bilinir ki, nəsə bahalı mətbəx servizidir.
Sahib gəlib qutunu stolun üstünə qoyur…

SAHİB – Belim sındı e… Elə bil armatur doldurublar içinə…

Sahib qutunu qoyub təzədən qapıya tərəf gedir…

ZÖHRƏ – Nəsə qaldı bəyəm?
SAHİB – Yox, küçədə maşını pis yerdə saxlamışam, çəkim divarın dibinə...

ELXAN MÜƏLLİM – Hə, bacardıqca sıx divara… Küçə çox dardı, yenə keçən dəfəki kimi güzgünü sürtərlər.

Sahib başını tərpədib çıxır.

ZÖHRƏ – Ay Xumarə, bu nədi belə?
XUMARƏ – Sevilçün cehizlikdi də… Təmiz çini qablardı. 24 persona. Ən axırıncı çıxan dizayndı. Avanqard…
SEVİL – *(uşaq marağıyla açır)* Ay da, «Madam Koko»dandı. *(xalasını qucaqlayır)* Çox sağ ol, xala... *(qabları çıxardıb baxmağa başlayır)* Nə qəşəngdi? Heç əvvəlkilər kimi deyil ey, tamam fərqlidi…
KAMALƏ – *(qabları götürüb baxır)* Hə, çox gözəldi… Sağlığına qismət. Şadlıqlarda işlədəsən.
XUMARƏ – Hələ bu stildə mətbəx servisi də sifariş vermişəm Karacadan... Gələn ay gətirəcəklər. Sabah bir hörmətli adamın evinə gəlin gedəndə, niyə xəcalət çəkəsən ki?

Zöhrə maraqla qabları gözdən keçirən qızına baxır, üz-gözünü turşudur…

ZÖHRƏ – *(kinayə ilə)* Aparıb səngərdə işlədərsən…

Sevil tutulur, qaşları çatılır, amma heç nə demir…

KAMALƏ – *(Zöhrəyə)* Yaxşı da...

Xumarə başa düşmür, təəccüblə Zöhrəyə baxır…

XUMARƏ – Səngər niyə?
ZÖHRƏ – Heç, fikir vermə, başqa söhbətdi…

Sahibin otağından Zöhrənin qardaşı Aqşin də səsə çıxır, gəlib Elxanla salamlaşır, gəlib böyük bacısı Xumarəni də öpür…

XUMARƏ – Uşaqlar hardadı bəs?

Aqşin əlini yellədib heç nə demir, yenə Elxan müəllimin yanına qayıdır, stol çəkib oturur…

ZÖHRƏ – *(Xumarəyə yavaşca*) İşin yoxdu, yenə qırıb-çatıblar bir-birini…
XUMARƏ – *(qaşları çatılır)* Axırda bu qızı boğub öldürəcəm ey. Pul davası eləyirdi, onu da həll elədik, indi nə istəyir e uşağdan?
ZÖHRƏ – Axır vaxtlar yaman içir... Sən də imkan elə, ciddi danış onunla…
XUMARƏ – *(qaşlarını çatır)* Həə? bilmirdim heç... Niyə ki?
ZÖHRƏ – Nə bilim ey, deyir işdə çox əsəbiləşirəm… Bəlkə Elxana deyəsən, yerini dəyişsin?

Zöhrə ilə Sevil təzə servizi yığışdırırlar, Xumarə isə Elxanla Aqşinin yanına gəlir, nəvazişlə əlini Aqşinin ciyninə qoyur.

XUMARƏ – Ay Aqşin, yenə işdə nəsə olub? Kefin yoxdu elə bil…
AQŞİN – Heç nə olmayıb… *(əlini yellədir)* Hər şey yaxşıdı.

ELXAN MÜƏLLİM – *(Aqşinə baxır)* Bəs onda dünən niyə inspektorlar şikayət eləyirdilər səndən?

Aqşin diksinib Elxan müəllimə baxır…

AQŞİN – Sənə də gəlib çatıb söhbət?
ELXAN MÜƏLLİM – Əlbəttə... Hamı bilir qaynımsan da... Ayağını əyri atan kimi gəlib mənə çatdırırlar… *(hiss olunur ki, ürəyi doludur, qalxıb gəzişərək danışır)* Baxıram o biri şöbə müdirlərinə, həsəd aparıram, hamısı yığıb qohumlarını, yaxınlarını başlarına, arxayın işləyirlər. İndi neynəyim, Allah mənə qardaş nəsib eləməyib. Səni özümə yaxın bilmişəm. Özümküsən də… Sənə eləməyib, kimə eləyəcəm ki? Sən də belə padvadit eliyirsən adamı…
AQŞİN – Bacarmıram ey, özümdən asılı deyil. Alınmır… Mən camaatın dərisini soya bilmirəm…
ELXAN MÜƏLLİM – *(qaşlarını yığır)* Deməli, biz camaatın dərisini soyuruq? *(pauza)* Yoxsa kimisə məcbur eləyirik ki, gəlib kredit götürsün? Pul lazım olanda, üstümüzə cumub min dəsmal ağlayırlar, qaytarmaq vaxtı çatanda biz pis oluruq?
AQŞİN – Heç biriniz başa düşmürsüz ey…

Aqşin qalxır, siqaret yandırıb qapını açır, aynabəndə çıxır…

XUMARƏ – *(Elxan müəllimə)* Sən də yola ver də… Getmə uşağın üstünə...
ELXAN MÜƏLLİM – İyirmi ildi yola verirəm də… *(sanki öz-özünü sakitləşdirməyə çalışır)* Heç öz uşaqlarımı bu cür yola vermirəm, o cür ki, sizin bu əziz-xələfi yola verirəm. Elə bil balaca uşaqdı… Uşaqlıqdan çıxardıb otuzdurmusuz başınızda, indi bacara bilmirsiz… O vaxt başına düşmüşdü, gərək qabağını kəsməzdiz, çıxıb gedərdi Raufun yanına, bir-iki il qarda-şaxtada, səngərdə palçığın içində oturardı, ağlı gələrdi başına, indi naşükürlük eləməzdi…
XUMARƏ – *(üz-gözünü turşudur)* Eeh, ay Elxan, aman-zaman bir dənə qardaşımız var, deyirsən, onu da aparıb saxlayaq erməninin gülləsinin qabağında?

Xumarə yenə stolun başına qayıdır…
Zöhrə artıq süfrəni bəzəyib, salatları düzüb…

XUMARƏ – Elə bunları hazırlamısan?
ZÖHRƏ – Hə də… bəs deyil ki?
XUMARƏ – Aaa, o boyda adamları qonaq çağırmışam, indi deyirsən belə çıxaq qabaqlarına? Əsgər yeməkxanası deyil ee… Ayıbdı axı.
KAMALƏ – *(müdaxilə edir)* Nə olub ki süfrəmizə? İki cür yemək, üç cür salat...
ZÖHRƏ – Hə də. Aş da asmışam. Dolma da hazırdı… Nə qədər yeyəcəklər ki?
XUMARƏ – Məsələ az-çoxda deyil ey… Afa xanım hər şeyə fikir verəndi. Gərək süfrədə rəngarənglik ola … *(fikirləşir)* Elxan, tez zəng elə dostuna, restorana… Təcili bəzi şeylər lazımdı, hazırlasınlar, Sahib gedib götürsün…
ZÖHRƏ – Ay qız, lazım deyil, neynirsən? Uzağı, özüm təzədən bir-iki şey doğrayaram…
XUMARƏ – Yox ey, vaxt yoxdu, bir azdan gələcəklər…

Elxan müəllim telefonunu açıb yığır, salamlaşır.

ELXAN MÜƏLLİM – Akif, telefonu verirəm Xumarəyə, nəsə təcili sifarişləri olacaq. *(telefonu arvadına uzadır)*

XUMARƏ – *(telefonu götürür)* Salam, Akif qardaş, necəsiz... deməli, bizə təcili assorti kabab lazımdı, on nəfərlik… Hə, mütləq… Balıq da olsun… Sonra beş-altı cür salat yığ… Sveji… Sonra sizdə eksklüziv desertlər olurdu e… Krevetka-filan… Hə, onlardan da… Şirniyyat, desert də qoyarsan. Bir sözlə, ən qeyri-adi, ən maraqlı nə varsa, hazırla, uşağı göndəririk…

Xumarə telefonu Elxana verir…

XUMARƏ – Sən canın, restoranın yerini Sahibə başa sal, gedib gətirsin hər şeyi…

Elxan başını tərpədib çıxır…

ZƏHRA – *(yavaşca bacısına)* Deyirsən, krevetka olmasa, qızımızı bəyənməyəcəklər?

Hər ikisi gülürlər…

Teymur kişi sakit səslə işləyən televizora zillənib, qulağı ağır eşitdiyindən, sanki otaqda gedən söhbətlərin də fərqlində deyil…

XUMARƏ – *(nəsə fikirləşir)* Yeməyi həll elədik, qaldı bir dənə Sevillə danışmaq… *(divanda oturan Sevilə çönür)* Qızım, gəl otur burda, sözüm var sənə…

Sevil gəlib stol arxasında oturur, sakitcə danışmağa başlayır.

XUMARƏ – Anan yəqin ucundan-qulağından deyib sənə. Elxanın qohumu var idi e, Afa xanım. Yayda bizdə bağda qalanda görmüşdün. Onun oğlu Nurlanın gözü yamaq tutub səni… Köhnə kişilər demişkən, bir könüldən min könülə aşiq olub. Yaydan bu yana adın dilindən düşmür… Elə hara çatır, deyir ki, Sevil yaraşıqlı, ağıllı, savadlı, intellektual qızdı, fikirləri mənə yaxındı, söhbətimiz tutur…

SEVİL – *(Soyuqluqla)* Nə olsun?

XUMARƏ – *(gözlərini döyür)* Necə yəni nə olsun? Fikri ciddidi… Anası da etiraz etmir. Düzdü, hələ deyəsən, atasına deməyiblər...

KAMALƏ – *(kinayə ilə müdaxilə edir)* Bəlkə heç atası razılaşmadı? Bütün günü səngərdə, toz-torpağın içində olan bir zabitlə quda olmaq istəmədi?

Zöhrə Kamaləyə göz ağardır, Xumarə isə kinayəni başa düşmür…

XUMARƏ – *(fikirləşir)* Yoox, məncə etiraz eləməz... Düzdü, çox imkanlı adamdılar, burda da, Almaniyada da bizneslari var, amma inanmıram yeganə oğlunun istəyinin əleyhinə getsin… *(sanki təskinlik verir)* Bir də ki əsas Afa xanımdı. Onun da çox ürəyinə yatıb Sevil, ailənizlə də bağlı hər şeyi soruşub öyrəndi məndən. Neçə dəfə eşitdirdi ki, gedib yuxarılardan qız alacağıq, ərköyünün biri gəlib düşəcək evin içinə, öz hikkəsini yeridəcək. Ondansa aşağıdan olsun, başımız ağrımasın…

Xumarənin sözü Zöhrənin xətrinə dəysə də, hiss elətdirmir, lakin Kamalə yenə özünü saxlaya bilmir…

Onlar danışdığı müddətdə Elxan müəllim də içəri qayıdır, keçib divanda oturur…

Qadınların söhbəti isə davam edir…

KAMALƏ – Biz aşağı niyə oluruq ki? Elə bircə polkovnik Rauf Mirbabayevin adı bəsdi üstümüzdə.

ZÖHRƏ – *(əsəbiləşir)* Əlbəttə, aşağı niyə oluruq? Hamıdan yuxarıyıq… Qızıllarım, brilyantlarım... Qapımızda cüt-cüt maşınımız, üçmərtəbəli villamız, ispanski santexnikamız. Tanınmış hərbçi evidi də… *(əlini yellədir)* Odey, neçə dəfə televizordan zəng eliyiblər, hərbçi ailəsindən müsahibə alırıq, nə bilim, film çəkirik… Hamısını rədd eləmişəm… Bu ev-eşikdə nə çəkiliş? Bir fərli təmiri də yoxdu. Televizorda bütün millət görəcək... Adam xəcalət çəkir.

XUMARƏ – Bizim ünvanı verərdiz, gələrdiz bizdə çəkərdilər də...

Aqşin siqaretini çəkib içəri qayıdır, keçib otağın o biri başında, Teymur kişinin yanında oturur, telefonda qurdalanmağa başlayır…

SEVİL – *(çiyinlərini çəkir)* Nə olub ki evimizə? Şükür Allaha, səliqəsi-səhmanı. Gül kimi evdi...

ZÖHRƏ – Sən Allah, qoy oturmuşuq. Səliqə-səhman. Elə divarların aboyundan bilinir səliqəsi. İyirmi ildi dəyişmir. Sapsarı olub... *(qonşu villanı göstərir)* Səliqə-səhmanlı ev belə olar, üç mərtəbə, üstündə mansarda... Özü də par-par yanır… Yiyəsi də kimdi, kimdi, yol polisində serjant. Adamın ciyəri yanır ey… Şoferlərdən pul ala-ala gör nələr tikib... *(başını yellədir)* Sən bir gəlirə bax ey… Serjantları belə ev tikirsə, gör onların polkovnikinin nə cahücəlalı var… Yoxsa bizim polkovnik il boyu da tozun-torpağın, palçığın içində… Heç olmasa qonşusuna baxıb ibrət götürərdi…

AQŞİN – *(dözə bilməyib müdaxilə edir)* İndi neynəməlidi ki Rauf? Səngərdə əsgərdən pul yığmalıdı?

KAMALƏ – Hə də, mənim qardaşım formanı ona görə geyib ki, vətənimizi qorusun, torpaqlarımızı alsın…

ELXAN MÜƏLLİM – *(gəlib süfrədən konfet götürüb ağzına atır)* Əslində, ədalət var da burda… O qonşu serjant da almaqçün forma geyib, mənim bacanağım da… *(zarafatla)* Bəs nə görürük? O serjant öz boynuna düşəni ala bilir… Mənim bacanağım ala bilmir… Ona görə də serjant o cür villa tikə bilib, amma siz bu şəraitdə yaşayırsız… *(gülür)*

KAMALƏ – Lazım gəlsə qardaşım da alacaq…

ZÖHRƏ – İndi daha biz neynəyək ki, lazım kişi iyirmi beş ildi gəlib çıxmır heç cür… Elə hər dəfə üç-dörd gün yalandan atışırlar, sonra da bir dənə medal taxırlar yaxasına, vəssalam. O medalların yerinə, heç olmasa bir dənə babat ev verərdilər.

AQŞİN – Hərbçi evi neynir? *(kinayə ilə)* Evi verirlər müğənniyə, rəqqasəyə…

ZÖHRƏ – *(hikkəylə)* Elə düz də eləyirlər… Onların heç olmasa adamlara nəsə xeyri var, toy-nişanlarını, xeyir işlərini yola verirlər… Hərbçinin nə xeyri var ki?

KAMALƏ – *(qaşlarını çatır)* Aa, o nə sözdü deyirsən… Bəs vətəni…

ZÖHRƏ – Bəsdi görüm, əşi… *(əlini yellədir)* Elə vətən də onların vətənidi, ölkə də onların ölkəsidi... Çünki pulları var…

ELXAN MÜƏLLİM – İstəsəydiz, onlardan da yaxşı dolanardız… Hələ on il əvvəl Raufa dedim ki, boş ver o hərbini, gəl bizdə bütün bank şəbəkəsinin təhlükəsizlik xidmətinin rəhbəri eləyək səni. Razılaşmadı. Hələ bir ağır-ağır üzümə də vurdu ki, mən orda torpağı qoruyuram, deyirsən, torpağı atım gəlim, sizin pullarınızı qoruyum? Hətta incidi məndən… Odey, onun yerinə bir dənə keçmiş polis mayorunu götürmüşük, ayda beş-altı min maaş alır…

ZÖHRƏ – Halal xoşu olsun. Çünki ağıllı adamdı… Daha bizimkilər kimi yox...

Zöhrə deyinə-deyinə mətbəxə keçir, Kamalə də bəzi qabları götürüb, onun dalınca mətbəxə gedir…

Xumarə bacısının dalınca baxır, köksünü ötürür, yenə də Sevilə çönür…

XUMARƏ – Bax, qızım, bilirsən ki, biz sənin yaxşılığını istəyirik. Vallahi ki, illərlə axtarsan, belə şans ələ düşməz…

SEVİL – *(tərəddüdlə)* Axı mən hələ ərə getmək istəmirəm… Təzə girmişəm instituta…

XUMARƏ – Narahat olma, o barədə də söhbətimiz olub. Səni perevod eləyəcəklər Almaniyadakı institutlardan birinə, orda bitirəcəksən… Hətta qardaşınla da bağlı söhbət eləmişik. Onun da xaricdə magistraturada oxumağına kömək edəcəklər...

Zöhrə əlində qablar qayıdır, son sözləri eşidir…

ZÖHRƏ – Hə də, get özün yerbəyer ol, qardaşını da çəksinlər yanlarına… Mən də heç olmasa sizdən arxayın olum. Qoca vaxtında rahat nəfəs alım... Arvadların içində danışanda, heç olmasa, deyim ki, Almaniyaya qızımın yanına getmişdim, Fransada oğlumun yanından gəlirəm… *(köksünü ötürür)* Yoxsa adam xəcalət çəkir…

XUMARƏ – Bax, özün ağıllı, kamallı qızsan. Sən Allah, düzünü de. Pis oğlan idi Nurlan? Yayda neçə gün bizdə bağda olduz, özüm fikir verirdim, nə qədər söhbət elədiz…

SEVİL – *(ani düşünüb təsdiq edir)* Düzünü deyim, doğurdan da çox ağıllı oğlandı...

Sevil danışdıqca Zöhrənin gözləri parıldayır, sanki ümid gəlir ona, əl saxlayıb qızına qulaq asır…

SEVİL – *(davam edir)* Dünyagörüşü çox genişdi, hər şeydən xəbəri var, bilmədiyi sahə yoxdu. Hərçənd ki, fikirlərimizin çoxu üst-üstə düşmədi, amma bir şey xoşuma gəldi, hiss elədim ki, xaotik insan deyil, həyatda konkret məqsədi var, o məqsədə çatmaqçün dəqiq planı var… Şəxsən mən inandım ki, o, mütləq qabağa gedəcək, həyatda istədiyinə çatacaq… *(bunu deyib ani pauza verir və xalasına çönür)* Amma mən onu sevmirəm axı…

Bayaqdan üzü gülümsəyən Zöhrə qızın son sözündən sonra özündən çıxır.

ZÖHRƏ – Cəhənnəmə sevmirəsən… Gedərsən, sevərsən...

AQŞİN – *(bacılarına)* Nə dirəmisiz ey uşağı... İstəmir də… On doqquzuncu əsrdi ki, zorla ərə verəsiz? Boş buraxın, qoy öz həyatını özü qursun…

ZÖHRƏ – Hə də… Boş buraxım, əl çəkim. *(yenə əsəbiləşir)* Bu da getsin qoşulsun hərbçiyə, ömrünü çürütsün… Özüm iyirmi il çəkmişəm, indi də bunun dərdini çəkim… Atasından çəkdiklərim bəsdi mənə…

SEVİL – *(tutulur)* O nə sözdü deyirsən… Ata pis olub bəyəm? Düzünü de də… Pis olub?

ZÖHRƏ – *(səsi ağırlaşır)* Elə dərd də odu ki, pis olmayıb, yaxşı olub… *(stola çökür, doluxsunur.)* Yaxşı olub ki, iyirmi ildi ən çətin yerlərə atırlar onu, ayağından sapoq çıxmır, yağışın-qarın içində… Yaxşı olub ki, fikirdən, narahatlıqdan saçları ağarıb… Hər dəfə gələndə ürəyim ağrıyır… Elə bil sıxıb suyunu içirlər… Hələ çox şeyi açıb demir mənə. Amma bilirəm axı… On beş il oralarda keçib ömrüm. Görürəm ki, yaxşı deyil vəziyyəti. Çox fikir eləyir, hər şeyi salır ürəyinə. Nə olacaq, necə olacaq bu işlərin axırı? Nə qədər səngərdə oturub ermənıyə baxacaqlar? Haçan imkan verəcəklər ki, gedib ata-babasının qəbrini o zibillərdən təmizləsinlər? Bəlkə daha heç vaxt heç nə dəyişməyəcək? Bəlkə artıq əlimizi üzməliyik o yerlərdən? Bu qədər fikrə adam ürəyi dözər? *(köksünü ötürür)* Kaş pis olaydı… Pis olardı, arsız, bivec olardı, mən də onun bu qədər fikrini çəkməzdim… Pis olaydı, orda da imkan tapıb hərəkət eləyərdi, bizə bir gün ağlayardı… *(dözə bilmir, Sevilə)* Sən də gedərsən hərbçiyə, bütün bu zülümləri yaşayarsan…

Xumarə xanım sanki söhbəti indi tutur.

XUMARƏ – Dayan görüm, Zara, yaxşı başa düşmədim... Nə hərbçi? Deyəsən, nəyisə gizlədirsiz axı məndən…

ZÖHRƏ – *(sanki tərəddüd edir)* Əşi, nə gizlədəcəm e… Bu gözəlimiz gedib Azad müəllimin oğluyla dostlaşıb… Bizim köhnə qonşumuz…

Xumarə sanki çox bəd xəbər almış kimi, stula çökür…

XUMARƏ – Vay-vay… *(Sevilə çönür)* Görüşürsüz?

Sevil utanıb başını aşağı salır…

AQŞİN – Lap elə tutalım, görüşürlər, nə olsun ki? Uşaq deyil ki… Böyük qızdı…

XUMARƏ – Sən dayan görüm e… *(Sevilə)* Yoox, belə olmaz… Elə günü bu gün onunla bütün əlaqələri kəsirsən… Nə qədər ki, hələ söhbət çox yayılmayıb, bu məsələni ört-basdır eləmək lazımdı. Bir daş altdan, bir daş üstdən. *(başını yellədir)* Biz neçə vaxtdı əlləşirik, aranı düzəldirik, sənincün bu cür gözəl kombinasiya qurmuşuq…

AQŞİN – Futbol oynayırlar ey elə bil… Belə kombinasiya quransız, göndərək sizi yığma komandaya, qaldırın ayağa yazıqları…

XUMARƏ – *(əsəbiləşir)* Ay Elxan, sən Allah, bir nərddən-filandan oynayın, bunun başı qarışsın, yoxsa arvad işlərinə burnunu soxur, əsəbiləşdirir adamı… *(Sevilə çönür)* Fikir vermə... *(davam edir)* Sən gərək uşaq kimi hərəkət eləməyəsən axı… Cavanlıqdı, başa düşürəm, adamın ürəyi çox şey istəyər. Ancaq ağıllı adam odu ki, oturub məntiqlə fikirləşsin, görsün hansı yol onunçün daha məsləhətlidi. Lazım olsa, ürəyinin qapısını qıfıllayasan, həyatının proyektini qurasan...

AQŞİN – Sizinçün adamların həyatı elə proyektdi də. Həyat deyil ki…

Elxan servantın üstündən nərdi götürüb açır, Aqşini bu tərəfə çəkir…

ELXAN MÜƏLLİM – Sən bunlara baş qoşma, onsuz da axırda öz bildiklərini edəcəklər…

Sakitcə televizora baxaraq, ara-sıra mürgüləyən Teymur kişinin yanında jurnal stolunun arxasında otururlar…

ELXAN MÜƏLLİM – *(bərkdən)* Teymur kişi, mane olmuruq ki sənə?
TEYMUR KİŞİ – Həə?
ELXAN MÜƏLLİM – Deyirəm mane olmuruq ki?
TEYMUR KİŞİ – Yooox, işinizdə olun… Oyunçu aparsın…

Onlar otağın o biri küncündə nərd atmağa başlayırlar…
Qadınlar isə öz aralarında sakit səslə söhbət edirlər ki, arxada nərd oynayan kişilər çox eşitməsinlər…
Zöhrə meyvə doğraya-doğraya arada müdaxilə edir…

XUMARƏ – Bu saat tək sənin yox, qardaşının da taleyi sənin əlindədi… İkiniz də gedib orda barmağınızı ilişdirərsiz, qalıb yaşayıb işləyərsiz. Burda qalıb ömrünüzü çürütməyəcəksiz ki?
SEVİL – Nə bilim… *(tərəddüdlə)* Bilmirəm… Adam sevmədiyi insanla necə yaşaya bilər axı?
XUMARƏ – Eeeh, o vaxt anan da belə deyirdi… Nə qədər başa saldım, xeyri olmadı… Öz bildiyini elədi...
ZÖHRƏ – Uff… *(dişlərini sıxır)* Yadıma salma e, sən Allah… Başım işləmədi, qulaq asmadım sənə…
XUMARƏ – Hələ məni lağa qoyurdu, deyirdi belə də ərə getmək olar? Elə gəlib dedilər ki, doktor Kərimlinin oğlu səni istəyir, o saat da razılaşdın…
ZÖHRƏ – Düz deyir. Rəhmətlik anam gəlib başa saldı, dedi yaxşı ailədilər, oğlan da savadlı oğlandı, nazirlikdə işləyir… Xalan da ağıllı idi də. O saat dedi ki, əgər siz məsləhət bilirsizsə, gedərəm… Amma mən? Yoox, dirəndim… Nə danışırsız? Adam da görməsə, sevməsə, ürəyi titrəməsə, qulağından tüstü çıxmasa, necə ərə gedə bilər ki? Budey, bu da nəticəsi… İndi sən də otur, fikirləş, gör mənim yolumla getmək istəyirsən, ya xalanın yoluyla… *(Sevil nəsə demək istəyəndə anası imkan vermir)* Amma özünü öldürsən də, qoymayacam mənim yolumla gedəsən… *(doğradığı almadan bıçağın ucunda ona uzadır)* Götür, alma ye…
SEVİL – *(əsəbi)* Ee, istəmirəm…
XUMARƏ – Bax anana? Başa düş ki, sonrakı peşmançılıq fayda verməyəcək… Gedib düşəcəksən ya Murovun qar-şaxtasına, ya da Beyləqanın toz-torpağının içinə… Sənə lazımdı? Fikirləş, gör Frankfurtun parkları yaxşıdı, yoxsa Beyləqanın ilan mələyən çölləri?
SEVİL – Bilmirəm. *(fikirli)* Heç nə bilmirəm. *(tərəddüdlə)* gərək düşünüm.
ZÖHRƏ – Yaxşı, düşün. Amma çox yox, beş-altı gün… *(meyvələri ayırır, yarısını stolun üstünə düzür, yarısını da başqa qaba yığır)* Apar qoy kişinin əlinin altına. Həkim tapşırıb, meyvə çox yeməlidi.

Sevil fikirli halda meyvə qabını götürüb babasının yanına gəlir, kişinin yanındakı stolun üstünə qoyur, divanda oturub fikrə gedir…

ZÖHRƏ – Amma sən nənəvin goru, qonaqlar gələndə, belə qaşqabağını salladıb oturma... Zəhrimar tökülür sifətindən…
SEVİL – *(Dodaqlarını əyir)* Belə oturum? Yaxşı... Oturaram…

Elə bu vaxt əlində konfet qabları olan Kamalə içəri girir, Sevilə çönəndə görür ki, ağzı qulaqlarının dibinə çatıb... Başa düşmür…

KAMALƏ – O nə sifətdi?
SEVİL – *(ağzını əyərək)* Tapşırıblar ki, qonaqlar gələndə, sifətimdə təbəssüm olsun… Mən də məşq eləyirəm…

Kamalə başını yellədərək konfetləri stolun üstünə qoyur...

KAMALƏ – *(Zöhrəyə)* Düyü dəm aldı, söndürdüm altını...
ZÖHRƏ – Xəşil olmadı?
KAMALƏ – Yox, diri qalıb…
XUMARƏ – *(Kamaləyə yavaşca)* Sənin sözünü eşidir. Sən də başa sal da, qoy şadlığına şitlik eləməsin… O cür şans düşüb. Niyə əldən verək axı? Camaat özünü öldürür ki, bir dənə belə müştəri çıxsın qızıyçün…
KAMALƏ – Mən heç nə deyən deyiləm… Bu, şəxsi məsələdi. Özü qərar qəbul eləməlidi. Məndən olsa…
ZÖHRƏ – *(sözünü kəsir)* Səndən olsa, öz gününə salarsan onu… Şəxsi məsələ… Yox bir… *(əlini yellədir)* Sizə söz başa salmaq mümkün deyil... *(Saata baxır)* Vaxt nə tez keçir ey, bunlar bir azdan gələcəklər, mən heç üst-başımı səliqəyə salmamışam…
XUMARƏ – Hə, mən də bir güzgüyə baxım… Bunlar hər şeyə fikir verəndilər ey… Sahib restorandan yeməkləri gətirənəcən, heç olmasa, özümüzü səliqəyə salaq…

Zöhrə ilə Xumarə tez o biri otağa keçirlər. Kamalə də çıxır…
Sevil fikirli halda gəlib küncdəki işləməyən iri saatın qarşısında dayanır, çiynini saata söykəyib fikrə gedir, əliylə saatın yekə kəfkirini yellədir… İri kəfkir bir az yellənib dayanır…

Elxanla Aqşinin nərd oyunu isə davam edir, nəhayət, Aqşin əsəbiliklə daşları çırpır...

AQŞİN – Sən də elə deşik axtarırsan tutmağa… bezdim ee.
ELXAN MÜƏLLİM – Nə oldu? Bir dənə mars olan kimi həvəsdən düşürsən… Adam prinsipial olar…
AQŞİN – Əşi nərd olan şeydi ki, ona görə prinsip aparasan... Oyundu da…
ELXAN MÜƏLLİM – *(Qalxır)* Elə həyat da oyundu da... Özün həmişə demirdin… *(sanki nəsə xatırlayır, Sevilə çönür)* Xalangil hara getdi?
SEVİL – O biri otağa keçdilər…
ELXAN MÜƏLLİM – Bir zəng eləsin, görək bunlar haçan gələcək də? Acından öldüm ki mən… Səhər də imkan vermədi bir tikə yeyim, tələs-tələs çıxartdı məni evdən…

Elxan dodaqaltı deyinə-deyinə qadınların keçdiyi otağa keçir…
Sevil şüşəbəndin qabağına keçib həyətə baxır…

AQŞİN – Sən niyə geyinib-kecinmirsən?
SEVİL – İstəmirəm…

Aqşin pərdənin arxasında gizlətdiyi içki şüşəsini çıxardır, stəkana töküb içir, yenə pərdənin arxasına qoyur, gəlib Sevilin yanında dayanır, bayıra baxır. Ağır sükut çökür…

AQŞİN – Heç kimə fikir vermə. Uşaq deyilsən… Sevmədiyin adamla ailə qurmağın axırı yoxdu. Məni də o vaxt çox bezdirdilər. Amma öz fikrimdən dönmədim…
SEVİL – Bəs onda niyə həmişə didişirsiz? *(sanki tərəddüdlə)* Bəlkə onların dediyini eləsəydin, daha yaxşı olardı?
AQŞİN – Hə, düzdü, Elmiranın xasiyyəti də ipək deyil, çox emosionaldı. Mübahisələrimiz də, narazılıqlarımız da çox olur. Amma üç gün keçir, yenə sakitləşirik, hər şey qaydasına düşür. Niyə? Çünki ortada sevgi var, mənəvi bağlılıq var… Bir-birimizin ən pis xasiyyətlərinə də dözürük. *(qəribə şəkildə gülümsünür)* Sevginin elə gözəlliyi də bu dava-dalaşdadı da. O mahnı necə idi? Küsməyin, sonra barışmağına…
SEVİL – *(gülümsünür)* Ayrılıq heç kimə qismət olmasın, Küsüb barışmağın öz ləzzəti var?
AQŞİN – Hə, elədi… Düz deyiblər… Arada belə gərginliklər olanda, adam bir-birinin qədrini daha yaxşı bilir… Yoxsa ki, odey, Xumarə… Evdəkilər verdi, bu da gözünü yumub getdi, heç vaxt evlərində nəsə dava-dalaş olmayıb, hər şey sakit, hər şey hamar…
SEVİL – *(yenə tərəddüdlə)* Pisdi ki?
AQŞİN – *(acı-acı gülümsünür)* Nəyi yaxşıdı? Bütün el-aləm bilir ki, Elxan bu iyirmi ildə səkkiz dənə məşuqə dəyişib, Xumarə də deyir ki, Elxan neynəyirsə, eləsin, əsas budu ki, pulum gəlir, evlərim var, işim var, uşaqların bir problemi yoxdu... Vəssalam… *(əlini yellədir)* Guya bilmirsən ki?
SEVİL – *(köksünü ötürür)* Hə, bilirəm…
AQŞİN – Amma anan o vaxt istədiyinə getdi. Ona görə də bütün çətinliklərə dözdü… *(başını yellədir)* Bilmirəm indi hardan böyninə düşüb ki, sənə Xumarənin həyatını yaşatdırsın… Heç cür beyninə girmir ki, sən həyatı yaşaya bilməzsən, çünki Xumarənin qızı deyilsən, onun qızısan… *(gəzişir)*

Aqşin çönüb görür ki, Sevil sanki anlaşılmaz baxışlarla ona baxır…

AQŞİN – Bağışla, ürəyim dolu idi, yordum səni… Bilirəm, sən yeniyetmə qızsan, belə şeyləri tam başa düşə bilməzsən… Allah eləsin ki, heç vaxt başa düşməyəsən…
SEVİL – *(kresloda oturur)* Dəhşətsiz ey… Hərəniz bir söz deyirsiz, adamın bütün fikirləri dolaşır…
AQŞİN – Gözlə, atan gəlsin, o, nə desə, elə də edərsən…
SEVİL – *(ani düşünür)* Düz deyirsən… Mən də o fikirdəyəm… *(qətiyyətlə)* Qoy gəlsin, son sözü atam desin. O, nə desə, elə də olacaq…

Hər ikisi susurlar…

Sükut çökür…
İşıqlar sönür

4-cü səhnə

İşıqlar yanır…

Teymur kişi televizorun qabağında kanalları qurdalayır, ara-sıra yanındakı jurnal stolunun üstündəki meyvələrdən götürüb yeyir…
Aqşin də televizora baxsa da, bilinir ki, fikri başqa yerdədi…
Elxan şüşəbəndin bayır tərəfində kiminləsə telefonla danışır…
Evin qapısı açılır, əlində restoran çantaları olan Sahib içəri girir, gətirib stolun üstünə qoyur…

SAHİB – Ay ana, hardasız? Gəlin, bunları yerbəyer eləyin də…

Teymur kişi səsə çönüb nəvəsini çantalarla görür...

TEYMUR KİŞİ – *(həyəcanla bərkdən)* O nədi elə? Rauf gəlib?
SAHİB – Yox, ay baba, qonaqlıq üçündü…

Teymur kişi sakitləşib yenə televizora çönür…
Zöhrə ilə Xumarə bir tərəfdən, Sevillə Kamalə də o biri tərəfdən çıxırlar.
Zöhrə yeməkləri açıb yerbəyer edir.
Yeməkləri açıb şirniyyatları stola yığırlar, qəlyanatltıları isti yeməkləri Sevil mətbəxə aparır…

XUMARƏ – *(Aqşinə)* Mənə bax, özünü bir az səliqəli apar. Ağlına nə gəldi danışma… Bunlar hər şeyə fikir verəndilər…
AQŞİN – *(ani düşünür, Zöhrəyə)* Skoç hardadı? Enlisindən var?
SAHİB – Hə, gətirim? *(şkafın siyirtməsini açır, enli skoçu çıxardır)*
ZÖHRƏ – *(birdən duruxur, Aqşinə)* Neynirsən ki?
AQŞİN – Ağzımı skoçlayım da… Birdən ağzım sözümə baxmaz, o boyda Almaniya imperatorluğunun səfirlərinin yanında biabır olarıq.

Sahib gülür, skoçu dolabın üstünə qoyur...

XUMARƏ – Skoçu sənin ağzına yox ey, ağlına yapışdırmaq lazımdı…

Aqşin divana çöküb yenə telefonunda qurdalanır. Sahib də onun yanında oturur, pıçıltıyla nəsə danışırlar…
Zöhrə isə Kamaləyə yaxınlaşır.

ZÖHRƏ – *(yavaşca)* Sən Allah, Xahiş edirəm, qızın taleyi həll olunur, sən də heç olmasa bir-iki saat dilini saxla, işlərimizİ korlama…
KAMALƏ – Mən nə deyirəm ki? Həmişə sözün düzünü demişəm, xətrinizə dəyib.
ZÖHRƏ – Demə də, qurban olum, nə düzünü, nə əyrisini. Heç nə demə…
KAMALƏ – Bəlkə birdəfəlik çıxım gedim?
ZÖHRƏ – Yenə başladın? (səsini yumşaldır) Yaxşı da, incimə, bilirsən ki çox narahatam qızın taleyi üçün… Təki sağ-salamat yerbəyer olsun, heç olmasa, onun fikrini çəkməyim.

Elxan da aynabənddən otağa girir, Sahibin gəldiyini görür…
Sahib yaxınlaşıb maşının açarlarını ona verir...
Elə bu vaxt Xumarə xanımın telefonuna zəng gəlir…

XUMARƏ – *(telefona baxır)* Sakit olun, Afa xanımdı, yəqin yaxınlaşıblar… *(telefonu qulağına sıxır, xüsusi əda ilə danışır)* Salam, salam canım, necəsiz? Gəlmisiz? Hə, elə orda olun, indi Elxan çıxıb qarşılayar sizi… Yaxşı, oldu canım, oldu, gözləyirik. *(telefonu qapadır)* Elxan, gəliblər, dedi supermarketin yanına çatmışıq. Qarşıla, gətir…

Elxan cəld pencəyini geyinib çıxır…
Aqşin isə gedib Elxanın gətirdiyi kulyokdan içkiləri çıxardır, şərab və viski şüşələrini də stolu üsütünə qoyur.

AQŞİN – Bu, başqa məsələ… *(qadınlara)* Bu qırmızılar sizin, bu birilər də kişilərin… Heç kim də içməsə, Teymur dayı ilə bala-bala vurarıq Sevilin sağlığına… *(bərkdən)* Hə, Teymur dayı. Vurarıq?
TEYMUR KİŞİ – *(adını eşidib çönür)* Kimi?
AQŞİN – Kimi yox, nəyi?
TEYMUR KİŞİ – *(gülümsünür)* Mənimki vurmaqdan keçib, ay bala… Elxanla vurarsız…
AQŞİN – Teymur kişi, bu ayrı şeydi e… Qana da xeyirdi, cana da.
ZÖHRƏ – Adə, baban yaşında kişidi, adam tapmısan zarafat eləməyə? Gəl keç bu yana…

Aqşin şüşəni stolun üstünə qoyur, Sahibin yanına gəlir…

AQŞİN – *(yavaşca)* Sənə icazə verirlər evdə vurmağa?
SAHİB – Yox, amma stolaltı işləmək olar…
AQŞİN – Əla, olsun stolaltı… Dayı-bacoğlu axırına çıxarıq bunların. Yoxsa Elxan əlli qram vurur, sonra Xumarə bir dəfə göz ağardır, Elxan əlini çəkir, mən də qalıram tək…

Qapı açılır. Əvvəlcə Elxan müəllim, ardınca Afa xanım və oğlu Nurlan içəri daxil olurlar…
Afa xanımın geyimindən, ədasından hiss olunur ki, hamıya yuxarıdan aşağı baxan imkanlı bir qadındır…
Hiss olunur ki, Afa xanım evə də sanki müştəri gözüylə baxır, amma bəyənmir…

Xumarə ilə Zöhrə də çıxıb onları qarşılayırlar, xoşgəldin edirlər, Aqşin də gəlib salamlaşır…
Xumarə Sevilə göz eləyir, Sevil də yaxınlaşır, gülümsünərək Afa xanımla görüşüb öpüşür… Nurlan da əl verib Sevillə görüşür…

AFA XANIM – Təbrik edirəm qızım, böyük qız olasan…

Afa xanım oğluna baxır, Nurlan əlindəki hədiyyə çantasını Sevilə uzadır…

SEVİL – *(gülümsəməyə çalışır)* Çox sağ olun... Əziyyət çəkmisiz… *(hədiyyəni alır)*

Kamalə də mətbəxdən çıxır, Xumarə xanım onu da qonaqlara təqdim edir.

XUMARƏ – Bu da Zöhrənin baldızıdı… *(Kamaləyə)* Afa xanım da Elxanın qohumudu…
KAMALƏ – Şadam, *(yüngül kinayə ilə)* Xumarə xanım o qədər danışıb ki sizdən…
XUMARƏ – Bu, Zöhrənin oğludu…
SAHİB – Xoş gəlmisiz.
AFA XANIM – Çox sağ olun... Hə, bir dəfə görmüşəm… Şad oldum.
XUMARƏ – *(Teymur kişini göstərir)* Bu da qaynatasıdı.
TEYMUR KİŞİ – *(bərkdən)* Xoş gəlmisiz.
AFA XANIM – Çox sağ olun.
XUMARƏ – *(qardaşını göstərir)* Aqşini də tanıyırsız, bizdə bir-iki dəfə görmüsüz.

Aqşin salamlaşıb qəribə şəkildə təzim edir, Afa xanım təəccüblə baxır, lakin əhəmiyyət vermir.

XUMARƏ – Gəlin, əyləşin, yoldan gəlmisiz.

Qonaqlar stol arxasında əyləşirlər.
Xumarə Afa xanımın yanında oturur, Zöhrə süfrəyə qulluq etməyə başlayır.

ZÖHRƏ – *(Kamaləylə Sevilə)* Gedin, çayları hazırlayın.

Kamalə ilə Sevil mətbəxə tərəf gedirlər.

KAMALƏ – Girən kimi elə baxır ki, elə bil müştəridi, ev almağa gəlib.

Sevil başıyla təsdiq edir.
Onlar çıxırlar.
Aqşinlə Sahib də bir kənarda oturub, Nurlana baxaraq, öz aralarında nəsə pıçıldaşırlar, hiss olunur ki, stol arxasında çox ciddi görkəmlə oturmuş Nurlanı müzakirə edirlər.

Xumarə isə öz növbəsində Afa xanımla söhbətə başlayır.

XUMARƏ – İşlər necə gedir? Artur müəllim necədi? Yaxşıdı?
AFA XANIM – Pis deyil. Düzdü, bu pandemiyaya görə, orda biznes bir az zəifləyib, ancaq tam boş buraxmaq da olmur, ona görə Artur hələ ki ordadı… Burda olsaydı, onu da götürüb gələrdim.
XUMARƏ – İnşaallah gələn dəfə o da gələr…

Nurlanın diqqətini otağın küncündə yerə qoyulmuş iri kəfkirli qədim saat cəlb edir.
Qadınlar danışdığı müddətdə Nurlan sakitcə qalxır, gəlib saatın qarşısında dayanır, saata baxır…
Afa xanım da sınayıcı nəzərlərlə otaqdakılara baxır, sanki özüyçün hər şeyi təyin eləmək, məlumat yığmaq istəyir…
Bir neçə saniyə susurlar, ev sahibləri girib-çıxaraq stola qulluq edirlər…

XUMARƏ – *(Nurlana, bir az bərkdən)* Doğurdan heç soruşmadım, necə gəlib çıxdız?

NURLAN – Tez tapdıq. Naviqator var da...

XUMARƏ – Yolda çox narahatlıq olmadı ki?

AFA XANIM – Narahatlıq deyəndə ki… *(bir az üzünü turşudur)* Trasda yaxşı gəldik, amma dönəndən sonra maşını o qədər silkələdi ki, başım hərləndi…

ZÖHRƏ – Həə, yolu deməyin. Söz veriblər ki, ilin axırınacan yolları təzədən çəkəcəklər…

AFA XANIM – Gələ-gələ baxdım ki, burda fərli ev-eşik elə iki-üç dənədi… Sanballı adamlar çox olsaydı, elə özləri atışıb qəşəng asfalt yol çəkdirərdilər... İndiyə qalmazdı...

Afa xanımın gələn kimi belə narazı ifadə bildirməsi evdəkilərə yaxşı təsir etməsə də, heç kim büruzə vermir, yalnız Aqşin qurcalanır.

AQŞİN – Sanballı adamların ən yaxşı bacardığı iş elə yol çəkməkdi də. *(gülür)* Eyni yerə hər ildə iki dəfə…

XUMARƏ – *(onun sözünü ağzında qoyur)* Hə, yol məsələsini deməyin… Elə Zöhrəgil neçə dəfə qonşulara dedilər ki, gəlin, özümüz pul yığaq, yolu düzəldək, amma çoxu çəkdi yaxasını bir kənara… *(başını yellədir)* Bizimkilərin bu xasiyyəti olmaya da…

Kamalə ilə Sevil çayları gətirib düzürlər…
Zöhrə də şirniyyat gətirməkçün çıxır…
Hamı çay içərək söhbətə davam edirlər…

AFA XANIM – Eh, nəyi qoyub, nə axtarırsız? Bizim binada ki hamısı imkanlı, hörmətli adamlardı… Ancaq nə olsun? Hər dəfə bir problem olanda, komendant qapı-qapı gəzib yalvarır, heç kim yaxın durmur… *(başını yellədir)* Mən deyəndə, Nurik əsəbiləşir… Gör heç orda belə şey olur? Ən xırda bir şey olan kimi, o saat hamı birləşib, həll eləyir…

Zöhrə şirniyyat gətirib stolun üstünə düzür…

XUMARƏ – Düz deyirsiz, *(ah çəkir)* Avropadı da... Bizimkilərin onlara çatmağına hələ çox var…

AFA XANIM – Hamısı şüursuzluqdandı, mədəniyyətsizlikdəndi…

NURLAN – Ay ana, o cür demə. Hirslənmək də lazım deyil. Niyə anlamaq istəmirsən axı... Onlar rasional toplumdu. Ona görə hər işdə dəqiqdirlər. Bizim mentalitetimiz başqadı… Bizim xalqın da təfəkkürü geri qalıb, inkişaf prosesi getdikcə, kollektiv məsuliyyət hissi də yaranacaq.

AFA XANIM – Hə də, *(gizli bir fəxrlə)* indi başlayacaqsan elmi işinin tezislərini deməyə? (gülümsünərək Xumarəyə) Frankfurtda doktorluq işi Yaxın Şərqdə milli münasibətlər mövzusundadı…

NURLAN – *(düzəliş verir)* Yaxın Şərqdə milli münasibətlərin iqtisadi əlaqələrə təsiri…

AFA XANIM – *(şirin bir əda ilə)* İndi daha bağışla da. Bütün adını yadımda saxlaya bilmirəm. *(şirniyyatı yeyərək)* Nə yaxşı bişiriblər bunu? Qəribə dadı var…

XUMARƏ – Hamısını Sevil özü hazırlayıb… İstəsəz, reseptlərini verər...

Sevil diksinir, çaşıb qalır, restorandan gələn yeməklərin öz adına çıxarılmasından çaşıb qalır…

XUMARƏ – *(Nurlana çönür)* Beynalxalq iqtisadi münasibətlər yaxşı ixtisasdı… İnşaallah, müdafiə edər, ağıllı oğlandı, onunçün bir elmi iş nədi ki?
AQŞİN – *(acı tərzdə)* Onlarçün yəni belə maraqlıdı bizim milli münasibətlər, bizim mentalitet? Heç tanıyırlar ki bizi? Heç bilirlər bizim ölkə hardadı?
AFA XANIM – *(başını tərpədir)* Düzdü, mən də bu sualı həmişə verirəm Nurikə… *(ədalı tonda)* Bizim milli münasibətlər heç mənimçün maraqlı deyil, o ki qaldı bir avropalı ola…
XUMARƏ – Hə də, özlərinin yüz dənə dərd-səri var…
NURİK – çox səhv fikirdi… Onlarda elmi sahə elə qurulub ki, dünyanın bütün regionlarını diqqətdə saxlamağa çalışırlar. Xalqların mentalitetini, aralarındakı münasibətlərini analiz edirlər, məlumat yığırlar ki, iqtisadi münasibətlər quranda bu informasiyalardan istifadə eləsinlər… Elə mənim elmi rəhbərim də təkid elədi ki, elmi işin böyük bir fəsli də Qafqazdakı milli-etnik münaqişələrin tarixinə həsr olunsun. Dedi sizə yaxın mövzudu, çox dərindən araşdırıb öyrənə bilərsən… *(Sevilə baxır)* Biz yayda Sevil xanımla bu mövzuda çox söhbət eləmişdik…

Zöhrənin sanki yaralı yerinə toxunurlar, özünü saxlaya bilmir, müdaxilə edir.

ZÖHRƏ – *(narazı səslə)* Əşi, burda araşdırmalı nə var ki? Axmaq bir münaqişədi də… İyirmi beş ildi hərəsi oturub öz səngərində, bizimkilər başını çıxardır, onlar atır, onlar başını çıxardır, bizimkilər atır… Vəssalam, bu da oldu sənin elmi işin. Rauf burda olanda gəl, nə qədər istəsən, danışsın sənincün… *(Xumarəyə baxır)* Yemək̇ləri gətirək?
XUMARƏ – Hə, yavaş-yavaş gətirin… *(Kişilərə tərəf çönür)* Gəlin, siz də əyləşin... Elxan səhər də heç nə yeməyib…

Elxan, Aqşin və Sahib də stolun aşağı başında əyləşirlər. Teymur kişini də stolun başına gətirmək istəyirlər…

TEYMUR KİŞİ – Mənim yerim rahatdı, dəyməyin, siz yeməyinizi yeyin…
ZÖHRƏ – Düz deyir, əziyyət verməyin. İndi Kamalə yemək düzəldər onunçün orda…
TEYMUR KİŞİ – Nuş olsun. Xeyir işlərə gələsiz…

Hamı təşəkkür edir… Teymur kişi yenə asta səslə işləyən televizora zillənir.
Aqşin içkiləri də gətirib öz qabaqlarına qoyur, birinin ağzını açıb süzür, soyuq qəlyanaltılardan yeyərək, içirlər, hərdənbir Sahiblə nəsə pıçıldaşır, qadınların söhbətinə qarışmırlar.

Zöhrə ilə Kamalə yemək̇ləri gətirə-gətirə ara-sıra söhbətlərə müdaxilə edirlər…

Sahib də içmək istəyir, anası gözünü ağardır… Anası çıxandan sonra Sahib tez içib qədəhi kənara itələyir…

Elxan da az içir, amma Aqşin ara vermir, qısa fasilələrlə bir neçə qədəh içir. Nurlan isə Zöhrənin sözünün sonundakı fikri davam elətdirir…

NURLAN – Hə, Sevil yayda demişdi, deyəsən, atası polkovnikdi, hərbi hissə komandiridi.
AFA XANIM – *(təəccüblə)* Polkovnik? Bəs general deyildi?
ZÖHRƏ – Yoo, onu kim dedi ki?

Afa xanım Xumarəyə baxır…

XUMARƏ – Yox ey, demişdim ki, bu gün-sabah general olacaq.

Otaqdakılar təəccüblə Xumarəyə baxırlar, gözlərini döyürlər, hiss olunur ki, onun yalanından xəbərləri yoxdur...

AQŞİN – *(təəccüblə müdaxilə edir)* Doğurdan? Vaxtı çatıb bəyəm?
XUMARƏ – *(ona çönüb göz ağardır)* Həə, məsələ artıq həll olunmaq üzrədi…
AFA XANIM – Hə, heç olmasa general olsa, yenə yaxşıdı…
KAMALƏ – *(yenə özünü saxlaya bilmir)* Polkovnik də aşağı rütbə deyil… Bunu almaqçün iyirmi il səngərlərdə olub…

Bu dəfə Zöhrə ona göz eləyir…

ZÖHRƏ – Düzdü, əziyət çox çəkib... Siz demişkən, heç olmasa, general versəydilər, bilərdi ki, əziyyətinə dəyib…
AQŞİN – *(yeyə-yeyə)* Hərəkətsiz oturan ordunun generalı olmaqdansa, döyüşən ordunun leytenantı olmaq daha yaxşıdı məncə…
XUMARƏ – *(süni şəkildə gülümsünür)* Aqşin də bezmədi bu siyasi jurnalistikadan da… Ay qardaş, artıq bir ildi bank işçisisən ey… Daha məqalə yazmırsan… *(yenə gülür)*
NURLAN – *(Aqşinə)* Amma mən sizinlə razı deyiləm… Milli konfliklərin hərbi yolla həlli ən son vasitədir. Müasir dünya artıq çoxdan bu üsuldan əl çəkib. Bütün problemlər sivil müzakirələr yoluyla həll olunur və iqtisadi əlaqələrin yaranmağına start verilir. Hər iki tərəf öz mənfəətini götürür.
AQŞİN – Yaxşı, bəs əgər sən görsən ki otuz il keçir, amma heç nə həll olunmur? *(kinayə ilə)* Onda da vuruşmaq olmaz?
NURLAN – Bizim elmi rəhbərin gözəl bir sözü var. Sivil həlli olmayan problem yoxdur. Əgər çıxış yolu tapılmırsa, deməli, bu müzakirələri aparan adamlar bacarıqsızdı, dayaz düşüncəlidi. Onları dəyişmək lazımdı. Daha ağıllı adamlar önə çıxmalıdır, formatlar dəyişməlidi, müzakirələr yenə də davam etməlidir. Əvvəl-axır ortaq bir yol tapılacaq.
XUMARƏ – *(saxta heyranlıqla)* Maşallah, nə ağıllı danışır ey… Bir suyu da Elmar Məmmədyarova oxşayır… *(gülür, amma heç kim ona əhəmiyyət vermir)*
ZÖHRƏ – *(yavaşca)* Sən Allah, o bəduğurun adını çəkmə, düşər-düşməzi olar…
AQŞİN – Bəlkə də haqlısan, amma vətənin durumunu da düşünmək lazımdı axı... Çox vaxt xalq bu uzun-uzadı müzakirələrə dözə bilmir...
NURLAN – Ən əvvəl onu deyim ki, vətən anlayışına münasibət artıq tamam fərqlidi… *(birdən sanki nəsə düşünür, ətrafdakı adamlara çönür)* Yormuram ki sizi?

XUMARƏ – Yox, yox, çox maraqlı fikirlər deyirsiz…

NURLAN – *(Davam edir)* Əslində, bizim klassik mənada vətən dediyimiz məfhum müasir dünyada artıq yox kimidi. Hər adam harda istəsə ev alır, yaşayır, biznes yaradır, karyera qurur, işləyir, bir il burda, beş il orda. Artıq siyasi sərhədlər şərti xarakter alır… Misalçün, bizim ət məhsulları kombinatımız iyirmi ildi Almaniyada fəaliyyət göstərsə də, səkkiz ölkədə müəssisələrimiz var. Yəni hər bir kəs başqa bir ölkədə nəyəsə sahib olur, əlaqələr yaradır, işləyir, istədiyi vaxt şəraitə uyğun olaraq yaşayış yerini dəyişir, ev alır.

ELXAN MÜƏLLİM – Düzdü, bizim bankda da cavan kadrlardan xaricə işləməyə gedənlər çoxdu… Əksəriyyəti heç geri də qayıtmır. Birdəfəlik qalırlar orda.

Bayaqdan ard-arda içdiyinə görə, artıq bir az sərxoş olan Aşqin yenə nəsə demək istəsə də, bu dəfə Xumarə imkan vermir…

XUMARƏ – *(bir az ehtiyatla)* Həə, inşaallah, bizim də fikrimiz var ki, Sevili göndərək, elə orda oxusun…

ZÖHRƏ – Həə, mən də fikirləşirəm ki, burda qalıb ömrünü çürütməyə ehtiyac yoxdu… Bizim həyatımız getdi, heç olmasa, bunlar ağ günə çıxsınlar... *(Sahibi göstərir)* Oğlan magistrə hazırlaşır, o da getmək istəyir... Qoy ikisi də gedib orda oxusunlar, qalıb işləsinlər...

AFA XANIM – *(xüsusi ibarə ilə)* Əlbəttə… Narahat olmayın, hazırlaşsınlar, *(Zöhrəyə çönür)* Biz də bacardığımız qədər kömək edərik…

ZÖHRƏ – Çox sağ olun… Allah köməyiniz olsun…

Kiçik pauza, yemək yeyirlər… Aqşin yenə içir, Xumarə ilə Zöhrə ona nə qədər işarə etsələr də, Aqşin əhəmiyyət vermir…

Kamalə isə özünü saxlaya bilmir.

KAMALƏ – Yaxşı, bəs hamı çıxıb gedəcəksə, burda kim qalacaq ki? Ölkə tamam boşalsın?

ZÖHRƏ – Eeh, guya ölkə bizimçün neynəyib ki… Ölkənin dərdini çəkənlər çoxdu, biz öz dərdimizi çəkməliyik…

AQŞİN – Ölkə elə bizik də… Biz bəyəm ayda yaşayırıq? Biz olmasaq, hamımız çıxıb getsək, bu ölkə daha ölkə olmadı ki? *(sanki çıxış edirmiş kimi, barmağını yellədir)* Vətəndaşı olmayan vətən içi boş konyak şüşəsi kimidi. *(stolun üstündən boş konyak şüşəsini götürür)* Zahirən qəşəng, yaraşıqlı, amma heç kimə lazım deyil… *(Elxana)* Sənə boş butulka lazımdı?

ELXAN MÜƏLLİM – Yox…

AQŞİN – Heç mənə də lazım deyil… *(Sahibə verir)* Apar at zibil qabına...

ELXAN MÜƏLLİM – Vətəndaşlıq getməklə qalmaqla deyil ki... O qədər dostlarım var ki, hələ doxsanıncı illərdə köçüblər xaricə, amma bizimlə o qədər birgə layihələr eləyirlər, ticarət münasibətləri qururlar, bura sərmayə yatırırlar. Əsl vətənpərvər oğlanlardı…

NURİK – Bəli, bu da elə böyük vətənpərvərlikdi. Elə biz də bu məsələdə çox aktiv fəaliyyətə başlamışıq.

AQŞİN – Doğurdan? Maraqlıdı, nə istiqamətdə?

NURLAN – İndi izah edərəm…

Nurlan ağzını dəsmalla silir, qalxır, gəzişərək danışır…

NURLAN – Bizim ordakı biznes fəaliyyətinin əsas seqmenqi əsl alman sosiskalarıdı… Ən yüksək keyfiyyətdə. Bizdə ən peşəkar texnoloqlar çalışır. Məhsullarımız dəfələrlə beynəlxalq sərgilərdə mükafatlandırılıb…

AQŞİN – Əhsən. Malades... Böyük nailiyyətdi. Hər sosiskaya nəsib olmur...

Sevil gülür, amma tez özünü yığışdırır…

NURLAN – Çox sağ olun... *(kiçik pauzadan sonra davam edir)* Amma biz çox düşündük ki, tutalım, Almaniyada ən yüksək keyfiyyətli məhsul istehsal edirik, bir çox ölkələrə ixrac olunur, çox bəyənilir, alınır… Bu, çox gözəl. Bəs onda niyə bizim tarixi vətənimizdə, öz ölkəmizdə bu cür gözəl məhsulların dadını bilməsinlər? Məgər bizim vətəndəki istehlakçılar ordakılardan əskikdilər ki? Axırda atama dedim ki, biz də vətənpərvər olmalıyıq… Qərara gəldik ki, birgə müəsisə yaradaq, burada əsl orqanik alman sosiskaları ixrac edək…

ELXAN MÜƏLLİM – Mən çoxdan deyirdim atana ki, bu işə başlamaq lazımdı. Biz də əlaqələr yaratmağa kömək edərik.

NURLAN – Bəli, çoxdan lazım idi. *(başını yellədir, mənalı şəkildə)* Siz bilirsiz ki, bizim xalqın hələ əsl sosiska dadından xəbəri yoxdu… *(ətrafdakılara baxır)* Biz burdakı marketlərdə satılan sosiskaları monitorinq edəndən sonra, mən dəhşətə gəldim… İlahi, onlara ümumiyyətlə sosiska demək olarmı? İçində nələr yox idi? Nə qədər kimyəvi maddələr, ət məhsullarının qalıqları, soya, nə bilim nə… O kimyəvi qatqılar orqanizmdə yüz cür xəstəlik yaradır, psixikanı pozur, insanın beynini kütləşdirir… Mən inana bilmədim ki, bizim insanlarımız bu sosiskaları yeyə bilir... Bunları heç heyvanlara da vermək olmaz… Biz isə əsl alman sosiskaları ixrac edəcəyik. Qoy xalqımız əsl sosiskanın dadını bilsin. Həm də onun tərkibindəki xeyirli maddələr, vitaminlər orqanizmə güc verir, adamın enerjisini yüksəldir, beyin fəaliyyətini stimullaşdırır. Çünki təbii orqanik xammaldan hazırlanır, keyfiyyətinə də nəzarət güclüdü… Brendin adı da AZ-MAN olacaq… Azər-Alman sözlərinin birləşməsi.

XUMARƏ – Aa, nə maraqlıdı… Əla ideyadı, yadda qalandı… Əhsən ...

AFA XANIM – Nurlan özü fikirləşib.

ZÖHRƏ – Doğurdan da əla tapıntıdı.

NURLAN – Təşəkkür edirəm. Çox sağ olun…Həqiqətən də, kim eşidirsə, xoşuna gəlir. Həm iki sözün birləşməsidi, həm də konsepsiyanın konkret fəlsəfi mənasını çatdırır. Axı bizim dildə azman güclü,qüvvətli deməkdi… Konsepsiya belədir ki, kim sağlam, güclü, qüvvətli olmaq istəyirsə, mütləq Azman sosiskaları istifadə etməlidir.

Kiçik bir sükut çökür, hamı heyranlıqla Nurlana baxır…
Aqşin qəribə yarımsərxoş halda qəfildən ayağa qalxır.

AQŞİN – Ayy da, mən gör neçə ildi bu xalqın bir çox mənəvi-psixoloji problemləri üzərində baş sındırıram, araşdırmalar aparıram, o qədər məqalələrim çıxır. Amma, sən demə, hər şeyin baiskarı sosiska imiş… Dəhşət, mən necə cahil olmuşam ey… Özüm illərlə işdə obeddə sosiska yemişəm, heç düşünməmişəm ki, onun içindəki maddələr mənim beynimi korlayır, psixikamı dağıdır… Həm də tək mənim yox, hamımızın. *(Aqşinə yaxınlaşır)* Gəl, səni öpüm, qurban olaram sənə… Necə tapmısan ey. Əsl alman sosiskası… Deməli, bütün problemlərimizin səbəbi odu ki, biz əsl alman sosiskasının dadını bilmirik...

NURLAN – *(kinayəni anlamır)* Əlbəttə ki, məsələ tək sosiskada deyil, mən şərti olaraq dedim. Qida keyfiyyətsiz olanda toplumun xasiyyətinə, xarakterinə, iş qabiliyyətinə, düşüncəsinə, hətta sosial münasibətlərə də təsir edir… Məsəlçün, biz yalnız sağlam mal-qaranın ətindən istifadə edirik. Cins mal-qara… Argentinadan və Braziliyadan gətirirlər.

AQŞİN – Argentinadan? Braziliyadan?

NURLAN – Bəli, bəli.

AQŞİN – Ay da… Pele, Maradona, Ronaldo, Messi… Yəqin ki, onlar da məhz həmin cins mal-qaranın sosiskasını yeyirlər, ona görə belə yaxşı oynayırlar... Bizimkilərinsə oyunu heç cür alınmır. Çünki bilmirlər əsl sosiska necə olur… Nəinki idmançılar... hətta neftçilər, energetiklər… Hələ əsgərlərimizi demirəm… Bütün hərbçilərimiz orqanik sosiska yeməlidi...

NURLAN – *(qəfildən sanki sevinir, anasına çönür)* Gördüz? Mən ataya neçə dəfə dedim, əhəmiyyət vermədi... Hərbi nazirliklə münasibətlər qurmaq vacibdi. Hərbçilərin qida təminatı yüksək səviyyədə qurulmalıdı, əsgərin orqanizmi güclü olmalıdı… Mən maraqlanmışdım, burda orduda əsasən ət konservlərindən istifadə olunur. Tuşonka deyirlər deyəsən... Onların nə kalorisi var ki? heç bilinmir nə ətdən düzəldirlər.

AQŞİN – Hə də, elə il uzunu tuşonka konservi yeyirlər ki, qollarının gücü olmur, torpaqlarımızı da ala bilmirlər də… Dahiyanə fikirdi, rədd olsun tuşonka, bizim əsgərlər bundan sonra yalnız alman sosiskaları yeməlidi...

NURLAN – Azman sosiskaları…

AQŞİN – Bəli, mən də deyirəm... Göndərin o sosiskalardan, yeyək, hamımızın qoluna qüvvət gəlsin, kişi kimi duraq ayağa, gedib yapışaq ermənin yaxasından… Hərbçilərimiz də mütləq Azman sosiskaları yesinlər, azman olsunlar, qəhrəman olsunlar, gedib torpaqlarımızı azad eləsinlər… Başqa yolumuz yoxdu… Yoxsa tuşonkayla vətən azad eləyərlər?

NURLAN – Lap həvəsə saldız məni. Mütləq təkid edəcəm atama ki, bu məsələnin üstünə düşsün…

AQŞİN – *(qədəhi götürür)* Bəli, üstünə düşmək lazımdı. İndi isə, gəlin içək əsl alman sosiskalarının sağlığına. Hamımız da çıxıb gedək Almaniyaya, sosiska istehsal edək, vətənə xeyir verək…

Hamı başa düşür ki, Aqşin Nurlanı prikola tutur, amma bircə özü başa düşmür…

Sükut çökür…

Birdən Aqşinin əhvalı dəyişir, səsi boğulur...

Sanki qəfildən üstünə ağırlıq çökür…

AQŞİN – Bağa gedəndə ətrafa baxıram, bağların yarısı bomboşdu, hansını soruşursan, deyir xaricə köçüb... Hərdən elə fikirləşirəm ki, bir azdan daha heç kim buraları bəyənməyəcək… Hamı çıxıb gedəcək… Bütün bağlar o günə qalacaq, bütün həyətləri tikan basacaq... güllər quruyacaq...

XUMARƏ – *(onun sözünü ağzında qoyur)* Aa, niyə quruyur ki güllər? Bizim bağban bilirsən nə güllər əkir? Rəngbərəng qızılgüllər, qərənfillər… O vaxt neçə dənə şitil göndərmişdi, Sevil burda əkdi… Elə qəşəng gül açıblar ki… Baxanda adamın bütün əsəbləri sakitləşir…

AFA XANIM – Hə, mən elə bayaqdan pəncərədən baxıram ki, o nə qəşəng güllərdi həyətdə... qəribə rəngləri var...

XUMARƏ – Həə, hamısına Sevil qulluq edir... Hələ uzaqdan çox hiss olunmur gözəlliyi. Həvəsiniz varsa, gedin yaxından baxın…

AFA XANIM – Hə, olar… Həm də beş-on dəqiqə havamızı dəyişək… *(kinayə ilə Aqşinə baxır)* Nəsə çox ağır oldu içərinin havası, ürəyim çıxıldı elə bil…

XUMARƏ – Qızım, Sevil, apar qonaqları güllərə baxsınlar, biz də süfrəni təzələyək…

Afa xanımla Nurlan Sevilin müşayiətilə aynabəndə çıxırlar, həyətə düşürlər…

ZÖHRƏ – *(Aqşinə)* Yaxşı da, mən Kamalənin ağzını birtəhər bağladım, indi sən başladın? Az iç də o zibili… Bayaqdan fikir verirəm, rumkanı rumkaya dirəmisən…

AQŞİN – İçkinin bura nə dəxli var… Sözün düzünü deyirəm də… *(yenə içir)* Ağızlarına gələni danışıb, adama od qoyurlar… Elə bil iyirmi il Almaniyada yaşamaqla kral rütbəsi alıblar. *(qəhqəhə çəkir)* Sosiskalar kralı...

ELXAN MÜƏLLİM – Elə bankda da belə eləyirsən ki, hamı narazıdı da…

AQŞİN – *(əsəbi)* Çıxartmasınlar adamı özündən…

ZÖHRƏ – Bəsdi görüm, sənə nə? Bizim qonaqdı da... Sən də qonaqsan, o da qonaqdı. Sənin də, arvadıvın da yüz dənə xasiyyətinə dözürük, heç onu demirsən. İllərdi yola veririk...

AQŞİN – Qonaq deyiləm, mən özünküyəm...

ZÖHRƏ – İmkan versən, onlar da özümüzünkü olar… *(əlini yellədir)* Sonra deyir ki, Elmira deyinir. Deyinər də… Yüz qram içən kimi dilini saxlaya bilmirsən, hamını ələ salırsan…

AQŞİN – Eeh, mən başa düşmürəm ey. Niyə mənim ağzımı bağlayırsız axı... Kimdi ki onlar ey… Ağıllarına gələni danışacaqlar, mən də qulaqlarımı sallatmalıyam sizin kimi?

XUMARƏ – Günah səndə deyil, günah bizdədi… Gərək o vaxt qabağını saxlamazdıq. O ki başına düşmüşdü e, mən də gedirəm Raufun yanına, MAXE olacam, nə bilim, olacam… Gərək gedərdin, Murovun palçığında biriki il qalandan sonra belə danışmazdın…

AQŞİN – Gedirdim də… Rauf da artıq danışmışdı, hər şeyi həll eləmişdi... İki bacı girdiz araya, tökdüz gözünüzün yaşını, mənim də yazığım gəldi sizə. Gərək fikir verməzdim, gedərdim, heç olmasa indi belə söhbətlər eşitməzdim…

Aqşin əsəbiliklə siqaret yandırıb aynabəndə çıxır…

ELXAN MÜƏLLİM – *(Xumarəylə Zöhrəyə)* Gördüz? O vaxt mən sizə dedim ki, araya girməyin, qoy getsin... Sonra sizi borclu çıxardacaq…

ZÖHRƏ – Aa, bundan hərbçi olar? Mənim buna yazığım gəlmədi e, Raufa yazığım gəldi... Hərbiyə getsəydi, iki gündən bir Raufun zəhləsini tökəcəkdi ki, filan yerdə çətindi, çıxart məni burdan, filan yerdə bacarmıram, yerimi dəyiş… Onsuz da orda azdı Raufun problemi, hələ bir bunu da yükləyəydik boynuna… Qoy oturmuşuq, sən Allah, heç olmasa burda, gözümüzün qabağındadı, nə zibili olursa, birtəhər həll eləyirik…

Elxan divarın dibindəki dolabın üstündə düzülən hədiyyələrə baxır…

ELXAN MÜƏLLİM – *(Zöhrəyə)* Bəs atası nə alıb Sevilçün, onunçün?

ZÖHRƏ – Hələ heç nə… Nəsə almağı bir yana qalsın, bilir qızının ad günüdü bu gün, heç zəng də eləməyib… Üç dörd gün sonra da həmişəki kimi

zəng vuracaq ki, bağışla qızım, dağda idim, daşda idim, əlaqə saxlıya bilmədim-filan… keçən il də elə oldu, inişil də…

Afa xanım tək içəri girir, Xumarə aynabəndə baxır, görür Aqşin dilxordu, Nurlanla dayanıblar, Aqşin əsəbiliklə nəsə danışır, Nurlan başını tərpədir…

XUMARƏ – *(Elxana yaxınlaşır)* Yenə arvadla qırışıblar. Yaman dilxordu. Sən Allah, get könlünü al. Yazıqdı… *(pıçıldayır)* Həm də bax, Nurikin yanında yenə artıq-əskik danışmasın, uşağın xətrinə dəyər…

ELXAN MÜƏLLİM – Hə, düz deyirsən, bunun dilinin tormozu yoxdu... nəzarətsiz qoymaq olmaz…

Elxan başını yellədərək aynabəndə, həyətə çıxır, Aqşinlə nəsə söhbət eləməyə başlayır…

Sahib də içəridə yalnız qadınların qaldığını görür. Anası ona işarə edir, Sahib başa düşür, o da qalxıb aynabəndə çıxır, kişilərin yanında oturur…

Xumarə stol arxasına əyləşən Afa xanımın yanında oturur…

XUMARƏ – Sən Allah, bağışlayın… Fİkir verməyin ey, biz öyrəşmişik artıq… *(ah çəkir)* Allah saxlamış o vaxt getdi səfeh bir qıza ilişdi, nə qədər dedik ki, ay Aqşin, o qız nə sənin tayındı, nə də bizim ailənin, gəl sənincün layiqli bir qız tapaq, amma qulaq asmadı. Ay nə bilim, sevirəm, onsuz yaşaya bilmərəm…

AFA XANIM – *(gizli kinayə ilə)* Hə, bizdə də eyni vəziyyətdi…

XUMARƏ – *(kinayəni hiss eləmir)* Budey, bu da axırı… İki gündən bir qırıb çatırlar bir-birini, uşaqları götürüb gedir anasıgilə. Aqşinin də beyni çönür. Uşağın gününü göy əskiyə büküb. Boşanmaq da gecdi, uşaqlar böyüyür… Nə bilim, əşi… Nə isə, keçək əsas məsələyə…

Sevil də o biri otağa keçir, yalnız Kamalə süfrədən artıq şeyləri yığışdırmaqla məşğul olur...

XUMARƏ – *(yavaşca)* Mən başlayım söhbətə, ya siz özünüz başlayırsız?

AFA XANIM – Sən başlasan yaxşıdı…

XUMARƏ – Olsun… *(çönür)* Zöhrə, bacı, onları sonra yığışdırarsan... Beş dəqiqə bu yana əziyyət çək…

Zöhrə gəlib onların yanında oturur…

XUMARƏ – Bilirsən, düzü heç bilmirəm söhbətə hardan başlayım… *(yalançı tərəddüdlə başını tərpədir)* Bizim Afa xanım elə yaydan bəri mənə eşitdirir ki, kaş adamın Sevil balamız kimi bir gəlini olaydı…

Afa xanım razılıq əlaməti olaraq başını tərpədir…

XUMARƏ – Amma mən dedim ki, özbaşına araya girə bilmərəm, elə bir aya Sevilin ad günü olacaq, qonaq çağıraq sizi, orda ilkin söhbət edərik.

AFA XANIM – Düzdü, əsas məsələ budu ki, Nurikin də çox ürəyinə yatıb Sevil qızımız… Özü də Nurik hər adamı bəyənən deyil ey… Bilirsiz nə qədər bankir qızı, prokuror qızı tapmışdım onunçün? Hətta bir icra başçısının qızı da vardı… Arturun yaxın dostu idi, çox istəyirdi onlarla qohum olaq…

XUMARƏ – Yadımdadı, demişdiz mənə.

AFA XANIM – Həə, o qədər əlləşdim, amma heç birini bəyənmədi. Dedi intellektual səviyyələri aşağıdı. Arada bir-iki dəfə söz atdı ki, bəlkə ordan evlənim, ona da mən razı olmadım. Dedim sən Allah, qanımızı qatma. (ağzını büzür) Eybi yox, qoy elə-belə adi ailədən olsun, amma yaxşı qız olsun.

Kamalə yenə müdaxilə eləmək istəyir, amma Xumarə onun əlini sıxır, Kamalə başını yellədərək boşalmış qabları yığıb mətbəxə keçir…

AFA XANIM – Əvvəl mənim özümə də təəccüblü gəldi ki, necə oldu, burdan kimisə bəyəndi? Sonra fikirləşdim ki, hansı ailədən olursa olsun, əsas budu ki Nurikin ürəyi istəyəndi. Eybi yox, day neynək, olmasın bankir, prokuror qızı, olsun general qızı…

Bu dəfə Zöhrə artıq özünü saxlaya bilməyib nəsə demək istəyir…

ZÖHRƏ – Ailə deyəndə ki…

XUMARƏ – *(imkan vermir)* Düz-əməlli ailəsi olmayan qıza heç yaxın getmək olar ki? Şükür Allaha ki, Nurlan balamızın seçimi kor-koranə deyil…

AFA XANIM – Hə, atasına da eşitdirmişəm. Əvvəl bir az mızıldandı, *(Zöhrə Xumarəyə baxıb qaşlarını çatır)* sonra dedi ki, özünüz bilərsiz. Nurikin ürəyi istəyirsə, mən də etiraz eləmərəm…

XUMARƏ – İndi ay Zöhrə, söz sizindi… Düzü, bu xeyir iş baş tutsa, elə ən çox sevinən elə mən olacam. Yaydan bəri baxıram Nurlanla Sevilə, Allah saxlamışlar necə yaraşırlar ey bir-birinə… Hər ikisi ağıllı, savadlı, yaraşıqlı… Təki hər şey yaxşı olsun.

ZÖHRƏ – *(əsəbini sıxaraq)* Düzü, belə məsələlərdə ayaqüstü cavab vermək çətindi… Bir az vaxt verin bizə, məsləhətləşək, atasıyla da danışım...

Zöhrənin belə danışması Xumarəni çaşdırır, hiss olunur ki, Zöhrənin o saat razılaşacağını gözləyirdi…

Kamalə də otağa qayıdır, onların yanında oturur, amma söhbətə müdaxilə etmir…

AFA XANIM – Olsun, biz tələsmirik… Nurikin elmi işini müdafiə eləməsi də bir neçə ay çəkəcək… Ondan sonra ətraflı danışarıq… *(Xumarəyə)* O vaxtacan yəqin ki atasının da general məsələsi həll olunar…

XUMARƏ – *(tərəddüdlə)* Yəqin ki olar da…

AFA XANIM – O məsələ düzəlsəydi, çox yaxşı olardı…

ZÖHRƏ – *(gərgin)* Nə fərqi var ki? Polkovnik generaldan bir pillə aşağıdı da…

AFA XANIM – General olmağı bizimçün daha yaxşıdı da… Baxmayın, qohum var, dost var… Hamı maraqlanacaq ki, kiminlə qohum olursuz. Heç olmasa general qızıdı, desək, çox ağız büzməzlər…

XUMARƏ – *(zarafata salmaq istəyir)* Eeh, bunlar xırda şeydi, soruşsalar, deyin ki, general qızıdı… Sizdən sənəd-filan istəyəcəklər ki?

AFA XANIM – Aa, siz nə danışırsız? Bizimkilər yarım saatın içində bütün interneti qurdalayıb axtaracaqlar… İndi elə zamandı ki, heç nəyi gizlətmək olmur. *(nəsə düşünür)* Əgər ehtiyac varsa, biz də öz əlaqələrimizi işə salaq, hərtərəfli kömək edək… Şükür Allaha ki, hər yerə əlimiz çatır…

XUMARƏ – Yoox, ehtiyac yoxdu… Özümüz həll edərik…

Zöhrə daha dözə bilmir, dişlərini sıxaraq qalxır.

ZÖHRƏ – Rauf general olsa da, olmasa da…

Elə bu vaxt stolun üstündə qalan telefonlardan biri zəng çalır, Afa xanım baxır ki, Nurlanın telefonudu...

AFA XANIM – *(götürüb baxır)* Aaa, atasıdı ki… Görəsən, nəsə nigarançılıq yoxdu ki?

Afa xanım telefonu götürüb açır, danışa-danışa aynabəndə tərəf gedir.

AFA XANIM – Hər vaxtın xeyir, salamatlıqdı? Hə, şükür. Burdadı, indi verirəm. Danış, sonra mən də bir-iki məsələni sənlə məsləhət eləməliyəm. Vaxtın varsa, danışarıq…

Afa xanım aynabəndə çıxıb, arxasınca qapını örtür… Xumarə əsəbiliklə Zöhrəyə çönür…

XUMARƏ – Sənə nə oldu axı? Biz ki razılaşdırmışdıq hər şeyi… Daha vaxt istəmək nədi?

ZÖHRƏ – *(əsəbi)* Mən başa düşmürəm e, qızı almaq istəyirlər, ya atasını…

XUMARƏ – *(sakitləşdirməyə çalışır)* Aaa, burda nə var ki? Onlar o cür nüfuzlu adamlardı, ərinin elə ən əskik dostu icra başçısıdı, rayon prokurorudu, bank prezidentidi... Hələ xaricdəkiləri demirəm... İndi o da istəyir ki, dost-tanışı yanında başıaşağı olmasın da…

KAMALƏ – Polkovnik qızını almağı özünə sığışdırmırsa, heç almasın... Lazım deyil…

XUMARƏ – Bəsdirin, siz Allah... *(Zöhrəyə)* Mən neçə aydı can qoyuram ki, bu məsələ düzəlsin… İnşaallah alınsa, uşaqların ikisinin də gələcəyi birdəfəlik təmin olunacaq… İstəmirsiz ki? Yoxsa istəyirsiz qalıb burda çürüsünlər ataları-anaları kimi?

ZÖHRƏ – *(birtəhər özünü ələ alır)* Yox, Xumarə, belə quda ilə mənə çətin olacaq…

XUMARƏ – Sənin onunla nə işin? Qoy evlənsinlər, çıxıb getsinlər Avropaya…

ZÖHRƏ – *(tərəddüdlə)* Bunlar heç bizim aldığımız cehizi-filanı da bəyənməyəcəklər...

XUMARƏ – Narahat olma, mən kömək edərəm, hər şeyi yüksək səviyyədə eləyərik…

KAMALƏ – Bəs general məsələsi?

ZÖHRƏ – Hə, doğurdan. Görmədin dedi ki, Rauf general olmasa, işimiz alınmayacaq?

XUMARƏ – Elə demədi, özünüzdən söz çıxartmayın… Onu da mən həll edəcəm… Nuriki başa salaram. Uşaq özü dirənsə, ər-arvad etiraz etməyəcək… Başa düşün də… Biz bunlarla yaxın qohum olsaq, elə bil ki, dərənin dibindən göylərə qalxacağıq… İnanın mənə. Özün bilirsən ki, mən boş-boşuna söz demirəm... Bu vaxtacan hansı sözüm sizə ziyan olub ki? Nə demişəmsə…

Elə bu vaxt Afa xanım həyəcanla içəri girir...

AFA XANIM – Ay Xumarə, qardaşınla ərin nəsə mübahisə edir, sən Allah, gəlin, sakitləşdirin...

İçəridəki qadınlar çönüb görürlər ki, Aynabənddə Aqşin Elxanla nəsə mübahisə edir, Sahiblə Nurlan da araya girib Aqşini sakitləşdirməyə çalışırlar...

Xumarə ilə Zöhrə tez aynabəndə çıxıb, Aqşini içəri çəkirlər...
Bir az sərxoş olduğuna görə, dili topuq vuran Aqşin deyinməyində davam edir...

AQŞİN – Bezdirmisiz adamı, hamı ağıl verir. Biri deyir çıx get Avropaya, o biri deyir get camaatın dərisini soy, pul yığ...

O biri kişilər də içəri girirlər...

ELXAN MÜƏLLİM – *(əsəblərini çətinliklə saxlayır)* Yaxşı, biz pisik, biz camaatın dərisini soyuruq, bunlar *(Nurlanı göstərir)* satqındılar, ölkəni atıb gediblər, hamı pisdi, bir sən yaxşısan, bir sənsən vətəni sevən, igid qəhrəman...
XUMARƏ – Ay Elxan, bəsdi, baş qoşma... *(Aqşinə)* Sən də bəsdi də, indi arvadla dava eləmisən, camaat neynəsin sənincün? Hirsini bizdən çıxırsan?
ELXAN MÜƏLLİM – *(arvadına əhəmiyyət vermir, davam edir)* Xoşuna gəlmir, işləmə, çıx get, odey, get otur səngərdə, palçığın içində, Rauf kimi böyrəklərini çürüt orda...
AQŞİN – Gedəcəm, elə bilirsiz getməyəcəm? Gedəcəm...
XUMARƏ – *(Afa xanıma)* O ləçər bu uşağın başını xarab eləyəcək axırda...
AQŞİN – *(stoldakı qədəhdə qalan içkini də başına çəkir)* Bu dəfə heç birivizin gözünün yaşına baxmayacam, gedəcəm Raufun yanına... Özüm də səngərin palçığında oturan deyiləm, bəsdi daha, iyirmi beş ildi oturmuşuq, kifayətdi, Raufdan bir dənə avtomat götürəcəm, gedib girəcəm ermənin səngərinə hamısını qırıb çatacam.
XUMARƏ – Yaxşı, bəsdi görüm, spetsnaz olub mənimçün.
AQŞİN – Niyə? Mən Mübarizdən əskik oğulam ki? Qoy məni də vurub öldürsünlər... Sonra gəlib qəbrimin üstündə tökərsiz göz yaşını...

Aqşin əsəbiliklə yekə divar saatına bir-iki təpik vurur...
Hamı təccüblə ona baxır...
Bircə Teymur kişi qarşısında oturduğu televizora dikilib, sanki ətrafdakı hay-küyü eşitmir...

AQŞİN – Bəsdi daha bu qoca saat kimi məğmın qaldıq bir küncdə... Bəsdi, bəsdi... *(saata bir-iki təpik də vurur)* Çürüyüb gedirik, heç nə də dəyişmir... Bütün həyat dayanıb o köhnə saat kimi… *(Bacılarına çönür)* İndi də bunların başına dolanırsız, bayaqdan yaltaqlanırsız... Axı böyük şərəfdi belə adamla qohum olmaq… Axı onlar xaricdə yaşayırlar, biznesmendilər, pullarını balta kəsmir… Yaltaqlanın, bütün zəhərlərini udun, əvəzində mənə göz ağardın, mənim ağzımı bağlayın ki, səsim çıxmasın, ay aman, birdən xətirlərinə dəyər… Təki qızımızı alsınlar, qohum olaq, bizə də bir yol açılsın, bizə də bir pəncərə açılsın işıqlı dünyaya… qaranlıqda ömürlük çürüməyək... heç olmasa

bir pəncərə açılsın… işıq düşsün... vacib deyil ki, o pəncərədən kimsə çıxa bilər, çıxa bilməz, bu, sonrakı işdi, əsas budu ki, pəncərə açılsın, işıq düşsün, üzümüz işıqlansın, içimizə ümid gəlsin… *(şok içində olan Nurlanı göstərir)* Heç fikirləşmisiz ki, bu sosiska kralından da Raufa kürəkən olar? *(Zöhrəyə)* Sən polkovnik Rauf Mirbabayevin arvadısan ey… Nə bükülmüsən bunların qabağında? Nə günə düşmüşük biz. *(Teymur kişiyə yaxınlaşır)* Teymur kişi qranatamyotu çiyninə qoyanda, elə bilirdin əjdaha çıxıb meydana. İndi odey, bükülüb orda, arabada. Bir ovuc olub. Bir oğlu şəhid, bir oğlu da iyirmi il orda boş-boşuna oturub səngərdə. Nə olsun? Nəyə görədi bunlar? Heç nəyə görə. Elə belə… O bükülməyib ey, bütün millət bükülüb. Hamımız. Nə vaxtacan?

ELXAN MÜƏLLİM – Belə igidsən, heç kimin sözünə baxmazdın da. Gedərdin… Gedən deyildin axı… Elə bəhanə lazım idi… Arvadlar düşdü ortalığa, sənə də bəhanə düşdü ki, gedirdim, qoymadız. Gedən heç bir qadın sözünə baxmaz. Odey, Rauf kimi… Sən getmədin, çünki zəif adamsan.

AQŞİN – *(sanki gücü tükənir, stula çökür)* Düzdü, zəif adamam. Düzdü. Çünki mən canımı qoyduğum işin nəticəsini görmək istəyirəm… İstəyirəm görüm ki, əziyyətimin bəhrəsi var... On il o saytda əlləşdim... Nə olsun? Heç nə… Tənqid elədiyimiz, ifşa elədiyimiz adamların çoxu hələ də iş başındadı… İllər keçir, onilliklər keçir, ömür gedir, heç nə dəyişmir… İllər keçir, amma ayağının altında hələ də möhkəm torpaq hiss eləmirsən, hələ də bataqlığın üstündə gəzməyə çalışırsan. Nə o bataqlıqdan tam çıxa bilirsən, nə də hər şeydən əl üzüb bata bilirsən. Cəbhədə də elə… Gedərəm, palçığın, qarın-şaxtanın içində oturaram, amma bilim ki, bir nəticəsi var…

ELXAN MÜƏLLİM – Bunlar hamısı bəhanədi... Güclü olan belə şeylərə əhəmiyyət verməz...

AQŞİN – Düz deyirsən. Mən zəifəm. Rauf kimi güclü deyiləm… Mən onun kimi bacarmaram, mən Rauf kimi 25 il heç bir nəticəsi olmadan, səngərdə oturub böyrəklərimi çürüdə bilmərəm… Ən azından, öz-özümə sual verəcəm ki, axı mən burda niyə durmuşam? Əgər beş kilometr qabaqda, gözümlə görə bildiyim kəndimizə gedə bilmirəmsə, o köpəyuşaqlarının boynundan tutub torpağımızdan tullamağa imkan vermirlərsə, onda mən burda niyə əziyyət çəkirəm? Niyə? Erməninin səngərinə baxıb əsəbiləşməkçün? Onların tənələrinə dözməkçün? Bir il, iki il, beş il, dözərəm. Amma bilim ki, əvvəl-axır bütün şəhidlərimizin qisasını alacam, əvvəl-axır yumruğumu endirəcəm başlarına. Amma yox, qoymurlar axı... Odey, apreldə, elə birinci yumruğu vurduq, yapışdılar əllərimizdən ki, olmaz, neynirsiz, axı siz sülhsevər xalqsız, axı siz humanist millətsiz, danışıq yoluyla hər şeyi həll edərik. Vuruşmaq olmaz. *(Qonaqları göstərir)* Ondansa gedərəm elə mən də bunlar kimi dünyanın o başına… (əlini yellədir) Cəhənnəm, ingilisin, nemesin qabağında belimi bükərəm, onlara yaltaqlanaram, qulluqlarında duraram. Heç olmasa, bilərəm nəsə nəticəsi var…

NURLAN – O nə sözdü deyirsiz?

AQŞİN – Yaxşı görək, yalan deyirəm ki? Gəlib burda sinənizi qabağa verib kral kimi gəzirsiz ki, biz Avropada yerbəyer olmuşuq, evimiz, işimiz, biznesimiz… Amma orda onların qabağında quyruq bulayırsız, təki sizə dəyməsinlər, təki iş görməyə, yaşamağa imkan versinlər…

NURLAN – Biz oranın bərabər hüquqlu vətəndaşlarıyıq…

AQŞİN – Hə, düzdü, orda vətən yoxdu. Orda vətəndaş var... ancaq vətəndaş… Görəsən vətən məfhumunun itdiyi yerdə vətəndaş necə ola bilər?

Qəfildən Teymur kişi qışqırır...

TEYMUR KİŞİ – Bəsdirin, sakit olun...

Hamı çönüb ona baxır...
Teymur kişi əlindəki pultla televizorun səsini qaldırır...
Televizorda dövlət başçısı danışır, müharibə başladığını deyir, vəziyyəti anladır, iyirmi beş illik atəşkəs ərzində sülh danışıqlarının heç bir nəticə vermədiyini bəyan edir.
Hamı diqqətlə qulaq asır.
Sonda prezident elan edir ki, əks-hücuma keçən ordumuz Füzuli və Cəbrayıl rayonlarının bir çox kənd və qəsəbələrini düşmənin işğalından azad edib, bu dəfə biz sona qədər gedəcəyik, Qarabağ bizimdi, Qarabağ Azərbaycandı...
Çıxış bitir...

Hamı təəccüblə əvvəl televizora, sonra da bir-birinə baxırlar...

XUMARƏ – *(inamsızlıqla)* Əşi, yenə beş-altı gün atacaqlar, sonra saxlayacaqlar...
ELXAN MÜƏLLİM – *(fikirli)* Yox, bu dəfə başqa cür danışdı, deyəsən, həqiqətən axıracan gedəcəklər…

Onlar danışdığı müddətdə Teymur kişi köhnə telefonuyla kiməsə zəng vurur, bərkdən danışır...

TEYMUR KİŞİ – *(bərkdən)* Salam Rauf… Salamatlıqdı? Hardasan? *(dinləyir)* Başa düşdüm… Özündən muğayat ol…

Hamı Teymur kişiyə baxır…

TEYMUR KİŞİ – *(otaqdakılara çönür)* Rauf dedi, Füzulinin yaxınlığına çatmışıq…
AQŞİN – *(gözləri bərəlir)* Dəqiq? Elə dedi?
TEYMUR KİŞİ – Topların gurultusundan yaxşı eşitmək olmurdu… Dedi, imkan tapıb özüm əlaqə yaradacam…

Hamı təəccüb və inamsızlıq içində olsa da, ən əvvəl Aqşin ayılır. Stolun üstündəki mineral sulardan bir şüşəsini götürüb açır, başını əyərək suyu başına tökür, başını silkələyir, sanki bir az da ayılır… Sonra telefonu çıxardıb dostlarından birinə zəng vurur, salam-kəlamsız bərkdən danışmağa başlayır…

AQŞİN – Gedirik? Hazırsız? Əla... Elə bu gün… Mən də çıxıram…
XUMARƏ – *(sanki hiss edir)* Hara gedirsən?
AQŞİN – *(həyəcanla)* Raufun yanına… Ancaq ora. Ora. Bu saat bütün kişilərin yolu ancaq oradı.

Aqşin dişlərini sıxaraq Nurlana və Elxana baxır, sanki nəsə ağıR bir söz demək istəyir, amma əlini yellədib özünü saxlayır, nə düşünürsə, qəfildən çönüb qətiyyətlə Elxanın üstünə yeriyir…

AQŞİN – Açarları ver…

ELXAN MÜƏLLİM – *(çaşır)* Nə?
AQŞİN – Maşının açarını ver... Tez ol…

Elxan bu qətiyyətin qarşısında sanki ovsunlanmış kimi, maşının pultunu çıxardıb ona uzadır…

AQŞİN – Rauf Füzuliyə tankda girəcək, mən sənin cipində… *(dəli qəhqəhə çəkir)* Fəxr eləyərsən cipinlə…

Aqşin sürətlə qapıya tərəf gedir…
Birdən Kamalə də sanki yuxudan ayılır, qapıya tərəf atılır…

KAMALƏ – Aqşin, gözlə, mən də gəlirəm…

Kamalə tez asılqandan gödəkçəsini götürüb geyinir...

XUMARƏ – Ay qız, orda sənlik nə var ki?
KAMALƏ – Heç olmasa qospitalda həkimlərə kömək edərəm…

Kamalə də surətlə çıxır…

Xumarə sanki birdən xatırlayır ki, Aqşin bayaqdan içki içirdi…

XUMARƏ – Ay Elxan, niyə verdin açarı? Gedib avariya eləyər… Görmədin piyandı?

Qəfildən Zöhrə yumruğunu stola vurub qətiyyətlə ayağa qalxır…

ZÖHRƏ – Heç nə olmaz… O, bu saat bizim hamımızdan ayıqdı… Çünki kişidi…

Hamı çönüb Zöhrəyə baxır, onun üzündə qeyri-adi bir parıltı görünür…

ZÖHRƏ – *(otaqdakılara baxır)* Nədi, nə baxırsız? Yoxsa artıq yadınızdan çıxıb ki, yan-dövrəmizdə kişilər də var? *(danışdıqca səsi qalxır, həyəcan onu boğur)* Hə, kişi deyirəm… Puluyla, maşınıyla fəxr eləyənləri demirəm… Yuxarıdakıların qabağında bükülüb, aşağıdakıları tapdalayanları demirəm… Min cür fırıldaqla evini şah sarayına döndərənləri demirəm… Camaatın qanını içib qarın çıxardanları demirəm… Vətəni tapdalayıb göylərə qalxanları demirəm… Saunalarda qıçı boyda qızlarla kef eliyənləri demirəm… *(Elxan diksinir)* Dünyanın o başında özünə yer eləyib burnunu dik tutanları demirəm… *(danışdıqca həyəcanlanır)* Əsl kişiləri deyirəm… Şükür sənə, ilahi, *(gözləri yaşarır)* şükür ki, kişilərimizə öz kişi sifətini göstərməyə imkan verdin… Şükür sənə, ilahi, imkan vermədin ki, hamısının içi çürüyüb getsin… Şükür ki, qapımızı açdın…
XUMARƏ – Aa, nə danışırsan? Türmədəydik bəyəm, qapımız açıldı?
ZÖHRƏ – *(sanki qəzəbi partlayır)* Hə, türmədəydik… Bütün şəxsiyyətimizi, ləyaqətimizi salmışdıq türməyə, özümüz də boynumuzu büküb oturmuşduq türmə qapısında… *(yenə ətrafındakılara çönür, ağzını büzür)* Nə baxırsız? Hələ çatmayıb sizə? Qurtardı e əvvəlki vaxtlar… Qurtardı… *(birdən sanki nəsə xatırlayıb şkafa doğru gedir, siyirtmədən şəxsiyyət vərəqəsini, hərbi bileti*

çıxardır, oğlunun üstünə cumur) Götür, nə dayanmısan? Götür kağızlarını, get, sən polkovnik Mirbabayevin oğlusan.

SAHİB – *(çaşqınlıqla)* Bəs axı…

ZÖHRƏ – *(qışqırır)* Get dedim sənə… Get çat Aqşingilə…

XUMARƏ – *(tələsik)* Aa, sən neynirsən ay Zöhrə, uşaq magistraturaya hazırlaşır…

ZÖHRƏ – Magistratura qaçmır… Sən bu saat atanın yanında olmalısan, arvad böyründə yox… Sənin tayların orda güllə qabağındadı…

SAHİB – *(qəfil qətiyyətlə)* Düz deyirsən… Düz deyirsən… Atamı orda tək qoymaq olmaz… Qoy görsün ki, mən də yanındayam…

Sahib sənədləri götürür, sürətlə çıxır…
Zöhrə isə çox həyəcanlıdır, hətta əlləri əsir…

ZÖHRƏ – Get, atan sənə görə xəcalət çəkməsin, get… Sabah fəxr eləsin ki, belə oğlu var…

Sevil anasının həyəcanlandığını görüb, su verir...
Zöhrə çönüb əlində su tutan Sevili görür, elə bil ki, nəyisə xatırlayır...

ZÖHRƏ – *(həyəcanla)* Hanı telefonun?

SEVİL – Neynirsən ki?

ZÖHRƏ – Tez elə, Cavidi yığ, gör hardadı?

SEVİL – *(diksinir)* Neynirsən ki?

ZÖHRƏ – Sənə nə var? Tez elə, yığ nömrəsini…

Sevil tez yığır…

ZÖHRƏ – *(ağlaya-ağlaya öz-özünə)* Şükür sənə, ilahi, şükür ki, imkan vermədin… Şükür...

SEVİL – *(telefona)* Alo, Cavid... Bir də salam, hardasan? Beyləqandasan artıq? Hara, Füzuliyə?

ZÖHRƏ – *(cəld telefonu onun əlindən qopardır)* Cavid, oğlum, eşidirsən məni, bu dəfə dayandı yoxdu, bütün uşaqlara da de, batinkalarıvıza qurban olaram, dayanmayın… *(sərsəm adamlar kimi danışa-danışa səsi daha da qalxır)* Qırın hamısını, kişisən, şir kimi ol, heç nədən qorxma… Özün də arxayın ol, Sevili verdim sənə… Özündən muğayat ol deməyəcəm, salamat gələrsən, yaralı gələrsən, əlsiz-ayaqsız gələrsən, fərqi yoxdu, arvadın olar, nökərin olar… Şəhid olarsan, qəbrivin qulluqçusu, bağbanı olarıq, amma qurban olum sənə, əl saxlama, mən bu günü iyirmi beş il gözləmişəm, bütün cavanlığım gedib, ömrüm gedib bu günü gözləyə-gözləyə, eşidirsən məni, bu dəfə dayanmayın, bu dəfə əl saxlamayın, parçalayın onları, hamımızın qisasını alın, təmizləyin bizim kəndimizi, mən gəlib Çaylı dərəsini görməsəm, südümü sənə halal eləmərəm, Allah haqqı halal eləmərəm südümü…

Sevil artıq görür ki, anası özünü idarə edə bilmir, telefonu qapıb onun əlindən alır…

SEVİL – Bəsdi, nə danışırsan, ay ana, nə südü?

ZÖHRƏ – Hə nədi? Mən də onun anası…

Sevil anasını stol arxasına otuzdurur, su içirdir…

AFA XANIM – *(sanki birdən ayılır, bərkdən)* Xumarə, bacın nə danışır? Cavid kimdi?

Zöhrə yenə partlayır…

ZÖHRƏ – Cavid mənim təzə kürəkənim… Hə, nədi, xoşunuza gəlmir? Yoxsa elə bilirdiz ki, dağ kimi igidi qoyub, sizə qız verəcəm? Bu elə-belə qız deyil ey, polkovnik Mirbabayevin qızıdı… Hə, hə, general yox, polkovnik… İllərlə səngərdən çıxmayan polkovnik… Onun qızının sahibi də canavar kimi igid olmalıdı…

SEVİL – *(yenə onu sakitləşdirməyə çalışır)* Ana, bəsdi, ayıbdı…

ZÖHRƏ – *(səsi boğularaq)* Ayıbdı? Həqiqəti demək ayıb deyil ey… *(Elxana baxır)* Ayıb güllə qabağındakı kişilərin kölgəsində sürünüb qarın sallatmaqdı…

AFA XANIM – *(daha özünü saxlaya bilmir)* Nurik, dur gedək...

XUMARƏ – Aa, hara gedirsiz?

AFA XANIM – *(əhəmiyyət vermir)* Gedək oğlum, biz, deyəsən, ünvanı səhv salmışıq…

Afa xanım Nurlanın qolundan tutur, qapıya tərəf çəkmək istəyəndə, Nurlan qolunu dartıb çəkir, Sevilə yaxınlaşır…

NURLAN – *(doluxsunmuş səslə)* Sevil xanım, mən… mən sizin atanızla fəxr edirəm…

Sevilin də gözləri dolur…

SEVİL – Çox sağ olun…

ZÖHRƏ – Tək sən yox ey, hamımız fəxr edirik… Onun batinkasının palçığı da bizim hamımızın bütün varlığından qiymətlidi... Göydən düşməyib ey... O cür canavarlar böyüdən kişilər olub…

Zöhrə birdən çönüb görür ki, bayaqdan televizorun qarşısında oturmuş Teymur kişi xısın-xısın ağlayır…

Zöhrə qəfildən yerindən sıçrayıb divardakı xalçadan asılmış ov tüfəngini götürür, Teymur kişinin üstünə gəlir…

Hamı yenə şok vəziyyətinə düşür…

ZÖHRƏ – Teymur kişi… *(dişlərini sıxıb qəribə bir qəzəblə)* Otuz il yatanlar da durdu… Sən nə oturmusan? Sənin kimi nər kişiyə kalyaskada bükülmək yaraşmır…

Sevil anasının üstünə cümur.

SEVİL – Neynirsən, ay ana.

Zöhrə qızını kənara itələyir…

ZÖHRƏ – çəkil kənara *(qayınatasına)* Eşidirsən məni? *(bərkdən)* Teymur kişi… Qalx ayağa, deyirəm sənə…

Teymur kişi çaşqınlıqla ona baxır, sanki tilsimlənmiş kimi, gözlərini Zöhrədən çəkmədən belini dikəldir…

ZÖHRƏ – *(dəli kimi bağırır)* Qalx ayağa, Teymur kişi…

Zöhrə tüfəngi yuxarı tutub tətiyi çəkir, atəş açılır…
Elə bu an divara söykənmiş iri divar saatının kəfkiri tərpənir, saat işləməyə başlayır… Hər saat tamam olanda vurulan, kilsə zənginə bənzəyən ağır, möhkəm, ardıcıl səslər otağa yayılır…
Ardıcıl şəkildə bir-birinin ardınca eşidilən saat zənginin gurultusu altında Teymur kişi əlil arabasının qollarından tutur, birtəhər güc verir.

ZÖHRƏ – *(yenə təkrar edir)* Qalx… Qalx ayağa, deyirəm sənə…

Teymur kişinin ayaqları əsir, hiss olunur ki, gücü çatmır, amma bütün qüvvəsini, iradəsini toplayıb, böyük əziyyətlə, çətinliklə də olsa, birtəhər əlil arabasından qalxmağa müvəffəq olur… Onun ayaqları əsməkdə davam edir, əliylə stoldan tutaraq özünü ayaq üstə saxlayır… Yavaş-yavaş sanki qalib görkəmlə belini dikəldir…

Otaqdakılar təəccüblə Teymur kişiyə baxırlar… Onun üzünə qəribə bir qalib təbəssümü yayılır... Hamı heyrət içindədir…
Zöhrə tüfəngi atır, hönkürərək gəlib Teymur kişinin qarşısında diz çökür, onun ayaqlarını qucaqlayıb ağlayır…

Saatın zəngi qəfildən dayanır… Bir müddət otağa sükut çökür…

NURLAN – *(qəribə səslə)* Hətta işləməyən saat da gündə iki dəfə həqiqəti deyir…

Hamı divar saatına çönür. Görürlər ki, saatın kəfkiri qəribə bir əzəmətlə yellənir… Sanki yenə zaman, yenə həyat başlanır.
Otaqdakılar saata zillənirlər.

Qəfildən Sevilin telefonuna zəng gəlir…
Sevil telefonu götürüb sevincək qışqırır.

SEVİL – Ana, ana… Atamdı, özü də videozəng eləyir.

Zöhrə qızına tərəf sıçrayır…

ZÖHRƏ – Hanı? Göstər, tez ol…

Sevil telefonu açır...

Səhnə qaranlıqlaşır, arxaya işıq düşür, sanki videozəngin görüntüsü real olaraq səhnəyə gəlir…
Arxa fonda artilleriya atəşlərinin və avtomat atışmasının səsləri gəlir… Hətta hay-küyün içində yaxındakı hərbçilərin qışqır-bağırı, nəsə danışmaqları da eşidilir. Hiss olunur ki, hərbi əməliyyatların gərgin məqamıdır…

Qaranlıqlaşan aynabəndin qarşısında, işığın içində tam təchiz olunmuş hərbi geyimdə, əlində uzun pulemyot olan polkovnik Rauf Mirbabayev peyda olur…

Otaqdakılar sanki peyğəmbər qabağındaymış kimi, ona zillənirlər…

RAUF – Salam, qızım...

SEVİL – Salam, ata…

RAUF – Bağışla qızım, ad gününə yenə çatdıra bilmədim… Zəng eləməyə güclə vaxt tapmışam. Amma yaxın vaxtlarda gələcəm. Düşməni burdan qovub çıxardaq, mütləq gələcəm… Gələndə hədiyyə də alıb gətirəcəm… Utanma, de görüm, ürəyin nə istəyir? Nə alım sənincün ad gününə?

Yan tərəfdən başqa hərbçilərin səsi eşidilir...

1-Cİ SƏS – Nə demə komandir, haranı de…

2-Cİ SƏS – Hə, soruş gör haranı istəyir, alaq…

RAUF – *(gülür)* Həə, düzdü... Ad günün münasibətilə haranı alım sənincün?

SEVİL – *(ani tərəddüddən sonra qəfil qışqırıqla)* Şuşanı… Şuşanı istəyirəm, ata… *(balaca uşaq sevincilə)* Şuşanı al mənimçün. Başqa heç nə lazım deyil…

RAUF – *(gülür)* Yaxşı, alaram Şuşanı sənincün… Ad günün mübarək, böyük qız olasan…

SEVİL – *(uşaq kimi sevinərək qışqırır)* Urra, Şuşa, Şuşa bizimdi…

XUMARƏ – Ay qız, nə Şuşa? Şuşa bilirsən hardadı? Dağın başındadı e… Ora gedib çıxmaq olar?

SEVİL – Lap Himalay dağlarında olsun, atam dedisə, alacaq, mütləq alacaq…

ZÖHRƏ – *(irəli çıxır)* Rauf, ay Rauf…

RAUF – Hə, səsiniz pis gəlir… Burda yaxşı tutmur…

ZÖHRƏ – *(bərkdən)* Rauf… Özündən muğayat ol…

SEVİL – Görüntü donur deyəsən…

RAUF – Narahat olmayın… Hər şey yaxşı olacaq…

Döyüş hay-küyü və atışma səsləri qırıla-qırıla kəsilir. Sanki smartfonun ekranındaymış kimi, görüntü də tam donur.

Rauf dayandığı yerdə məğrur heykəl kimi hərəkətsiz qalır.

Bir neçə saniyə sükutdan sonra Raufun arxasında işıq çoxalmağa başlayır, hərbi marş sədaları otağa yayılır. Raufun kölgəsi böyüyür, təyyarə kölgəsi kimi otağa yayılır.

Bütün otaqdakılar sanki qeyri-ixtiyari asta-asta gəlib onun kölgəsinə sıxılırlar…

Hərbi marş davam edir…

Fonda yenə artilleriya, atəş səsləri eşidilir…

Musiqinin altında gurultulu səs eşidilir.

- Eşq olsun Azərbaycan əsgərinə. Eşq olsun Azərbaycan igidlərinə…

Hərbi marş davam edir…

Oktyabr 2020

♦ Nəsr

HƏCƏR

CEHİZ PULU

♦ Hekayə

Rəşad Məcidin "10 sentyabr" hekayəsinə

Telefonun səsi evin sükutunu pozdu. Aslan gözlərini güclə açıb ekrana dikdi. Ad yox idi, nömrə tanış gəlsə də, yuxulu olduğu üçün ayırd edə bilmədi ki, kimdir:

- Aloo, - deyən siqaret çəkməkdən kallaşmış cod, xırıltılı səs otağa yayıldı.

- Ə, sən neyləmisən? Mənim evimi niyə yıxmısan? Saa nə pisliyim keçib? Pulunu vermişdim? Vermişdim.. . Torpağı danışmışdıım? Danışmışdıım…

- Bir dayan görüm, kimdir axı? Səhər-səhər nə zəhləmi tökürsən, ə? Bədbaxtın biri, bədbaxt. Bismillah eləməmiş… Əəhh…

- Özünü tülkülüyə vurma. Tanımırsan guya? Tahirdi!..

- Nooolub? Niyə özünü öldürürsən? Neyləmişəm ?

- Bilmirsən, neyləmisən? De görüm, bu torpağı hardan gətiribsən? Saa deməmişdim, rəislə də, bələdiyyə ilə də danışmışam, get, dağdan gətir, doldur həyətə. Bu meyit sümüklərini hardan çıxarıbsan?

Telefon qulağında donub qaldı, boğazı quruyan Aslan nə deyəcəyini bilmədi, handan-hana:

- Yaxşıı, dayan görüm, noolub axı? Bir aydın danış. Nə meyit, nə sümük? - deyə ağlına gələn fikirdən bərk həyəcana düşdüyünü gizlətməyə çalışaraq, özünü bilməzliyə vurub soruşdu.

- Necə yəni nə sümük? Özün bilmirsən, nə sümük? Dur bu dəqiqə gəl bura, zibilini təmizlə. Tez gəl, bizimkilərin xəbəri olmasın. Anam bilsə, yüz il qala, bu evdə yaşamağıma razı olmaz. Heç özü də yaşamaz. Sən mənim ocağımı zibilləmisən, ayy…, - söyüş sıxılmış dişlərinə dəyib geri qayıtdı. Sonra Tahir hirslə, -Dur, gəl! Səni polisə verməmiş, gəl! - deyə bağırıb telefonu söndürdü.

Aslan çarpayının yanındakı stulun üstünə atdığı şalvarını qapıb geyinə-geyinə:

- Ə, bunun bir anqırmağına baax. Bədbaxt, qurumsaq. Gələcəm görüm, niyə boğazını cırırsan belə? - desə də, ürəyinə daman qorxu və şübhə içini gəmirirdi və elə geyinə-geyinə, - Asqırdıq bir addım qabağa düşək, ...on addım geri düşdük, - dedi.

Ona tərəf dönən arvadının pırpız saçına çaldığı ləçəyin içində gizlənmiş balaca başı kobra başı kimi yorğanın altından yuxarı dikəldi:

- Aslan, noolub? O kimiydi? Nə sümükdür, nə torpaqdır elə?

- Aaz, nə bilim? O günü demədim, bu it oğlu mənə pul vermişdi ki, dağ torpağı gətirim, doldurum xarabasına. Mən də gecə daşıdım, tökdüm...Gedim görüm, nə məsələdir?

- Bəs sümük nədi? Sümükdən danışırdız.

- Deyir, torpağın içində sümük var. Adam sümüyü.

Arvadı həyəcanla “hih” eliyib içini çəkdi:

- Sən torpağı hardan gətirmisən, düzünü de, - deyə gözlərini qırpa-qırpa ərinə baxdı.

- Az, hardan gətirəcəm? Ən münbit, gül kimi yerdən. Dedim, qara, qəşşəng torpaqdır, soxsun gözünə, nə əksə, bir qoyub, on götürəcək. Mən nə bilim, belə olacaq? - deyib cəld hamama keçdi.

Arvadı xalatını əyninə keçirib çəkələklərini şappıldada-şappıldada mətbəxə qaçdı. Çaydanı qazın üstünə qoyub elə mətbəxdəcə əl-üzünə su vurdu. Stolu hazırladı. Aslan içəri girib:

- Çay içməyəcəm. Gedim, bu işi çözüm. Fikrimə gələn işdirsə, çətin olacaq. Bu oğraş məni polisə verməklə hədələyirdi, - deyərək qapıdan çıxdı. Beş dəqiqə keçməmiş, küçədən onun köhnə “Mersedes”inin dığıltısı gəldi. Pəri pəncərədən baxanda qazı birdən artan maşın güllə kimi yerindən götürüldü. Uzaqdan baxana elə gələrdi ki, o da yiyəsi kimi yolu söyə-söyə gedir.

Aslan yol uzunu Tahirə nə cavab verəcəyini, etdiyinə necə haqq qazandıracağını fikirləşdi. Məsələ belə idi ki, ona pul verib həyətinə dağ torpağı tökdürmək istəyən Tahir torpağın yerini demiş, ekskavatorçunun da haqqını vermişdi. Səhəri günü köhnə erməni qəbiristanlığının yanından keçəndə bacısının əri Bayram:

- Buranın, bilirsən, nə gözəl torpağı var. Münbit. Bir ağaclara, kollara bax. Suvarılmır, baxılmır, ancaq yenə də yamyaşıldır. Bəlkə də, yüz ildən çoxdu əkilmir bu torpaqlar, - demişdi.

Bunu eşidəndə Aslan elə bil yuxudan ayıldı. Zəng vurub tanış ekskavatorçu ilə danışdı:

- O uzaqlıqda dağa getməkdənsə, bura yaxşıdır. Bir dünya yanacaq yandıracaqdım. Onun pulu qalar cibimdə. İki-üç gün əvəzinə bir gecəyə işi qurtararıq. Kim biləcək? Qəşşəng də torpaqdı. Tahir də səni tanımır, iş mənlikdir, -deyib qəbiristanlığı xəlvəti qazmaqdan ehtiyat edən ekskavatorçunu birtəhər yola gətirmişdi.

Erməni qəbiristanlığı şəhərə uzaq deyildi və burada təkcə ermənilər yox, sovet hökumətinin müxtəlif yerlərindən hərbi xidmətə göndərilmiş və bu kiçik sərhəd şəhərində vəfat etmiş hərbçilər, onların yaxınları da dəfn olunmuşdu. Ermənilərin azərbaycanlılara qarşı torpaq iddiaları və qırğınları başlayandan sonra tək-tük qalmış erməni ailələri şəhəri tərk edib getdilər. Bir neçə müddət sonra isə İrəvanda, azərbaycanlıların qədimdən yaşadığı digər yerlərdə ermənilərin qəbiristanlıqları dağıtdığı, məscidləri yandırıb uçurduğu, qədim tarixi abidələri məhv etdiyi barədə məlumatlar mətbuatda yayılmağa başladı. Ardıcıl verilən informasiyalardan qəzəblənmiş camaat bu qəbiristanlığına hücum çəkdi. Bu adamların əksəriyyətinin ata-babalarının, əzizlərinin qəbirləri Yerevan tərəfdə, Qərbi Azərbaycanda idi. Hökumət polisləri töküb onların qarşısını ala bildi. Düşmən qəbirlərini dağıtmaqla heç bir qisas ala bilməyəcəklərini başa düşən camaat sakitləşmiş, elə oradaca əsirlikdə qalan torpaqlarına və qəbiristanlıqlarda yatan əzizlərinə şivən qoparıb ağlamış, sonra evlərinə

dağılışmışdılar. Qəbiristanlıq da qəbirdə yatanların dirilərinin əməllərinin üz qarası kimi baxımsız vəziyyətdə qalmış, sonralar şəhərin hər yerində abadlıq işləri genişlənsə də, bura beləcə qalmış, kol-kos basmışdı.

…Aslan dünən bütün gecəni var gücü ilə işləyib səhərəcən Tahirin yenicə yaraşıqlı, ikimərtəbəli ev tikdirdiyi həyətinə keçmiş erməni qəbiristanlığından torpaq daşımışdı. Həyətin əvvəlki torpağını tamam qazıyıb o tərəfə tökdürən Tahir bağ-bağça həvəskarı idi. Anası da həmçinin. O, bu torpağı ən çox anası üçün tökdürmək istəyirdi. Neçə ildir, binanın altıncı mərtəbəsində yaşayan və torpaqda əlləşmək üçün sinov gedən anasının arzusunu yerinə yetirmək, oğlu müharibədə həlak olan qadını heç olmasa bununla ovundurmaq, başını qatmaq istəmişdi.

…Ərinin maşını gözdən itəndən sonra Pəri cəld telefona cumub böyük qaynına zəng vurdu:

- Məmmədhəsən, özünü yetir. Aslan birindən pul almışdı, gətirib həyətinə dağ torpağı töksün. Torpağın da içindən insan sümükləri çıxıb. Kişi: “Polisə verəcəm”, - deyirdi. Sən Allah, get, gör nə məsələdir? Qardaşın dəlinin biridir, bilirsən. Orda iş qəlizləşər, peşmançılıq olar, - dedi.

Telefonun o biri başından Məmmədhəsənin:

- Səhərin gözü açılmamış, böyürdən çıxdılar, - səsi gəldi.

Pəri heç nə deməyib dəstəyi asdı. Qaynayan çaydanın altını söndürüb çayı dəmlədi, otağa keçib deyinə-deyinə yır-yığış eləməyə başladı.

Aslan Tahirin evinə çatıb maşından düşdü. Səhər yağan yağış hələ asfalt tökülməyən küçədə gölməçələr əmələ gətirmiş, yer palçıq olmuşdu. O, darvazanı astaca açıb həyətə girdi. Axşam daşıyıb tökdüyü torpaq təpəciklərinə baxanda gözləri kəlləsinə çıxdı. Yağışda yuyulub təmizlənmiş və orda-burda ağaran bir neçə insan kəlləsi, bud, qol sümükləri gözə dəyirdi. Tahir bir kənarda durub siqaret çəkirdi. Səs eşidəndə boğulub qaralmış sifətini Aslana tərəf döndərib baxdı . Əvvəcə dinmədi, sonra:

- Sən Allah, de görüm, bu torpağı hardan gətirmisən? - deyə soruşdu.

- Gül kimi torpaqdır… Vallah, elə münbit, qara torpaqdır ki... Dedim, xeyirli olar...

- Hardan gətirmisən? - deyə Tahir hirsini güclə boğub fısıldadı.

Aslan udqunub qılıqlandı:

- Tahir, sən oranın ağaclarını, gül-çiçəyini görsəydin…

- Hardan gətirmisəən?! - deyə Tahir bağırdı.

- Ə, niyə qışqırırsan? Camaat eşidir. Erməni qəbiristanlığından gətirmişəm. Noolub? Düşmən kəlləsidir dəə... Onlar Xocalıda bizimkilərin başına nə oyun açdılar, bilmirsən?

Hirsindən Tahirin az qaldı ağzı əyilə. Yanağının bir tərəfi səyridi, nitqi batdı. Gözünü qıyıb Aslanın gözünün içinə elə baxdı ki, daş da bu baxışa dözməz, əriyərdi:

- Sən müharibədə döyüşmüsən, Qarabağ müharibəsində? - dedi.

- Yox, döyüşməmişəm, - Aslan bu sualı gözləmədiyi üçün çaşqın halda cavab verdi.

- Niyəə, hansı cəhənnəmdə idin? - deyə Tahir səbrini basıb mətləbi uzaqdan başladı.

- Rusetdə idim. İşləyirdim.

- Sən Rusetdə rus qızları ilə sülənəndə mən, bilirsən, harda idim? O döyüşlərin lap qızğın yerində. Üç dəfə yaralanmışam, - bunu deyə-deyə Tahir sinəsini açıb çiynində və köynəyini qaldırıb böyründə, sonra şalvarının balağını çəkərək ayağında güllələrin açdığı yaraların qırmızı, dərin və çal-çarpaz yerlərini

göstərdi, - qardaşım, iki əmoğlum, hər biri yüz sənin kimisinə dəyən dostlarım öldü o döyüşlərdə. Bildiiin?!

Aslanın sifəti allandı, büzüşdü Tahirin qabağında:

- İndi mən neyliyim?

- Deyirsən, Xocalının hayıfını al. Alacam Xocalının hayıfını. Geci-tezi var. Mən ala bilməsəm də, oğlanlarım, nəvələrim alacaq, amma alacaq, - sonra səsini bir az qısıb sanki öz-özünə, - Allah o qisası nəvələrimə qoymasın. Heç balalarıma da, - dedi və sonra, - bu dəqiqə get, ekskavator gətir, bu torpağın hamısını daşı, apar, tök gətirdiyin yerə, - deyə əlavə elədi.

Aslanın ürəyi üzüldü. Torpağı geri daşıya bilərdi, ancaq ekskavatorçunun pulunu özü verməliydi, həm də günün günorta çağı daşısa, görən olar, işi polisə düşərdi. Ona görə səsini qısıb yalvarmağa başladı:

- Tahir, sən Allah, qoy üzdəki sümükləri yığışdırım, bir kisədən-zaddan ver, doldurum içinə, aparım. Qalanını basdıraq, yerdə qalsın. Noolacaq? Vallah, yaxşı torpaqdı, elə...

- A kişi, hara basdırırsan? Nəyi basdırırsan? Erməni əkəcəm burda? Mənim həyətim gavur qəbiristanlığıdı? Apar, tök öz xarabana. Sən deyirdin, Xocalının hayıfını almaq lazımdır, - deyə Tahir nə qədər səbirli olmağa çalışsa da, səsini qaldırdı.

- Tahir, sən elə bilirsən, mən papaq altda yatan oğlanam? Mənim gizlində iki avtomatım var. “Kalaşnikov”. Müharibəni gözləyirəm. Elə dava başlayan kimi götürüb gedəcəm. Onda görərsən, qisası necə alarlar?

Bu söhbəti ünvanı ekskavatorçudan alıb qardaşının dalınca haya gələn Məmmədhəsən də eşidirdi. Bayaqdan səsini çıxarmadan, matdım-matdım onlara baxır, bir söz demirdi. Sonuncu sözləri eşidəndə astaca irəli gəlib Aslanı bir tərəfə çəkərək:

- Nə köpürsən? Sənin avtomatın-zadın hardadır? Müharibəyə gedənsən sən? - dedi.

- Əşşi, görmürsən? O köpür, mən də köpürəm. Bayaqdan başlayıb ki…

Onun sözünü Tahir kəsdi:

- Orda cuqquldaşmayın, - dedi, - get maşınını gətir, ekskavatorçunu da, bunları burdan daşı, apar.

- Bu nə iş idi, mən bədbaxt düşdüm? Tahir, mənim o pula ehtiyacım var. Qızımın toyu olacaq, cehiz pulunun üstünə qoymuşdum. Bilsəydim, belədir, vallah, heç ordan gətirməzdim. Həm də indi daşısam, görən olacaq. Başım ağrıyar. Heç olmasa, qoy axşam daşıyım, - deyə Aslan dilləndi.

- Mən neyləyim, deyirsən? Bu gün anam gəlib evə baxmaq istəyirdi. Birtəhər başını qataram, sonra gətirərəm. Axşam daşı, apar. Deyirdin, cehiz almaq istəyirsən. Eybi yox, bu dəfə də ekskavatorçunun pulunu verəcəm, ancaq o birini özün verəcəksən. Daha artıq danışmaq istəmirəm. Yeri, çıx get, - deyə Tahir söhbətin bitdiyini elan elədi.

Aslan başı ilə qardaşına işarə elədi və hər ikisi darvazadan küçəyə çıxdılar. O, yenə acığını “Mersedes”in üstünə tökdü.

Evə çatanda ailə artıq naharı eləyib bitirmişdi. Pəri divanda oturub dizinin üstünə qoyduğu sinidə per-pencər arıtlayırdı. Ərini görən kimi sinini bir tərəfə qoydu, ayağa qalxaraq irəli yeriyib sual dolu nəzərlərini ona dikdi.

- Nədi? Niyə qurudun? Dünənki işim oldu heç. O torpağı təzədən daşıyıb yerinə qaytarmalı, dağdan da torpaq gətirib kişinin həyətini doldurmalıyam. Get, o puldan bir az gətir görüm, - deyə Aslan arvadına çımxırdı.

- Niyə, nooldu, yenə işinin içindən qurd çıxdı? - deyə Pəri ciyiltili səsini başına atdı.

- Az, bəsdir, bədbaxtın biri bədbaxt, bu əsəbi vaxtımda məni bir də sən cin atına mindirmə. İşin içindən qurd çıxmayıb, insan sümüyü çıxıb, erməni sümüyü, - deyə Aslan bağıranda Pəri günəbaxan tumuna bənzər gözlərini bir az geniş açmağa çalışıb döyükdü:

- Necə yəni erməni sümüyü? Demək, torpağı qəbiristanlıqdan daşıyıb aparıbsan? Gör başımıza nə oyun açırsan? O kişi səni sağ buraxıb, hələ sevin. Camaatın həyətinə qəbiristanlıq torpağı tökərlər? Bəs o sümük yiyələrinin ruhu bizi rahat qoyar? Bu nə işdir tutmusan, Aslan? - deyə arvadı vaysındı.

- Az, kiri, kiri bir! Ay bədbaxt, mən nə bilim o qurumsaqların sür-sümüyü belə gec çürüyür.

Pərini narahat edən daha çox qızının xeyir işiydi, soruşdu:

- Yaxşı, bəs bu qızın cehizi necə olacaq? Aldığın pul o işləri təzədən görməyə yetəcək? Artıq qalacaq heç olmasa?

- Nə bilim. Baxaq görək. Xaçına lənət olmuşlardan kim xeyir görüb ki, mən də görəm.

- Aaa, camaatın xaçıynan nə işin var? İsa peyğəmbər “Quran”da var. Günahdır. Ağzını təmiz saxla. Hər nədir, itdir-qurddur, kimin sümüyüdür, özləri bilər. Qoyaydın, cəhənnəm olub yataydılar yerin altında. Nə işin vardı, onları qazıb çıxarırdın? - deyə Pəri onun səsinin yumşaldığını görüb öz səsini qaldırdı.

Aslan siqaretini cənginin gah bu, gah da o biri tərəfə keçirib arvadının ağzını əydi:

- “Quran”da var... “Quran”da var... Məni görüb yenə mollalığın tutmasın. Görmüşük o “Quran” oxuyanların başında duranları, - sonra qardaşına sarı dönərək, - Ə, sən o ili demirdiin, o mollabaşının bağ evini remont eləmişdiz. Fəhlələrə bir diplomat çanta dolusu bir manatlıq zəhmət haqqı göndərmişdi.

Pəri məsələni anlamadı. Döyükə-döyükə gah ərinə, gah da qaynına baxdı.

- Niyə gözlərini döyürsən? O “Quran” oxuyan əclaf camaatın nəzir qutularına saldığı pulun hamısının dalına keçir, bildiiin? Lazım olanda da utanmadan beləcə xırıd eləyir. Fəhlələrin zəhmət haqqını o puldan veribmiş.

Pəri başını bulayıb:

- Heç gör dəxli var? Mən nə deyirəm, bu nə deyir? - deyərək otaqdan çıxdı. Qapının ağzında pillələri çətinliklə qalxan qayınanasının qolundan tutub içəri ötürdü. Anasını görən Aslan qardaşına:

- Ə, bu arvadı bir-iki ay da sən apar saxla daa. Elə təkcə məni doğmayıb ki? Sənin də anandır daa. Yavərdən başqa heç biriniz yaxına durmursuz. Böyük qızı yayda gələndə bir kilo gilas alar, qışda da bir kilo alma. Gətirdiyini də yuyub qoyar qabaqlarına, əri, uşaqları ilə yeyib durarlar ayağa. Gedəndə də əlinə gələni çantasına doldurub aparar. Az qalır altımızdan palazımızı da çəkə, - dedi.

Məmmədhəsən anası ilə salamlaşıb qapıya yönəldi və:

- Mənim arvadım işləyir, onu kim saxlayacaq? - dedi.

O, bayaqdan bir kənarda ayaqüstə durub evinə qaçmağa bəhanə, fürsət gözləyirdi. Qardaşının cavabını verən kimi sivişib qapıdan çıxdı, barmağının ucunda tullana -tullana pillələri endi.

Ana yazıq-yazıq dilləndi:

- A bala, niyə elə deyirsən? Qızın gözü ölənəcən dədəsi evində qalar.

- Sənin qızının gözü dədəsi evində yox, dünya malındadır. Acgözdür, acgöz. Dünyanı da yesə, doymaz. O biri qızın niyə o cür eləmir bəs?

Bir azdan qoltuğunda bir aşsüzən pomidor-xiyar içəri girən Pəri tələsə-tələsə çayını içən ərinə:

- Bu qızın cehizi mənə rahatlıq vermir. Kimdən əskikdir? Dədəsi sağ, anası sağ. Düz-əməlli bir şey verməsək, sıxılacaq uşaq. Yazıqdır. Vaxtında gərək fikir-

ləşəydin. Getdin, Rusetdə neçə il işlədin, qazandığın pulu yığmadın, xərclədin Nataşalara, əlin boş, cibin yaş qayıtdın, gəldin. Olanda halay-halay, olmayanda halım qolay. Baax, indi də qalmışıq qarnımızı qucaqlaya-qucaqlaya, - dedi.

Aslan həmişəki kimi:

- Yenə başladı daa. Az, sən bunu neçə dəfə deyəssən? Bəsdir daa, taa oldu, getdi. Qaldı Rusetdə. Mənim zəhləmi az tök. Pah atonnan, - deyib, bir gözü qızının otağında, səsini qısaraq qabaqdangəlmişlik etməyə çalışdı.

- Deyəcəm… Ölənə qədər deyəcəm. Elə bilirsən, yadımdan çıxıb? - deyə Pəri qəhərləndi.

- Yaxşı taa. Bir şey fikirləşərəm. Gördüm düzəlmir, o dınqılı qoduğa zəng vuracam. Taa neyliyim? - deyən Aslan həmişəki kimi stəkanı aparıb taqqıltı ilə çanağın içinə qoydu, nəlbəki stolun üstündə qaldı.

Pəri:

- Onun da zəhləsini tökmüşük. Hamı cumur onun üstünə. Bir xeyrimiz də dəymir, - deyəndə Aslan “huff” eləyib gündən qapqara qaralmış sifətində bir an oyuğunda durmayan cin gözlərini bərəldib arvadına:

- Niyə tökürük zəhləsini? Onun nə vecinədir? Oturur o fakısdır-makısdır, nədir, o aparatın qabağındaa, barmağını basır “knopka”ya. Budu haa, beş-on gündən sonra diplomat dolu dollar gəlir hüzuruna. Taa mənim kimi… Budu eey, beş qəpik qazanmaq istədik, içindən bir hoqqa çıxdı, - deyib otaqdan çıxmaq istəyəndə arvadı yenə yavaşca ciyildədi:

- Gəl bu dəfə ona deməyək. Məmmədhəsəndən borc alaq. Yavaş-yavaş qaytararıq, - deyib başını aşağı salaraq özünü məşğul kimi göstərdi. Ərinin nə deyəcəyini əvvəldən təxmin etsə də, dediyini demişdi. Qapının dəstəyini buraxmayan Aslan geri dönüb:

- Düzəlməyən işə niyə “Amin” deyirsən? Bilirsən ki, onlar adama qışda buz da verməzlər. Özün demədin, keçən ay nənəm o istəkli oğlunun - Yavərin aldığı bahalı yaylığı, jaketi geyib gedib onlara, əynindən çıxarıb, nimdaş, köhnə paltar geyindirib üzü bəri yola salıblar nənəmi? Yazıq arvadın hərdən huşu gedir, bunlar da onun xəstəliyindən istifadə eləyib başına belə oyun açırlar, - dedi və qapını bərk örtərək tappatupla pillələri endi.

Pəri stolun üstündə qalmış nəlbəkini götürüb həmişəki kimi:

- Ha deyirəm, bu stəkanı ya nəlbəki ilə birlikdə götür qoy ora, ya da heç götürmə. Yenə bildiyini o cinli dədəsinə vermir, - deyib yumağa başladı.

Yarım saat keçməmiş, həyətdən qızının həyəcanlı qışqırtısı gəldi:

- Mamaa, ay mama, çıx, gör bu uşaq nə günə qalıb?

Pəri güllə kimi evdən çıxdı. Oğlu Raufu qucağına alan qonşuları pilləkənin qabağında dayanmışdılar. Qonşunun biri iki əli ilə bərk-bərk uşağın topuğundan bir az yuxarını tutub saxlamışdı. Pərinin ürəyi qopdu. Aşağı qaçıb oğlunu qucaqladı:

- Oyy, anan qurban, bala, sənə nooldu? Bunu kim elədi? - deyib ağlamağa başladı.

Qonşu:

- Futbol oynayırdular. Yıxılıb, ayağı sınıb, - dedi və evə sarı boylandı, - təcili yardım çağırın, aparıb sarısınlar. Narahat olma, Pəri bacı, bizimkininki də sınmışdı, bir aya sağaldı, durdu, qaçdı - qonşular uşağı ehtiyatla evə qaldırdılar. Raufu divana uzadıb təcili yardım çağırdılar. Pəri mobil telefonla ərinə zəng vurdu. Aslanın: “Həəə” - səsi gələn kimi o:

- Hə, dincəldin? Pürçüklü işin axırı belə olar. Ala, budu eyy, bu da sənə düşmən kəlləsi, düşmən sümüyü. Di get, - dedi.

Xəttin o biri başında Aslan bağırdı:

- Az, sənə min dəfə demişəm, ay bədbaxt, mənimlə bayquş kimi danışma! Nəpək köpəyoğlunun qızı, sözünü adam kimi de!

- Ağzını dağıtma, sənə dedimmi ki, bu sümüklərin bir xatası çıxacaq. Rauf yıxılıb, ayağı sınıb. Həkim çağırmışıq. İndi gələcəklər, - deyəndə Pəri ağlamsındı.

Aslan heç nə demədən telefonu söndürdü. Təcili yardım maşını ilə onun maşını qapıda eyni vaxtda dayandı. Aslan həkimlərdən qabaq qaçıb özünü evə saldı. Dolmuş gözlərini uşağın üzünə dikib:

- Atan qurban, necə oldu bu? Kim yıxdı səni? Çox ağrıyır? - deyə dalbadal cavabsız sualları yağdırdı. Həkimlər uşağı müayinə etdilər, ayağının sındığını təsdiqləyib xəstəxanaya apardılar. Ata-ana da həkimlərlə getdi və günortadan sonra ayağı gipslə sarınmış Raufu evə gətirdilər.

Aslan ekskavatorçunu çağırıb pulunu verdi, həmin gecəni səhərəcən torpağı Tahirin həyətindən daşıyıb qəbiristanlığa tökdü. İşi səhərəyaxın bitirdilər. Yorulub əldən düşmüşdü, evə gəlib arvadına tapşırdı ki, saat onda onu oyatsın və daş kimi yuxuya getdi. Çox yorğun olanda saatı qurub yanına qoysa da, oyana bilmirdi.

Səhər yerindən duranda hələ də yorğunluğu çıxmamışdı. Nahardan sonra zəng vurub dağa yaxın kənddə yaşayan tanış ekskavatorçu ilə işi danışdı, zəhmət haqqını uzun mübahisədən sonra razılaşıb evdən çıxdı.

Günortaya yaxın ilk torpaq dolu maşını gətirərkən Tahirin darvazası ağzında dayanmış iri çənli su maşınını görəndə duruxdu. İçəri girəndə gördüklərindən əməlli-başlı pərt oldu, onu tər basdı. Həyətin aşağı tərəfində divarın altında iri bir dəlik açılmışdı, bir neçə fəhlə suyu güclü təzyiqlə vurub bütün həyəti, divarları yuyur, çirkli suyu açılmış dəlikdən o tərəfə axıdırdılar. Tahir onlara göstəriş verir, lap azca da olsa, qəbiristanlıq torpağının qalmaması üçün hər yeri diqqətlə nəzərdən keçirirdi. Aslan istədi yenə nəsə desin, ancaq onun üzünə baxanda fikrindən vaz keçib gözləməyə başladı.

- Gətir, o biri qıraqdan tök, get, sən daha gözləmə, - deyə Tahir onun üzünə baxmadan dilləndi.

…Aslan sonuncu maşının torpağını boşaltdıqdan sonra həyətdə torpağı yayan traktorçuya nəzarət edən Tahirin yanına gəlib:

- Hə, indi razı qaldın, qardaş? Mən ölüm, incimə. Day neyləyək? İşdir, adam başına gəlir. Vallah, o torpağı yaxşı bilib gətirmişdim. Belə alındı. Günahkaram. Nə vaxt lazım olsam, qulluğunda hazıram, - deyə irişib Tahirin üzünə baxdı.

Tahir ironiya ilə:

- Yaxşı, daha səni əldən qoymaram, nə işim olsa, sənlikdir, - dedi və bığaltı gülümsəməyini də saxlaya bilmədi. Bu gülümsəmə Aslanın gözündən qaçmadı. Dərindən köksünü ötürüb yorğun olsa da, rahatlanmış və yüngülləşmiş kimi iti addımlarla darvazaya sarı getdi, ora çatanda geri dönüb:

- Tahir, mən ölüm, aramızda qalsın, yaxşıı. Evində də sağlıqla otur. Balalarının xeyir işlərini eləyəsən, - dedi, sonra baş barmağını dik yuxarı tutub, - vallah, zor oğulsan, - deyərək darvazadan çıxıb “KAMAZ”ına mindi.

Aslan evə gələn kimi arvadı dil boğaza qoymadan danışdı:

- Bə heç demirsən, daşıyıb qəbiristanlığa tökdüyün torpağın başına nə gəldi?

Aslan yorğun ayaqlarını zorla sürüyə-sürüyə mətbəxə keçib divanda uzandı:

- Qoy bir nəfəsimi dərim, - dedi, - Tahirin işini bitirəndən sonra gedib sümükləri basdıracaqdım. Noolub ki?

- Camaat xəbər tutub, hamı düşüb vəlvələyə. Biri deyir, ermənilər həmişəki kimi gəlib xəlvəti qazıb, qızıl çıxarıb aparıblar. Biri deyir, onların təxribatıdır, qəs-

dən qazıblar ki, xarici ölkədən jurnalist göndərib videosunu, şəklini çəkdirsinlər, bizim milləti vəhşi kimi qələmə versinlər… Nə bilim, hərənin ağzından bir avaz gəlirdi.

Aslan dilini güclə döndərib:

- Hə, axırı, de, axırı nooldu? - soruşdu.

- Heç nə. Marusa varıdı haa, uşaqları köçüb getdi Rusetə, özü getmədi, dedi, mən burasız yaşaya bilmərəm, bax, o Marusa bir neçə rus da tapıb, getdilər qəbiristanlığa sümükləri basdırmağa. Bizimkilərdən də Səməd kişi, Allahverdi, bir də Xanhüseyn gedib onlara kömək eləyib. Hamısını basdırıblar. Heç kimin xəbəri olmadı bizdən. Canımız qurtardı, - deyə arvadı arxayınlıqla nəfəs aldı. - Həə, bir də bir-iki saat əvvəl Yavər zəng vurmuşdu, sabah gəlir. Deyir, gələcəm, üç-dörd gün qalıb qayıdacam.

- Gəlsin, çox şükür, dədəsinin evidir dəə, neyliyim?

- Nə bilim, vallah, deyirəm, bəlkə, elə Allah özü rast salıb, bu qızın cehizinə görə. Deyirdin axı ona deyəcəksən, - deyən Pəri çəkinə-çəkinə ərinin üzünə baxdı.

Danışmağa heyi olmayan Aslan gözüyumulu güclə:

- Baxarıq, - deyə bildi, xorultusu evi başına götürdü.

Səhər saat doqquza yaxın Aslan səsə oyandı. Kimsə qapını ərklə, dalbadal, möhkəm döyürdü. O, qapını açanda üz-gözündən sevinc yağan Yavəri qarşısında gördü. Qardaşını bərk-bərk qucaqlayıb öpən Yavər tez evə keçib boş otağa çağırdı:

- Nənə, ay nənəə, hardasan? - sonra qardaşına, - Aslan, deyəsən, axı bu heç durmayıb yuxudan, - dedi.

Aslan:

- Heç birimiz durmamışıq. Uşaqlar da yatır. Keç o yuxarı otağa, ordadır nənəm, - dedi.

Yavər otağa keçdi. Çarpayıda büzüşüb yatmış anasının yanına girdi, onu qucaqlayıb burnunu sinəsinə, boyun-boğazına sürtüb iyləməyə başladı. Anası gözünü açıb oğlunu görən kimi:

- Oyy, nənən sənə qurban. Nə yaxşı, gəldin. Axşam gəlin dedi, elə gözləyirdim ki səni. Qoy durum, geyinim.

- Yox, nənə, qoy bir az belə uzanım. Sənin qoxundan ötrü darıxmışam, - deyib anasını qucaqladı, üzünü onun üzünə söykəyib köksünü ötürdü.

Günorta yemək zamanı Pəri ərinin qəbiristanlıq torpağını daşımasından söz saldı. Yavər uğunub getdi. Ona baxıb ev adamları da qəhqəhə çəkib bir-birinə qoşuldular. Onların gülməklərini görən Aslan indiyəcən ona bir belə başağrısı verən məsələnin gülüşə səbəb olacağıını gözləmədiyi üçün azca duruxdu, ancaq sonra o da gülənlərə qoşuldu.

Yavər Pəriyə göz vuraraq gülə-gülə:

- Sən belə dodurqayı iş tutmazdın axı, heç səndən çıxmayan əməldir, - deyəndə Aslan:

- Əşşi, nə əməl? Bu qızın cehizindən ötrü ləlik olmuşam. Pul da çatışmır, - dedi.

Yavər cibindən bir dəstə yüz dollarlıq çıxarıb qardaşına uzatdı:

- Al bunu, götür, çatmasa, deyərsən, yenə göndərərəm. Axı, deyəsən, toya çox var. Niyə belə tələsirsiniz? Qızın nişanlısı gəlib Rusiyadan?

Aslan pulu almadı, başı ilə tumbaya işarə edib:

- Qoy ora, - dedi, sonra köksünü ötürüb, - hanı çox qalıb ey? Bir aydan sonra toydur. Mebellər indidən alınıb oğlan evinə daşınmalıdır. Gədə də hələ oralardadır. Deyirlər, sabaha, birigünə gələcək.

- Yaxşı, toyda onsuz da gələsiyik. Mən nənəmi götürüb aparacam. Uşaqlar nənəmdən muğayat olarlar. Mən arvadla gəlib qayıdaram.

Aslan etinasız:

- Özün bil. Səni hamımızdan çox istəyir. Apar, ancaq yenə gedəndən bir-iki həftə sonra darıxacaq, zəhlənizi tökəcək ki, məni evimə aparın. Arvad bura öyrəşib, - dedi.

Üç gün sonra Yavər Bakıya - evinə qayıtmaq üçün yola hazırlaşanda Aslanın Pəriyə xısın-xısın dediyi sözləri eşitdi:

- Az, nənəmin pensiya kartını götürdün? Birdən yadından çıxar ha. Onsuz da orda ona pul lazım olmur. Oğlu hər şeyini eliyəcək.

Yavər heç nə demədi. Qardaşı və ailəsi ilə görüşdü, anasını götürüb evdən çıxdı.

Səhəri gün Aslanın qudaları zəng vurub:

- Axşam gələcəyik. Heç nə də lazım deyil, yemək-içmək hazırlığı görməyin. Başqa adam olmasın, elə özümüz. İki kəlmə sözümüz var, deyib çıxacağıq, - dedilər.

Aslanın dalağı sancdı. Nə vaxtdır, ürəyinə daman qorxu və şübhə indi lap çoxaldı. Çək-çevir eləmək istədisə də, qudaları söhbəti yarımçıq kəsib telefonu söndürdülər. Axşam qızının nişanlısının ata - anası, əmisi və iki xalası gəldi. Üzlərindən heç toy söhbəti eləyənə oxşamırdılar. Suçlu adamlar kimi büzüşüb dayanmışdılar. Sözə oğlanın atası başladı:

- Vallah, bilmirik nə deyək, necə deyək? Nə vaxtdır, şübhələnirdik. Bu gədə bizi camaat içində biabır elədi. Sizin yanınızda da dilimiz gödək oldu. O xarabada - Rusetdə evlənibmiş. Getdi toy üçün pul qazanmağa, başından yekə qələt elədi. Bu yaxına qədər gizlədib bizdən. İki gün əvvəl təzəcə doğulmuş uşağının şəklini göndərdi. Deyir, daha gəlməyəcəm. Qıza deyin, məni gözləməsin. Qalmışıq pis vəziyyətdə. Neçə gündür, evdə ağlaşmadır. Daha ondan bizə oğul olmaz.

Aslan qapqara qaraldı. Əlini ürəyinin üstünə qoyub başını sinəsinə əydi, dərindən nəfəs aldı. Pəri qaçıb su, dərman gətirdi. Aslan əlinin arxası ilə dərmanı o tərəfə itələyib:

- Durun, şey-şüylərinizi də götürün, cəhənnəm olun burden… Mənim gül kimi balamı bədbaxt elədiz. Sizin o oğraş gədə əlimə keçsə, vayını verəcəm. Rədd olun burdan, siz nəsiniz ki, küçüyünüz də nə ola? Bilirəm ki, çoxdan xəbəriniz varmış. Nə vaxtdır şübhələnirdizsə, niyə demirdiz? - dedi və o biri otağa keçərək qızının nişan şeylərini gətirib onların üstünə tulladı. Qudalar bir-birinə dəyərək başlarına fırıldayan əşyalardan qoruna-qoruna qapıdan güllə kimi çıxdılar.

…Yataq otağından qızın xısın-xısın ağlamaq səsi gəlirdi. Pəri gah Aslanın, gah da qızının üstünə qaçırdı. Bir azdan özünə gələn Aslan qızını çağırıb yanında oturtdu, üzündən öpüb saçını sığalladı. Onun çənəsindən tutub başını qaldıraraq gözlərinin içinə baxıb:

- Ağlamayacaqsan, eşitdin, ağlamaq qurtardı. Ürəyimə dammışdı, hiss eləyirdim ki, belə olacaq. Qoy cəhənnəm olsunlar. Onlar itirdi, sən yox. Mən o rusyet arvadlarının dabbaqda gönünə bələdəm. Bir azdan o dəyyus gədə baş-gözünə döyəcək, bədəni su ilanı iyi verən o qızlardan çiyrənəcək. Sən sevin ki, o cür alçaqdan qurtulmusan. Gül kimi qızsan. Həyatın hələ qabaqdadır. Bilirəm ki, hər şey yaxşı olacaq, inan, yaxşı olacaq. Atan hələ ölməyib ki, sən fikir eləyəsən, - dedi.

Atasının gözlərinə baxan qız ah çəkib gülümsədi. O ahla birgə sanki bütün ağırlığı, kədəri içini tərk edib getdi.

9 avqust 2019-cu il

Ramiz ORSƏR

ÜZÜ SƏNƏ DEYİRƏM HA!

Aprel günəşi ha deyil,
Sənə bənzəri var
gündüzlər gözümdə cilvələnən qəmin
gecələr yastığıma
mənimlə birgə baş qoyan nəmin.
And olsun Allaha
Bunları da üzü sənə deyirəm ha!

Nədən oldu bu ayrılıq,
başımıza gələn bu nə işdi?
And olsun Məcnun sevgilərə
Vətən göyləri qədər səbrim genişdi.
Vədləri də gerçək kimi sevirəm.
Onları gerçək bilib də yaşayıram.
Gələn sabahlardan güc alıb
Ötən xatirələri də
təbəssümünün işığına daşıyıram.
And olsun Allaha
Bunları da üzü sənə deyirəm ha!

Bəlkə də xəbərin yox,
daha nə həsrətə sığışıram, nə qəhərə.
Çıxış yolu da
dəryada balıq sevdası,
tapa bilmirəm

baş vursam da düşüncələrə.
And olsun Allaha
Bunları da üzü sənə deyirəm ha!

Əzəl vərdişim var:
hamıya bəlli işim,
Ev ilə iş arası
gedib-gəlişim.
Bir də oturub-durub
səni sevmək, sevmək
mənim təsəllim, işim.
And olsun Allaha
Doğruların sığındığı
Düzü sənə deyirəm, ha!
Bunları da üzü sənə deyirəm ha!

GÖZÜM TOX, ÖZÜM TOXAM

Ah zalım dostlar, qardaşlar,
Bilmirsiniz varam, yoxam.
Dərdin, qəmin əllərində
İlişib qalıbdı yaxam.

Dəridən, qabıqdan çıxır
Əlimdəki qabarlar,
Fərasətin, hünərin var:
olanları ovut, unut,
Gözlüyümün şüşəsində
Hələ də tərləyir avqust.

Məni də bir ana doğub,
Mən də bu yerin oğluyam.
Sevənlər payıza vurğun,
Mən də avqust doğumluyam.

Adımı dəyişib gəzsəm,
Anamın ruhu bağışlar.
Ancaq atama od vurar,
İçimə yağan yağışlar.

Ümidsiz yaşamaq çətin,
Axı mənim kimim var ki!
Yer də qaçır ayağımdan,
Göylərdən gəlməyəm sanki.

Ah, zalım dostlar, qardaşlar,
Görmürsünüz varam, yoxam.

Dərd-qəmlə bütöv dolmuşam,
Gözüm tox, özüm də toxam.

FƏRQ

Dünyaya gələndə insan
gəlir düymə-düymə,
açılır çiçək-çiçək.
Dünyadan köç edəndə
Sözalır ilmə-ilmə,
tökülür ləçək-ləçək.

SƏRVAXT OLASAN

Mən səni sevməkdən usanmıram ki!
Gülüm, gərək sən də sərvaxt olasan.
Yerinə o qədər göz dikən var ki,
Yanımda olasan, hər vaxt olasan.

Ağlıma gəlməzlər başıma gəlir,
Həsrətin gözünü silir küləklər.
Üzündə bir udum işıq görüncə
Əlimdə sevinib gülür çiçəklər.

Gör necə yazılıb alın yazımız,
Qələmin var olsun, a yazan kişi.
Səadət vüsalsa, bu ayrılığı
Durub necə yozsun o yozan kişi?

Mən səni sevməkdən usanmıram ki!
Gülüm, gərək sən də sərvaxt olasan.
Yerinə o qədər göz dikən var ki,
Yanımda olasan, hər vaxt olasan.

AYRILIĞIN BAYRAMI

Allahın əliylə yazılıb alnım
Bəxtimin güzgüsü – qədərim mənim.
Hamıdan yaxındı , hamıdan sadiq
Boyuma biçilən kədərim mənim.

Bilmirəm kim deyib, fərqi nədir ki,
"Yardan yarıyanın xoşbəxtlik haqqı".
Mən sənin yerinə and içəmmərəm,
Xoşbəxt olammadım, Allahım haqqı.

Sən bir ağ göyərçin, uçub da getdin,
Ovcumun içində çiçəklədi yaş.
Yanır alaf-alaf boynun, boğazın,
Xoşbəxtliyə zamin durmaz o daş-qaş.

Əlini sıxmağa əlim çatmadı,
Təbriklər növbədə: tünlük, basabas.
Aparma özünlə göz yaşlarını,
Gətir gözlərimin yaxasından as.

Mən dəli sevgimi basıb bağrıma
Hamıdan gizlədib saxlayacağam.
Ələyi ələnmiş bir yetim eşqi
Sənin gözlərinlə ağlayacağam.

NƏFƏS-NƏFƏS, UDUM-UDUM

Bu dünyaya gözlərimi açandan
Göy üzündə ayı gördüm.
Kəndimizin kürək söykədiyi dağı,
yanından axıb gedən çayı gördüm.

Arzulara çatmaq üçün
Sevinc taxtına qonmaq,
Qəm yükünü atmaq üçün
dönə-dönə çaydan keçdim.
Dincəlməyə bağçam, bağım,
Olmadı kürək verməyə dağım.
Ümidim əllərimdə
Üzü Aya böyüdüm.
Böyüdüm nəfəs-nəfəs,
Böyüdüm udum-udum.

İtirmədim özümü görəcəyimdə,
Əzəldən
gün kimi bəlli
öləcəyim də.
Ətirlənib,
xətirlənib,
çətirlənib
İstədim
Yol üstündə həmişəyaşıl
ağac olam.
Suvardım sevdamı
göz yaşlarımla,
göyərmədim.

Gözlər baxa-baxa qurudum,
Qurudum nəfəs-nəfəs,
Qurudum udum-udum.

BURDAN GEDİRƏM

Daha
burdan gedirəm,
Səsim eşidilməyən yerdə
qalmağıma lüzum yox.
Gözlərdən gizlədiləsi
bir gizlinim yox,
üzüm yox.

Daha
burdan gedirəm,
ağrımı, acımı
sevincimlə, sevgimlə,
Şeirlərimlə qoyub baş-başa.
Arxamca boylanan həsrət,
Sus, döz, salamat qal,
Sən də özünçün yaşa.

Daha
burdan gedirəm,
haqqa, ədalətə
papuş toxuyanlar kimi
dözümümə papuş toxuyub.
Bir də
arxamca
axıdılacaq yaşlara ,
atılacaq daşlara
bir qərib nəğmə oxuyub.

Moşu
hələ də xoşbəxtlik sözünə
qafiyə axtarırkən,
sən də
bürünüb ümidə
xoşbəxt sabahların
gələcəyini gözləyirkən
Daha
buradan gedirəm mən.

Şəki

Xuraman HÜSEYNZADƏ

AĞ SAP

İlk dəfə
qara köynəyinin düyməsinin
ağ sapla tikilməyindən bildim
evinin
qadın əllərindən ötrü darıxdığını...
sonra mənə hədiyyə etdiyin kitabların tozu
və
saralmış vərəqlərdəki tənhalıq qoxusu
anlatdı həyatını...

Ürəyim sənindi
bilirəm
saçlarım
gözlərim
ruhum...
Amma daha çox əllərim sənin olsun istəyirəm...

Saçını tumarlayar
üstünü örtər yatarkən
xörək hazırlayar
süfrə bəzəyər sənə
əllərim...
Bir də
qara köynəyinə
qara,
ağ köynəyinə ağ sapla tikər düymələri...

SƏN YAXŞI OĞLANSAN, ŞAİR...

Sənin şeirlərini oxumaq nə gözəldi
ürəyini oxumaqsa çətin
alnında qara yazısı var
kor taleyin, nakam məhəbbətin
göz yaşlarını qədəhdə içməyinlə
dərdini içinə çəkməyinlə
sən yaxşı oğlansan, şair!

Ayaq izlərin
küçəmizdə cığır açmazdan öncə
şeirlərin yol açdı qəlbimə
şeirlərini sevdim
ruhunu sevdim
sən bir az da mən idin
mən
sən ola bilmədim

yazdığın şeirlərin əhatəsində
təkliyini hiss etmirəm
o qədər zəngin aləmin var ki
səni çox istəyirəm
şeirlərin qədər
amma...
Bu - qara sevda, şair,
mənsə ağ rəngi sevirəm...

Postmodern şeirlər yazırsan
əruzun qəliblərinə sığmırsan bəzən
həyatın çərçivəsinə sığmadığın kimi
çəkilib öz hücrənə
ən gözəl ədəbiyyatı yaratmaqla
məşğulsan
papaq altda yatmısan
kimsəni oyatmamaq üçün
oyanmırsan
tərki-dünya olmağınla
sevməyi bacarmağınla
sən yaxşı oğlansan, şair!..

Canım mənim,
bircə bunu bilmirsən
şeir həm hər şeydi
həm də hər şey deyil
çoxuna gərəkdi

lap çoxuna gərək deyil
şeir həyatdı
sevgidi
amma çörək deyil

iki yol var, şair,
amma heç biri ürəyimdən keçmir...

SƏNİ UZAQDA SEVMƏK

Səni uzaqlarda düşünmək istəyirəm
yaxında maraqsız olursan
məsafələr yaxın edir bizi
yad insanlar
yad ölkələr olur...
Səni uzaqda düşünmək istəyirəm
uzaqda
daha gözəl darıxıram səninçün
daha yaxşı arzulayıram əllərini
uzaqlarda olanda ümid olursan
xəyal olursan
arzu olursan
bir baxışa tamarzı olursan
elə sevirsən ki...
Uzaqda sevmək istəyirəm
səni
yaxından xatırlamaq üçün...

TƏNHALIĞIN ƏL İZİ

Bircə kəlmə sözə bəndəm
De, günəşli günə gəlim.
Yenə özümdən çıxmışam,
İcazə ver, sənə gəlim.

Yuxu deyil, eyvana çıx,
Gör üzümü, duy səsimi.
Getmədən geri dönmüşəm,
İllərin yorğunu kimi.

Tək qalıblar özün kimi,
Pəncərəndəki çiçəklər.
Tənhlığın əl izinə
Sığal çəkir hörümçəklər.

Nə ayrılıq, nə qadınlar
Unutdurar sənə məni.
Qəlbindəki tənhalıqla
Qısqandırma yenə məni…

* * *

Yağmadı
bitmədi
ayrıldıq...
Sən
sevgisi dizinin üstdə olan
nankor birisi
mənsə sənin
tapdayıb əzdiyin çiçəklərdən
şirə çəkən
bal arısı...

YAĞIŞ GECİKƏN KİMİ...

Bir-birimizə gecikdik
yarpaqları saralan
budaqları quruyan ağaca
yağış gecikən kimi…
Göy üzü bir az tez tutulaydı
buludlar gecikməyəydi
mehriban olmağa…
Birimiz tez çıxaydıq evdən
birimiz gecikəydik
təsadüfən rastlaşaydıq
qağayıya dönəydik
görüşəydik dəniz yurdumuzda
zaman bu zaman olmazdı
illər də bu illər
nə sən ruhuna xəyanət edəydin
nə də mən
sevəydik bir-birimizi
qağayılar dənizi
dəniz qağayıları sevən kimi…

SON SÖZ

O gedən qatarın son vaqonu
sənin ürəyindi
bomboş
soyuq...
Arada ürəyindən xəbər tut

hörümçək tor qurar
mənsizlikdən...

yazdığın şeirin
son misrası mənəm
nöqtə qoya bilmirsən-
birdən ardını yazarsan deyə

bir zərrə ümidin qalıb-
bəlkə işığı
geri qayıtmam üçün
yollarımı aydınladar deyə...

* * *

Sənlə olan ümidlərimi
səhrada basdırmışam
yağış yağanda
göyərib qalxsın deyə

* * *

Gözlərim baxa-baxa dəfn etdilər
sənin ayaq izlərini
küçəmizə asfalt döşəyəndə...
Ürəyim sızlayacaq
Hər gün
ayaq izlərinin
məzarı üstündə yeridikcə...

DAHA GÖZƏL YAŞAMAQ ÜÇÜN...

Ölüm - hər şeyə bir anda son verməkdir
yazılacaq gözəl bir şeirə nöqtə qoymaqdır...
Bəlkə də o şeir
onu yazacaq şairi dünya durduqca yaşadacaq
Kim bilir?
Mən səndən həyatı sevməyi öyrəndim
Yazacağım yeni şeirə tez nöqtə qoymağı yox.
Daha gözəl yazmaq üçün
çox düşünməyi öyrəndim.

NƏ YAXŞI Kİ...

Nə yaxşı tanıdım və sevdim səni
Səni sevməkdən gözəl

nə varmış ki həyatda?Göy üzündə aydınlığı
gördüm sənlə
Aylı, ulduzlu gecələrdə işığı
Bir də günəşli səmadakı istiliyi...
O gözəlliklərdən ayırma məni
Ayrılığı yaşatma mənə.
Mən bu cənnətdə cəhənnəmi görmək istəmirəm
ayrılıq cəhənnəmini...
İstəmirəm aydın səmam zülmət olsun
İstəmirəm günəşim sönsün...

* * *

Gecə yarı…
Şəhərin yuxulu gözləri süzülür
şərab kimi
səhərə sarı…
Bir azdan
gecə öz libasını soyunacaq
adamlar gecəni çılpaq görmək üçün
yuxudan oyanacaq…

LALƏ

Gen düşüb çəməndən, ayrılıb çöldən,
Bitmisən daşların arasında sən.
Didərgin düşmüsən obadan, eldən,
Açmısan qəlbimin yarasında sən.

Yurdun viran olub, yurddan qaçmısan,
Qaçdınlıq həsrəti yandırar səni.
Ocaqdan qaçmısan, oddan qaçmısan,
Burda buz baxışlar dondurar səni.

Bağrına dərd düşüb qara xal kimi,
Dərdin yaşayaydı kaş ürəklərdə.
Daşların içindən çıx sual kimi,
Axtar cavabını daş ürəklərdə.

Paşa ƏLİOĞLU

AZƏRBAYCAN ŞAİRİ BƏSİRİ VƏ ONUN ƏDƏBİ İRSİ

Yeni aşkar edilmiş əyazmaların işığında

XV-XVI əsrlərdə Yaxın və Orta Şərqdə bir sıra qüdrətli türk dövlətlərinin mövcudluğu, bu dövlətlərin ərazisində qədim mədəniyyət mərkəzlərinin çiçəklənməsi diqqəti cəlb edir. Hindistanda Teymurun nəvəsi Babur şah (1483-1530) tərəfindən əsası qoyulan Böyük Moğol İmperatorluğu (1526-1857), Xorasanda Hüseyn Bayqaranın (1438-1506) hökmdarlıq etdiyi, Əlişir Nəvainin (1441-1501) vəziri olduğu dövlət (1470-1507), Orta Asiyada paytaxtı əvvəl Səmərqənd, sonra Buxara olan Şeybanilər dövləti (1500-1598), özbək xanlıqları, Azərbaycanda və İranda Qaraqoyunlular (1406-1468), Ağqoyunlular (1467-1501), Səfəvilər (1501-1736) dövlətləri, Anadolu, Şərqi Avropa və Afrikanın bir hissəsində Osmanlı imperatorluğu (1299-1924), Misirdə və Suriyada Məmlüklər dövləti (1250-1517), Qara Dənizdən şimalda Krım xanlığı (1443-1783) var idi. Münasibətləri çox da sadə olmayan, bir sıra hallarda öz aralarında müharibələr aparan Osmanlı və Səfəvilər dövlətlərində mədəniyyətin, ədəbiyyatın, anadilli poeziyanın tərəqqisi əlimizə çatmış yazılı mənbələrdə özünü bariz şəkildə göstərməkdədir. Bu türk dövlətləri arasında siyasi ziddiyyətlər nə qədər kəskinləşsə də ziyalılar, şair və yazıçılar həmişə qardaş ölkələrin ədəbiyyatlarını, mədəniyyətlərini yaxınlaşdırmağa çalışmışlar. Böyük Azərbaycan şairi və yazıçısı, rəssam və alimi Sadiq bəy Əfşar (1533-1610) qardaş özbək ədəbiyyatına, Əlişir Nəvaiyə hörmət əlaməti olaraq əsərlərinin mühüm hissəsini cığatay türkcəsində - orta əsrlər özbək ədəbi dilində yazmışdır. Məktublarından birində, o, Azərbaycan türkcəsində, osmanlıcada, cığatayda sərbəst yazdığını məlumat verir. Görkəmli ədib Ə.Nəvainin "Məcalisün-nəfais" təzkirəsinin təsiri ilə cığatayca yazdığı səkkiz fəsildən ibarət olan "Məcməül-xəvas" təzkirəsinin "Müasir padşahlar haqqında" adlı birinci fəslində şeir yazan hökmdarlardan biri - dəfələrlə Səfəvilər dövlətinə hücumlar etmiş Osmanlı hökmdarı Sultan Süleyman (1520-1566) barədə belə yazır: "Özü də çox mülayim şeir təbinə malik idi və "Mühibbi" təxəllüsü ilə yazırdı. Deyilənə görə, bu təxəllüsü onunla mərhum padşah (I Şah Təhmasib Səfəvi) arasında olan düşmənçilik dostluğa və ədavət məhəbbətə çevrilən vaxt qəbul edib. Hər halda, bu təxəllüsdən məhəbbət zahir olur". Əlbəttə ki, Sultan Süleyman şeirdə "Mühibbi" təxəllüsünü iki dövlət arasındakı münasibətlərin yaxşılaşması münasibəti ilə qəbul etməmişdir. Faktın bu cür şərh edilməsi

ədiblərimizin ölkələri yaxınlaşdırmağa çalışdığını, onların arasındakı münasibətlərin yaxşılaşmasına sevindiyini bariz şəkildə göstərməkdədir.

Həyat və yaradıcılığı ilə türk xalqları ədəbiyyatlarını bir-birinə yaxınlaşdırmağa çalışmış, Azərbaycan-özbək-osmanlı ədəbi əlaqələrini daha da möhkəmləndirmiş sənətkarlardan biri də Bəsiridir. O, Azərbaycanda, Təbrizdə dünyaya gəlmiş, özbək ədəbiyyatının görkəmli nümayəndələri ilə tanış olmaq üçün Xorasana, Herata səfər etmiş, ömrünün ən mühüm hissəsini Osmanlı dövlətində, İstanbulda yaşamışdır. Şairin həyatından danışdıqda Təbriz-Herat-İstanbul üçbucağı ilkin olaraq diqqəti cəlb edir. Tarixdən məlumdur ki, Xorasanda ədəbi-mədəni həyat xüsusilə Hüseyn Bayqaranın hakimiyyəti illərində çiçəklənmişdir. Osmanlı imperatorluğunda Herat ədəbi mühitinə böyük maraq olmuş, Sultan Mehmed Fateh (1451-1481) bəzi əsərləri ölkəsinin mədrəsələrində dərslik kimi istifadə olunan Əbdürrəhman Camiyə (1414-1492) maaş təyin etmişdir. Bir sıra osmanlı təzkirəçiləri, o cümlədən, müasiri Qəstimonulu Lətifi (1491-1582) "Təzkirətüş-şüəra və həbsirətün-nüzəra" adlı əsərində göstərir ki, Əlişir Nəvai divanını Anadoluya ilk öncə Bəsiri gətirmişdir. Təkcə bu fakt Azərbaycan şairinin Osmanlı ədəbi mühitində oynadığı rol, türk xalqları arasındakı ədəbi əlaqələrin inkişafı sahəsindəki xidmətləri barədə danışmağa imkan verir. İstanbulun Süleymaniyyə kitabxanasında saxlanan farsca divanında (buraya onun türkcə şeirləri də əlavə edilmişdir) adı Məhəmməd bin Əhməd bin Əbül-Məali əl-Mürtəza kimi gedən Bəsirinin İstanbula haradan gəlməsi barədə müəlliflər müxtəlif fikirlər söyləmişlər. Məhəmməd Qəzvini, Səhi bəy, Gelibolulu Ali onun Əcəm, Lətifi Əcəm sərhədinə yaxın bir yerdən olduğunu söyləyirlər. Aşiq Çələbi və ondan istifadə edən Həsən Çələbi, Bəyani, Mehmed Sürəyya və Şəmsəddin Sami şairin xorasanlı, Riyazi və Katib Çələbi isə bağdadlı olduğunu göstərirlər. Fikrimizcə, Bəsirinin xorasanlı olduğunu söyləyənlərin səhvi onun bu diyara gedib Herat ədəbi məktəbinin nümayəndələrinin əsərlərini İstanbula gətirməsi faktından qaynaqlanır. Bağdadlı olduğunu deyənlər isə, yəqin ki, dilinə əsasən bu fikri söyləmişlər. Məlumdur ki, bu dövrdə Bağdadda yaşayıb-yaradan sənətkarların çoxu əsərlərini Bəsiri kimi Azərbaycan türkcəsində yazırdı. Məsələ orasındadır ki, şairin həmyerlisi Məhəmməd Qəzvini onu Mövlana Bəsiriyi-Əcəm adlandırıb, Əhdi Bağdadi isə diyari-Ruma köçmüş əcəm olduğunu bildirmişdir. "Əcəm" sözü ilk dövrlərdə qeyri-ərəb, sonralar isə İran və Azərbaycandan olan mənasında işlədilmişdir. Bəsiriyə aid edildikdə Azərbaycan türkü deməkdir. Ən vacibi isə odur ki, bütün mənbələr onun İstanbula Ağqoyunlu dövlətindən gəldiyini təsdiqləyir. Mənbələr göstərir ki, Bəsiri gəncliyində Ağqoyunlu hökmdarı Uzun Həsənin (1453-1478) oğulları - Uğurlu Məhəmməd (?-1477) və Yəqubun (1478-1490) yanında olmuş, onlara qəsidələr həsr etmişdir. Səyahətlər etmiş, təxminən 1487-ci ildə Xorasanın paytaxtı Heratda olmuşdur. Aşiq Çələbi onun Hüseyn Bayqara, Ə.Nəvai, Ə.Cami və Binainin xidmətində olduğunu qeyd etmişdir. Nəvai yerli mühitdə tanıtmaq üçün Bəsirinin adına müəmma yazmışdır. Bu müəmma müxtəlif mənbələrdə tövsiyənamə, sifarişnamə, namə də adlandırılır. Bəsiri təxminən 1491-ci ildə II Bayəzidin dövründə (1481-1512) İstanbula gəlmiş və özü ilə Nəvai, Ə.Cami və Binainin əsərlərini, adına Nəvai tərəfindən yazılmış müəmmanı gətirmişdir. Şair Uzun Həsənin Osmanlıya sığınmış oğlu Uğurlu Məhəmmədin II Mehmed Fatehin qızından doğulmuş oğlu Gödə Əhməd bəyin (iyul 1497-dekabr 1497) müsahibi olmuşdur. Gödə Əhməd 1497-ci ildə hakimiyyətə gəldikdən sonra Bəsirini elçi sifəti ilə İstanbula, II Bayəzidin yanına göndərir. Şair İstanbulda olarkən Gödə Əhmədin öldürüldüyünü öyrənir, bundan sonra geri qayıtmır, evlənərək öm-

rünün sonunadək burada yaşayır. İstanbulda yaşadığı zaman o, Tacizadə Cəfər Çələbi, Müəyyədzadə Əbdürrəhman Çələbi, dəftərdar İskəndər Çələbi kimi şəxslərdən dəstək görmüşdür. Bəsirinin Zati, Qəndi, Kəşfi kimi osmanlı şairləri ilə dostluq etdiyi barədə məlumat vardır. Şair h.941-ci ildə (m.1534-1535) təxminən yetmiş yaşlarında vəfat etmiş, İstanbulun Ədirnəqapısı kənarındakı məzarlıqda, deyilənə görə, Zatinin qəbrinin yanında dəfn edilmişdir. Tədqiqatçılar yetmiş yaşlarında vəfat etdiyinə əsaslanaraq şairin 1466-cı ildə doğulduğu fikrini irəli sürürlər. Bəsirin oğlu Cəlili də şair olmuşdur.

Osmanlı təzkirələri və özünün əsərləri Məhəmməd Bəsirinin xasiyyəti, həyat tərzi, insanlarla münasibəti barədə müəyyən fikir söyləməyə imkan verir. Onun gülərüz, zarafatcıl, elmli bir adam olduğunu, buna görə də yüksək vəzifəli şəxslərlə yaxınlıq etdiyini söyləyirlər. Qınalızadə Həsən Çələbi (1546-1604) 1586-cı ildə tamamladığı "Təzkirətüş-şüəra" əsərində Bəsirinin geniş bilikli, lətifələri ilə məşhur olduğunu, Ayasofya vəqfindən ülufə (üç aydan bir alınan maaş) və padşahdan salyanə (ildə bir dəfə verilən pul vəsaiti) aldığını bildirir. Həsən Çələbi yazır: "Mətai-məarifün mərdi-xəbiri və fünuni-lətaifün naqidü bəsiridür.Əksər əşarü göftarı həzlə mail olmağın əshabi-dövlət və ərbabi-izzətün söhbətinə daxil olurdu. Həcviyyatü həzliyyatı vafir və lətaifü qəraibi mütəkasirdür."

Bəsiri haqqında Səhi bəy "Ziyadə maarifə və neçə lətaifə qadir kimsədir" demişdir. Lətifi onun barəsində yazır: "Əcəb lətifəquy, cərbzəban və şuxməcaz və əzblisandur. Hini-mühavirədə xandəruy, nədimşivə və bəzləquy, hərifi-zərif idi. Cəridələrə və cünglərə səbt olacaq rəngin lətaifi və lətaifə mütəəlliq məairi çok idi və xuyü xislətdə alacalığından qeyri eybi yok idi". Digər təzkirəçilər də şairin üzündə dəri xəstəliyinin (dəmrov) əlamətləri olduğunu, buna görə "Alaca Bəsiri" kimi xatırlandığını bildirirlər.

Osmanlı müəllifi Cənab Şihabəddin Bəsirinin osmanlı ədəbiyyatına təsiri barədə yazır: "Ədəbiyyatımızın bu əsrdə iqbalı doğmaq üzrə ikən İrandan gələn şüəra arasında bir Bəsiri vardı ki, əgərçi böyük şair degilsə də, o dövrün cərəyani-ədəbisi üzərində dolayısıyla pək şayani-diqqət bir təsiri oldu. Şeyx Caminin və Əlişir Nəvainin tövsiyənamələri ilə Heratdan məmləkətimizə gəlirkən Bəsiri gərək o iki böyük şairin və gərək məşhur Hüseyn Bayqaranın mənzumələrini bərabərində gətirmişdi".

Lakin Bəsirinin maddi vəziyyəti heç də həmişə qənaətbəxş olmamışdır. Osmanlı sənədlərini araşdıran tədqiqatçılar göstərirlər ki, II Sultan Bayəzidin zamanında padşahdan kifayət qədər yardım görən şairə sonrakı dövrlərdə o qədər də yardım etməmişlər. Görünür, "Gədayi-möhnətamuzəm, məni ac eyləmə, Ya Rəbb" misrasıyla başlanan qəzəlini şair həmin vaxtlarda yazmışdır.

Bəsirinin aşağıdakı əsərləri əlimizə çatmışdır: Farsca divan və türkcə şeirlər toplusu, "Lətaifnamə", "Bənginamə" və maddeyi-tarixlər.

İsmayıl Hikmət şairin farsca divanı ilə türkcə şeirlərinin bir yerdə köçürüldüyü avtoqraf əlyazma nüsxəsinin İstanbulun Ali Emiri Kitabxanasında saxlandığını məlumat verir. Bundan başqa o, bildirir ki, Bəsirinin şeirlərindən nümunələr Ədirnəli Məhəmməd Nəzminin İstanbul Nuri-Osmaniyyə Kitabxanasındakı "Məcmə ən-nəzair", İqdirli Hacı Kamalın İstanbul Ümumi Kitabxanasında saxlanan "Came ən-nəzair", Sankt-Peterburq Dövlət Universiteti Şərq fakültəsindəki 452 nömrəli "Məcmuət ən-nəzair" və Rusiya Federasiyası Şərqşünaslıq İnstitutunun Əlyazmalar bölməsindəki B-307 şifrli müxtəsər "Məcmuətün-nəzair" toplusunda vardır. Professor Azadə Musabəyli şairin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı məcmuələrdə, Salman Mümtazın şəxsi arxivində saxlanan şeirlərini araşdırmış, onları Rusiya

Federasiyası Şərqşünaslıq İnstitutunun Əlyazmalar Bölməsindəki, İ.Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" kitabındakı şeirlərlə müqayisə etmişdir.

Çağdaş Türkiyə tədqiqatçılarının verdiyi məlumata görə, Bəsirinin öz əli ilə köçürdüyü farsca divanı və ona əlavə edilmiş türkcə şeirləri İstanbulun Süleymaniyyə Kitabxanasında 292-ci nömrə altında saxlanmaqdadır. Əlyazmanın əvvəlində Xacə Cahan Mahmud bin Məhəmməd əl-Gilaninin "Riyazətül-inşa" adlı əsəri köçürülüb (1a-292a). 229b-281b vərəqlərindəki farsca divanda şairin 23 qəsidə, 121 qəzəli vardır. Sonrakı hissədə şairin türkcə 1 qəsidə, 46 qəzəl, bəzi qitə və beytləri köçürülmüşdür.

Bəsirinin farsca divanının türk tədqiqatçıları Kutluxan Ərən və Fikrət Sarısoy araşdırmış, Əhməd Kartal onun Süleymaniyyə nüsxəsindəki türkcə şeirlərini latın qrafikası ilə çap etdirmişdi.

Bəsirinin şeirlər toplusunun Tehranın Milli Kitabxanasından əldə edilmiş, nəstəliq xətti ilə köçürülmüş avtoqraf nüsxəsi böyük maraq doğurur. Divanın əvvəlində (v.1a-156a) farsca divan, sonra isə (v.157a-194a) türkcə şeirlər yazılıb. Farsca şeirlər Peyğəmbərə həsr edilmiş nət qəsidəsi ilə başlanır. Bundan sonra 23 qəsidə gəlir. Ağqoyunlu Gödə Əhmədə 4, Ağqoyunlu Uğurlu Məhəmmədə 1, Sultan Hüseyn Bayqaraya 1, vəzir İbrahim Paşanın qəsrinə 1, Nişançı Cəfər Çələbiyə 1, Sultan II Bayəzidə 11, Sultan Səlimə 2, Sultan Süleymana 1 qəsidə həsr edilib. Bunlardan sonra farsca 154 qəzəl, rübai və fərdlər gəlir. Daha sonra türkcə 74 qəzəl və 4 qəsidə köçürülmüşdür.

İstanbulun Süleymaniyyə və Tehranın Milli Kitabxanasında saxlanan bu iki əlyazma divandan başqa bir sıra məcmuələrdə Bəsirinin ayrı-ayrı şeirlərinə rast gəlirik. Ədirnəli Nəzminin "Məcmueyi-nəzair"ində şairin 20 qəzəli, Pərvanə ibn Abdullahın "Pərvanə məcmuəsi"ndə 22 qəzəli, Sultan Xuban məcmuəsində 11 qəzəlinin mətləsi vardır. XVII əsrdə Qasımi tərəfindən yazılmış "Bəhrül-maarif" və ya "Sənduqətül-maarif" adlı məcmuədə Bəsirinin 13 qəzəli vardır. Türk alimi Ahmet İçli bu şeirləri ön sözlə nəşr etdirmişdir. Əlyazması Paris Milli Kitabxanasında saxlanan "Məcmeyi-gül"də şairin 5 qəzəlinin mətlə beyti verilib. Bundan başqa, bəzi cünglərdə də onun şeirləri köçürülmüşdür.

Sağlığında lətifələri ilə tanınan Bəsirinin "Lətaif" ("Lətifələr") əsəri geniş yayılsa da, hazırda bu əsər tam halda əldə yoxdur. Şairin seçmə lətifələrinin toplandığı natamam bir əlyazma nüsxəsi Konya Qoyunoğlu Muzeyi Kitabxanasında saxlanır. İkinci ağızdan nəql edilən bu lətifələrin bəziləri Lamiizadə Ləm`i Çələbinin topladığı atasına aid lətifələrin içindədir.

Bəsirinin nəsrlə yazdığı kiçik həcmli "Bənginamə" əsərinin əlyazması Milli Kitabxana əlyazmaları Ankara Adnan Ötüken İl Xalq Kitabxanası Kolleksiyasında 06 HK 436-cı nömrə altında saxlanan "Məcmeyi-əşar və fəvaid" adlı əsərin 6a-7b vərəqlərində yazılmışdır. "Qoft mənla Bəsiri" başlığı ilə başlanan həmin hissə aydın hərəkəli nəsx xətti ilə köçürülüb. Əsərin əvvəlində müəllif ətrafdakıların ondan iştah artıran bir əhvalat danışmasını xahiş etdiklərini bildirir. Buna cavab olaraq Bəsiri yumorlu bir əhvalatı qələmə almışdır. Gülüş doğuran odur ki, dərdli və kabab həsrəti ilə acından ölmüş Bənginin (hərfi mənası: narkoman) məzarını müxtəlif meyvə və xörəklərlə bəzəyirlər. Əsərdəki xörəklərə həsr edilmiş iki şeir Bəsirinin türkcə şeirlər toplusuna da daxil edilib. Türk alimi Fatih Başpınar "Bənginamə"nin mətnini ilk dəfə olaraq latın qrafikası ilə nəşr etdirmişdir.

Bundan başqa, Bəsirinin divanına və təzkirələrə daxil edilmiş, qitə və beyt şəklində yazılmış, müxtəlif tarixi hadisələrə aid maddeyi-tarixləri də vardır.

Professor Mehmet Çavuşoğlu Bəsirinin türkcə şeirlərinin dili barədə yazır: "Osmanlı şüəra təzkirəçilərinin deyimilə "əcəmanə", yəni öz dili olan Azəri

şivəsiylə şeirlər yazan Bəsiri daha sonra İstanbul türkcəsini kullanmağa başlamışdır. Bununla bərabər öz əl yazısı ilə qeyd etdiyi şeirlərində yer-yer Azəri şivəsinin izləri görülür". Bu fikir barədə mülahizəmizi bildirmək istərdik. Əgər professor Mehmet Çavuşoğlunun dediyi kimi, Bəsirinin öz əli ilə yazdığı şeirlərdə Azərbaycan türkcəsi hiss olunursa, deməli, onun şeirləri yerli təzkirəçi və katiblərin təqdimində sırf osmanlıca səsləndirilmişdir. Bu qənaətdəyik ki, ömrünün əsas hissəsini Osmanlı dövlətinin vətəndaşı olmuş Füzulinin şeirləri necə Azərbaycan türkcəsindədirsə, Bəsirinin şeirləri də yerli şivə elementləri əlavə olunsa da Azərbaycan türkcəsindədir. Buna baxmayaraq, osmanlı müəllifləri Füzulini də, Bəsirini və başqa azərbaycanlı şairləri də osmanlı şairi hesab etmişlər.

Bəsiri əsərlərində az da olsa cığatay (orta əsrlər özbək ədəbi dili) elementləri vardır. Qeyd etdiyimiz kimi, Bəsiri bir müddət Xorasanın paytaxtı Heratda olmuş, bu dövlətin hökmdarı, həm də şair olan Hüseyn Bayqaranın, Əlişir Nəvainin, Əbdürrəhman Cami və Binainin rəğbətini qazanmışdır. Nəvai divanını ilk dəfə Osmanlı dövlətinə gətirən də o olmuşdur. Həmin dövrdə yaşamış digər bir Azərbaycan şairi Kişvəri (bu şairimizin Herata getməsi təsdiq olunmamışdır, ehtimal edilir) ilə müqayisədə Bəsiri şeirlərində Nəvai təsiri, əsərlərinin dilində cığatay elementləri o qədər də çox deyil. Şairin "Hər səhər gül yüzünə düşgün degildir jalələr" misrasıyla başlanan qəzəlində belə bir misra vardır: "Kuhkən tufrağidin hər yaz bitkən lalələr". Buradakı "Kuhkən tufrağidin" ("Kuhkən, Fərhad torpağından") ifadəsindəki ikinci sözdə "p" əvəzinə "f" səsinin işlədilməsi, çıxışlıq hal şəkilçisinin -dan, -dən deyil, -din olması cığatay dilinin əlamətidir. "Bitən" əvəzinə "bitkən"sözünün işlədilməsi cığatay dili təsiri ilə bağlıdır. Şairin "Görgəc", "Qondı, tut" rədifli qəzəlləri onun cığatay ədəbiyyatına, Nəvai irsinə hörmətlə yanaşdığını göstərir. Nəvainin türkcə divanlarında "Görgəc" rədifli qəzəl olmasa da, sözün "görcək" deyil, "görgəc" kimi yazılması orta əsrlər özbək ədəbi dilinin təsiridir.

Bəsirinin "Qondı, tut" rədifli beş beytlik şeiri Nəvai qəzəlinə nəzirə olaraq yazılmışdır. Qeyd edək ki, "Qəraibüs-siğar", "Bədayiül –vəsət" adlı divanlarında Nəvainin "Boldı, tut" rədifli üç qəzəli vardır. Rədif sözləri tam üst-üstə düşməsə də Azərbaycan şairinin dahi özbək şairinin əsərinə cavab yazdığı şübhəsizdir. Bəsiri şeirinin Nəvainin əsasən "Bədayiül-vəsət" divanındakı "Boldı, tut" rədifi qəzəli ilə, daha çox bu qəzəlin əvvəli ilə səsləşdiyini görürük. "Bədayiül-vəsət" adlı divanına daxil olan 12 beytlik qəzəlinin əvvəlində Nəvai pərəstiş obyektinin yüksək mənsəbə ucaldığına görə sevinc hisslərini ifadə edir:

Taxtu tocinq kişvəri mülki-Skəndər boldı, tut,
Xızır ömri həm bu mülk üzrə müyəssər boldı, tut.
Böylə mülkü ömrdin sonq cinnü insü vəhşü teyr,
Hökmi-əmrinğə Süleymandek müsəxxər boldı, tut.

Şeirin sonrakı hissələrində həyatın vəfasızlığı, fürsət var ikən dünya nemətlərindən bəhrələnməyi bacarmağın lazımlığı, bu dünya-axirət barədə fəlsəfi fikirlər əksini tapmışdır.

Bəsirinin qəzəli də aşiqin pərəstiş obyektinin hökmdar kimi öyülməsi, onun başına şahlıq quşunun qonmasından bəhs edilməsi ilə başlanır:

Sərvəra, sərpənceyi-şahini-dövlət qondı, tut,
Fərqinə mürği-hümayü övci-izzət qondı, tut.
Saidündə sayeyi-zülfin, pəri-Cibril san,
Ya nihali-sidrə, ya tavusi-cənnət qondı, tut.

Üçüncü beytdə şair deyir ki, onun qəlbinin quşu sevgilisinin keçdiyi yerin kölgəsindəki ağacda özünə yer etmişdir. O, özünü məşuqəsinin bağına qonmuş aşiq bülbülə bənzədir və onu tutmağı xahiş edir:

Gülşəni-kuyin nihalın cay edərsə mürği-dil,
Bağına bir bülbüli-şuridə halət qondu, tut,

Dördüncü beytdə şair sevgilisinə müraciətən dünyanın qaraquşunun, qartalının onu ovladığını bildirir. Buna görə də onun başına hüdhüd quşu kimi qonmuş səadət quşunu vaxtında tutmaq, daha doğrusu, həyatın, ömrün gözəl çağlarının qədrini bilmək lazımdır, - deyir. Bu beyt dünyanın vəfasının olmadığından danışan, bir günün qədrini bilməyi məsləhət görən Nəvai beytləri ilə səsləşir. Sonuncu beytdə Bəsiri qoynuna vəqfi-məhəbbətin, yəni məhəbbət mülkünün, məhəbbət sərvətinin qonduğunu və bunun qədrini bilməyin vacib olduğunu deyir:

Əksi-xətti-arizin vüslət şəbində dil gedər,
Ey Bəsiri, qoynuna vəqfi-məhəbbət qondı tut.

"Tut", "Tutdum, tut" rədifli qəzəllərə Füzuli divanında da rast gəlirik. Məzmun və vəzndə fərq olduğuna görə bu şeirləri Nəvai qəzəlinə cavab hesab etmək olmaz. Hər halda, tamamilə mümkündür ki, Füzuli Nəvai sənətinə hörmət əlaməti olaraq bu qəzəlləri yazmışdır.

Füzulidən öncəki Azərbaycan və Osmanlı ədəbiyyatında iki dahi türkdilli sənətkarın - Nəsimi və Nəvainin böyük nüfuz sahibi olması şübhə doğurmur (Xoca Əhməd Yəsəvi, Yunis İmrə, Şah İsmayıl Xətainin də nüfuz və təsirindən danışmaq olar. Lakin Nəsimi və Nəvai təsiri daha güclü olmuşdur). Ömər ibn Məzidin Nəsiminin ölümündən 20 il sonra tərtib etdiyi "Məcmuətün-nəzair" toplusunda osmanlı şairlərinin Nəsimi qəzəllərinə yazdıqları nəzirələri nəzərdən keçirdikdə böyük Azərbaycan şairinin ədəbi irsinin, sözün həqiqi mənasında, osmanlı ədəbi prosesində iştirak etdiyinin şahidi oluruq. Bu, əlbəttə ki, başadüşüləndir. Nəsimi ömrünün mühüm hissəsini vətənindən uzaqlarda, Anadoluda, Osmanlı imperatorluğunun ərazisində və yaxın yerlərdə yaşamışdır. Belə qüdrətli sənətkarın onu əhatə edən türkdilli şairlərin yaradıcılığına təsir etməməsi mümkün deyildi. Ağqoyunlu dövlətinin ərazisində olan Kərbəlada doğulmuş, gəncliyində Səfəvilər dövlətinin təbəəsi olmuş, həyatının yetkin çağlarında Qanuni Sultan Süleyman Bağdadı, İraqı tutduqdan sonra (şair Sultan Süleymanın 1534-cü ildə Bağdada daxil olmasına qəsidə həsr etmişdir) Osmanlı dövlətinin vətəndaşı olmuş Məhəmməd Füzuli də Osmanlı şairlərinin yaradıcılığına güclü təsir etmişdir. Osmanlı ədəbiyyatına Nəsimi və Füzulinin güclü təsiri tədqiqatçılar tərəfindən araşdırılmışdır (bu təsir o qədər güclü olmuşdur ki, sənətkarlarımızı osmanlı şairi kimi təqdim edənlər də az deyil).

XV-XVI əsrlərdə yaşamış Azərbaycan və Osmanlı şairləri Dədə Ömər Rövşəni, Gülşəni, Xəlili, Həqiqi, Kişvəri, Həbibi, Şah İsmayıl Xətai, Mühyiddin Abdal, Pir Sultan Abdal, Qoyunoğlu, Füzuli, Üsuli, Ruhi, Heyrəti, Yusifi-Sinəçak, Xəyali, Zati, Heydəri, Kəlami və başqalarının yaradıcılığında Nəsiminin ideyalarının, bədii kəşflərinin, şeir texnikasının təsiri özünü göstərməkdədir. Azərbaycanda doğulub ömrünün mühüm hissəsini – 1497-ci ildə vəfatına qədər İstanbulda yaşamış Bəsirinin şeirlərində də Nəsimidən bəhrələnmə özünü aydın şəkildə göstərməkdədir. Bəsirinin "Görmədin, ah, yüzi laləmizi" misrasıyla başlanan 5 beytlik qəzəlinin son beytində Nəsiminin "Al ilə alə gözlərin aldadı, aldı könlümü" misraslndakı "al" sözündən cinas kimi istifadənin başqa bir variantını görürük. Bəsiri Nəsiminin

Gülşəni-firdövs edər can bağını vəsli-həbib,
Atəşi-duzəx qılır həm möhnəti-cövri-rəqib

-beyti ilə başlanan 7 beytlik qəzəlinə cavab olaraq iki qəzəl yazmışdır. Onlardan birincisi "Kirpigin ucunda, ey ziba həbib", ikincisi isə "İki surət xubdur Həqdən mənə olsa nəsib" misrasıyla başlanır. Şeirinin ikinci beytində Nəsimi dərdinə ancaq yarının əlac edəcəyindən, təbiblərin ona heç bir faydası olmadığından danışır:

Dərdimin dərmaninə heç kimsə bilməz çün əlac,
Yardan özgə nə çarə, söyləgil sən, ey təbib.

Bəsirinin ikinci qəzəlinin üçüncü misrası belədir:

Etmə zaye mənə sən yox yerə dərmanını,
Dərdməndi-eşqə dəramanmı bulunur, ey təbib.

Nəsimi bir beytində aşiqlərin gözəlin üzünə baxıb əndəlib-bülbül kimi xoş nəğmələr oxuduğundan bəhs edir:

Gül üzünə aşiq olub qanda bir üşşaq var
Xoş nəvayi saz edər daim nəvayi-əndəlib.

Bəsirinin cavab qəzəlində belə beyti vardır:

Pür dəgil bülbül tənində kim, güli vəsf etməgə,
Başdan-ayağa zəban olmuş çəməndə əndəlib.

Nəsiminin "Hər nəyə kim, baxır isən, anda sən Allahı gör" misrasıyla başlanan 9 beytlik qəzəli yüksək bədii formada təsəvvüf ideyalarının, vəhdəti-vücud təliminin təbliğinə həsr edilmişdir. Bəsirət gözü ilə baxmağı bacaranlar görə bilərlər ki, Tanrı həyatın hər bir sahəsində, təbiətdə, bütün kainatda təcəlli edir. Bəsirinin bu şeirə yazdığı, "Ey könül, gər Leyliyi görmək dilərsən, yarı gör" misrasıyla başlanan 7 beytlik cavab qəzəli əsasən lirik-aşiqanə mövzuya həsr edilib. Qəzəlin sonundan görürük ki, Bəsiri Nəsiminin təkcə bu örnək şeirindən deyil, bütün poetik yaradıcılığından xəbərdar olubdur. Son beytlərdə şair Nəsiminin şeirlərində tez-tez işlətdiyi "eynül-yəqin" (hərfi mənası: gözlə görüb yəqin etmə, ciddi surətdə inanma, şübhəsiz, şəksiz) ifadəsini işlədir, hürufi ideyanı səsləndirir: Tanrının nuru insanın üzündə əks olunmuşdur. Müəllif xüsusi olaraq vurğulayır ki, Tanrının insanda təcəllisini hər adam görə bilməz. Burada şair təxəllüsünə əsaslanaraq özünü hikmətləri görə bilən bəsirət əhli ilə birləşdirir. "Bəsiri" bəsirətli, Tanrının təbiətdə, kainatda, insanda təcəllisini görə bilən deməkdir:

Sürmeyi-eynül-yəqindən, zahida, çək gözünə,
Nuri-Həqqi görmək istərsən, gəl ol didarı gör.
Dost didarın, Bəsiri, görmək istərsən əgər,
Xabi-qəflətdən bəsirət çeşmini uyarı gör.

Maraqlıdır ki, şair öz təxəllüsünü bəsirət əhli olması ilə bağladığı başqa bir qəzəlində də hər tərəfi, məscid və meyxanəni dolduran Həqqin nurundan danışır:

Ey Bəsiri, gər Bəsirət əhlisən, gözünü aç
Ki, doludur nuri-Həqdən məscidü meyxanə həm.

Bəsirinin yalnız Pərvanə nüsxəsində rast gəlinən, "Xəncərinə qarşu vardır bu dili-bibakimiz" misrasıyla başlanan qəzəli qafiyəsi, vəzni, ritmi, bəzi beytlərinə görə Nəsiminin "Dilbəra, şəmsüzzühadır ayəti-rüxsarınız", "Ey cəmalın əksi-rəhman, qabi-qövseyn qaşınız" misraları ilə başlanan qəzəlləri ilə uyğun gəlir, bu şeirlərə cavab olaraq yazılmışdır. Lakin burada təsəvvüf, hürufilik ideyaları Nəsimi şeirində olduğu kimi əvvəldən axıra qədər səsləndirilməmişdir. Dördüncü beytdə hürufilik ideyası aydın surətdə ifadəsini tapmışdır. Həqqin nuru insanın üzündə təcəlli edib, aya bənzətmək belə bu uca varlığı alçaltmaq deməkdir:

Çərx qərbal eylər isə zərrə-zərrə xakimiz,
Nuri-Həqdir arizin, biz ana məhdir deməziz.

Bu şeirdəki "Başımızdan getmədi eşqin həvəsi, dostum" misrasıyla, ehtimal ki, Həsənoğlunun məşhur qəzəlindəki "Başımdan getmədi hərgiz sənünlən içdügüm badə" misrası arasında səsləşmə var. Ömər ibn Məzidin "Məcmuətün-nəzair" toplusundan görmək çətin deyil ki, Osmanlı ədəbi mühitində Həsənoğlu tanınırdı.

Bəsiri də Nəsimi kimi "Əfəndi" rədifli qəzəl yazmışdır. Nəsimi şeirini böyük ehtimalla mürşidi Fəzlullaha həsr etdiyi halda, Bəsirinin şeiri lirik-aşiqanə mövzudadır.

Bəsiridən başqa XV-XVI əsrlərdə yaşamış bir sıra Azərbaycan, Osmanlı, eləcə də özbək şairlərinin əsərlərində Nəsimi təsirini görmək mümkündür. Tədqiqatçılar Nəsiminin dahi Azərbaycan şairi Füzuli yaradıcılığına təsiri barədə fikir söyləmişlər. Mirzağa Quluzadə "Füzulinin lirikası" adlı monoqrafiyasında yazır: "Nəsimi lirikası Füzuli ədəbi istedadının yetişməsi üçün zəruri bir tarixi mərhələ təşkil edir. Bu iki sənətkar arasında bədii fikrin inkişafı nöqteyi-nəzərindən qanunauyğun bir əlaqə mövcuddur. Nəsimi və Füzuli Azərbaycan ədəbi-tarixi prosesinin bir-birini tamamlayan iki müxtəlif mərhələləridir. Nəsimi Azərbaycan dilində yaradılmış şeirin bünövrəsini işləyib divarlarını xeyli qaldırmışsa, Füzuli bu imarəti tamamlamaqla bərabər onun bütün zinətlərini vermişdir". Nəsimidən sonra yaşamış bir sıra sənətkarlarımızın Füzuli yaradıcılığına təsir etdiyini, Füzulinin şeir sənətinin sirlərini, şeir texnikasını öyrənməyə başladığı zaman bu şairlərdən öyrəndiyini, Nəsimi irsindən bəhrələnərkən onlardan örnək götürdüyünü deyə bilərik. Füzulinin birbaşa Nəsimi əsərlərini oxuyub bəhrələndiyi də şübhə doğurmur. Tədqiqatçılar böyük şairimizin Kişvəri, Həbibi, Süruri kimi şairlərin əsərlərindən bəhrələndiyini, onların şeirlərinə nəzirələr yazdığını göstərmişlər. Füzulinin təsirləndiyi sənətkarlardan birinin də Bəsiri olduğunu bildirmək istərdik. Əlbəttə, belə iddianı irəli sürərkən ehtiyatlı olmaq gərəkdir, vəzn, qafiyə, rədif eyniliyinin yüz faiz bir şairin digərinə nəzirə yazdığını demək üçün kifayət etmədiyini də nəzərə almaq lazımdır. Bəsirinin şeirlərində elə məqamlara rast gəlirik ki, onun Füzuli yaradıcılığına təsirindən danışmağa imkan verir. Məsələn, Bəsirinin "Çərxdir çeşmimi qılan pürab" misrasıyla başlanan qəzəlində belə bir beyt vardır:

Səni görmək duşumda mümkün idi,
Neyləyim kim, gözümə gəlməz xab.

Bu beyt Füzulinin "Leyli və Məcnun" məsnəvisinə daxil edilmiş bir qəzəldəki

Bu vüsalə yuxu əhvalı demək mümkün idi,
Əgər olsaydı yuxu dideyi-giryanimizə.

-beytini xatırladır. Vəzn, qafiyə fərqi olsa da Füzulinin Bəsirinin bədii kəşfini qəzəlində daha da cilalayaraq, zinətləndirərək yeni biçimdə təqdim etdiyi görünür. Hər iki beytdəki "mümkün idi" ifadəsinin eyniliyi də diqqəti cəlb edir. Bəsirinin "Ağarsa gögə şöleyi-ahim şərarəsi" misrasıyla başlanan qəzəlinin vəzni və qafiyə sözləri (şərarəsi, sitarəsi, kənarəsi, parəsi, nəzarəsi, yarəsi) Füzulinin "Xoş gəldi dün ol ayə sirişkim nəzarəsi" misrasıyla başlanan qəzəli ilə eynidir. Bu cür nümunələrin sayını artırmaq olar. İki şair arasındakı yaxınlığı göstərmək üçün bəzi beytləri müqayisə edək:

Bəsiri:

Məcnun əgərçi padşəhi-mülki-eşq idi,
Şimdi mənəm yerində şəhənşahi-mülki-qəm.

Füzuli:

Sürdü Məcnun növbətin, indi mənəm rüsvayi-eşq,
Doğru derlər: hər zaman bir aşiqin dövranıdır.

Bəsiri:

Rüxlərində xalü zülfün pərişan olduğu,
Ey Bəsiri, surəti-hali-pərişanımdurur.

Füzuli:

Ey Füzuli, qəmi-hicr ilə pərişandır hal,
Kimsə agah degil hali-pərişanımdan.

Bəsiri:

Ey Bəsiri, olmadı ahın müəssir, gərçi kim,
Daşə təsir eylədi ah ilə əfğanın sənin.

Füzuli:

Daş dələr ahim oxu şəhdi-ləbin şövqindən,
Nola zənbur evinə bənzəsə beytül-həzənim.

Bəsirinin mübaliğələrindən danışarkən gətirdiyimiz örnəklər iki sənətkarın yaxınlığını göstərən yeni dəlillər olacaqdır. Bu cür nümunələr gətirməkdə məqsədimiz Füzulinin sənət yolunda irəliləyərkən Bəsirini özünə ustad seçdiyini sübut etməkdən ibarət deyil. Dahi Azərbaycan şairi şeirə gələndə farsdilli, ərəbdilli sənətkarlardan da, Lütfi, Nəvai kimi özbək şairlərindən də, Nəsimi, Kişvəri, Həbibi, Süruri və s. kimi Azərbaycan şairlərindən də, Osmanlı şairlərindən də sənətin sirlərini, şeir texnikasını və başqa məsələləri öyrənmişdir. Mir Cəlal haqlı olaraq yazır: "Füzulinin bədii surətlərini Nəsimidə, Həbibidə görürük. Bu, Füzulinin qətiyyən hazır bir mirasa yiyələndiyi demək deyildir. Bu, böyük şairin əvvəlki ədəbi irsə hörmət və məhəbbətlə yanaşdığını, ondan bir sənətkar kimi istifadə etdiyini, inkişaf etdiyini göstərir. Füzulinin böyüklüyü bir də orasındadır ki, o, öz şeirlərində XVI əsrə qədər ana dilimizdə yazan şairlərin yaxşı təcrübələrini hesaba almış, onu böyük cürət və məharətlə inkişaf etdirmişdi."

Təzkirələrdə Bəsirinin alim, nüktədan şair adlandırılması məlumdur. Qeyd edək ki, Nəsimi, Kişvəri, Həbibi, Süruri, Hamidi və başqa şairlərimizin adına da bu epitetləri əlavə etmək olar. "Elmsiz şeir əsası yox divar kimi olur" deyən Füzuli isə XVI əsrin ən böyük alim şairi idi. O, bu məsələdə sələflərinin ənənələrini davam etdirərək onlardan daha irəli getmişdi. Yüksək hiss və duyğuların, dərin düşüncələrin ifadəçisi kimi qəzəl janrına, yaradıcılıqda orijinallığa, şeir mədəniyyətinin, şeir texnikasının inkişafına xüsusi fikir verən Füzuli həm sələflərinin yolunu davam etdirir, həm də özünün təkraredilməz sənət möcüzəsini yaradırdı. Bəsiri (eləcə də Nəsimi, Həbibi, Süruri, Hamidi və s.) kimi ömrünün mühüm hissəsini Osmanlı dövlətində yaşamış sənətkarlarla Füzuli arasında ana dilinə münasibətdə sələf-xələflik əlaqəsini görürük. Osmanlı təzkirəçiləri Azərbaycan türkcəsində yazan Bəsirinin sonradan İstanbulda yaşadığı zaman yerli ədəbi mühitə uyğunlaşaraq Osmanlı türkcəsində mükəmməl şeirlər yazdığını göstərirlər. Lətifi "Təzkirətüş-şüəra"da yazır: "Əksər ovqatın bu diyarda keçirməyin tərzi-şeirdə türki ibarət nəzmləri şivəsin və Rum şairləri işvəsin əda edər və tərzində təriqi-məxsusa gedər". Lətifi burada şairin özünəməxsus yaradıcılıq üslubuna malik olduğunu da qeyd etmişdir ki, bu barədə daha ətraflı danışacağıq. Səhi bəy "Həşt behişt"də yazır: "Burada şairlərlə eyni dildə danışdığı üçün onlarla arasında çoxlu münazirə və mühavirə olmuşdur. Türkcə şeirləri vardır. Bu səbəbdən şöhrətli Anadolu şairlərindən sayılıb". Ali "Künhül-əxbar" əsərinin təzkirə hissəsində yazır: "Türki ibaratı zəbanı-vüqu dedikləri istilahatı əcəmliginə görə eyü zəbt etmişdir". Başqa sözlə, Osmanlı təzkirəçiləri iddia edirlər ki, Azərbaycan türkü olan Bəsiri İstanbula gəldikdən sonra əsərlərini gözəl mənimsədiyi osmanlıcada yazmışdır. Lakin bu fikirlə razılaşmaq mümkün deyil. Qeyd edək ki, bir sıra

Osmanlı müəllifləri eyni fikirləri Nəsimi, Həbibi, Süruri, Hamidi, Füzuli və başqa Azərbaycan şairlərinə də aid edirlər. Bəsiri öz şeirlərinin dili barədə bir fikir söyləməsə də, Füzuli söyləmişdir. Füzulinin dili ilə Bəsiri dili arasında yaxınlıq olduğuna görə Füzulinin divanının dibaçəsində dediklərini sitat gətiririk: "Təvəqqö budur ümumən əhaliyi-i`zzü etibardən, xüsusən büləğayi-Rum və füsəhayi-tatardən ki, əgər şahidi-hüsni-ibarətimdə ol diyarın əlfazü ibarətindən zivər olmasa və müxəddəreyi-nəzmim ol mülklərin lətaifü zərbül-məsəllərindən zinət bulmasa bu daini məzur buyuralar. Füzuli açıq-aydın bildirir ki, əsərləri dil, poetik ifadə tərzi baxımından Rum (Osmanlı) və tatar (özbək) sənətkarlarının dilindən müəyyən qədər fərqlənir. (Bu, dahi Azərbaycan şairinin əsərlərinin Türkiyə, Orta Asiya və digər türk məmləkətlərində bu günə qədər böyük məhəbbətlə oxunmasına maneə olmamışdır). Dolayısıyla şair özünün Azərbaycan türkü, dilinin də Azərbaycan türkcəsi olduğunu bildirməkdədir. Orasını da qeyd edək ki, Osmanlı təzkirəçisi Riyazi Bəsirinin bağdadlı olduğunu yazmışdır ki, bunun da əsas səbəbi, fikrimizcə, onun əsərlərinin dilinin Füzuli və başqa bağdadlı Azərbaycan şairlərinin dilinə yaxın olmasıdır. Məlum olduğu kimi, XV-XVI əsrlərdə Bağdadda fəaliyyət göstərən türkdilli şairlərin əksəriyyəti azərbaycanlı idi və onlar ədəbiyyatımızın Bağdad ədəbi məktəbi qolunun nümayəndəsi hesab olunurlar. Bəsirinin bağdadlı olması məsələsinə ən tutarlı cavabı bağdadlı olan Əhdi Bağdadi "Gülşəni-şüəra" təzkirəsində vermiş, şairin Ruma - Osmanlı dövlətinə köçmüş əcəm - azərbaycanlı olduğunu bildirmişdir. Ədalət xatirinə deməliyik ki, Nəsimi, Qazi Bürhanəddin, Füzuli və bir sıra digər şairlərin Azərbaycan türkü olduğunu göstərən Fuad Köprülü, İsmayıl Hikmət Ertaylan kimi böyük türk alimləri də vardır. Fuad Köprülü ilk dəfə 1926-cı ildə Bakıda çap edilmiş "Azəri ədəbiyyatına aid tədqiqlər" adlı əsərində XIII-XIV əsrlərdən osmanlı dilindən fərqlənməyə başlayan Azərbaycan türkcəsinin Şimali və Cənubi Azərbaycanda, İranın bir sıra bölgələrində, Şərqi Anadoluda geniş yayıldığını qeyd edir. Alim Nəsimi və Füzulidən danışarkən onların osmanlı ədəbiyyatına da güclü təsir etdiyini göstərir. Təbii ki, Nəsimi və Qazi Bürhanəddindən üzübəri Osmanlı şairlərinin yaradıcılığına təsir etmiş görkəmli Azərbaycan sənətkarları, bu ölkəyə mühacirət edərək müəyyən mövqeyə sahib olmuş Arifi, Bəsiri, Bidari, Həbibi, Süruri, Xəzani, Xəlifə, Hamidi, Niyazi, Şahi və başqaları Osmanlı şeir dilinə də təsir etmişlər. Yəni, Osmanlı poeziyasının, şeirinin dilinə Azərbaycan ədəbi dilinin təsirini də nəzərə almaq lazımdır. Fikrimizcə, Osmanlı təzkirəçiləri Osmanlı ədəbi dilinə Azərbaycan türkcəsinin təsirini nəzərə almadıqlarına görə Bəsiri kimi şairlərimizin dilini sırf Osmanlı dili kimi təqdim etmişlər. Məsələn, bu faktı necə görməmək olar ki, Bəsirinin (eləcə də Nəsimi, Həbibi, Süruri, Füzuli və s.) dilində osmanlıcada olan feilin indiki hal şəkilçisi -yor işlədilmir, hər yerdə -ır, -ir, -ur, -ür şəkilçisi işlədilir. Bəsiri bir müddət Xorasanda yaşamasına, Nəvai və başqa özbək şairləri ilə ünsiyyətdə olmasına baxmayaraq, onların dilindən o qədər də təsirlənməmişdir. Onun şeirlərinin dilindəki bəzi cığatay elementləri Osmanlı və Azərbaycan ədəbiyyatında bir dəb əlaməti idi. Osmanlı dövlətində qalıb yaşamağa məcbur olduğu zamanda isə sənətkar bir sıra mühacir şairlərimizin üsulundan istifadə etdi, Azərbaycan və Osmanlı şeir həvəskarlarının eyni dərəcədə anladığı dildə yazdı. Sırf Osmanlı elementləri onun şeirlərinin dilində o qədər də çox deyil, demək olar ki, həmin dövrdə Azərbaycanda yaşayan şairlərinki qədərdir (bəlkə bir az çox). Bəsiri şeirlərini əslində iki qardaş ölkənin şeir həvəskarları üçün yazırdı. Qeyd etdyimiz kimi, böyük Füzuli türk divanının dibaçəsində şeirlərinin dilində Osmanlı və cığatay elementlərinin kifayət qədər olmadığını göstərmişdir. Lakin

o da Osmanlı oxucusunun onu asanlıqla başa düşməsinə çalışmışdır. Osmanlı dövlətinə mühacirət etmiş şairlərimizin, eləcə də bağdadlı şairlərimizin əsərlərində bu təmayülü müşahidə etmək mümkündür. Bəsiri (1466-1534) kimi Füzulinin (1494-1556) də doğum tarixi dəqiq deyil. Bəsirinin Füzulidən təxminən 20-25 il öncə dünyaya gəldiyi ehtimal olunur. Bu şairlərin hər ikisinin ortaq yaşadıqları dövr də olmuşdur. Hər iki şair Sultan Süleyman Qanuniyə (1520-1566) qəsidə həsr edib. Sultan Süleyman 1534-cü ildə Bağdada daxil olarkən Füzuli ona qəsidə həsr etmiş, həmin il Bəsiri vəfat etmişdir. Müəyyən vaxt kəsiyində Bəsiri Füzulinin yaşlı müasiri olmuşdur. Lakin bununla bərabər, Füzuli istər poeziyamızın, istərsə də ədəbi dilimizin inkişafı baxımından yeni bir mərhələni təşkil edir. XV əsrin sonları - XVI əsrin əvvəlləri ədəbiyyatımızda qəzəl üslubunun geniş təsir dairəsinə sahib olması qəzəl dilinin sadələşməsi ilə əlamətdardır. Professor Əzəl Dəmirçizadə "Azərbaycan ədəbi dilinin tarixi" adlı monoqrafiyasının birinci hissəsində yazır: "Bu dövrdə yetişmiş elə bir şair tapmaq olmaz ki, qəzəl yazmamış olsun. Bəlkə də o zaman qəzəl yazmayanı şair hesab etməmişlər. Demək olar ki, Füzulinin uşaqlıq və yeniyetməlik dövrü məhz qəzəlin çox yayılma və sürətlə inkişaf etmə dövrü olmuşdur və Füzuli də ən mahir qəzəl şairi olmağın əhəmiyyətini, zəruriliyini, görünür, mühitin, zamanın meyillərindən dərk etmişdir... Ümumiyyətlə, bu üslubun yeni, yüksək zirvəyə qaldırılması Füzuli yaradıcılığı ilə üzvi surətdə bağlıdır. Lakin bu mərhələnin Füzuliyə qədərki müddətdə qəzəl üslubunda irəliləmə pilləcikləri mahiyyəti daşıyan dəyişikliklər və inkişaf istiqamətli bəzi əlamətdar cəhətlər də olmuşdur". Tədqiqatçı qəzəl üslubunun Füzuliyə qədərki mərhələsinin əsas əlamətlərini dilin sadələşmə və səlisləşməsində, türk mənşəli nitq hissələrindən istifadənin sayının artmasında, şeirlərdə daha çox dildə vətəndaşlıq hüququ qazanan, anlaşılan ərəb-fars söz və ifadələrinin işlədilməsində, Nəsimi və Qazi Bürhanəddində olduğu kimi, ya sırf türk mənşəli, ya da ərəb və fars sözlərindən formalaşmış analitik feillərdən qafiyə yaradılmasında, müəyyən qədər cığatay sözlərinin işlədilməsində görür. Məhəmməd Bəsiri Kişvəri, Həbibi, Süruri, Hamidi, Xətai, Xəlili və başqaları ilə bərabər, Füzuliyə qədərki XV-XVI əsrlər Azərbaycan, eləcə də Osmanlı şeir dilinin xəlqiləşməsində mühüm rol oynamışdır. Şairlər və tədqiqatçılar türk dilləri arasında meydana çıxan fərqləri göstərsələr də, alimlər bunu da göstərirlər ki, XVI-XVII əsrlərə qədər türk (oğuz) dilləri arasında ümumiliklər çox olmuşdur. Bu səbəbdən ömrünün əsas hissəsini İstanbulda yaşamış Bəsirinin Azərbaycan və Osmanlı ədəbi dillərini imkan daxilində inkişaf etdirməsi fikri qeyri-adi görünməməlidir. XIII-XIV əsrlərlə müqayisədə XV-XVI əsrlərdə klassik poeziyanın dilində ərəb-fars mənşəli söz və ifadələr daha çoxdur. Əlbəttə, bu sözlərin içində oxucunun anladığı, dildə vətəndaşlıq hüququ qazanmış sözlərin kifayət qədər çoxluğu da inkaredilməz faktdır. Dövrün türkdilli poeziyasının təkraredilməz simasını müəyyən edən türk mənşəli söz və ifadələr kifayət qədər geniş istifadə edilirdi. Bəsirinin əlimizə çatmış qəzəllərində türk mənşəli rədif sözləri əksəriyyəti təşkil edir. Bunlar aşağıdakılardır: ana, mənə, sənə, tut, görgəc, yox, yetər, bilir, öldürür, gör, durur, bənzər, var, vardır, etməz, gərək, derəm, etdim, eylədin, sənin, ikən, qılan, mən, eyləyən, üçün, bizə, ilə, olmadı, çələbi, sözünü, oldı, düşdi, sıxıldı. Şair anadilli şeirlərində "Doğruya zaval yoxdur" atalar sözündən, əldən qoymamaq, bağrı dəlinmək, yaxıb-yandırmaq, Nuh tufanı qoparmaq, göz ucu ilə nəzər etmək, səbri dağıtmaq, könlü açıq tutmaq, özünü yerdən-yerə vurmaq, qan ağlamaq, üzünə qarşı əhvalını söyləmək, soyuq dəmir döymək (əziyyətli iş görmək mənasında), yegrəgin Allah bilir (yaxşısını Allah bilir), basıcı hərami (yol kəsən, quldur) və s. kimi danışıq dilindən gələn

ifadələrdən geniş istifadə etmişdir. Sonrakı dövrlər yazılı abidələrimizdə işlənməyən, lakin XV-XVI əsrlərdə yazılmış əsərlərdə təsadüf edilən, təqlid etmək, özünü oxşatmaq mənasını verən "öykünmək" feili Bəsirinin şeirlər toplusunda dəfələrlə işlədilmişdir. "Mah öykünməz camalın şəm`inə yüz vəchlə" misrasında müəllif məşuqəsinə deyir ki, ayın özünü üzünün şamına, yəni sənin gözəlliyinə bənzətməsi mümkün deyil. Bəsirinin bəzi şeirlərində "Kibi" qoşması ilkin variantda, "biki" kimi işlədillir. Bəsirinin dilində müştərəklik, ortaqlıq, yoldaşlıq bildirən -daş şəkilçisinin köməyi ilə yaranmış düzəltmə isimlər maraq doğrurur. Tədqiqatçılar haqlı olaraq göstərirlər ki, -daş şəkilçisi sırf türk mənşəlidir, -da+eş hissələrindən ibarət olmuşdur; -da ismin yerlik halını bildirir, -eş isə yoldaş, ortaq deməkdir. Şairin anadilli şeirlər toplusunda "yoldaş", "qardaş", "sirdaş" sözlərindən çox istifadə edib. "Yoldaş" sözü daha çox işlədilib. Bəsirinin elə qəzəli var ki, bu sözdən orada üç dəfə istifadə edilib. "Qan yalaşma qardaş" ifadəsi diqqəti cəlb edir. (Tehran Milli Kitabxanası nüsxəsində bu ifadə "qan yaşına yoldaş" kimi gedib). Fikrimizcə, bu ifadə iki nəfərin bir-birinin qanını dilinə vurmaqla qardaşlaşmasından ibarət qədim ayinlə bağlıdır. Həmin ayin sonralar yaddan çıxsa da, ifadə daşlaşaraq XV-XVI əsrlər yazılı abidəsinə düşmüşdür. Qəzəllərdə rast gəıldiyimiz "addaş" (sonralar "adaş" şəklinə düşmüşdür) və "boydaş" sözləri Bəsirinin dilində -daş şəkilçisi ilə söz yaradıcılığı prosesinin davam etdiyindən xəbər verir:

Daşlarla döyündüyün Bəsiri,
Fərhad görürsə, deyə addaş...

Sərvqədlər gərçi çoxdur,vəli,
Sana boydaş olmaz bir sərvqənd.

Sonuncu örnəkdə Rəddüs-sədr aləl-əcuz poetik fiqurundan istifadəni görürük. Beytin birinci sözü sonda təkrar edilmişdir.

Bəsirinin əlimizdə olan əsərləri onu Füzuliyə qədərki poeziyamızda Kişvəri, Həbibi, Süruri, Xətai ilə bərabər, qəzəl janrını inkişaf etdirmiş sənətkarlardan saymağa imkan verir. Qəsidələri və nəsr əsərləri də olan şair sözün həqiqi mənasında qəzəl ustasıdır. Bəsirinin anadilli qəzəlləri dünyəviliyi, nikbin ovqatı, dilinin sadəliyi, səlisliyi, ahəngdarlığı ilə diqqəti cəlb edir. Herat ədəbi məktəbinin görkəmli nümayəndələri - Əbrürrəhman Cami, Əlişir Nəvai, Hüseyn Bayqara, Binayi, bir sıra Azərbaycan və Osmanlı şairləri ilə ünsiyyətdə olmuş, onların köməyi ilə poeziya sənətinin sirlərindən agah olmuş şairin hər əsərində onun şeir texnikasına məharətlə yiyələndiyi görünməkdədir. Məlum olduğu kimi, yarandığı dövrdən qəzəl nəzm şəklinin əsas mövzusu məhəbbətin tərənnümü olmuşdur. Zaman ötdükcə təsəvvüfi, irfani eşq Yaxın və Orta Şərq xalqları poeziyasında özünə möhkəm yer tutmağa başlayır. Bəsirinin şeirlərində real hisslər, yaşantılar, duyğular orijinal bədii təsvir vasitələri ilə ifadəsini tapır. İsmayıl Hikmət "Azərbaycan ədəbiyyatı tarixi" kitabında şairin yaradıcılığı barədə yazır: "Bu qədər var ki, daha çox həyati gedişlə getmiş və özünü mümkün olduğu qədər təsəvvüf pəncəsindən qorumuşdur. Onda Dördüncü Muradın həzl və həcvə meyyal və məddah ruhunu görürüz. Bir fərqi var isə, o da Bəsirinin daha şux, daha səyyal, daha məzacgir, və uysal olmasıdır. Nəf`inin ovqatı, qüruru onda yoxdur". İ.Hikmət burada Bəsiri yaradıcılığının səciyyəvi cəhətləri barədə əsasən düzgün fikirlər söyləsə də, onun bütün dedikləri ilə razılaşa bilmirik. Doğrudan da, şairin əsərlərində daha çox dünyəvilik üstündür. Onun şeirlərindəki şuxluğu, nikbinliyi də aydın şəkildə görürük. O, doğrudan da həzl və həcvə, satira və yumora meyil edən və uysal-vəziyyətə uyğunlaşmağı bacaran şair olmuşdur. Məddahlığına gəlincə, ədalət

xatirinə demək lazımdır ki, dövrün əksər sənətkarları, o cümlədən, Füzuli də, Nəf`inin özü də bundan kənarda qala bilməmişlər. Məlum məsələdir ki, şairlər həyatlarını, heç olmasa, minimum dərəcədə təmin etmək üçün hökmdarlara, yüksək vəzifəli şəxslərə mədhiyyə yazmağa məcbur idilər. Buna görə onlara qürursuz demək olmaz. Vəziyyətə uyğunlaşmağa gəlincə, bəlli olduğu kimi, Bəsiri mühacir idi, İstanbula Azərbaycandan, Təbrizdən gəlmişdi, burada onun heç kimi yox idi. O, özünü və ailəsini təmin etmək üçün imkanlı şəxslərlə tanış olmağa, onların məclislərində iştirak etməyə, köməklərindən bəhrələnməyə məcbur olmuşdur. Bəsirinin ünsiyyətli xasiyyəti və istedadı hesabına XV-XVI əsrlər Osmanlı cəmiyyətində tanınması, buranın ədəbi-mədəni həyatında oynadığı rol gözlərimiz önündə canlanır. İ.Hikmət Bəsirinin şeirlərinin dilinin sadəliyi barədə yazır: "Dili zamanındakı bir çox şairlərdən hətta özündən sonra gələn şairlərdən çoxunun dilindən sadə olub asanlıqla anlaşılır". Şairin əsərlərini oxuduqca bu sözləri təsdiqləməli oluruq. Onun "Əfəndim" rədifli qəzəlində aşiqin ürəkdən gələn bir səmimiyyətlə, sadə, anlaşıqlı, müasir oxucuların da asanlıqla anlayacağı bir dillə sevgilisindən şikayəti səslənməkdədir:

Bizimlə işin cəfa, əfəndi.
Adəmmi dözər buna, əfəndi.
Səndən necəsi vəfa uma dil,
Çün ömürdə yox vəfa, əfəndi.

Bəsirinin şeirlərində işlətdiyi ərəb-fars söz və ifadələrinin çoxu bu gün də dilimizdə işlənir:

Qəmi-hicrində işim nalə vü ah,
Nedəyim, kimsə yox halımdan agah.
Mənə der eşqdən qıl tövbə zahid,
Necə tövbə, der: əstağfirullah.
Münəccim xal ilə zülfün görən, der:
Doludur fitnəsilə, ah, bu mah.

Burada sırf danışıq dilinin sadəliyi diqqəti cəlb edir. Sonda münəccimə müraciət edən lirik qəhrəman belə bir cavab alır: bu xal ilə zülfün sahibi olan mah (gözəl –mah-ay ilə səma cismi mah-ay eyniləşdirilir) fitnə ilə doludur, yəni bu eşqin sonu təhlükəlidir. Bəsirinin bir müddət sonra Füzuli də "Görünür" rədifli qəzəlində münəccimə müraciət edir və tale evində (talelərin yazıldığı yerdə - fələkdə) bu eşqin sonunun qan göründüyü cavabını alır:

Sordum əhvalımı eşqində münəccimlərdən,
Baxdılar tale evinə, dedilər qan görünür.

Şairin qəzəllərini oxuduqca belə qənaətə gəlirik ki, sadə, danışıq dilinə yaxın bir dildə yazmaq onun fərdi yaradıcılıq üslubunun səciyyəvi xüsusiyyətlərindəndir. Onun şeirlərində dilin sadəliyi ilə yanaşı, qələmə alınan mətləblərin gündəlik həyatla bağlılığı diqqəti çəkən məqamlardandır:

Həmdəm kiminlə olurdum, gər ney olmasa,
Könlüm nə ilə əylənilirdi, mey olmasa.
Hicr olmasa, vusal da olmazdı qaliba,
Olurmidi bahar cahanda dey olmasa.

"Nə qəzəl kim denilür ol üzü gözü qaş üçün" deyən şair aydın surətdə bildirir ki, şeirlərini həyatda olan real bir məşuqəyə həsr etmişdir. Şeirlərindən birində Bəsiri eşqində çəkdiyi cəfaları, əzabları sadalayır və bunları taleyin mərhəməti kimi qəbul edir:

Gəh cövrü gəh cəfavü dəmi zülmü gəh sitəm,
Çoxdur kərəmlərin, mən anın qansını deyəm.

Sevgisi yolunda çəkdiyi cəfalara həyati bir norma kimi adət etmiş şair onu eşq dərdindən müalicə etmək istəyən təbibə "başımızı ağrıtma" deyir:

Biz anun dərdinə adət etmişüz,
Başımız ağrıtma, billah, ey təbib.

Bəsirinin qəzəllərində ifadə etdiyi arzu və dilək̇ləri həyatidir, istəkləri hər kəsin qəlbinə yaxındır. Şeirlərindən birində şair xoş, mülayim xasiyyətli bir yarın, həmdəmin olmasını yalnız onun özü üçün deyil, hər kəs üçün ən böyük arzu, ən böyük var-dövlət olduğunu bildirir:

İnsana cahan içrə budur dövləti-üzma,
Bir yari-mülayimlə müqarin ola daim.

Bununla yanaşı, şairin yaradıcılığında təsəvvüfün, irfanın da müəyyən dərəcədə yer tutduğunu, onun vəhdəti-vücud təlimini qəbul etdiyini görürük:

Daxi təsdi etməz oldı kəsrəti-rənci-xumar,
Ey könül, meyxaneyi-vəhdət olalı məskənin.

Bəsirinin əvvəldən sona qədər irfana həsr edilmiş şeiri vardır:

Yardan özgə bu könül xanəsində kimsə yox,
Şükr kim əğyardan xali olubdur xəlvətim.
Xəlvəti-üns içrə tənha sanma, ey zahid, məni,
Qüdsivü ruhanilərdir hər gecə həmsöhbətim.
Mən fəna meyxanəsinin rindiyəm, ey müğbəcə,
Olicək xişti-səri-xüm ilə lövhi-türbətim...

Bəsiri yaradıcılığında özündən əvvəl yaşamış və ya çağdaşı olan sənətkarların yolu ilə getməmiş, yalnız özünün yeni, orijinal fikirlərini ifadə etməyə çalışmışdır. Qəzəllərindən birində o, deyir:

Məniyi-xasdır, Bəsiri, sözün,
Hiç divandan istiarən yox.

Burada "istiarə" sözünün hərfi mənası – götürmə nəzərdə tutulur. (Bir əşya və ya canlının xüsusiyyətlərinin başqasına aid edilməsi istiarə poetik fiqurunun səciyyəvi cəhətidir). Şair burada heç bir sənətkarın şeirlər toplusu - divanından nəyisə götürmədiyini, iqtibas etmədiyini bildirir. Bəllidir ki, şairlərin özlərini öyən, fəxriyyə xarakterli şeir və beytləri az olmayıb (bu məsələdə Füzuli də istisna deyil). Bəsirinin bu ənənəyə uyğun olaraq yazdığı beytlərdə onun sənətə, sənətkara baxışlarının da ifadəsini görürük. Şair şeiri qızıla, özünü isə qızılı qiymətləndirən sahibəyara bənzədərək deyir ki, qızılım, var-dövlətim olmasa da, qiymətdə qızıla bərabər olan şeiri düzgün dəyənləndirməyi bacarıram:

Zər nəqdi gərçi yoxdur əlində Bəsirinin,
Əşar təqdirinin hələ sahibəyarıdır.

Şair bildirir ki, hər kəs onun şeirini anlaya, əsl qiymətini verə bilməz, onun həqiqi sənətini bundan agah olanlar qiymətləndirə bilər:

Ey Bəsiri, nə bilir sözüni hər qafil kim,
Əhli-təhqiq sözün mərdümi-agah bilir.

Fəxriyyə xarakterli bir qəzəlində şair bəlağət mülkünün sərvərlərindən, müasir sənətkarlardan üstün olduğunu, elm, maarif dənizinin dərinliklərinə baş vurduğunu elan etməkdədir:

Bənəm ol mərdi-xəşm bu tiği-tizi nəzmimlə,
Bəlağət mülkünün sərvərlərin cümlə zəbun etdim .
Bənəm ol aşinayi-lücceyi-bəhri-maarif kim,
Neçə qəvvasi-bəhri-nəzmi anda sərnigun etdim.

Bəsiri ustad sənətkar olmaq üçün elmin, maarifin dərinliklərinə baş vurmaqdan danışır: Bir müddət sonra ədəbiyyata gələn Füzuli də bu fikri təsdiqləyir, türk divanının dibaçəsində şeirinin elm və maarifdən xali olmamasına çalışdığını deyir.

Bəsiri qəlb şairidir, insanın hiss və həyəcanlarını, sevinc və kədərini, həyatdan feyz almasını, tənhalığını ifadə etmək ustasıdır. Şeirlərindən birində, o, elan edir ki, eşq həyəcanlarımı bölüşəcəyim bir həmsöhbətim, həmdərdim vardır, o da könlümdür:

Şərhi-dərdi-eşqi axır kimə təqrir eyləyim,
Bir könül adlı müsahib, dərdməndim var ikən.

Dövrünün bir sıra digər şairlərindən şuxluğu, nikbinliyi ilə seçilən Bəsiri bəzi şeirlərində ələmlə, qəmlə dostluq etdiyini, həyat yolunda onları səfər yoldaşı seçdiyini bildirir:

Fəğan ənisi-şəbü ruzü nalə həmnəfəsim,
Ələm müsahibü qəm yari-mehribanımdır...

Ədəm yolunda yoldaşım qəmindir,
Səfər müşküldürür olmasa yoldaş.

Bununla bərabər, şairin nikbinliyi, həyata yumorla yanaşması əsərlərindən görünməkdədir. Onun türkcə şeirlər toplusuna daxil edilmiş, sevdiyi və xoşuna gəlməyən xörəklərdən danışdığı iki qəzəli yumoru, həyatdan ləzzət almaq həvəsi ilə diqqəti cəlb edir:

Bulqur aşını sevməzəm, Tanrım ana irgürməsin,
Danə birincün quluyam, şorbayı gözüm görməsin.
Mən qəlyənin dərvişiyəm, həm salmanın üftadəsi,
Bumbar inən salınmasın, börək inən üfürməsin...
Miskin Bəsiri könlüni mantuya məva eylədi,
Ya Rəbb, kələm şorbasını göstərmə, konu görməsin.

Bu şeirlər şairin yumoristik mövzuda yazdığı "Bənginamə" əsərinə də daxil edilmişdir.

Bəsirinin nüktədanlığı satirik şeirlərində, həcvlərində də, lirik qəzəllərində də özünü göstərməkdədir. Qaziəskər vəzifəsinə təyin edilmiş Zeyrekoğluna şair bir mədhiyyə qəsidəsi yazır. Zeyrekoğlu əvəzində caizə verəcəyini vəd etsə də vədini "unudur". Bəsiri bu "unutqanlığa" iki kiçik qitə həsr etmişdir. Onlardan biri belədir:

Zeyrekoğluna şairin birisi,
Mədh ilətdi, çün dövlətdə idi.
Gər sorarsan nə verdi caizəsin?
Lütflər etdi, vədələr verdi.

Burada şair Zeyrekoğlunu heç bir sözlə pisləmir, lakin sonda müəllif kinayə tərzi ilə "vədədən başqa heç nə verməyən" dövlət məmurunun xəsisliyini ifşa etmiş olur. Bəsirinin bu və başqa həcv xarakterli, eləcə də yumoristik şeirlərini örnək gətirən osmanlı təzkirəçiləri şairin nüktədanlığından danışarkən onun incə eyhamlı, kinayəli fərdi yaradıcılıq üslubunu nəzərdə tuturlar.

XV-XVI əsrlər poeziyasının janrlar iyerarxiyasında qəzəlin mövqeyi daha da möhkəmlənir. Qəzəlin mövqeyinin möhkəmlənməsində Füzuli və onun ədəbi məktəbinin nümayəndələri mühüm rol oynasalar da, bu nəzm şəklinin inkişafında daha öncəki sənətkarların, o cümlədən, Bəsirinin də müəyyən xidmətləri olmuşdur. Qəzəl dilinin sadəliyinə, səlisliyinə, türk mənşəli sözlərin işlədilməsinə xüsusi fikir verən Bəsiri, lakonikliyə, fikri qısa və aydın ifadə etməyə çalışırdı. Onun qəzəllərinin çoxu beş beytdən ibarətdir. Fikrimizcə,

nüktədanlığı, incə yumoru, sərrast satirik qələmi, eləcə də lakonikliyi onun əsərlərinin Osmanlı təzkirəçiləri, şairləri və şeir həvəskarları (o zaman məmurlardan tutmuş hökmdarlara qədər şeir yazırdılar) tərəfindən yüksək dəyərləndirilməsinin əsas səbəbi idi. Şərq poetikasında bitkin bir fikri ifadə edən beyt Avropa poeziyasındakı şeirə bərabər hesab edlir. Bəsirinin beytlərini şeirlərindən çıxararaq təqdim etdikdə özünün poetik, fəlsəfi, etik, ibrətamiz-nəsihətamiz mənası olan bir şeirə (təkbeytə) çevrilir. Şairin qəzəllərinin birinci beytləri-mətlələri xüsusilə diqqətəlayiqdir. Şərq poetikasında hüsni-mətlə və ya hüsni-ibtida ilk beytin forma və məzmunca diqqəti cəlb edən, digər beytlərdən seçilən, fərqli olması tələbinə cavab verən poetik fiqurdur. Şairin qəzəllərindən bir neçə mətləni örnək gətirək:

Kirpigin sehr oxudur, əbrulərindir yay ana,
Bir bənim kibi bəlakeş uğrar isə, vay ana.

Şol nazənin ki, dili-zarım aşinadır ana,
Bəlayi gör ki, gözəllər də mübtəladır ana.

Arifə dövlətdən istiğna kibi dövlətmi var,
Tərki-ləzzəti-cahan etmək qədər ləzzətmi var.

Tiri-cəfa ilə ürəyim parə eylədin,
Bir yarə bitmədən dəxi bir yarə eylədin.

Xəlqi-cahan sözi bu kim, qəm adəm öldürür,
Canım bədəndə olmayacaq, qəm nəm öldürür.

Bəsiri beytlərində həyati bir obraz yaratmağı, psixoloji durumu təsvir etməyi bacaran sənətkardır. O, şeirində lirik qəhrəman - aşiqin eşqində qeyri-müəyyən vəziyyətini belə şərh edir:

Sənin dərdindən, ey şuxi-cəfakar,
Bəla bu kim, nə sağam mən, nə bimar.

Bir yandan aşiqin dostu-məşuqəsi, digər tərəfdən düşməni-rəqib ona əziyyət verirlər. İki zərbə alan aşiqin vəziyyətini Bəsiri belə təsvir edir:

Bir yana tə`ni-rəqibü bir yana cövrün sənün
Dad əlindən dustun, fəryad əlindən düşmənin.

Burada "dust" və "düşmən" sözləri ilə təzad bədii ifadə vasitəsi yaradılmışdır. Bəsirinin şeirlərində hüsn-mətlə, təzad, təkrir, cinas, təşbih, ləffü nəşr, rəddüs-sədr aləl-əcuz, mübaliğə, touzi, hüsni-təlil bədii ifadə vasitələrindən məharətlə istifadə edilmişdir. Aşağıdakı beytdə təkrir, cinas və hüsni-təlil poetik fiqurlarından istifadəni görürük:

Səba bu rəşkdən kim, öpdüm izin,
Özün yerdən-yerə vursa, yeri var.

Şair gözəlin izini öpdüyünə görə səba yeli qısqanclığından özünü yerdən-yerə vurur, yəni bərk əsməkdədir. "Səbəb və bəhanə gətirməyin gözəlliyi" demək olan hüsni-təlildən istifadə zamanı bir əlamət və ya hərəkət, keyfiyyət (burada aşiqin gözəlin ayaq izlərini öpməsi) başqa əlamət və hərəkətə (burada səbanın qısqanclıqdan bərkdən əsməsinə) səbəb olur, nəticədə ikiqat təsvir özünü göstərir. Beytdə "yer" sözünün iki dəfə işlədilməsi təkrir sənətinin əlamətidir. "Yeri var" ifadəsində "yer" sözü başqa mənada (yəni, başadüşüləndir) işlədilmişdir. Beyt daxilində eyni cür səslənən, yazılan fərqli mənalı sözlərin işlədilməsi cinas sənətinin əlamətidir. Təşbih poetik fiqurundan istifadəyə örnək:

Yaşım hicrində cuyi-abə bənzər,
Gözüm ol abdə girdabə bənzər.

Aşiqin göz yaşı axar suya, çaya, gözü isə bu çaydakı girdaba, burulğana bənzədilmişdir.

Lətfü nəşr poetik fiqurundan məharətlə istifadəyə nümunə:

Məni gördükcə xəlq onunla derlər,
Ənis olmuş, görün, Məcnuna ahu.

Birinci misradakı mən (aşiq) və o (məşuqə) sözləri ikinci misradakı Məcnun və ahu (ceyran) sözləri ilə əlaqələndirilmişdir ki, bu da ləffü nəşrin əlamətidir.

Rəddüs-sədr aləl-əcuz poetik fiqurundan (beytin birinci sözünün sonda eyni mənada işlədilməsi) istifadəyə örnək:

İntizarı öldürür hər dəmdə min kərrə məni
Həq demişlər kim, ölümdən betərdir intizar.

Bəsiri şeirindəki mübaliğələr yüksək poetikliyi ilə diqqəti cəlb edir. Füzulinin bir sıra mübaliğələri ilə onunkular arasında müqayisə aparmaq olar.

Ey Bəsiri, sərbəsər xakistər olar kainat,
Düşsə aləm içrə ahim atəşindən bir ləhib.

Tənuri-atəşi-qəm oldu sineyi-suzan,
Onun içindəki od şöləsi zəbanımdır.

Ahım şərarəsi necə yaxmaya aləmi,
Bir oddur ol ki, duzəx onun bir şərarıdır.

Atəşi-dil eylədi kül aləmi sərtasər,
Nuh tufanın qopardı dideyi-nəmnakımız.

Ey Bəsiri, olmadı ahım müəssir, gərçi kim,
Daşa təşir eylədi ah ilə əfğanın sənin.

Şairin müxtəlif tarixi hadisələrə həsr edilmiş maddeyi-tarixləri də Osmanlı müəllifləri tərəfindən yüksək qiymətləndirilmişdir.

Şeirlərini araşdırdıqda görürük ki, Bəsiri Kişvəri, Həbibi, Sürüri, Xətai, Hamidi və başqaları kimi Nəsimidən sonrakı, Füzulidən öncəki dövr ədəbiyyatımızın, XV-XVI əsrlər poeziyamızın görkəmli nümayəndələrindən biri olmuşdur. Onun əldə olan şeirlərinin toplanaraq bir kitab halında nəşri və ətraflı tədqiqi dövrün ədəbiyyatının öyrənilməsi, şairin ədəbiyyat tariximizdəki mövqeyinin müəyyənləşdirilməsi baxımından böyük maraq kəsb edəcəkdir.

Təyyar SALAMOĞLU

"NEFT VƏ MİLYONLAR SƏLTƏNƏTİNDƏ":

SİNFİLİK YOXSA MİLLİLİK?!

Uğura gedən yol və uğuru şərtləndirən amillər

XX əsrin əvvəlləri Azərbaycan maarifçi realist bədii nəsrinin tarixində İbrahim bəy Musabəyovun (1881-1942) əhəmiyyətli mövqeyi vardır. O, bədii yaradıcılığa uşaqlar üçün yazdığı "Rəhmli arvad" və "Rzanın qutusu" adlı hekayələrlə gəlmişdir. Hər iki hekayə "Məktəb" jurnalında çap olunmuşdur. Bu faktın özü İ.Musabəyovun ilk qələm təcrübələrinin uşaqların qiraət materiallarına olan ehtiyacını ödəmək məqsədilə yazıldığını göstərir. Hekayələrdə xalq ədəbiyyatından təsirlənmə açıq nəzərə çarpır. Müəllif ideyadan süjetə gələrək uşaqlara müəyyən əxlaqi keyfiyyətlər təbliğ edir.

"Cəhalət fədailəri", "Xoşbəxtlər", "Gözəllərin vəfası" povestlərinin uşaq hekayələri ilə eyni ildə yazılmasına baxmayaraq, onları müəllifin yaradıcılığında ideya-sənətkarlıq baxımından uğurlu əsərlər kimi dəyərləndirmək olar. Əgər "Rəhmli arvad" və "Rzanın qutusu" hekayələrində İ.Musabəyov daha çox müəllim-yazıçı kimi çıxış edirdisə, povestlərində artıq o, professional maarifçi-yazıçı səviyyəsinə qalxa bilir.

İ.Musabəyovun ən məşhur əsəri "Neft və milyonlar səltənətində" (1917) romanıdır.

Bu romanla yazıçının yaradıcılığının yeni keyfiyyət mərhələsinə daxil olduğunu söyləsək, yəqin ki, səhv etmərik. Əsərin həm Azərbaycan maarfçi realist nəsrində, həm də İ.Musabəyovun yaradıcılığında xüsusi mövqe qazanmasının bir neçə səbəbi vardır. Birincisi, bu əsər müəllifin "Xoşbəxtlər", "Gözəllərin vəfası", "Cəhalət fədailəri" kimi povestləri ilə müqayisədə daha dərin ictimai məzmuna malikdir və XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətində, xüsusən Bakıda gedən ictimai prosesləri iti sənətkar müşahidəsi ilə yazılmışdır. İkincisi, sözü gedən illərdə baş verən hadisələr maraqlı bir süjetdə sənətkarlıqla ümumiləşdirilmişdir. Üçüncüsü, əsərdə cərəyan edən hadisələrin zamanı üçün səciyyəviliyi və sənətkarcasına ifadəsi onun ilk Azərbaycan kinosu kimi ekranlaşdırılmasına təkan vermiş, bu cəhət əsərə geniş oxucu kütləsi arasında ciddi maraq yaratmışdır.

Tədqiqatlarda da dönə-dönə vurğulandığı kimi, əsər maarifçi realizmin estetik prinsiplərinə uyğun yazılmışdır. Romanın başlanğıcında müəllif həyat hadisələrinə, insanın cəmiyyətdəki yerinə dair fikirlərini bir neçə cümlədə publisistik bir dillə və açıq ifadə edir. Bu publisistik mühakimələrdə insanın xarakterinin dəyişməsində onun düşdüyü mühitin həlledici rol oynamasından danışılır. Eyni zamanda iddia olunur ki, "...hər kəsi bədəxlaq görüb də bilkülliyyə onun özünü müqəssir eləməyə bizim haqqımız yoxdur, çünki təqsir onun təqsiri deyil, ancaq vəsətin, mühitin və tərbiyənin təqsiridir".

Ədəbiyyatşünaslıqda doğru vurğulandığı kimi, "Neft və milyonlar səltənətində" povestinin başlanğıcındakı fikir, həm də müəllif ideyasını əks etdirir" (Vəlixanov N. Azərbaycan maarifçi-realist ədəbiyyatı. Bakı. Elm, 1983, s.114). Heç şübhəsiz ki, bu belədir və burada mübahisə üçün yer yoxdur. Mübahisə doğuran cəhət isə odur ki, müəllif "mühit" anlayışı altında nəyi nəzərdə tutur.

"Mühit" anlayışının ədəbiyyatşünaslıq yozumu

Azərbaycan ədəbiyyatşünaslığı İ.Musabəyovun "mühit" anlayışı altında kapitalist, burjua ictimai mühitini nəzərdə tutduğunu iddia edir. Buna görə də elmi ədəbiyyatda "Neft və milyonlar səltənətində" əsərinin təhlili zamanı kapitalist, burjua mühiti kəskin tənqidin obyektinə çevrilir: "Əsərdə təsvir olunan hadisə o zaman kapitalist Bakısında, içərisindən çürüyən burjua cəmiyyətində tez-tez baş verən real əhvalatların əksi idi". Fikrində davam edən tədqiqatçı hesab edir ki, bu "real əhvalatlar" "...obyektiv ictimai varlığın dialektik inkişaf qanunlarının doğurduğu nəticələr idi. Çünki harınlaşmış, tüfeyli burjuaziya cəmiyyəti artıq öz içərisindən çürüməli, ictimai həyat səhnəsini tərk etməli idi. Bu, həyatın inkişaf qanunlarının hökmü idi, heç bir qüvvə bu hökmün qarşısını ala bilməzdi" (Zamanov A. Əməl dostları. Bakı. Yazıçı, 1989, s.92). Bu tədqiqatların sovet dövründə, sovet ideologiyası və ədəbiyyatşünaslığı mövqeyindən yazıldığını nəzərə alsaq, müəlliflərin kapitalist iqtisadi münasibətlərinə sərt tənqidi mövqeyinin məntiqini başa düşmək olar. Ancaq məsələ burasındadır ki, həmin tendensiya müstəqillik dövrünün ədəbiyyatşünaslıq düşüncəsində də dəyişməz olaraq qalır: "İ.Musabəyov "Neft və milyonlar səltənətində" əsərində isə pulun cəmiyyətdəki rolu, insanların həyatındakı dəyişiklikləri və gətirdiyi sosial bəlaları bədii detallarla verməyə çalışır... Yazıçı Cəlil obrazında yaranmaqda və yenicə formalaşmaqda olan milli burjuaziyanın həyatını təsvir etməyə çalışmışdır" (Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı. Elm və təhsil, 2011, s.349-350).

Bu mülahizələrin məntiqi hansı fikri təlqin edir? Yaxud, bu nöqteyinəzərdən yanaşanda İ.Musabəyovun əks etdirdiyi əsas ideyanı necə başa düşmək olar? Bu fikirlərin məntiqindən belə çıxır ki, İ.Musabəyov kasıblığı, yoxsulluğu təbliğ edir. Çünki pul cəmiyyətdəki "sosial bəlalar"ın əsas səbəbidir. Pul olmasa, hamı yoxsul olsa, cəmiyyətdə heç bir problem olmaz. Əlbəttə, bu tip mülahizələrin tənqidə dözmədiyi və absurd səsləndiyi tam aydındır. Digər tərəfdən, yazıçı "Cəlilin obrazında yaranmaqda və yenicə formalaşmaqda olan milli burjuaziyanın həyat tərzini təsvir etmişdir" mülahizəsi "yaranmaqda və yenicə formalaşmaqda olan milli burjuaziyaya" birtərəfli münasibəti ifadə etmirmi? Təbii ki milli burjuaziyanın bütün nümayəndələrinin Cəlilin yolu ilə getdiyini iddia etmək məntiqi düşüncənin müqaviməti ilə üzləşir.

Bütün bunlarla bərabər, ədəbiyyatşünaslığımızda İ.Musabəyovun "mühit" anlayışına fərqli mövqedən yanaşma halının da olduğunu qeyd etməliyik. Bu mənada N.Vəlixanovun bəzi mülahizə və müşahidələri maraq doğurur. Onun da mülahizələrində Cəlilin pozğunlaşan xarakterini "harınlamış feodal-burjua mühiti" ilə əlaqələndirmək tendensiyası var. Yəni tədqiqatçı ictmai mühitin insan əxlaqına təsirini qəbul edir. Lakin N.Vəlixanov mükəmməl xarakterin sosial mühitə müqavimət imkanlarını da qəbul edir. N.Vəlixanov "insanın xoşbəxtliyi onun gözəl əxlaqi keyfiyyətləri ilə əlaqədardır" fikrini maarifçi dünyagörüşündə qəbul edilmiş əsas tendensiyalardan biri hesab edir və Şəfiqə obrazının bu tendensiyanın bədii ifadəsi kimi meydana çıxması fikrini irəli sürür: "Belə ki, Cəlil eyş-işrətə uyub ailəsini, arvadını bir parça çörəyə möhtac edirsə də, Şəfiqə dözür. O, feodal-burjua mühitində min bir əzab və əziyyətə düçar olursa da namusla yaşayır" (Göstərilən əsəri, s.115).

N.Vəlixanovun Cəlillə Şəfiqəni qarşılaşdırması mühit və xarakter məsələsinə fərqli yanaşmanı elmi təhlil müstəvisinə gətirir və xarakterin mükəmməlliyi və ardıcıllığı fonunda mühitin ona təsir imkanlarını bu və ya digər dərəcədə sərf-nəzər edir.

Eyni mühitin insanları kimi Cəlilin dəyişən və Şəfiqənin dəyişməyən xarakteri kapitalist iqtisadi münasibətlərinin, burjua ictimai mühitinin insanı əxlaqi pozğunluğa sürükləmək gücündə olduğuna dair, əslində, sovet ideologiyasından qaynaqlanan ədəbiyyatşünaslıq mövqelərinə tənqidi yanaşmanı aktuallandırır. Digər tərəfdən, yazıçının əsərin başlanğıcındakı publisistik mühakimələrinə də tənqidi yanaşma sərgiləməyi zərurətə çevirir və "çünki təqsir onun təqsiri deyil, ancaq vəsətin, mühitin və tərbiyənin təsiridir" fikrini birmənalı qəbul etməyə imkan vermir.

Ən azı, müəllifin özünün yaratdığı Şəfiqə obrazı bu mülahizəni polemika obyektinə çevirməyə imkan verir.

Azərbaycan ədəbiyyatşünaslığının zəif cəhətlərindən biri budur ki, maarifçi-realist sənətə münasibətdə o, yazıçının açıq tendensiyalı mühakimələri ilə bədii mətnin diktə etdiyi həqiqətləri bir-birindən ayırmağa çətinlik çəkir, ya da ideoloji nöqteyi-nəzərdən bu "ayırma" ona sərf eləmir.

Əsl həqiqətdə söhbət hansı "mühit"dən gedir?

İ.Musabəyovun öz publisistik mühakimələrində "mühit"i günahlandırması sovet ideologiyası nöqteyi-nəzərindən ədəbiyyatşünaslığın əsərə verəcəyi təhlillər üçün səmərəli toxum, açar rolu oynayır. Ədəbiyyatşünaslıq yazıçının "mühit" anlayışını birmənalı şəkildə "burjua ictimai mühiti" kimi qəbul edir. Yazıçının mühitə tənqidi münasibətini "burjua ictimai mühiti"nə tənqidi münasibət kimi mənalandırır və öz təhlillərində bu münasibəti bir qədər də tündləşdirir. Halbuki bədii mətn yazıçının "mühit" anlayışını və ona tənqidi münasibətini "burjua ictimai mühiti" və ona tənqidi münasibət kimi anlamağa material vermir.

Məlumdur ki, maarifçi dünyagörüşü və maarifçi realizmin estetikası da "mühit" anlayışını mütləq şəkildə "burjua ictimai mühiti" kimi dərk etməyə imkan vermir. Çünki "maarifçilərin təsəvvüründə mühit xeyli məhdud bir anlayış idi. Onlar mühit dedikdə birinci növbədə ailəni nəzərdə tuturdular... Onlar əsərlərində hansı problem qoymalarından asılı olmayaraq onu ailə-məişət məsələləri ilə əlaqələndirib həll edirdilər" (Məmmədov X. XIX əsrin sonu, XX əsrin əvvəlində Azərbaycan maarifçi realist ədəbiyyatı. Bakı. APİ-nin nəşri, 1978, s.34).

Maarifçi realizm üçün qanunauyğunluq sayılan bu estetik prinsiplər "Neft və milyonlar səltənətində" əsərində də özünü doğruldur və onun mövzu və ideya istiqamətini düzgün başa düşməyə kifayət qədər əsas verir. Cəmiyyət hadisələri maarifçiləri ictimai-siyasi münasibətlər sistemi kimi yox, insanların qarşılıqlı münasibətləri, vətəndaşlıq düşüncəsi, ruhi aləm və əxlaqi müstəvidə daha çox maraqlandırır. Buna görə də onların əsərlərində hadisələrin ailə-məişət mühitində təsvirinə üstünlük verilir. "Neft və milyonlar səltənətində" əsərində də kapitalist iqtisadi münasibətlərinin tam arxa planda qalması, süjetin mənəvi-əxlaqi qarşıdurmalardan doğan kolliziya əsasında inkişafı maarifçi sənətin estetik prinsipləri və maarifçi sənətkarın dünyagörüşü ilə şərtlənir.

Müəllifi razı salan cəhətlər

Obrazların keçdiyi həyat yolu müəllifin "mühit" anlayışını hansı məzmunda qavramasına və bədii inikas predmeti etməsinə aydınlıq gətirir. Atadan miras qalan torpaqlarında neftin fontan vurması hesabına kasıb, imkansız Cəlil birdən-birə varlanıb milyonçu Cəlil ağaya çevrilir: "Xülasə bu gündən xidmətçi Cəlil oldu Cəlil ağa. İndi bu, Avropa libasında qeyrilər kimi gah faytonda, gah da avtomobildə öz işlərinin üstünə gedib gəlirdi. Bir az zamandan sonra Cəlil ağa özünə şəhərin ən gözəl yerində bir neçə evlər də almışdı". Yazıçı xidmətçi Cəlilin Cəlil ağaya çevrilməsini məmnunluq hissi ilə təsvir edir. Çünki bu cür çevrilmə XX əsrin əvvəlləri Azərbaycan mühiti üçün tam qanunauyğun bir hadisə idi. Kapitalist iqtisadi münasibətləri, kapitalist həyat tərzi Azərbaycan cəmiyyətinin həyatına sürətlə nüfuz etməkdə idi. Müəllif bu prosesin özünü məmnunluq hissi ilə qəbul edir. Kapitalistləşən, maddi imkanları qat-qat artan Cəlilin öz əvvəlki xarakterinə sadiqliyi, özündən çıxmaması, bütün diqqətini öz işlərinin tərəqqi etməsinə yönəltməsi, başqa sözlə, işgüzarlığı İ.Musabəyovu razı salır. O, yaranmaqda olan milli burjuaziyanın inkişafını məhz belə görür və arzulayırdı. Ona görə də müəllif obrazın hərəkətlərinə rəğbətli münasibətini gizlətmir: "Cəlil ağa dövlətə nail olandan sonra özünü belə dolandırırdı ki, cümlə tacirlər ona maşallah deyib, başına and içərdilər. Bu, nə içki içərdi və nə də qumar oynayardı və gecələr də vaxt keçirmək üçün ya özü tacirləri dəvət edərdi, ya özü onların evinə gedib vaxtını keçirərdi". Bu cümlələr kapitalistləşən Bakının ictimai mühitini göz önünə gətirir. Bu mühitin sağlamlığı , işgüzarlığı və halallığına diqqət çəkir. Əgər Cəlil nə araq içir, nə qumar oynayır, vaxtını gecə klublarında, kazinolarda keçirmirdisə, halal, eyni zamanda, işgüzar bir həyat yaşayırdısa və məhz bu cür halallığına və işgüzarlığına görə "cümlə tacirlər ona maşallah deyib, başına and içərdilər"sə bu, Bakı burjua mühitinin ümumən sağlamlığı demək idi. Bu mühitdə halallıq, işgüzarlıq və sağlam rəqabətin təqdir olunduğunu göstərirdi.

Bir daha müəllifi razı salan cəhətlər haqqında

Azərbaycan milli burjuaziyasının ən müsbət cəhətlərindən biri xeyriyyəçilik əməlləri ilə ardıcıl surətdə məşğul olmaları olmuşdur. Bu cəhəti Azərbaycan milli burjuaziyasının mənəvi sifəti kimi ümumiləşdirmək olar. Bu sifət, heç şübhəsiz ki, kapitalist münasibətlərinin inkişafı zəminində ictmai mühitdə milli və vətəndaşlıq düşüncəsinin tədricən formalaşması və inkişafı

ilə bağlı idi. Cəlil ağa da milli kapital dünyasına belə bir sifətlə daxil olur və müəllif onun xarakterindəki bu cəhəti xüsusi bir razılıq hissi ilə təqdir edir. Çünki maarifçi dünyagörüşü kapitalist iqtisadi münasibətlərinin yaranması və inkişafının əleyhinə deyildi, sadəcə, onun sağlam bir yolla inkişafını arzulayır, qələmlərini də bu istiqamətdə işlədirdilər. Romanda oxuyuruq: "Cəlil ağa özü keçmişdə fəqir olduğundan çox rəhmli idi və harada bir ittifaq düşsəydi, fəqirlərə, əlsizlərə külli miqdarda kömək edərdi. Odur ki, Allah da onun dövlətini, cəlalını günü-gündən artıq edərdi". Azərbaycan milli burjuaziyasının keçməkdə və keçməli olduğu yol İ.Musabəyovun maarifçi dünyagörüşündə məhz bu cür təsəvvür edilir, bu cür qəbul edilirdi. Müəllif milli burjuaziyanın işgüzar münasibətlərinin insanlığa, milli hisslərə və İslam əxlaqına sədaqətli qalmaqla inkişaf etdirilməli olduğunu təlqin edirdi. Cəlil ağanın Qurbana və vaxtı ilə qonşusu olmuş kasıb Əhməd kişiyə, onun qızına münasibəti milli vətəndaşlıq düşüncəsi və İslam əxlaqı nöqteyi-nəzərindən müəllif tərəfindən yüksək dəyərləndirilir. Eyni zamanda, Cəlilin Qurbana, Əhməd kişiyə və Şəfiqəyə ilk zamanlardakı münasibəti kapitalistləşmənin cəmiyyətin milli rifahının yüksəlişində oynaya biləcəyi praktiki rolu da işarələyir. Cəlil ağanın varlanmasının aşağı təbəqə nümayəndələrinin həyatında əmələ gətirdiyi əsaslı dəyişiklik müəllifin milli ictimai inkişafın yolunu necə təsəvvür etməsinə dair maarifçi konsepsiyanı ortaya qoyur. Buna görə də düşünürük ki, müəllifin maarifçi konsepsiyasında sovet ədəbiyyatşünaslığında iddia edildiyi kimi, "harınlaşmış, tufeyli burjuaziya cəmiyyəti artıq öz içərisindən çürüməli, ictimai həyat səhnəsini tərk etməli idi" qənaətinə yer yoxdur.

Ədəbiyyatşünaslıq nədən narazıdır və tənqidin hədəfini hara istiqamətləndirir?

Romanın XX əsrin əvvəllərində Bakıda baş verən ictimai prosesləri iti müşahidənin nəticəsi olaraq yarandığını, süjetin əsasına büsbütün həyati bir situasiyanın qoyulduğunu xüsusi qeyd etməliyik. Həyati müşahidələrin, həyati situasiyaların maarifçi yazıçının qələminə təsiri o dərəcədə qüvvətlidir ki, roman yazıçının başlanğıcda ifadə etdiyi publisistik mühakimələrin sərhədindən xeyli kənara çıxır və onun həyati məzmununu qat-qat qüvvətləndirir.

Şübhəsiz ki, kapitalist iqtisadi münasibətlərinin formalaşması, Bakının "neft və milyonlar səltənəti"nə çevrilməsi mürəkkəb bir proses idi. Bu prosesdə sağlam yol tutmaq o qədər də asan deyildi. İ.Musabəyov öz qəhrəmanını ictimai həyatın mürəkkəblikləri və ziddiyyətləri içərisində təsvir edir.

Ədəbiyyatşünaslıqda "Neft və milyonlar səltənətində" əsərində pulun fərdiyyəti pozğunlaşdırması funksiyasına dair marksist düşüncədən gələn ideyanın əks olunduğunu iddia edən mülahizələr də yer almışdır. Tədqiqatçı G.İbrahimqızı Marksın "Pul fərdiyyəti pozğunlaşdırmaq deməkdir. O, fərdləri öz əkslərinə çevirir, onlara təbiətlərinə zidd olan xüsusiyyətlər verir" fikrini sitat gətirərək yazır: "Realist Azərbaycan ədəbiyyatında pulun, kapitalın bu rolu yüksək bədiiliklə göstərilmişdir. İ.Musabəyovun da "Neft və milyonlar səltənətində" romanı məhz bu baxımdan milli bədii nəsrimizin nailiyyətidir" (İbrahimqızı G. Zülmətdən nura doğru... Bakı. Letterpress, 2015, s.79-80). Göründüyü kimi, kapitalist iqtisadi münasibətləri sistemində pulun oynadığı

pozucu rolun romanın əsas ideya-məzmununu təşkil etməsinə dair fikirlər ədəbiyyatşünaslıqda özünə möhkəm yer alır. Əsərin aparıcı qəhrəmanları da məhz bu tendensiya işığında dəyərləndirilir. G.İbrahimqızı Cəlil ağanı belə xarakterizə edir: "O, artıq xalis, azğınlaşmış kapitalist tipidir. Təpədəndırnağa qədər burjua sinfinin ehtiraslı rəmzidir... Cəlil ağa anasından, Qurban kişidən aldığı tərbiyəni itirdikcə burjua həyat tərzinin vəhşi qanunlarını daha dərindən ifadə edir". Bu sitatda və ədəbiyyatşünaslıqda özünə yer alan bu tipli mülahizələrdə Cəlilin xarakterinin dəyişməsi, onun ailəcanlı və işgüzar bir insan olmaqdan çıxıb eyş-işrət, qumar və qadın düşgününə çevrilməsi kapital dünyasının qanunauyğunluğu hesab edilir. Cəlilin pozğunluq yoluna qədəm qoyması onun kapitalist xarakteri ilə izah edilir.

Milli burjuaziyanın həqiqi siması müəllif təqdimatında

Lakin bədii mətn məsələnin bu şəkildə qoyuluşunu təkzib edir. Cəlilin dəyişməsi, xasiyyət və əməllərində get-gedə artmaqda olan mənfiliklər şəxsi tale yolu zəminində izah olunur. Yazıçı Lütfəli bəyin təsiri altına düşməsini onun dəyişməsinin, mənfi sifətlər əxz etməsinin əsas səbəbi kimi göstərir. Əslində bu romanda biz iki Cəlil ağa tanıyırıq. Birinci Cəlil ağa ailəsinə, işinə ürəkdən bağlı, milli və müsəlman əxlaqının bütün tələblərinə dəqiqliklə əməl edən, malik olduğu maddi imkanları xalqın və millətin yolunda xeyirxah işlərə sərf etməkdən çəkinməyən, başqa sözlə, haqq yolunu tutub gedən milli Azərbaycan kapitalistinin obrazıdır. Milli ictimai mühit də birinci Cəlil ağanı məmnuniyyətlə qəbul edir. İkinci Cəlil ağa isə artıq Lütfəli bəyin təsiri altında hərəkət edən Cəlil ağadır. Məhz Lütfəli bəyin təsiri altında o, bütün insanlıq sifətlərini itirmək dərəcəsinə gəlir. Əsərdə xüsusən birinci Cəlil ağanın mənəvi dünyası dərinliklərinə qədər açılır. Onun vaxtı ilə ona hər cür xeyirxahlıq etmiş Qurbana, qonşusu Əhməd kişiyə, Əhməd kişinin qızı Şəfiqəyə həssas münasibəti, təmənnasız yaxşılıqları, yazıçının onun "fəqirlərə, əlsizlərə külli miqdarda kömək etməsi"nə dair informasiyaları, işgüzar həyatda qazandığı uğurlar, işgüzar mühitdə böyük hörmət və nüfuza malik olması onun milli burjuaziyanın həqiqi xarakterini ifadə edən bir obraz kimi yaradıldığını sübut edir. Lütfəli bəyin təsiri ilə ilk dəfə gecə klubunda gecələyəndən sonra keçirdiyi hisslər Cəlil ağanın fitrətən nə qədər təmiz olduğunu, milli mentalitetə və İslam əxlaqına nə qədər dərindən bağlı olduğunu göstərir: "Sabahı günü Cəlil ağa gözlərini açanda özünü bir qeyri aləmdə, bir qeyri mühitdə gördü. Bunun yanında bir rus qızı yatmışdı... Bu halda o, cəld yerindən qalxıb öz-özünə dedi ki, Allah, indi mən Şəfiqəyə nə cavab verəcəyəm? Yarəb, bu nə işdir mən tutdum?... Cəlil ağa libasını əyninə geyə-geyə öz-özünə deyirdi ki, Allah, mən bu murdar olan dodaqlarım ilə Şəfiqənin pak, müqəddəs ləblərini və üzünü bir daha necə busə edəcəyəm, onu bu murdar ağuşuma necə alacağam? Bu fikirləri edə-edə Cəlil ağa özünü birdən güzgüdə dördü və öz-özündən qayət utanıb, başını aşağı saldı və bir daha güzgüyə baxmadı". Bu düşüncələr İslam əxlaqı ilə tərbiyələnmiş qəhrəmanın özü-özünü İslam əxlaqı əsasında ittiham etməsidir. Cəlil ağa çox yaxşı başa düşür ki, onun tapındığı dinin əxlaq qaydalarında zina bağışlanmaz günahdır. Quranın İsra surəsində deyilir: "Zinaya da yaxınlaşmayın. Çünki o, çox çirkin bir əməl və pis bir yoldur!" Dini ədəbiyyatda zinaya İslamın münasibəti aşağıdakı kimi təfsir olunur: "Qeyri-qanuni cinsi münasibətlər və zina ilə bağlı vəziyyət tamamilə başqa

cürdür: bu məsələdə tərəflərin qarşılıqlı razılığı cinayəti yüngülləşdirmir" (Həmidullah M. İslama giriş. Bakı. Qismət, 2006, s.131-132).

Tutduğu əməlin günahından çıxa bilməmək qorxusu həqiqi İslam tərbiyəsi almış Cəlil ağanı hədsiz dərəcədə narahat edir. Onun narahatlığı davamlı xarakter alır. Bu mənada ədəbiyyatşünaslığın "Cəlildə müəyyən işıqlı başlanğıc vardır" qənaəti xarakterin doğru müşahidəsindən xəbər versə də, "lakin onda bu hiss keçici olur" mülahizəsi (G.İbrahimqızı. Göstərilən əsəri, s.80) o qədər də əsaslı təsir bağışlamır. Çünki Lütfəlinin təlqinləri ilə Cəlil ağa Şəfiqəyə yalan desə də, yenə də içindəki ağırlıq qalır. Vicdanı və iman gətirdiyi dinin əxlaqi tələbləri qarşısında o həqiqətən əzab çəkir. Romanda oxuyuruq: "Cəlil ağa nə qədər çalışdısa da yuxulaya bilmədi. Çünki ona vicdanı ağlasığmayan dərəcədə əziyyət verirdi. Cəlil ağa deyirdi:

- Bax, 24 saat bundan əvvəl mən nə idim və indi nə oldum? Qeyri arvad ilə vaxt keçirdim, yalan dedim, hələ bir günah da bu oldu ki, müqəddəs Şəfiqə o pak ləbləri ilə mənim bu murdar alnımı, üzümü busə edəndə, məcbur oldum razı olum. Yarəb, bu nə bəla idi mən düçar oldum, bu nə günah idi mən etdim? Kaş bircə parça çörəyim olaydı, amma bayaqkı kimi də pak və bigünah olaydım!".

Cəlil ağanın bu peşimançılığı və peşimançılığından doğan düşüncələri tam təbii və səmimi səslənməklə, müəllifin obrazın daxili aləminə dərindən nüfuz etdiyini göstərir. Eyni zamanda, milli insanın, həqiqi müsəlmanın, bir sözlə, Şərq psixologiyasına büsbütün bələdliyini göstərir. Bu kontekstdə etdiyi günahdan sonra Cəlil ağanın özünə qayıdışı, "iki aydan artıq axşamlar öz evindən bir yana çıxmaması", getdiyi yerə də "ancaq Şəfiqə ilə bərabər getməsi", araq içməkdən büsbütün imtinası, əslində, onun tövbə qapısına yaxınlaşmasını, bu qapıdan keçməyə hazır olduğunu göstərir. "Xəta və onun düzəldilməsi"nə dair dini təfsirlərdə oxuyuruq: "...Ancaq insanın zəifliklər vardır. Çünki insan həm yaxşı, həm də pis ünsürlərdən ibarətdir. Anadangəlmə qüsurları insanı əsəbiliyə yuvarlayar, onda günah işlətmək hissi yaradar, özündən daha zəif və onun qarşısını və qisasını alacaq imkanları olmayan şəxslərə haqsızlıq etməyə sövq edər. Bununla belə içində daşıdığı insani duyğular sonradan ona peşmançılıq hissi aşılayar və bu bəşəri davranışın gücü nisbətində insan səbəb olduğu haqsızlığı az-çox aradan qaldırmağın çarəsini arayar" (M.Həmidullah. Göstərilən əsəri, s.129). İslam əxlaqında bu çarə tövbədən keçir: "İmansızlıqdan üz döndərib və əfv diləmək məqsədilə Allaha yönəldikdə, onun rəhmətidən hər şeyə ümid edilə bilər. İnsan zəifdir və tez-tez qərarından, sözündən dönər. Həqiqi bir tövbə hər zaman ilahi məğfirəti və əfvi insana qazandıra bilər. İslamda ilahi əfvə nail olmaq üçün heç bir mərasimə, başqa insanların vasitəçiliyi ilə hansısa bir təşəbbüsə ehtiyac yoxdur. Bunun üçün yalnız birbaşa Allaha yönəlmək lazımdır". Bunu Cəlil ağa çox yaxşı bilir. Onun "Yarəb, bu nə bəla idi mən düçar oldum, bu nə günah idi mən etdim?" sözləri ürəkdən gəlir, həqiqi inam və inancdan doğur. Bununla belə "tövbə" qapısından keçməyə təşəbbüs etmir. Əslində süjetin bura qədərki inkişaf məntiqi Cəlil ağanın "tövbə" qapısından keçməsini və həqiqi Allah yoluna qayıtmasını tələb edir. Hadisələrin təbii inkişafı bunu tələb edir. Lakin yazıçı Cəlil ağanı iki səbəbdən "tövbə" qapısından keçirmir. Birincisi, ona görə ki, Cəlil ağanın islahı müəllifin əsərdə qoyub bədii əksini verməyə çalışdığı maarifçi tendensiyanı tamamlamır. Maarifçi tendensiya Cəlilin düşdüyü çirkab

mühitin bataqlığında boğulmasını tələb edir. Bu tendensiya isə müəllifin maarifçi konsepsiyasından qidalansa da, həyati əsası da vardır. Yazıçı XX əsrin əvvəllərinin son dərəcə mürəkkəb və keşməkeşli milli həyatında Cəlil kimi "çirkab mühitin bataqlıqları"nda çabalayıb boğulanları çox görmüş, müşahidə etmişdi. Əsərin süjeti nə qədər maarifçi konsepsiyadan güc alırdısa, maarifçi konsepsiyanın özü də bir o qədər həyatın acı reallıqlarından güc alırdı. Müəllif Cəili kapitalist iqtisadi münasibətləri sistemində bişmiş, böyük təcrübəyə malik milli kapitalist obrazı kimi yaratmır. Cəlil ağa işgüzar dünyada nə qədər böyük müvəffəqiyyətlər qazansa da, yenə də bu sahədə təcrübəsiz idi. Xarakterindəki saflıq və təmizlik, eyni zamanda, sadəlövhlük də içinə düşdüyü mühiti bütün reallığı ilə görməyə ona mane olurdu. Ədəbiyyatşünaslıqda onun xarakterindəki bu cəhətə işarə edilmişdir: "Cəlil ağa insanpərvər, xeyirxah olmaqla bərabər, çox sadəlövh və açıq qəlbli bir adamdır" (G. İbrahimqızı). Bu xarakterlə "onun bu həyata hazır olmaması"na dair fikirlər də (G. İbrahimqızı) həqiqəti ifadə edir. Elə müəllifi də məsələnin bu tərəfi məşğul edir. Yazıçı Cəlil ağanın Lütfəli bəyin toruna düşüb oradan heç cür çıxa bilməməsini onun burjua iqtisadi münasibətlərinin mürəkkəbləşdirdiyi həyatın mürəkkəbliklərinə hazır olmaması ilə izaha çalışmır. Romanın bədii konflikti iqtisadi problemlərlə bağlı yaranan ziddiyyətlərdən güc almır. Əslində bu istiqamətdə tərəflər bir-birilə dil tapırlar. Ortaqlıq iqtisadi sahədə tərəflər üçün problem yaratmır. Əksinə, həm Lütfəli bəyin, həm də Cəlil ağanın günü-gündən artan iqtisadi imkanları onları daha sıx birləşdirir. Lütfəli bəyn xaraktercə "xain, zalım, bəxil və düruğ bir adam" olmasına baxmayaraq iqtisadi mənafe onu Cəlil ağa ilə daha sıx yaxınlaşmağa, münasibətləri normal məcrada davam etdirməyə sövq edir. Elə buna görə də "Lütfəlinin də xətrini Cəlil ağa çox istərdi".

Hadisələrin cərəyanı insanın daxili dünyasına nüfuz müstəvisində

Lakin Lütfəli bəy dostluğa, qardaşlığa xəyanət edir. Bu "xəyanət"in psixoloji əsasını müəllif Lütfəli bəyin yaramaz təbiəti ilə izah edir: "Xüsusi mənfəəti üçün nəinki dostunu, bəlkə də namusunu satardı". Ədəbiyyatşünaslıq əksər hallarda müəllif xarakteristikasındakı "xüsusi mənfəət üçün" ifadəsini onun pula olan qarşısıalınmaz ehtirası kimi izah edir. Ədəbiyyatşünaslıq Lütfəli bəyi "hiyləgər, qorxulu kapitalist tipi" (G. İbrahimqızı), "daha xalis burjua tipi" (G. İbrahimqızı) kimi xarakterizə edərək "varlanmaq, mənimsəmək, insanların səadəti üzərində öz səadətini qurmaq, acizi məhv etmək, öldürmək"i onun səciyyəvi sifətləri kimi ümumiləşdirir. Lütfəli bəyin xarakterində "insanların səadəti üzərində öz səadətini qurmaq" xüsusiyyəti var. Lakin bu onun burjua xarakterindən yox, bir insan kimi naqisliyindən irəli gəlir. Lütfəli bəyin Cəlil ağaya qurduğu tələlər onun daha artıq varlanmaq, pula olan ehtirasından irəli gəlmir. Cəlili büsbütün imkansız vəziyyətə salıb onun arvadına sahib çıxmaq Lütfəli bəyin əsas məqsədidir. O, öz məqsədini belə bəyan edir: "İçgi içməz, qumar oynamaz, şantana getməz, bəs mən nə günə bunun evini yıxım ki, dövləti də mənə qalsın, arvadı da". İlk baxışda Cəlil ağanı müflisləşdirmək də Lütfəli bəyin iki əsas məqsədindən biri olduğu görünür. Bunu o özü də etiraf edir. Lakin hadisələrin mahiyyətinə varanda aşkar görmək mümkündür ki, Lütfəli bəy Cəlil ağanın dövlətini mənimsəməkdən çox, dağıtmağa çalışır. Çünki Lütfəli bəyin düşüncəsinə

görə, onun öz arzusuna çatmasının – Şəfiqəyə qovuşmasının yolu Cəlil ağanın müflisləşməsindən keçir. Onun Cəlil ağanın dövlətini Olyanın əli ilə dağıtmağa çalışması və Cəlil ağanın milyonlarının Avropa qumarxanalarında uduzulduğunu nəzərə alsaq, sərvət ehtirasının Lütfəli bəy üçün əsas olmadığını görərik. O, əlbəttə, imkan düşdükcə, Cəlil ağanın paraxodlarına, neft mədənlərinə, evlərinə sahib çıxmaqdan da imtina etmir. Bütün bunlarla bərabər, o, pul uğrunda yox, Şəfiqə uğrunda çarpışır. Buna görə də "Lütfəli bəy üçün həyatda yalnız bircə anlayış vardır: varlanmaq" kimi (A. Zamanov) səciyyələndirmələr özünü doğrultmur. "Cəlil ağanın var-yoxuna yiyələnmək"in (A. Zamanov) Lütfəli bəy üçün əsas məqsəd olmadığını onun Şəfiqəni görən günədək belə bir düşüncədən uzaq olması da sübut edir. Məhz buna görə də, nəyin bahasına olursa olsun, varlanmağı Lütfəli bəyin əsas məqsədi, pul ehtirasını onun xarakterini səciyyələndirən əsas amil hesab edib, bu cəhəti milli burjuaziyanın təbiəti kimi ümumiləşdirmək məsələyə sinfi-ideoloji yanaşmadan başqa bir şey deyildir.

Müəllif nədən narazıdır və nə təlqin edir?

Yazıçı yaranmaqda olan milli burjuaziyaya sinfi mövqedən yanaşmaq tendensiyasından çox uzaqdır. Belə bir tendensiya onun yazıçı məqsədinə daxil deyil. Müəllifin maarifçi idealı yaranmaqda olan burjuaziyanı vətəndaş təbiətli, ictimai amal və düşüncə sahibi kimi görmək istəyir. Qumarxanalarda, içki məclislərində, gecə klublarında, kazinolarda keçən həyatın qazanılan milli sərvətin dağıdılmasına səbəb olduğunu, həm sərvət sahibinin özünü, həm ailəsini zəlalətə apardığını, eyni zamanda, milli inkişafa zərbə olduğunu göstərmək istəyir. Burada İ.Musabəyovun sənətkar mövqeyi M.Ə.Sabirin:

Tacirlərimiz sonyalara bənd olacaqmış,
Bədbəxt tükəzbanları neylərdin, İlahi?!

misralarında ifadə olunan sənətkar mövqeyi ilə birləşir. Müəllifin etirazı və tənqidi milli burjuaziyanın qeyri-sağlam həyat tərzinə meyllənməsi, bu meylin cəmiyyət həyatında ictimai bir bəla səviyyəsinə çıxmasına qarşıdır.

Əsərdə hər iki qəhrəmanın həyatında içkinin, qumarın və qadın düşgünlüyünün oynadığı rol heç də təsadüfən qabardılmır. Müəllif Cəlil ağanın bədbəxtliyində içginin oynadığı rola özünün dönə-dönə açıq tendensiyalı münasibətini ifadə edir: "Bununla belə, Cəlil ağa araq da içməyirdi, lakin xain dost və damarlara təsir etmiş araq (alkoqol) ona rahatlıq vermirdilər". Müəllif qəhrəmanın taleyinə açıyaraq və dərin təəssüf hissi keçirərək təhkiyə edir: "Odur ki, bir yandan xain dost, digər tərəfdən isə alkoqol Cəlil ağaya qalib oldular".

Yazıçı Lütfəli bəyin də yaşayışına və davranışına mənfi təsir mənasında içkinin rolunu xüsusi vurğulayır: "Hərçənd Lütfəli bəy dövlət dağıdan adam deyil idi, ancaq yenə məqam düşəndə içkidən, qumardan dala durmazdı. Hər bir şey, hər bir əməl, yaxşı ya pis insanda getdikcə artdığı kimi, Lütfəlinin də içki içməyi və qumar oynamağı axır vaxtlarda artmaqda və kök salmaqda idi".

Diqqət edilsə, görmək çətin deyil ki, yazıçı "dövət dağıdan adam"la içkiyə və qumara, eləcə də gecə həyatına aludə adamı eyni müstəviyə gətirir, onları paralel anlayışlar kimi işlədir. İçkini, qumarı, qadın düşgünlüyünü insanın tifaqının dağılmasının əsas səbəbi, vasitəsi kimi qəbul edir.

Yazıçının narahatlığı nədən qaynaqlanır? İ.Musabəyov müşahidə edir ki, içki, qumar, gecə həyatı milli cəmiyyətin həyatına sürətlə nüfuz etməyə başlayıb. İçki və qumarın Lütfəli bəyin də, Cəlilin də həyatına getdikcə daha sürətlə daxil olması və artıq onların yaşam tərzinə çevrilməsi cəmiyyətdə gedən bu proseslə birbaşa bağlıdır. Diqqət etsək, onu da görərik ki, əxlaqı pozan və mənəvi kataklizmə yol açan bu proses yeniləşən dünyanın həyat tərzidir. Milli həyata elə bir dünya ayaq açır ki, xalqın, millətin tarixi xarakterinə, əxlaqına, mənəviyyatına, düşüncəsinə, bütövlükdə isə həyat tərzinə dağıdıcı təsir göstərir. Milli həyata kənardan ayaq açan bu dünya Qərb dünyasıdır. Maarifçi realistlər Qərbin Şərqə bu mənfi təsirini, insanların öz tarixi varlığından, müsəlman əxlaqından və yaşayış tərzindən uzaqlaşıb Avropa həyat tərzinin təsiri altına düşməsini müşahidə edir və bu prosesə tənqidi münasibət ifadə edirdilər.

Milli həyatın tarixi xarakterini müdafiə mövqeyi

"Neft və milyonlar səltənətində" əsərində milli həyatın tarixi xarakteri ilə milli həyatın "yeniləşən dünya"sı "atalar və oğullar" kontekstində analitik təhlil predmetinə çevrilir. Romanda Qurban və Əhməd kişi "atalar"ı təmsil edərək milli həyatın tarixi xarakterini əks etdirirlər. Cəlil ağa isə "oğullar"ı təmsil edərək milli həyatın yeniləşən dünyasını simvollaşdırır. Doğrudur, nə Qurban, nə də Əhməd kişi Cəlilin doğma atası deyildir. Lakin əsərdə uşaq yaşlarından atadan yetim qalan Cəlilə Əhməd kişi, xüsusən Qurban hər cür qayğı göstərir, onun həyatda düzgün yol tutmasına, tərbiyəli böyüməsinə çalışırdılar. Əslində əsərdə hər iki obraz Cəlilin mənəvi atası statusunda çıxış edirlər. Romanda oxuyuruq: "Qurban bu xəbəri alan kimi pul götürüb, Cəlilin evinə getdi və onun anasını dəfn elətdi. Bu gündən sonra Qurban Cəlilə yoldaşlıq yox, bəlkə də atalıq edərdi. Həmişə onu özü ilə bərabər nahara əyləşdirərdi, nəsihət edərdi və axşamlar özü ilə bahəm aparıb evinə ötürərdi". Vaxtı ilə Cəlilgilin qonşusu olmuş Əhməd kişinin Cəlilə münasibəti romanda belə əks olunur: "Hər halda Əhməd kişi də Qurban kimi Cəlilə nəsihət edərdi ki, o, yaxşı olsun və öz kamalı ilə özünə bir parça çörək qazansın". Qurbanın və Əhməd kişinin simasında milli varlığın tarixi xarakterindən gələn ən yaxşı insani sifətlər - düzlük, saflıq, təmizlik, halallıq, humanizm kimi əxlaqi sifətlər cəmləşir. Yazıçı milli adət-ənənələr və İslam əxlaqı əsasında tarixdən üzü bəri formalaşıb gələn bu nəcib əxlaqi sifətlərin milli cəmiyyətdə yaşarılıq haqqını təsbit edir və onu gənc nəsil üçün də yaşam tərzi, həyat kredosu kimi təbliğ edir.

Milli həyatın tarixi xarakteri "yeniləşən dünya"nın imtahanında

Lakin iti realist qələm həyatda baş verənlərin heç də həmişə müəllif arzuları ilə üst-üstə düşmədiyini də müşahidə edir. Zaman-zaman milli həyat qanunlarından və İslam əxlaqından güc alıb formalaşan həyat tərzi Qərb dünyasının özü ilə gətirdiyi əxlaq tərzinin bu həyata nüfuzu ilə pozulmağa, gücsüzləşməyə başlayır. "Atalar"ın müqəddəs hesab etdiyi əxlaq qaydaları "oğullar"ın həyat tərzinin qaydalarına çevrilə bilmir. "Atalar" "oğullar"ın yeni dünyaya milli həyatın tarixən formalaşmış qanunlarına və İslam əxlaqına

arxa çevirməklə "çıxış"ını qəbul etmir. Müəllif təhkiyəsində oxuyuruq: "Qurban yəqin bilirdi ki, belə ömür, belə həyat insanı yıxar, bərbad edər, bu günə qumarın və içkinin müqabilində nəinki milyonlar, dənizlərin suyu da davam etməz. Odur ki, həmişə fürsət tapanda ağasına deyərdi ki, ağacan, qurban olum, belə işləri eləmə, özün öz əlinlə özünü, arvadını və balalarını aclıq və məmat ağuşuna atma".

Qurbanın ağıllı nəsihətləri Cəlil ağa üçün eşidilməz və qəbuledilməz olur: "Cəlil ağa isə buna həmişə cavab verərdi ki, Qurban, sən mənim işlərimə qarışma! Belə cavabları dünyada ən sevdiyi adamdan eşidəndə, Qurban öz-özünə deyərdi ki, doğru deyiblər ki, Allah adamın əvvəl ağlını alar, sonra dövlətini. Haqq sözlər imiş".

Qurbanın, onu ən çox sevən adamlardan birinin nəsihətləri, haqq sözü Cəlil ağa üçün niyə belə eşidilməz olur? Ona görə ki, indi onların səsi bir-birindən çox uzaq olan "dünya"lardan gəlir. Bu məqamda Qurbanın özü və sözü milli, daha geniş götürsək isə bütövlükdə müsəlman həyat tərzini simvollaşdırır. Cəlil ağa üçün isə artıq bu həyat tərzi yoxdur. O, özünü bütövlükdə Qərb dünyasının ağuşuna atmış və onun əsarəti altındadır. Təsadüfi deyil ki, Cəlil ağanın maddi və mənəvi süqutu məhz bu dünyanın milli həyata nüfuzu ilə eyni vaxta düşür. Cəlil ağanın maddi və mənəvi müflisləşməsinin əsasında onun Avropa həyat tərzinin əsirinə çevrilməsi dayanır.

Qərb dünyasının milli həyata müdaxilədə oynadığı pozucu rol əsərdə daha çox Olya obrazında simvollaşdırılır. Olyanın kimliyi ilə bağlı əsərdə əks olunan informasiya müsəlman həyatı və Qərb dünyası kontekstini yazıçının şüurlu şəkildə analitik təhlilin predmetinə çevirdiyini göstərir. Romanda oxuyuruq: "Gecə saat üç idi. Bir saatdan sonra bu şəhərdən Berlinə qatar gedəcəkdi. Bu qatar ilə gərək Olya gedəydi". Yazıçının Cəlilin müflisləşmə prosesini Lütfəli bəylə başlayıb Olya ilə bitirməsi, başqa sözlə, Lütfəli bəyin Cəlilin tifaqını dağıtmaq planını Olyanın əli ilə həyata keçirməsi qətiyyən təsadüf deyil. Çünki yalnız olyalar – tərbiyəsi və əxlaqı kazinolar, gecə klublarının, qumarın və pozğunluğun gündəlik həyat tərzinə çevrildiyi bir dünyanın adamı bu planı həyata keçirə bilərdi. Müəllif təhkiyəsində səslənən aşağıdakı məlumatın xüsusi estetik funksiyası var, Qərb dünyasının daxili puçluğunu ifadə edir. Yazıçı milli mühitdə bu dünya haqqında yaranan təəssüratın əslində mif, ilğım olduğunu göstərir: "Olya ilə Cəlil ağa Avropanı gəzə-gəzə gəlib axırda Monte Karlo şəhərinə çıxdılar.Monte Karlo şəhərinin məşhur dövlətlilər və qumarbazlar yığıncağı olmağını hər kəs bilir".

Müəllif Qərbin milli həyata nüfuzunda bu həyatın "qumarbazlar yığıncağı"na çevrilməsi təhlükəsi görür və iti realist qələmini bu təhlükəyə qarşı çevirir.

Milli varlığın özünümüdafiə stixiyası

İ.Musabəyov mənəvi, əxlaqi pozğunluğun milli mühitə nüfuzu ilə bərabər, milli mühitin bu cür yaşayış tərzinə müqavimət hissini və əzmini də əks etdirir. Ədəbiyyatşünaslıqda əsərin finalının daha çox müəllif niyyətindən güc almasına, bir növ maarifçi realizm üçün səciyyəvi olan "xoşbəxt sonluq"la bitməsinə, həyatın gerçək üzünü ehtiva etməməsinə, pozğunlaşan burjua mühitində Şəfiqələrin bəraət almasının mümkünsüzlüyünə dair fikirlər səslənmişdir: "Əlbəttə, hüquqi baxımdan Şəfiqənin günahına bəraət qazandırılması əsərin güclü tərəfi deyil, zəif tərəfidir. Bu müəyyən dərəcədə

yazıçının həyat hadisələrini nikbin şəkildə təsvir etmək meyli ilə bağlı bir cəhətdir... Çünki Şəfiqə nə qədər günahsız olsa da, məhkəmənin ona bəraət qazandırması əsərin bədii məntiqi ilə uyuşmur" (G. İbrahimqızı). Bu tip mülahizələr əsərin bədii məntiqinin düzgün təsəvvür edilməməsi ilə bağlıdır. Əslində Şəfiqənin bəraət alması və milli mühitdə onun yekdilliklə müdafiəsi müəllifin hadisələrin inkişaf məntiqinə axıra qədər sadiq qaldığını göstərir. Bu məntiq nədən ibarətdir?

İ.Musabəyov romanda iki tip milli obrazlar yaratmışdır. Birinci tipə Lütfəli bəy və Cəlil ağa daxildirlər. Onlar burjua iqtisadi münasibətlərinin formalaşdığı bir zamanda Avropa həyat tərzinin və əxlaqının təsiri altına düşən və bu təsirdən yaxa qurtara bilməyən insanlardır. İkinci tipə isə milli varlığın tarixi xarakterinə və İslam əxlaqına sadiq qalan insanlar daxildir. Bu tip insanları Qurban, Əhməd kişi, Şəfiqə, Cavad bəy və Cavad bəyin qonaqlığa dəvət etdiyi "şəhər dövlətliləri" və "məhkəmə sudyaları" təmsil edir. Bütövlükdə bu ikinci tip obrazlar XX əsrin əvvəlləri Azərbaycan mühitinin, bu mühit "neft və milyonlar səltənəti"nə çevrilsə belə, milli mənəviyyatın və əxlaqın tarixi xarakterinə sədaqətini nümayiş etdirir. "Bir saatdan sonra sudyalar zala girib, "Şəfiqə bu işdən xilasdır" qətnaməsini" oxuyanda zalda olan camaatın "yaşasın haqq, qanun!" deməsi milli mühitin bütövlükdə saflığını, təmizliyini, saflığı, təmizliyi qorumaq, müdafiə etmək əzmini göstərir. Cavad bəy "müsəlman aləmində bir adam ki, bir adama övrətini göstərir, demək olur ki, o adam haman adamı özünə dost yox, bəlkə qardaş və ata hesab edir. Cəlil ağa Lütfəli bəyi eləcə bilib, Şəfiqəni ondan gizlətməyirdi" deyərkən milli mühitin yaşam tərzində həlledici mövqeyə malik olan namus qanunu önə çəkirdi. Milli mühitin, "zalda olan camaatın" Şəfiqəni müdafiəsi bu namus qanununa söykənirdi.

Süjetə verilən bədii həll məsələlərə sinfi yanaşmanı təkzib edir

İ.Musabəyovun milli cəmiyyətə baxışlarında sinfi amil heç bir rol oynamır. O, Şəfiqənin haqqına münasibətdə milli cəmiyyətin yekdilliyini önə çəkir. Bəraətdən sonra şəhərin dövlətlilərindən Şəfiqənin xeyrinə "beş min manat da pul yığılması"na dair informasiyanın əsərin sonunda xüsusi vurğulanması mühüm estetik funksiya daşıyır. Müəllif bu vurğulamada Qərbdən gələn təsirlərlə əxlaq və mənəviyyatca poğunlaşan burjuaziya nümayəndələri ilə müqayisədə, milli burjuaziyanın böyük çoxluğunun milli və İslam həyat tərzinə, əxlaqına sədaqətini önə çəkir. Şəfiqənin taleyi, namusu məsələsi romanda milli varlığın taleyi, namusu məsələsi kimi mənalanır. Şəfiqənin Lütfəli bəyi öldürməsi millətin öz əxlaqını və mənəviyyatını qorumaqda heç nəyə və heç kimə güzəştə getməyəcəyini, heç bir təsirə qapılmayacağını simvollaşdırır. Camaatın və şəhər dövlətlilərinin nümayiş etdirdiyi əzm və birlik milli varlığın özünü müdafiə gücünü ortalığa qoyur. "Ədalətli bir hüquqşünas"ın obrazında (G.İbrahimqızı) – Cavad bəyin timsalında milləti öz mənafeyi, bütövlüyü, tarixdən gələn xarakteri və əxlaqı uğrunda mübarizəyə səfərbər edən ideoloqların yetişməsi və cəmiyyət həyatında böyük nüfuza malik olması simvollaşdırılır. Bütün bunlar isə milli cəmiyyətin yaşamaq, gələcək taleyini özü müəyyən etmək, özünü hər hansı bir yad təsirdən qorumaq əzmini və stixiyasını nümayiş etdirir. "Neft və milyonlar səltənətində" əsərinin nikbin pafosu və müasirliyi də bununla şərtlənir.

Filologiya elmimizin "namus yükünü" daşıyan ədəbiyyatşünas

Təyyar müəllim haqqında yubiley yazısı yazmaq mənim üçün kifayət qədər xoş və ruhvericidir. Çünki biz yaxın dostuq. Mən bir insan kimi də onu yaxşı tanıyıram. Uzun illərin münasibəti onu mənə yaxşı tanıtmışdır. Mən onun insanlıq keyfiyyətləri barədə uzun-uzadı xarakteristika da qələmə ala bilərəm. Ancaq bunlardan daha önəmlisi onun barəsində bir alim, bir tədqiqatçı, bir filologq kimi yazmaq, yəni onu bu yöndə təqdim etməkdir. Ona görə ki, onun bu istiqamətdə gördüyü işlərin təkcə mənə yox, bütövlükdə Azərbaycan elminə və ədəbiyyatşünaslığına faydası vardır. Təbii ki, hamı üçün faydalı, gərəkli olandan yazmaq daha səmərəlidir. Keçək mətləbə.

Gözəl şair, gözəl rəssam, gözəl hyekəltəraş, gözəl musiqiçi və s. olmaq, əlbəttə, ilk növbədə Allah vergisidir. Tanrının öz bəndəsinə əta etdiyi lütfdür. Bəxş etdiyi bu keyfiyyəti (əslində üstünlüyü) ilə onu başqalarından fərqləndirir. Ancaq o da bəllidir ki, Tanrının insana ehsan etdiyi istedad və bacarıqdan əlavə insanın özünün də qazanmalı olduğu bir sıra keyfiyyətlər vardır. Bunlar məkasibdir, yəni bəndənin özünün kəsb etdiyi, qazandığı (və qazanmalı olduğu) keyfiyyətlərdir. Həmin keyfiyyətlər isə zəhmət və elmlə başa gəlir. Təbii ki, bir şeyin elmini öyrənməkdən ötrü mütləq zəhmətə qatlaşmalısan, əmək sərf etməlisən. Çatmaq istədiyin məqsədin əzabını çəkməli, cəfasını yaşamalısan. Məsələn, gözəl şair olmaq üçün hələ Xaliqin bəxş etdiyi istedad azlıq edir. Bunun üçün bəndə həm də kəsb yolunu tutmalı, elm öyrənməli, mükəmməl bilik sahibi olmalıdır. Böyük Füzuli bu həqiqəti hamıdan dolğun və sərrast şəkildə ifadə etmişdir: "Elmsiz şeir əsası yox divar olur, əsassız divar qayətdə bietibar olur".

Gözəl filologq olmaq da belədir. Bu missiyanın yolçusuna Allah tərəfindən bağışlananlar var. Məsələn, filologq fəhmi, analitik düşüncə və təfəkkür tərzi, müşahidə qabiliyyəti, duymaq və təhlil etmək bacarığı və s. Bir də filologq olmaq istəyən yolçunun özünün kəsb etdiyi, qazandığı elm, bilik, filologji qabiliyyət və savad. İkinci məkasibdir və ancaq əziyyətlə, illərlə axtarış aparmaqla, filologiya elminin sirlərinə bələd olmaq istəyi ilə bağlıdır. Bunun üçün vaxt sərf etməli, illərini xərcləməli, zehnini yormalı, obrazlı şəkildə desək, canına qəsd etməlisən.

Sözümüzü belə bir müqəddimə ilə başlamağımız təsadüfi deyil. Mətləbimiz birbaşa bu yazımızın subyekti olan ədəbiyyatşünas alim Təyyar Salamoğlu ilə bağlıdır. Bu sözlər, izahatlar da birbaşa onun ünvanına yönəldilə bilər. Yəni T.Salamoğlunun ədəbiyyatşünas fitrətində məvahib və məkasib olanlar nədir və bu iki cəhət onun filologq təbiətində, düşüncəsində, həyata baxışında, idraki

imkanlarında, təhlil bacarığında, duyum və şərh manerasında necə, hansı şəkildə, hansı keyfiyyətdə öz əksini tapmışdır?

Təyyar müəllimin şagird həyatının, tələbəlik illərinin necə, hansı mühitdə keçdiyi, bu mühitlərin ona necə təsir etdiyi barədə bir söz deyə bilmərəm. Çünki bu mühitlərlə tanış deyiləm. Ancaq onun filoloq "mən"inin, ədəbiyyatşünas həqiqətinin, alimlik və axrarışçılıq missiyasının böyük və həm də əsas bir mərhələsi ilə tanışam. Ona görə də fikir və qənaətlərimi, daha döğrusu, ədəbiyyatşünas Təyyar Salamoğlunun səciyyəsini bu sürəkli tanışlıq müddətinin faktlarından çıxış edərək söyləyə bilərəm. Belə ki, onun ömrünün bir alim kimi "barvermə" mərhələsi bütünlüklə mənim onu tanıdığım zamanın payına düşür. Həmin bar-bəhərin necə yarandığı barədə də kifayət qədər şahidliyim və təsəvvürüm vardır.

Belə ki, mən Təyyar müəllimi 1985-ci ildən tanıyıram. Onda biz hər ikimiz SSRİ xalqları (əslində Azəraycan ədəbiyyatı) ixtisası üzrə aspirant idik. Dissertasiya mövzumuz bir-birinə yaxın idi. Onun mövzusu "XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan uşaq poeziyası" adlanırdı. Mənim dissertasiya mövzum isə eyni dövrün uşaq nəsrinə həsr olunmuşdu. Hər ikimizin elmi rəhbərimiz XX əsr Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı prof. Məmməd Məmmədov idi. Əlbəttə, Məmməd müəllimin nüfuzu, tələbkarlığı, ciddiliyi, həssaslığı, filoloq və tədqiqatçı səriştəsi bizi öz işimizə məsuliyyətlə yanaşmağa sövq edən cəhətlərdən biri idi. Ancaq kənar faktorlarla yanaşı insanın özünün fitrətində də bir məsuliyyət, əzab-əziyyətə qatlaşmaq istəyi, axtarış meyli və marağı olmalıdır. Bu keyfiyyətlər olmadan həqiqi alim olmaq mümkün deyil. Cəsarətlə deyə bilərəm ki, elə o vaxtlardan Təyyar müəllimin xarakterində, tədqiqatçı şəxsiyyətində deyilən cəhətlər özünü bariz şəkildə büruzə verirdi.

Doğrudur, aspirant olduğu müddət ərzində (qiyabi aspirant olduğu üçün) o, doğulub boya-başa çatdığı Mürsəlli kəndində ixtisası üzrə müəllim işləyirdi. Ancaq tez-tez Pedaqoji Universitetə (o zamankı V.İ.Lenin adına APİ-yə) və yaxud M.F.Axundov adına kitabxanaya gələrdi. Biz onunla uzun-uzadı söhbətlər, fikir mübadilələri edərdik. Təyyar müəllim adi söhbətlərdə bir dost və insan kimi nə qədər səmimi, güzəştə meylli, həlim olsa da, elmi söhbətlərdə, polemikalarda, diskussiyalarda o qədər ciddi, obyektiv, güzəştə yovuşmaz idi. Təbii ki, bu deyilənlər alimin özünə inamını, həqiqətpərəstliyini ifadə edən, yalana yox, gerçəyə söykəndiyini sübuta yetirən əlamətlər sırasındadır. Həqiqi alim həmişə güzəştin deyil, həqiqətin yanında dayanır. Təyyar müəllimi tanıdığım uzun illər ərzində bu cəhət onun daimi yol yoldaşı, məslək kodeksi olmuşdur: həmişə doğrudan yapışmaq, həqiqətin yanında olmaq, əyri nə qədər zorlu görünsə də, onu müdafiə etməmək.

Təyyar müəllimin şəxsiyyətində, alimliyində və filoloq "mən"ində müşahədə olunan bir cəhəti də nəzərə çatdırmalıyam. Bu, onun təmkini, səbrlə davranışı və ciddiliyidir. Həqiqətən də, onun şəxsiyyətində bir cıddilik və bütövlük vardır. Həmin ciddilik və bütövlük onun alim "mən"inin, ziyalı şəxsiyyətinin formalaşmasına da əsaslı şəkildə təsir göstərmişdir. Başqa sözlə desək, T.Salamoğlu təmkinli, ciddi və bütöv şəxsiyyət olduğu kimi, həm də təmkinli, ciddi və bütöv alimdir.

T.Salamoğlu bir filoloq alim kimi elm meydanına XIX-XX əsrlr Azərbaycan uşaq poeziyasının tədqiqi ilə qədəm basmışdır. Bu mövzu üzərində işləyərkən o, istər-istəməz bir tədqiqatçı məsuliyyəti və yanğısı ilə xatırlatdığımız tarixi mərhələnin ictimai, siyasi, pedaqoji, ədəbi, mədəni həyatını hərtərəfli mənada öyrənməli, onlara yaxından bələd olmalı olmuşdur. Məsuliyyət, cəfakeşlik, axtarışa həvəs, araşdırıcı təşnəliyi, ayıq müşahidə qabiliyyəti, yüksək intellekt,

dərin təfəkkür, bacarıqlı təhlil ədası tədricən Təyyar müəllimi peşəkar ədəbiyyatşünasa çevirmişdir. Və nəhayət, o, Azərbaycan ədəbiyyatşünaslığının nüfuzlu, tanınmış, öz sözü, səsi və nəfəsi olan filoloq alimlərindən birinə çevrilmişdir.

1990-cı ildən T.Salamoğlunun taleyi birbaşa ADPU ilə bağlanır. Həmin ildə o, universitetdə işə başlayır. Çox keçmədən universitetdə "Ən yeni Azərbaycan ədəbiyyatı", "Ədəbi tənqid tarixi", "Müasir ədəbi proses", "Ədəbiyyat nəzəriyyəsi" və s. fənləri tədris edir. Onun şəxsiyyəində və fəaliyyətində alimliklə müəllimlik qoşalaşır. Və həm də bir-birini tamamlayır. Yəni indi biz alim T.Salamoğlunu müəllim T.Salamoğlundan ayıra bilmərik. Onun alimliyi müəllimliyinə, pedaqoji fəaliyyətinə stimul verdiyi kimi, müəllimliyi də alimliyinə qida verir. Mubaliğəsiz deyə bilərik ki, alimin bir çox elmi əsərləri, axtarış və tədqiqatları bilavasitə auditoriyanın ehtiyaclarından doğmuşdur. Yəni nəyi (və nələri) və necə tədqiq edib aydınlaşdırmağı bir çox hallarda ona auditoriya və onun tələbləri diktə etmişdir. Auditoriyada peşəkar, ayıq və həssas müəllimin qarşısına çıxan ən vacib məsələlərdən biri də budur: Tələbəyə-bu günün gəncinə, gələcəyin mütəxəssisinə nəyi və necə öyrətmək! Və ən başlıcası hansı həqiqəti, həm də necə izah etmək!

Təyyar müəllim tələbə qarşısına çıxıb ədəbiyyat tariximizin bir çox şəxsiyyətləri, problemləri, hadisələri haqqında danışmalı olarkan bir sıra mətləblərin indiyə qədər müəyyən səbəblər üzündən (ya hakim siyasi rejimin ideoloji tələblərindən, diktələrindən doğan, ya da hər hansı tədqiqatçının şəxsi münasibətindən, təfəkkür tərzindən, bacarıq və baxışından meydana gələn yanlışlıqlar ucbatından) tələbələrə düzgün, dürüst, obyektiv öyrədilmədiyini, yanlış izahatlar verildiyini duyur və görür. Həmin yanlışlıqların nəticədə ədəbiyat tariximizə, onun ayrı-ayrı şəxsiyyətlərinə, problemlərinə münasibətdə ciddi fəsadlara, qeyri-obyektiv münasibətlərə yol açdığını da sezir və anlayır. Elə buna görə də ayıq vətəndaş, həssas pedaqoq , intellektual filoloq və analitik təfəkkür sahibi kimi həmin yanlışlıqları zəruri olaraq düzəltmək məcburiyyətində qalır. Biz cəsarətlə deyə bilərik ki, ədəbiyyarşünas alimin bir sıra araşdırmaları, elmi əsərləri, obyektiv analizə söykənən məqalə və oçerkləri deyilən nöqsanları düzəltmək ehtiyacından irəli gəlmişdir. Biz hər yerdə və hər zaman auditoriyada dərs deyən müdərris T.Salamoğlu ilə tədqiqatçı-filoloq T.Salamoğlunu qoşa görürük.

Alimin həm tədris etdiyi fənlərin zaman hədəfi, həm də ümumiyyətlə, araşdırma obyektinə çevirdiyi zaman kəsimi XIX yüzillik də daxil olmaqla həmin əsrdən indiyə qədərki sürəkli bir dövrü əhatə edir. Bu, ədəbiyyat tariximizin iki əsrdən də uzun bir tarixi dövrü deməkdir. Həm də bu dövrün özü də fərqli mərhələlərə ayrılır. Həmin mərhələlər isə istər kəmiyyət, istərsə də keyfiyyət baxımından bir-birindən kəskin şəkildə fərqlənir. Məsələn, ədəbiyyatımızın XIX əsr və XX əsrin əvvəllərindəki inkişaf xüsusiyyətləri ilə sovet dönəmindəki, yaxud müstəqillik dövründəki inkişaf xüsusiyyətlərinin əsaslı şəkildə fərqləndiyi hamıya bəllidir. Hər ədəbi-tarixi mərhələnin dinamikasını, inkişaf tendensiyasını və təmayülünü, ictimai-siyasi, ədəbi-mədəni mühitin ədəbi prosesə təsirini duymaq, bütün həqiqətləri ilə dərk etmək tədqiqatçıdan xüsusi hazırlıq, fəhm, bilik, idraki qabiliyyət, filoloq duyğusu tələb edir. Təyyar müəllimin əksər araşdırmalarında biz bu deyilənlərin şahidi oluruq. Uşaq nəsrindən yazanda da, Azərbaycan ədəbi tənqidinin tarixini araşdıranda da, Azərbaycan romanlarını şərh edəndə də, ayrı-ayrı ədəbi şəxsiyyətlərimzin yaradıcılıq məhsullarını təhlilə cəlb edəndə də biz onu sərişt əli, duyumlu və təmkinli bir ədəbiyyatşünas ampulasında görürük. Çünki həm auditoriya, həm də axtarış həvəsi, cəfakeşliyi və nəhayət, təcrübəsi T.Salamoğlunu bir müəllim-

müdərris və alim kimi "bişirmişdir", yetkinləşdirmişdir. Hər şeydən əvvəl, təhlilə, təfsirə cəlb etmək istədiyi əsərlərə, problemə, ədəbi şəxsiyyətin yaradıcılığına ayıq, həssas və duyumlu münasibət göstərməyi öyrətmişdir.

T.Salamoğlu həmişə və hər yerdə özünün alim etikasını, təmkinini qoruyub saxlayır. Həm filoloq sələflərinə, həm də müasirlərinə hörmətlə, ehtiram və sayğı ilə yanaşmağı bacarır. İrili-xırdalı hər hansı problemlə, əsərlə, bədii yaradıcılıq məhsulu ilə bağlı sözünü deyərkən "ancaq mən varam, ancaq mənim dediklərim doğrudur"-kimi eqoist tədqiqatçı fəlsəfəsi ilə hərəkət etmir. Daim alim təvazökarlığını hifz edir, gözləyir. Başqalarının da etdiklərini dəyərləndirməyi bacarır. Sələflərin açdığı cığırı, qoyduğu izi, çəkdiyi əməyi qiymətləndirdiyi kimi, müasirləri olan ədəbiyyatşünasların da gördükləri işi, çəkdikləri əməyi, ortalığa qoyduqları məhsulu qiymətləndirməyi özünə borc bilir. Ancaq özünün obyektiv, həqiqəti dürüst ölçən taraz tədqiqatçı arşınını da əldən qoymur. Çünki bu arşın indiyə qədər yanlış, kəsirli və qüsurlu ölçülən bir çox mətləbləri yenidən daha düzgün, daha taraz, daha obyektiv ölçməkdən və oxucuya yenidən təqdim etməkdən ötrü ona lazımdır. Tədqiqatçının dürüst, düzgün, qüsursuz ölçən bu arşını əslində oxucu kütləsinə də lazımdır. O səbəbə ki, ədəbiyyt tariximizdə, ədəbi tənqidimizdə keçmişdə və indi deyilən bir sıra yanlışlıqları, qeyri-obyektiv mülahizələri, illüziyalı fikirləri, ideoloji təhrifləri, siyasi-ədəbi yanılmaları, subyektiv və qüsurlu təhlilləri oxucu da bilmək istəyir. Əgər Təyyar müəllim bunların bir çoxunu öz ədəbiyyatşünas arşını ilə düzgün ölçüb dürüst şəkildə ortalığa qoyursa, bu, həm oxucunun, həm də bütövlükdə ədəbiyyatşünaslığımızın qazancıdır.

Sonda bir məsləyə də diqqəti cəlb etmək istəyirik. Çağdaş zamanımızda, təəssüflər olsun ki, xılt və boz ədəbiyyat nümunələri mətbuatı, coxsaylı kitabları başına götürmüşdür. Bu nümunələri (onlara əsər deməyə adamın dili gəlmir) müəllifindən başqa nə oxuyan, nə də faydalanan vardır. Əslində bu örnəklərdə faydalanmalı bir cəhət də tapmaq mümkün deyil və onların çoxunun ədəbiyyata, bədii sözə dəxli də yoxdur. Cari ədəbiyyatşünaslığımızda da eyni mənzərə ilə üzləşirik. Yazılan, işıq üzü görən "elmi araşdırmaların", məqalə və kitabların kəmiyyəti kifayət qədər çox, keyfiyyəti isə ümumiyyətlə, yoxdur. Hətta bəzilərinin keyfiyyəti utanılacaq, xəcalət çəkiləcək həddə aşağıdır. Belə bir ədəbi-elmi mühitdə Azərbaycan ədəbiyyatşünaslığının "namus, şərəf və vicdan yükünü çəkənlər", az qala barmaqla sayıla biləcək qədər azdır. Tam səmimiyyət və vicdanla deyə bilərik ki, T.Salamoğlu da həmin yükü çəkənlərin cərgəsindədir. Onun alim, axtarışçı, araşdırıcı və tədqiqatçı missiyasının ən böyük amalı, əməli və meyarı həqiqətdir. Meyar həqiqətdirsə, tədqiqatçının getdiyi yol da onu nəhayətdə həqiqət meydanına aparıb çıxarır. Bədii sözün və elmin səmərəsi isə yalnız həqiqət meydanında üzə çıxa bilər.

Bəli, doğrudan da, Təyyar müəllim ömrünün 60 ilini boş-boşuna xərcləməyib. Onu öz xalqına, ədəbiyyatşünaslıq elmimizin yüksəlişinə, tələbələrinə, elmi və pedaqoji ictimaiyyətə həsr edib. Biz bu yolda ona uğurlar, əzabkeş alim ömrü arzulayırıq. O yolun ki, cəfası nə qədər çoxdursa, zövqü-səfası da o qədər qayətdir.

Yaqub BABAYEV

Vaqif YUSİFLİ

SÜLEYMAN ABDULLANIN ŞEİRLƏRİ

Bu şair heç kimə bənzəmir - dünyaya, həyatda baş verən hadisələrə, sevgiyə, gözəlliyə, təbiətə, keçmişə… ümumiyyətlə, onu nə düşündürürsə… hər şeyə şeirlərində fərqli bir baxışı hiss olunur. O, əşyalar, cisimlər, hərəkətlər, rənglər, fəsillər, günlər-aylar-illər, yollar, işıqlar arasında «məsafələri» aydın görür, burada poetik müşahidələr mühüm rol oynayır. Hiss olunur ki, Süleyman Abdulla «gördüyümüzdən artıq görmək istəməsək, hər rəng adicə boyadır» (Rəsul Rza) poetik düsturuna sadiq qalmağa çalışır, əksər hallarda buna nail olur. Şeirdə təzəlik, ənənəvi və məlum mövzulara fərqli yanaşma, yeni bədii təsvir vasitələri ilə diqqəti cəlb etmək, düşünmək və düşündürmək vəhdətini yaratmaq müasir şeirin əsas göstəricisi deyilmi? Və o da hiss olunur ki, Süleyman Abdulla hər şeydə, ən adi görüntüdə belə, bir gözlənilməzlik axtarır, daha doğrusu, bu gözlənilməz situasiyaları şeirə gətirərkən reallıqdakı təzadlara və insan hisslərinin bir-birinə ziddiyyətli hallarına istinad edir. Məsələn, «Yay günü qış» şeirində olduğu kimi. Sevənlərin son görüşü «qurtardıq» sözü ilə sonuclanır. Amma bürkülü, yağışlı yay günü bu sözün yaratdığı mənfi emosiyaya diqqət yetirin:

Bədənin əsirdi, əlin əsirdi,
Bir ah küləklərə atdı özünü.
Küləklər altına uçurdu qışı.
Aramız soyudu isti yay günü.
Elə soyudu ki, don vurdu qışı.
Sürüşdü palçıqda don ayaqqabım,
Qartımış qururum qara yıxıldı.
Gecə gözlərinə yağırdı ağ qar,
Sən qaldın…
Gedirəm üzü qara mən.
Küçə qar…
Həsrət qar…
Sinəmdə dağ qar…

Sevgi şeirlərində belə təzadlı məqamlara poeziyamızda az rast gəlməmişik, amma Süleyman Abdullanın şeirində bu təzad ayrılıq adlanan sonluğu konkret bir lövhədə reallaşdırır. «Harda alov vardı, su vardı harda, Atəşə tutulan yol sudan keçib» - bu da Süleyman Abdullanın başqa bir şeirindəndir və deyim ki, əslində, onun əksər şeirləri təzadlar üzərində qurulur. Ancaq məni bir oxucu kimi Süleyman Abdullanın şeirlərindəki təzadlardan daha çox, o şeirlərdəki fikir – məna zənginliyidir. Məncə, Süleyman Abdullanı bir şair kimi səciyyələndirən cəhət odur ki, hər hansı bir məsələyə, yazımın əvvəlində qeyd etdiyim kimi, fərqli yanaşma tərzidir. Bizim şeirimizdə ucalıqlardan (həm fiziki, həm də mənəvi) çox yazıblar. Amma Süleymanın «Ucalıqların şeiri» yenidir, ənənəvi mövzuya orijinal yanaşmadır. Şeirdə ucalıqlar vəsf olunmur, ucalıqların haçansa yerlə yeksan olandan sonra nələr ola bilər - sualına cavab axtarmaqdır. Yəni ucalıqların əks modeli…

Ucalıqlar yerlə yeksan olanda
nəğmə oxumaq daha gözəldir bayquş misalı
Oxunmamış dua yoxdur arzuların puç olmasına
İstərsən bu gecə ulduzlardan küs,
Bir çimirlik yuxu naminə
unut əllərinin yalvarışlarını şüa-şüa Ay işığında.

Süleyman Abdullanın bir şeiri də var: «Çox uzaqların şeiri». Amma bu şeir o biri şeirin təkrarı deyil. O, «çox uzaqlarda göy ilə yerin qovuşduğu, göy üzünün yerlə bir olduğu yerdə hər şeyin sonunu görür. Bu «giriş» bizim də göylə getdiyimiz vaxtın səadətini yox, acılıqlarını xatırlatmaq üçündür. Çünki «vaxt olub ki, özümüzdə olmamışıq səadətdən hansısa bir göy cisminə toqquşanacan». Anlaşılmazlıqmı var? Zahirən yox, çünki «üfüqlərə çilənmiş bir ovuc qanı görəcəksən». İnsanın taleyində də qan yaddaşı var. O qan yaddaşı isə «çox uzaq xatirələrdə yaşamaqdadır». Bu şeirdə Süleyman Abdulla bir az «fəlsəfəçiliyə» meyil edib. Deyim ki, bu «fəlsəfəçilik» onun şeirlərinin poetik dadını, duzunu itirir. Halbuki, yaxşı fikir, mənalı deyim Süleyman Abdullanın «Dəniz serenadası», «Hərbi gödəkcə nağılı», «Çatmır ey», «Ömür xətti», «Sevgi şeiri», «Ümid məhbusu» və s. şeirlərində zorən filosofluq eləməyə can atmır. Baxın «Çatmır ey» şeirinə:

Sonu olmur bu dünyada axtarışların,
Ömür boyu həyatında nəsə çatmır ey.
Udan bəlli, uduzan da…
Bu yarışların,
Sosuzluğa marafonu kəsə çatmır ey.

Adam gərək ibrət ala mövladan, şıxdan,
Ruhu gözəl, imanı hürr, qaməti şıqdan.
Dünyadakı gözəlliklər keçir işıqdan,
Bu təcillə, bu sürətlə səsə çatmır ey.

Yolmu var ki, nəfsimizlə haqqa varası,
Gözümüzün toxluq ilə olmaz arası.

Natamamdır, yarımçıqdır qəlbin parası,
Ovuc boyda ürəyimiz bəsə çatmır ey.

Fərqli yanaşma tərzi şeirdə necə, hansı poetik vasitələrlə ifadə olunur? Bax, bu, əsas məsələdir. Süleyman Abdulla metaforalarla işləməyi çox sevir, təşbihlərə də şiddətli meyil edir. Özü də bunların əksəriyyəti təzədir, yalnız Süleyman Abdullanın öz poetik düşüncəsindən gəlir. Məsələn, onun «Dəniz serenadası»nı oxusanız, buna əmin olarsınız ki, sözlər, söz birləşmələri, ayrı-ayrı ifadələr öz ilkin məna örtüyünü üzərindən ataraq necə də poetikləşir. Bu şeirdə dəniz və dənizlə bağlı bütün əşəlar, görüntülər «simfonikləşir», dənizdə çılğın bir musiqinin sədaları yayılır.

Səssizcə ağlamaqda kölgələr,
qağayılar için-için gülməkdə…
Lövbər səsinə diksinir balıqlar,
qəlsəmələri hava dolu və göz yaşları islaq…
Qağayılar yeganə şahididir dənizin üfüqə,
Üfüqün dənizə çevrildiyi anın.
Havadan ayrılıq qoxusu gəlir…
Qağayıların səsini eşidirsənmi, su pərisi?
Eşidirsənmi?

Onun metaforik düşüncə tərzi «Saat səsinin yuxusu» şeirində daha bariz nəzərə çarpır. «Gördüyümüzdən artıq görmək istəməsək…» meyarı ilə tam səsləşir:

Məni unutmusan,-
pıçıldayırdı pəncərə şüşəsi küləklərə,
Ağlayırdı yarpaqlar sübh şehinə,
Giley dolu idi pəncərə önündəki yasəmən kolu.
Üşüyürdü xəyallarım,
saqqalı ağarmış söyüd ağacı ümidsizlik içində
hardasa bir nəğmə nisgil
sığınmışdı qızılgülün ləçəyinə
Sükut darıxırdı hönkürmək üçün
Mən uyumağa çalışırdım, üfüqlər oyanmağa.

Bu məqamda Əli Kərimin bu dörd misrası yada düşür: «Sən dediyin səsləri, Hamı eşidər, bilər. Sənətkar üçün isə Sükutdan da səs gələr». Süleyman Abdulla da məhz sükutun içindən səsləri aşkarlayan, pəncərə şüşəsinin küləklərə pıçıltısını eşidən, yarpaqların ağlamasını eşidən şairdir və əlbəttə, müasir Azərbaycan şeirində bu sahədə yaranmış ənənəni davam etdirir (elə bircə Ələkbər Salahzadənin şeirlərini xatırlatmaq kifayətdir).

Bu şair doğrudan da istedadlıdır və onun istedadı hər hansı mövzuda yazdığı şeirlərdə boy göstərir. İstər sevgidən yazsın, istər payız xatirələrindən, istər vaxtilə Birinci Qarabağ müharibəsində döyüşdüyü illərdən, istər ağrıdan, istərsə də plagiat məktublardan. Onun şeirlərində təbiət və onun atributları da aparıcı fon təşkil edir. Elə bir şeiri yoxdur ki, orada təbiətin səsi eşidilməsin.

yasəmən budağı toxunur pəncərəyə,
sinədolusu "Oxay" deyir külək.
ürəyim titrəyir saçlarının ətri üçün,
darıxmaq belə olurmuş, deməli…

Kişilər ay kimidir zülmət gecələrdə
batmağı var, çıxmağı var.
hər gün təzədən doğan günəş misalıdır qadın, -
yer üzünün nur mənbəyi…
amma sevgi də şeir kimidir...

Süleyman Abdullanın «Azərbaycan» jurnalında və «Ədəbiyyat qəzeti»ndə dərc edilən otuz şeirini və sərbəst dördlüklərini bir neçə günə diqqətlə oxudum və yazımın əvvəlində qeyd etdiyim fikrin (fərqli düşüncə tərzi) üzərində bir də dayanıram. İnanıram ki, Süleyman Abdulla bu özünəməxsus poetik intonasiyanı davam etdirəcək. Amma tənqid üçün deyilməli bir neçə sözüm qalıb. 1.Süleymanın bir neçə şeirində («Sübh yuxusundan öncəki şeir», «Plagiat məktublar», «Əsatir») fikrin meydanı genişdir, elə bil ki, qarşıda iki yol var - uzun və kəsə, Süleyman uzun yolu seçir… Azərbaycan şeirinin gözəlliyi yığcamlıqda deyilmi? 2.Şeirlərində «kvatrat tənlik» «absis oxu», «kardioloq», «qrafik», «oriental rəqs», «rəqslərin amplitudası» və s. şeirin gözəlliyini qəhr edən əcnəbi sözlər, ifadələr görsənir. Görsənməsə, daha yaxşı, dünya dağılmaz ki.

Sonda: Sevgi də şeir kimidir. Bu, onun misrasıdır.

Elə Şeir də sevgi kimidir.

OXUCULARIN NƏZƏRİNƏ!
2021-ci İL ÜÇÜN
"AZƏRBAYCAN"
jurnalına abunə yazılışı davam edir.
"AZƏRBAYCAN"
jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,
illik abunə qiyməti 18 manatdır.
İNDEKS: 76300

♦Kitab rəfi



AMEA NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU "MOLLA NƏSRƏDDİN" ENSİKLOPEDİYASI" BAKI, "ELM VƏ TƏHSİL" NƏŞRİYYATI, 2020

İlk dəfə olaraq "Molla Nəsrəddin" jurnalının ensiklopediyası hazırlanıb çap olunub. Ensiklopediya AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində nəşrə hazırlanıb.

"Molla Nəsrəddin" ədəbi məktəbinin ensiklopediyası" adlı ön sözdə akademik İsa Həbibbəyli yazır: "Molla Nəsrəddin" ensiklopediyası" Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığının, bütün mollanəsrəddinçilərin çoxcəhətli ədəbi-ictimai fəaliyyətinin ensiklopedik kitabıdır".

Ensiklopediyanın baş redaktoru akademik İsa Həbibbəylidir. Tərtib edəni və çapa hazırlayanı filologiya elmləri doktoru, professor Vüqar Əhməd, məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayevadır.

ORXAN ARAS "ƏSƏD BƏY – QURBAN SƏİD: GİZLİNLƏR VƏ GERÇƏKLƏR" "ELM VƏ TƏHSİL" NƏŞRİYYATI, 2020

Orxan Arasın "Əsəd bəy – Qurban Səid: gizlinlər və gerçəklər" (həyatı, kitabları, məqalələri) kitabı çap olunub. Kitab giriş, üç bölüm və "Əsəd bəyin məqalələri" hissələrindən ibarətdir. Məhəmməd Əsəd bəylə Qurban Səid arasında paralellər aparılır və bu iki adın eyni şəxsiyyət olması haqqında təkzibolunmaz faktlarla sirli Qurban Səid adına aydınlıq gətirilir. Mühacirət ədəbiyyatı ilə bağlı tədqiqatlar aparan müəllif "Məhəmməd Əsəd bəyin publisistikası" mövzusunda dissertasiya müdafiə etmiş, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Ön sözün müəllifi AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylidir.

Kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli, çevirəni Nəriman Əbdülrəhmanlıdır.

Kitab AMEA-nın Ədəbiyyat İnstitutu tərəfindən çap olunub.



CAVİD ZEYNALI "ŞÜKRİYYƏ" BAKI, "MÜCRÜ" NƏŞRİYYATI, 2020

Yazıçı Cavid Zeynallının "Şükriyyə" adlı yeni kitabı işıq üzü görüb. Kitabda müəllifin "Şükriyyə", "Tanrı quşu gəlmədi", "Ölümə gedən" adlı pyesləri, "Sergi ata" (L.Tolstoy), "Varavva" (P.Lagerkvist), "Əsirin qayıtması" (A.Morua) və "Cəmilə" (Ç.Aytmatov) əsərlərinin səhnələşdirmələri yer alıb.



ƏLİZADƏ ƏSGƏRLİ
“TEYMUR ƏHMƏDOV: ƏDƏBİYYAT VƏ MƏTBUAT XADİMİ” (MONOQRAFİYA)
BAKI, “NURLAR” NƏŞRİYYAT-POLİQRAFİYA, 2020

Kitab görkəmli ədəbiyyatşünas-alim və publisist, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Teymur Əhmədovun 90 illik yubileyinə töhfə olaraq çap edilib. Monoqrafiyada professor Teymur Əhmədovun həyatı və mühitinə, elmi və bədii yaradıcılığına ümumi nəzər yetirilib. Tədqiqatın birinci, ikinci, üçüncü və dördüncü fəsillərində görkəmli dövlət xadimi, yazıçı və publisist Nəriman Nərimanovun dramaturgiya və nəsri, publisistikası və ədəbi-tənqidi görüşlərinə elmi-nəzəri baxış ifadə olunub. Beşinci fəsildə Teymur Əhmədov XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı kimi diqqət obyektinə çəkilib.

Monoqrafiyada onun milli mətbuat tarixi və jurnalistika sahəsində fəaliyyətindən də bəhs olunur.

Kitabın elmi redaktoru akademik İsa Həbibbəylidir. Rəyçisi filologiya elmləri doktoru Rəmin Əliyevdir.



ALPAY AZƏR
“HƏYAT EPİKRİZİ”
“QANUN” NƏŞRİYATI, 2020

“Həyat epikrizi” müəllifin ilk romanıdır. Roman maddi nəsnələrə bağlı insanların həyat tərzindən, problemlərindən, cəmiyyətdəki sosial mövqelərindən, onlara münasibətdən bəhs edir. Əsərdə real həyat hekayəsi öz dinamik axarıyla oxucunu düşündürür.

Roman “Azərbaycan” jurnalının 2017-ci ilin 9-cu nömrəsində ixtisarla dərc edilmişdi.

Alpay Azərin buna qədər hekayələrdən ibarət 2 nəsr kitabı – “Şax yeriyənlər” və “Yazıçı və arvadı” çap olunub.



MÜXƏMMƏD HAQVERDİ
“DÜYĞU RƏNGLƏRİ” (ŞEİRLƏR)
BAKI, “ECOPRİNT” NƏŞRİYYATI, 2020

Şair Müxəmməd Haqverdinin bu günlərdə “Düyğu rəngləri” yeni şeirlər kitabı çap olunub. Bu kitabında şair öz üslubuna, deyim tərzinə sadiqdir. Poetik səmimiyyət, rəvan və lakonik düşüncə, həmçinin bədii dilin zəngin koloriti kitaba toplanan şeirlərin başlıca cəhətidir. Kitab 208 səhifədən ibarətdir. Topluda bayatılar, dördlüklər, lirik, içtimai şeirlər və müəllif haqqında ürək sözləri yer alıb.